**Bəxtiyar SADIQOV**

# XİLASKAR
# İlham Əliyev

**Bakı—2021**

Ön sözün müəllifi:
**Mübariz QURBANLI,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,*
*Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini*

Redaktor:
**İxtiyar HÜSEYNLİ,**
*Azərbaycan Respublikasının Əməkdar jurnalisti*

**Bəxtiyar Sadıqov, "Xilaskar İlham Əliyev".** Bakı, Hədəf Nəşrləri, 320 səhifə.

*Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti, "Şöhrət" ordenli Bəxtiyar Sadıqovun "Xilaskar İlham Əliyev" kitabında Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi şanlı qələbədən danışılır, onun tarixi-siyasi əhəmiyyəti şərh olunur.*

*Dörd fəsildən ibarət olan kitabda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi-siyasi yolla həllinin təhlilinə xüsusi yer verilir, dövlət başçısının 2003-2020-ci illərdə apardığı ordu quruculuğu prosesinin mahiyyəti açılır, Azərbaycanı zəfərə çatdıran yolun siyasi, sosial-iqtisadi, diplomatik yönümləri araşdırılır, "Dəmir yumruq" əməliyyatının gedişi və nəticələri öz əksini tapır.*

*Kitab həm də 44 günlük Vətən müharibəsinin, qəhrəman Azərbaycan Ordusunun Müzəffər Komandanı, Prezident İlham Əliyevin Böyük Qələbəyə aparan siyasətinin yığcam salnaməsidir.*

ISBN: 9056851168254

© Bəxtiyar Sadıqov / 2021
© Hədəf Nəşrləri / 2021

*Ön söz*

# Şanlı Vətən savaşının mükəmməl salnaməsi

**Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətin bütün sahələrinin inkişafı üçün əlverişli şərait və imkanlar yarandı. Demokratik siyasi sistemi və bazar iqtisadiyyatını formalaşdırmaq, ermənilərin Dağlıq Qarabağla bağlı separatçı hərəkətlərinin qarşısını almaqla respublikamızın ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək Azərbaycanda hakimiyyətdə olan dairələrdən qətiyyətli və prinsipial siyasət həyata keçirməyi tələb edirdi.**

Lakin həmin dövrdə Azərbaycanın daxili və xarici strateji maraqlarına, o cümlədən Dağlıq Qarabağda ermənilərin başlatdığı separatizm və işğalçılıq siyasətinə münasibətdə iqtidarda olan qüvvələrin vahid siyasi xətti, demək olar ki, yox dərəcəsində idi. Biri-birini əvəzləyən iqtidarlar, xüsusilə AXC-Müsavat cütlüyünün dövlət çevrilişi ilə hakimiyyəti zəbt etməsi, özbaşınalıq, səriştəsizlik, xaos və s. bu kimi ziddiyyətli və qeyri-müəyyən "siyasət"in yürüdülməsi Azərbaycanın həm regionda, həm də beynəlxalq aləmdə təcrid olunmasına gətirib çıxarmışdı. Ermənistanın işğalçılıq əməllərinin qarşısının alınması üçün təsirli tədbirlərin görülməməsi nəticəsində ölkəmizin 20 faiz ərazisi işğala məruz qalmışdı.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm addımların atılmasına, respublikanın geosiyasi vəziyyətini və xalqın maraqlarını ifadə edən xarici siyasətin həyata keçirilməsinə başlanıldı. Ermənistanın hərbi təcavüzünün aradan qaldırılması ilə bağlı məsələ Ulu Öndərin apardığı uğurlu diplomatiya sayəsində BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarıldı. Bu beynəlxalq təşkilat tərəfindən respublikamızın ərazi bütövlüyünü təsdiqləyən, Ermənistanın silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etməsini və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılmasını nəzərdə tutan 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul olundu. Həmin dövrdən etibarən ölkəmizdə ordu quruculuğuna başlanıldı, müxtəlif siyasi partiyaların və qrupların maraqlarına xidmət edən qeyri-qanuni silahlı birləşmə-

lər ləğv edildi, vahid ordu yaradıldı. Dövlət müstəqilliyinə yönəlmiş daxili və xarici təhdidlərin qarşısı alındı, ictimai-siyasi sabitlik bərqərar oldu. Eyni zamanda ölkəmizin müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər onun dünya birliyində demokratik, hüquqi və dünyəvi dövlət kimi mövqeyini möhkəmləndirdi.

Ölkəmizin mütərəqqi inkişafı Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu miras alan Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq dövlət başçısının yürütdüyü siyasətin əsas prinsiplərindəndir. Bunun nəticəsidir ki, Azərbaycanla dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir.

Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi normalar, ilk növbədə, BMT Nizamnaməsinin müddəaları və ATƏT-in Helsinki Yekun Aktında öz əksini tapmış prinsiplər çərçivəsində həllinə nail olmaq məqsədilə Prezident İlham Əliyev fəal xarici siyasət aparır. Dövlət başçısı münaqişə ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Müstəqil Dövlətlər Birliyi və digər beynəlxalq, regional təşkilatların tribunalarından səsləndirmiş, xarici ölkələrin rəhbərləri ilə keçirdiyi görüşlərdə və müxtəlif tədbirlərdə mütəmadi olaraq bildirmişdir. Prezident İlham Əliyev öz çıxışlarında Dağlıq Qarabağ münaqişəsinin tarixi, səbəbləri və mahiyyəti haqqında dünya birliyini daim məlumatlandırmış, bu məsələ ilə bağlı beynəlxalq ictimai rəyi respublikamızın xeyrinə dəyişdirməyə nail olmuşdur.

Təəssüf ki, dünya birliyi 30 ilə yaxın Ermənistanın işğalçılıq siyasətinə göz yumdu və təcavüzkarın tutduğu mövqeyindən əl çəkməsi üçün heç bir əməli tədbir görmədi. Dağlıq Qarabağ münaqişəsinin həllinə mühüm təsir göstərə biləcək beynəlxalq təşkilatlar və ölkələr ikili standartlar siyasəti aparmaqda davam etdilər. Münaqişə ilə bağlı BMT-nin qəbul etdiyi qətnamələr, ATƏT, Avropa Şurası, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların qərarları və bəyannamələri heç bir nəticə vermədi. Onlar təcavüzkar Ermənistanla ərazisi işğal olunmuş Azərbaycana eyni mövqedən yanaşdılar ki, bu da heç bir məntiqə sığmırdı.

Azərbaycanın işğal olunmuş əraziləri 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında cənab Prezidentin liderlik keyfiyyətlərindən irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə,

eyni zamanda xarici siyasətdə uğurları və xalq-iqtidar birliyi dayanır. Vətən müharibəsi dövründə Ali Baş Komandan İlham Əliyev milli maraqları ifadə edən qətiyyətli siyasət yürütməklə özündə yüksək şəxsi keyfiyyətləri, milli dəyərləri və təcrübəli idarəetmə bacarığını birləşdirən Lider olduğunu sübut etdi.

Vətən müharibəsində xalqımız dövlət başçısının həyata keçirdiyi siyasətlə bağlı həmrəylik nümayiş etdirdi. Bir daha aydın oldu ki, erməni faşizminə qarşı mübarizədə uğurların əldə edilməsində milli birlik özünəməxsus yer tutur və onun təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar yüksək qiymətləndirilir. Ölkə rəhbərinə olan yüksək inamın nəticəsidir ki, xalqımızın vətənpərvər övladları onun çağırışına qoşularaq torpaqlarımızın işğaldan azad edilməsi uğrunda səfərbər olub silaha sarıldılar. Rəşadətli Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatında böyük şücaət göstərərək xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini, qürur duyduğunu bildirirdi: "Bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

Bu baxımdan Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti, "Şöhrət" ordenli Bəxtiyar Sadıqovun oxuculara təqdim etdiyi "Xilaskar İlham Əliyev" adlı kitabı dövlət başçısının 2003-2020-ci illərdə apardığı siyasətin mahiyyətini geniş oxucu auditoriyasının diqqətinə çatdırmaq məqsədi daşıyır.

Dörd fəsildən ibarət olan kitabda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə xüsusi yer verilir, problemin aradan qaldırılması üçün Prezident İlham Əliyevin apardığı siyasət şərh olunur. Kitabda ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və milli maraqlarının təmin olunması sahəsində Prezidentin xarici siyasət kursunun ölkəmizə beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırdığı göstərilir.

Kitabın "Aprel xəbərdarlığı" adlı I fəslində 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuzun əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısının alınmasının, Tərtər rayonunun Talış kəndi ətra-

fındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etməsinin əhəmiyyəti təhlil olunur. Müəllif qeyd edir ki, Ermənistanın təxribatına Azərbaycan Ordusu layiqincə cavab verdi: "Təkcə mən yox, doğma yurd-yuvasından didərgin salınmış yüz minlərlə insan qoyub gəldikləri evlərinə qayıdacaqlarına, həm də lap tezliklə geri dönəcəklərinə əmin oldular!"

Müəllifin sözlərinə görə, Aprel müharibəsi həm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində indiyədək yaranmış vəziyyəti ərazi baxımından qismən dəyişdi, həm qüvvələr nisbətində baş vermiş ciddi dəyişiklikləri nümayiş etdirdi, həm də çox ciddi psixoloji dönüşə səbəb oldu! Cəmi dörd gün çəkən Aprel müharibəsi göstərdi ki, Azərbaycan iqtisadi, siyasi, mənəvi-psixoloji və hərbi cəhətdən düşməndən qat-qat güclü və üstün mövqedədir.

"Sərkərdənin gücü - Azərbaycanın qüdrəti" adlı II fəsildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin liderlik keyfiyyətlərinin ölkəmizin inkişafında yeri və rolu təhlil olunur. Müəllif qeyd edir ki, Prezident İlham Əliyevin praqmatik və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın güclü iqtisadiyyatı və sənaye kompleksi yaradılıb. Hərbi quruculuq məsələsinə kitabda xüsusi yer ayrılır və konkret faktlarla göstərilir ki, Azərbaycanın müasir texnologiyalara əsaslanan silahlarla silahlanmış, mükəmməl təlim görmüş modern ordusu yaradılıb. 2020-ci ilin iyul ayında cəbhənin Tovuz istiqamətində Ermənistan Azərbaycana qarşı hərbi təxribata əl atarkən Milli Ordumuz İlham Əliyevin sərkərdəliyi ilə düşmənə sarsıdıcı zərbələr endirərək, zabit və əsgərlərimizin şücaətini bütün dünyaya göstərdi.

"Vətən müharibəsi" adlı III fəsildə 44 gün davam edən müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın əldə etdiyi qələbənin tarixi-siyasi əhəmiyyəti şərh olunur. Azərbaycanı zəfərə aparan yolun siyasi, sosial-iqtisadi, diplomatik və s. tərəfləri yüksək jurnalist peşəkarlığı ilə işıqlandırılır. Müəllif bildirir ki, Azərbaycan Ordusunun güclü maddi-texniki bazaya malik olması, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığı və vətənpərvərlik əhvali-ruhiyyəsi, xalq-ordu birliyi Vətən müharibəsində qələbənin əldə edilməsində mühüm rol oynadı. Sübut olundu ki, Azərbaycan xalqı müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələri ilə fəxr edə bilər.

"Zəfərin təntənəsi" adlı IV fəsildə Vətən müharibəsinin nəticələrinin Azərbaycanın geosiyasi vəziyyətinə, dünya birliyində tutduğu mövqeyinə təsiri təh-

lil olunur. Kitabda ümumiləşdirmələr aparılaraq vurğulanır ki, Azərbaycan Ordusunun şanlı qələbəsi ermənilərin tarixən özləri haqqında yaratdığı miflərin üzərindən xətt çəkdi, onun boşluğunu və mənasızlığını döyüşlərdə sübut etdi.

Müəllifin fikrincə, 44 günlük hərbi əməliyyatlar zamanı ortaya yeni strategiya və taktika qoyan, XXI əsrin yeni müharibə nümunəsini göstərən, ən yeni silahlarını nümayiş etdirən İlham Əliyev ordusu hər şeyin tam dəyişdiyini əyani şəkildə, döyüş meydanında hamıya göstərdi. Müəllif bildirir ki, Azərbaycan Prezidenti müharibə dövründə "hücum diplomatiyası"na start verərək, beynəlxalq qurum və təşkilatlarda, ayrı-ayrı ölkələrdə ermənilərin şər-böhtan kampaniyasına qarşı mübarizəni gücləndirdi. Azərbaycan-Türkiyə qardaşlığı bu sahədə mühüm rol oynadı, həmin dövrdə hər iki dövlətin diasporunun əlaqəli fəaliyyəti təmin olundu. Qonşu dövlətlərlə, habelə dünyada xüsusi çəkisi olan ölkələrlə qarşılıqlı maraqlara və hörmət prinsipinə əsaslanan əlaqələr möhkəmləndirildi.

Kitabda yenidən müstəqillik əldə etdiyi vaxtdan hazırkı dövrədək Azərbaycanda gedən ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni proseslər müxtəlif mərhələlər üzrə müqayisəli şəkildə təhlil olunur. Müəllif müasir Azərbaycan dövlətinin davamlı inkişafının Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasətlə, azərbaycançılıq məfkurəsinə söykənən milli ideologiya ilə sıx şəkildə bağlı olduğunu tarixi hadisələr və faktlarla sərrast şəkildə izah edir.

Kitabın əhəmiyyətini artıran xüsusiyyətlərdən biri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Prezident İlham Əliyevin yürütdüyü siyasətin mahiyyətinin siyasi-ideoloji baxımdan müfəssəl və səlis şəkildə ictimai fikrə çatdırılmasıdır. Kitabda verilmiş məqalələr 44 günlük Vətən müharibəsinin, şanlı Azərbaycan Ordusunun Müzəffər Komandanı Prezident İlham Əliyevin Böyük Qələbəyə aparan siyasətinin salnaməsidir. Bu məqalələrdə əsgərlərimizin şücaəti, Vətən sevgisi, Qarabağ ruhu vardır.

Bəxtiyar Sadıqovun indiyə qədər nəşr etdirdiyi "Qeyrət və xəyanət", "İnsan və zaman", "Həqiqət və yalan", "Ömrün söz yadigarı" kimi kitabları öz ətrafında geniş oxucu auditoriyası toplamışdır ki, bu da müəllifin yüksək ədəbi-bədii təxəyyülə, cəmiyyətdə gedən prosesləri dərindən müşahidə etmək qabiliyyətinə malik olmasından irəli gəlir.

Qeyd edək ki, Azərbaycan ictimaiyyəti Bəxtiyar Sadıqovu istedadlı jurnalist və bir-birindən dəyərli kitabların müəllifi kimi çox yaxşı tanıyır. 50 ildən artıqdır jurnalistikada "külüng döyən" Bəxtiyar müəllim öz sənətinin ən peşəkarları sırasında dayanır və adını Azərbaycanın mətbuat tarixinin şərəfli səhifələrinə həkk etdirib. Mətbuatın milli və bəşəri ənənələrinin fədakar qoruyucusu olmaq-

la yanaşı, yeni media trendlərinin də fəal tərənnümçüsüdür və müstəqillik dövrünün yeni mətbuat ənənələrinin, bazisinin formalaşmasında müstəsna xidmətlər göstərib. Azərbaycan Mətbuat Şurasının ilk qurucularından olan və indiyədək də qurumun ali orqanı olan İdarə Heyətin üzvü kimi fəaliyyət göstərən Bəxtiyar müəllim media-oxucu, media-cəmiyyət, media-dövlət münasibətlərinin formalaşmasında və təkmilləşməsində hər zaman sağlam mövqeyi ilə fərqlənib.

Bəxtiyar Sadıqovun baş redaktoru olduğu rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzeti ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Mütərəqqi mətbuat ənənələrini davam etdirən qəzetdə analitik xarakterli yazılar, elmi araşdırmalar, publisistika, ədəbiyyat və incəsənətə dair materiallara geniş yer verilir. Qəzet oxucuların informasiya tələbatını daim nəzərə alır, onları düşündürən aktual məsələləri diqqət mərkəzində saxlayır.

Bəxtiyar Sadıqov Yeni Azərbaycan Partiyasının da sınanmış, sadiq, fədakar üzvlərindəndir. Partiya həyatında daim yaxından iştirak edən siyasi həmkarımız təsadüfi deyildir ki, 5 dəfə ard-arda YAP-ın rəsmi namizədi kimi parlament seçkilərinə qatılıb və hər birində də deputat mandatı qazanıb. 27 il düşmən əsarətində olan, nəhayət, Vətən savaşında azadlığına qovuşan Ağdam rayonunun, yüz minlərlə məcburi köçkünün parlamentdə səsi, vəkili, carçısı olmaq həm də Bəxtiyar Sadıqovun sağlam əqidəsinin, vicdanlı siyasi mövqeyinin, fədakar vətəndaş münasibətinin bariz təzahürlərindəndir.

Bəxtiyar Sadıqov bütün həyatı boyu, istər jurnalistikada, istər siyasi proseslərdə daim ardıcıl, dəyişməz, prinsipial mövqeyi ilə fərqlənib. Heydər Əliyevin şanlı irsinin, mükəmməl dövlətçilik kursunun yorulmaz təşviqatçısı və təbliğatçısı olan Bəxtiyar müəllim həm də möhtərəm Prezidentimiz İlham Əliyevin cahanşümul fəaliyyətinin də ən mükəmməl salnaməçilərindən, araşdırmaçılarındandır. Gələcək nəsillər həm də elə Bəxtiyar müəllimin dəyərli məqalələri, sanballı kitabları ilə müstəqillik dövrümüzü daha yaxından, ən əsası isə daha doğru formada öyrənəcək, özlərində düzgün yanaşma formalaşdıracaqlar.

İnanırıq ki, Bəxtiyar Sadıqovun "Xilaskar İlham Əliyev" kitabı özünün siyasi-ideoloji məzmununa və ədəbi-bədii dəyərinə görə böyük oxucu marağına səbəb olacaq. Kitabı Azərbaycanın müstəqil qalibiyyət tarixinin geniş əhatə olunduğu dəyərli mənbə hesab etmək olar.

**Mübariz QURBANLI,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,*
*Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini*

# I Fəsil

# Aprel xəbərdarlığı

# Qələbən mübarək, Vətən!

*Bu zəfəri bizə Ali Baş Komandanın qətiyyəti,*
*ordumuzun rəşadəti yaşadır*

**1993-cü ilin iyulunda baş vermiş Ağdamın işğalı günləri gözümün qabağından getmir...**
**Düşmən hamilərinin köməyi ilə şəhərə nəzarət edə biləcək bütün strateji yüksəklikləri ələ keçirmiş, orada möhkəmlənərək hücuma keçmək üçün kifayət qədər qüvvə toplamışdı. Xislətinə uyğun olaraq gecə-gündüz yaşayış məntəqələrini "Qrad", top və minaatan atəşinə tutaraq insanlar arasında vahimə və qorxu yaradırdı. Onsuz da Xocalı soyqırımından sonra dinc əhali erməni qəddarlığının və erməniyə girov düşməyin dəhşətlərini görmüşdü...**
**Ön cəbhəyə yaxın ərazilərdəki kəndləri və şəhəri tərk edən mülki əhali Uzundərəni keçərək yolların kənarına səpələnmişdi.**

## *İki ordu*

Hamı atışma qurtaran kimi yenidən geriyə, evinə qayıdacağını düşünürdü...
Heç kim Ermənistan ordusunun Ağdamı işğal edəcəyinə inanmırdı...
Heç erməninin özü də buna əmin deyildi...
Amma bu fəlakət baş verdi!
Çünki torpaqların müdafiəsi təşkil edilməmişdi!
Çünki düşmənin qarşısını alacaq ordu yaradılmamışdı!
Çünki münaqişə başlayandan sonra Azərbaycana maymaqlar, qətiyyətsizlər, səriştəsizlər başçılıq etmişdi!
Bunun altını, ağrı-acısını isə xalq çəkirdi...
Beləcə, Ağdam gözümüz qarşısında işğal olundu...
Daha sonra Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı eyni aqibəti yaşadı. Bir qədər əvvəl isə Kəlbəcər işğal olunmuşdu...
Səbəb: ölkə rəhbərliyi yerində deyildi!
Vaxtında ordu qurulmamışdı!
Küçələrdən insanları avtobuslara dolduraraq döyüş bölgəsinə aparır, orada əllərinə avtomat verərək birbaşa hərbi əməliyyatlara göndərirdilər.
Bu, azmış kimi, hərbi əməliyyatlarda iştirak edən bütün hissələr vahid komandanlığa tabe olmurdu.

Ən əsası müharibə dövlət səviyyəsində aparılmırdı!

Nəticə çox acınacaqlı oldu:

* Ölkə ərazisinin 20 faizi işğala məruz qaldı;
* 20 min şəhid verildi;
* Bir milyondan çox qaçqın və məcburi köçkün ordusu yarandı;
* Azərbaycan nəinki müstəqilliyini itirmək, hətta bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı.

Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə yenidən hakimiyyətə qayıtması Kür çayına qədər olan ərazilərimizin işğalının qarşısını aldı!

Bundan sonra müharibədə atəşkəs elan olundu, ölkədə sabitlik yaradıldı, ordu quruculuğuna başlandı, ümummilli böhran aradan qaldırıldı, Azərbaycan informasiya blokadasından çıxarıldı, dünyaya inteqrasiya olundu və s.

Qarabağ müharibəsinin ilk dövrünün ürəkağrıdan mənzərəsi belə idi.

❖❖❖

Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevin 2003-cü ildən Azərbaycana rəhbər seçilməsi ilə başlanan bütün müsbət proseslər sürətlə davam etdi, ölkə öz inkişafının yeni mərhələsinə daxil oldu.

Cənab İlham Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanın güclü, modern ordusunu qurması, onu ən müasir silahlarla təmin etməsi, müdafiə sənayesini yaratmasıdır!

* Aprelin 2-də Azərbaycan xalqı yeni ordusunun ilk parlaq qələbəsini gördü!
* Erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı!
* Düşmənə çox böyük zərbələr endirildi!
* Düşmən böyük itkilər verdi!
* Ordumuz daha əlverişli hərbi mövqelərə malik oldu!
* Təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi!
* Biz böyük hərbi qələbə qazandıq!
* Müharibənin gedişində hamının çoxdan gözlədiyi məqam baş verdi - hadisələr bizim xeyrimizə dəyişdi!
* İllərboyu edə bilmədiyimizi bir gündə etdik!

Bu, xalqımızın qələbəsidir!

Bu, ordumuzun qələbəsidir!

Bu, Ali Baş Komandan cənab İlham Əliyevin qələbəsidir!

Qələbən mübarək, Vətən!

Bu qələbəni isə bizə müasir Azərbaycan Ordusu qazandırdı!

## *Dünya ermənililiyinin "birnömrəli düşmən"i*

Azərbaycan xalqı öz Prezidentini sevir və daim ona güvənərək dəstək verir!

Xalq arasında belə bir fikir də formalaşıb: əgər kimsə İlham Əliyevi sevmirsə, deməli, o ya qrant hərisi olan radikal müxalifət, yaxud antiazərbaycançı şəbəkəyə xidmət edən "hüquq müdafiəçisi"dir.

Bir sözlə, əsl azərbaycanlı deyil!

Cənab İlham Əliyev bu sevgini Azərbaycan naminə gördüyü möhtəşəm işlərlə, xalqımızın milli maraqlarını qoruyub daim həyata keçirməklə qazanıb.

❖❖❖

İlk dəfədir ki, İlham Əliyevin "düşmən" elan edilməsinə sevindim!

Bəli, dünya erməniliyi Azərbaycan Prezidentini özünün "birnömrəli düşmən"i sayır!

Bu "titul"u cənab İlham Əliyev dünya erməniliyinə vurduğu sarsıdıcı zərbələrə görə qazanıb!

Azərbaycanı regionun ən güclü dövlətinə, dünyada söz sahibinə çevirdiyinə, beynəlxalq aləmdə və diplomatiya sahəsində uğurlarına görə düşmənin nifrətini qazanıb!

Əgər düşmən səndən yanıqlıdırsa, deməli, ona nəsə etmisən!

Düşmənin səni özünün "birnömrəli düşmən"i hesab edirsə, deməli, onu ağrıyan yerindən vura bilmisən!

Bu, həm də o deməkdir ki, düşmən səndən qorxur!

Bilir ki, gec-tez onun axırına çıxacaqsan!

Deməli, Prezident İlham Əliyev öz məqsədinə nail olub, dünya erməniliyini dünyada ifşa edərək iç üzünü açıb!

Beynəlxalq təşkilatların, dünya KİV-inin və bəzi siyasilərin məsələyə obyektiv yanaşaraq düzgün mövqedən qiymətləndirmələri, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bildirən bəyanatların dalbadal səslənməsi məhz onun zəhmətinin bəhrəsidir.

İndi isə Ali Baş Komandanımız öz sözünü cəbhə bölgəsində deyir.

* Əsgər və zabitlərimizin qəhrəmanlığı ilə!
* Təxribatçı düşmənə endirilən sarsıdıcı zərbələrlə!
* Geri qaytarılan və böyük ərazilərə nəzarət etməyə imkan yaradan strateji yüksəkliklərlə!
* Qətiyyətli, prinsipial və sarsılmaz mövqeyi ilə!

Nəhayət ki, dünya erməniliyi qarşısında özündən güclü və nüfuzlu qüvvə gördü!
Daha istədiklərinə əvvəlkitək nail ola bilməyəcəyini anladı!
Başa düşdü ki, dövr və zaman da, qüvvələr nisbəti də dəyişib!
Onlara bu həqiqətləri cənab İlham Əliyev başa saldı!
Diplomatiya və hərb meydanında qazandığı qələbələrlə!

## *Bir gündə dərk edilən "köhnə həqiqət"*

Dövlət başçısı cənab İlham Əliyev dəfələrlə bəyan etmişdi:

* Azərbaycan bir qarış torpağını belə düşmənə güzəştə getməyəcəkdir;
* Azərbaycan münaqişənin sülh yolu ilə həllinə tərəfdardır;
* Heç zaman ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz;
* Ermənistanın işğalçı ordusu qeyd-şərtsiz ərazilərimizi tərk etməlidir;
* Münaqişə BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsi əsasında həllini tapmalıdır;
* Lazım gəlsə, Azərbaycan işğal altındakı torpaqları hərbi yolla azad edəcəkdir!

Ermənistan deyilənləri qulaqardına vuraraq "millətlərin öz müqəddəratını təyinetmə hüququ"ndan dəm vururdu.

ATƏT-in Minsk qrupu dişsiz, səmərəsiz və nəticəsiz fəaliyyət göstərirdi.

Heç bir beynəlxalq qurum və təşkilat Ermənistanı açıq şəkildə işğalçı adlandıraraq, Azərbaycan torpaqlarını tərk etməsini tələb etmirdi.

Onun danışıqlar prosesini pozmaq üçün atdığı təxribatçı addımlar lazımınca qiymətləndirilmirdi.

Vasitəçilik missiyası daşıyanlar "siz öz aranızda hansı razılığa gəlsəniz, biz onu dəstəkləyəcəyik" kimi gülünc tezis irəli sürürdülər.

Mövcud status-kvo Ermənistana sərf edirdi.

Torpaqları işğalda qalan, bir milyon qaçqın və məcburi köçkünü olan Azərbaycana isə yox!

Lakin heç kim bu həqiqətləri qəbul etmək istəmir, yaxud əhəmiyyət vermirdi!

Ermənistan isə vəziyyətdən istifadə edərək torpaqları işğal altında saxlayır, tarixi abidələr də daxil olmaqla kütləvi dağıntılar törədir, narkotik bitkilərin becərilməsi, terrorçuların hazırlanması ilə məşğul olur, Azərbaycanın təbii sərvətlərini çapıb-talayırdı.

Hər dəfə danışıqlar prosesində irəliləyiş müşahidə olunduqda isə təmas xəttində təxribatlar yaratmaqla pozuculuq fəaliyyəti törədirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ABŞ-a uğurlu səfərindən sonra Ermənistan yenə, əvvəllər olduğu kimi, təxribata əl atdı. Təmas xəttindəki kəndlərimizi, dinc əhalini iriçaplı silahlardan, toplardan, minaatanlardan atəşə tutdu, mövqelərimizə hücuma keçdi.

Azğınlaşmış düşmənin qarşısını almaq üçün Azərbaycan Ordusu öz imkanlarını işə saldı.

Birgünlük müharibə baş verdi!

Qısa müddətdə Azərbaycan Ordusu düşmənə elə sarsıdıcı zərbələr endirdi ki, bunu heç kəs gözləmirdi!

Xalqımız isə öz ordusuna və Prezidentinə inanıb güvəndiyindən təlaşa düşmədi, əksinə, hərbçilərimizə dayaq durdu!

Ordumuzun parlaq qələbəsi dünya siyasilərini və KİV-ini hərəkətə gətirdi.

Sanki hamı Azərbaycanın illərboyu səsləndirdiyi "köhnə həqiqət"ləri bir günün içində dərk etmişdi:

* Bəli, mövcud status-kvo dəyişdirilməlidir!
* Ermənistanın işğalçı qoşunları Azərbaycan ərazisini tərk etməlidir!
* Erməni əsgəri ölmək istəmirsə, rədd olub Azərbaycandan getməlidir!
* Münaqişə sülh yolu ilə həllini tapmalıdır!
* Özü də lap qısa müddətdə!
* Yoxsa bunları Azərbaycan özü etməli olacaqdır!

❖❖❖

Artıq ilk qələbə qazanılıb, işğal altındakı torpaqların azad edilməsinə başlanıb!

Hamımız səninləyik, cənab Ali Baş Komandan!

Biz sənə güvənirik, Azərbaycan Ordusu!

Qələbələrin mübarək, ana Vətən!..

***"Azərbaycan" qəzeti,***
***6 aprel 2016-cı il***

# İlham Əliyev zirvələri qaytardı

*Bir jurnalist kimi ən böyük arzum*
*qələbədən yazmaq olub!*

**Düşməni pərən-pərən salaraq işğal altındakı torpaqların azad edilməsi ilə bağlı Qələbədən!**
**Nə gizlədim, belə bir yazının yazılacağının mənə qismət olacağına ümidimi itirmişdim...**
**Ancaq aprel ayının 2-si gecəsi Ali Baş Komandan cənab İlham Əliyev bu ümidi nəinki diriltdi, həm də inama çevirdi!**
**Möhkəm və sarsılmaz inama!**

Təkcə mən yox, doğma yurd-yuvasından didərgin salınmış yüz minlərlə insan qoyub gəldikləri evlərinə qayıdacaqlarına, həm də lap tezliklə geri dönəcəklərinə əmin oldular!

Dağılmış və xaraba qalmış evlərinə...

Çünki inanırlar ki, Prezident İlham Əliyev müstəqil Azərbaycanın digər guşələri kimi, azad olunmuş Qarabağı da yenidən cənnətə çevirəcəkdir!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindəki ilk qələbəyə əzablı, uzun və çətin yol keçərək gəlmişik. Maymaq, qətiyyətsiz, səriştəsiz iqtidarların dövründə nə ordu var idi, nə də dövlət səviyyəsində torpaqların müdafiəsi ilə məşğul olan! Vətənin qeyrətli övladları şəhid getsə də, torpaqları kəndbəkənd, bir-birinin ardınca itirirdik.

Nə səsimizi eşidən vardı, nə də dadımıza yetən!

Axırda xalq öz sınanmış oğlunu, Ulu Öndər Heydər Əliyevi köməyə çağırdı. Xalqın səsinə biganə qala bilməyən Ümummilli Lider Heydər Əliyev geriyə dönərək çox qısa müddətdə müstəqilliyimizi məhv olmaqdan, Azərbaycanı isə bir dövlət kimi dünya xəritəsindən silinməkdən xilas etdi. Eyni zamanda bir sıra mürəkkəb vəzifələrin icrasına başladı:

* Ordu quruculuğunda dönüş yaradaraq, Horadiz ətrafında düşmənə ilk güclü zərbəni endirdi;
* Bundan sonra müharibə bölgəsində atəşkəs yarandı;
* Qeyri-qanuni silahlı dəstələr ləğv edildi, əhalidəki külli miqdarda silah-sursat yığıldı;



9 aprel 1994-cü il



9 aprel 1994-cü il



**Füzuli rayonu.** 12 noyabr 2016-cı il



**Ağdam rayonu.** 6 avqust 2014-cü il



**Füzuli rayonu.** 12 noyabr 2016-cı il



**Füzuli rayonu.** 12 noyabr 2016-cı il



**Füzuli rayonu.** 12 noyabr 2016-cı il



**Ağdam rayonu.** 6 avqust 2014-cü il



**Ağdam rayonu.** 6 avqust 2014-cü il



**Əməliyyat-taktiki təlimləri zamanı.** 26 iyun 2014-cü il



**Ağdam, "N" saylı hərbi hissə.** 6 avqust 2014-cü il




**Ağdam, "N" saylı hərbi hissə.** 6 avqust 2014-cü il



**Ağdam, "N" saylı hərbi hissə.** 6 avqust 2014-cü il



**Goranboy rayonu "N" saylı hərbi hissə.** 21 yanvar 2012-ci il



**Goranboy rayonu "N" saylı hərbi hissə.** 21 yanvar 2012-ci il

* Ölkədə möhkəm və dönməz sabitlik yaradıldı, bazar iqtisadiyyatı münasibətlərinə keçidi şərtləndirən islahatlara başlandı;
* Böyük bir jurnalistlər ordusunun görə bilməyəcəyi işi təkbaşına həyata keçirərək ölkə ətrafındakı informasiya blokadasını yardı;
* "Əsrin müqaviləsi" neft kontraktını imzalatdıraraq dünyanın aparıcı dövlətlərinin maraqlarını Azərbaycanın maraqları ilə uzlaşdırdı;
* Azərbaycanı Avropa Şurasına üzv etdi, beynəlxalq təşkilatlarla aparılan işin təməlini qoydu.

Dəfələrlə sülh sazişinin imzalanmasına yaxın olsaq da, havadarlarına arxalanan Ermənistan bundan boyun qaçırdı.

Təəssüf ki, torpaqların hərbi yolla qaytarılmasına vaxtı çatmadı.

Ömür Ulu Öndərimizə vəfa etmədi...

Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olan cənab İlham Əliyev başlanmış işləri sürətlə və əzmlə davam etdirdi:

* Ölkəni sürətli inkişaf yoluna çıxardı!
* Cənubi Qafqazın ən güclü dövlətinə, dünyada söz sahibinə çevirdi!
* BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə nail oldu!
* Müasir, modern ordu yaradaraq onu ən yeni silahlarla silahlandırdı!
* Hər dəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlar prosesində uğur qazanılanda düşmənin təxribata əl atdığını, sülh danışıqlarını pozduğunu görərək onların əməllərinin dünya ictimaiyyəti qarşısında ifşasına başladı.

Ermənistana başçılıq edənlərin mövcud status-kvonun saxlanılmasında israrlı olduqlarını gördü. Belə bir vəziyyət isə Azərbaycana qətiyyən sərf etmirdi!

Yaranmış situasiyanı düzgün qiymətləndirən Ali Baş Komandan öz qətiyyətli, prinsipial və cəsarətli mövqeyini sonadək qorudu və...

Aprelin 1-dən 2-sinə keçən gecə erməni tərəfinin növbəti təxribat əməllərinə - atəşkəsi pozmalarına, təmas xəttindəki kəndləri və orada yaşayan sakinlərin evlərini iriçaplı silahlardan, top, "Qrad" və qumbaraatanlardan atəşə tutmasına Milli Ordumuz özünün bütün arsenalı ilə cavab verdi:

* Düşmənə ağır və sarsıdıcı zərbə endirildi! Erməni əsgərləri silah və sursatlarını ataraq qaçmağa başladılar;
* Cəsur əsgər və zabitlərimiz yüksək peşəkarlıq göstərərək düşmənin uzun müddətdən bəri möhkəmləndiyi bir neçə strateji yüksəkliyə yiyələndilər! Beləliklə, işğal altındakı xeyli əraziyə nəzarəti ələ keçirdilər;
* Qısamüddətli müharibədə Azərbaycan Ordusu özünün bütün gücünü, ən yeni texnologiyaya əsaslanan silahlarını nümayiş etdirdi! Erməni ordusu-

nun "məğlubedilməzliyi" haqqında özlərinin yaratdıqları süni mif bir gecənin içində sabun köpüyü kimi partladı.

* İşğal etdiyi torpaqlardan qovulan erməni ordusu təkcə məğlub edilmədi, həm də sındırıldı! Ermənistanın betonlaşdırıb qurduğu və "alınmaz" hesab etdiyi səngər və sığınacaqlar Azərbaycan əsgərinin ayaqları altında qaldı.
* Bir gecənin içində məzlumlaşaraq zavallı vəziyyətə düşən düşmən öz müttəfiqlərini qınamağa başladı! Rusiyanı, İsraili ölkəmizə silah satmamağa çağırdı və cavabı verilərək ağzından vuruldu!

Ali Baş Komandan cənab İlham Əliyev ələ keçirilən yüksəkliklərə - zirvələrə bərabər olan digər mənəvi amillərə də yenidən həyat verdi:

* Azərbaycan xalqı xilaskar ordusunun qüdrətinə əmin oldu;
* Qəhrəman döyüşçülərimiz nəyə qadir olduqlarını bu dəfə əyani şəkildə nümayiş etdirdilər;
* Əsgər və zabitlərimizin ən yeni silahlardan necə bacarıqla istifadə etdiklərinin şahidinə çevrildik;
* Müharibənin gedişində çoxdan gözlədiyimiz dönüş baş verdi;
* Azərbaycan Ordusunda, Azərbaycan xalqında, dünya azərbaycanlılarında böyük ruh yüksəkliyi, sonsuz sevinc yarandı;
* Şəhidlik zirvəsinə yüksəlmiş Azərbaycan övladları hər bir azərbaycanlının əzizinə və müqəddəs ünvanına çevrildi;
* Xalqın ölkə rəhbəri ətrafında mənəvi birliyi, Ali Baş Komandana inam və məhəbbəti qat-qat artdı;
* Cənab İlham Əliyev bir günün içində dünyanın ən yüksək reytinqli dövlət başçısı səviyyəsinə yüksəldi!

Bəli, bir gündə qazanılan qələbə çox böyük dəyişikliklər yaratdı!

Bizə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsində torpağın işğaldan azad olunması ilə bağlı ilk sevinci və bayramı yaşatdı!

Böyük qələbənin ilk dadını hiss etdik! Ondan yazmaq imkanı qazandıq!

Artıq əminik ki, tam qələbədən də yazacağıq!

Həm də erməni əsirliyindən qurtulmuş torpaqları gəzə-gəzə yazacağıq!

Dağılmış ərazilərimizin yenidən tikilib-qurulmasından, abadlaşdırılmasından, doğma Qarabağın laləzara çevrilməsindən dönə-dönə yazacağıq!

Əminəm ki, bu xoşbəxtliyi də bizə cənab İlham Əliyev nəsib edəcəkdir!

Zirvələri fəth etməklə özü də zirvəyə ucalan Prezident İlham Əliyev!

***“Azərbaycan” qəzeti,***
***15 aprel 2016-cı il***

# Qüdrətli ordunun məğrur sərkərdəsi

*Prezident İlham Əliyevin cəbhə bölgəsinə səfəri xalqımızda böyük ruh yüksəkliyi yaratdı*

**Cari ilin aprel ayı dördgünlük qalibiyyətli müharibə ilə başlayaraq BMT Təhlükəsizlik Şurasının Bakıda keçirilən VII Qlobal Forumu ilə başa çatdı.**

**Hər iki hadisə bütün dünyanın diqqətini Azərbaycana yönəltdi, dünya KİV-ləri bu məsələlərlə bağlı dönə-dönə yazdı, süjetlər çəkib göstərdi, tanınmış siyasətçilər və dövlət başçıları münasibət sərgilədilər. Çünki baş verənlər sıradan olaylardan deyildi, əslində, qeyri-adi sayılırdı. Nədə idi bu qeyri-adilik?!**

BMT-nin ali tribunası Azərbaycanda qurulmuşdu. Toqquşma, ziddiyyət və qaçqınlıqdan əziyyət çəkən dünyadakı vəziyyət ölkəmizdə müzakirə olunur, narahatlıqlardan, gözlənilən təhlükələrdən danışılırdı. Eyni zamanda fəlakət, ölüm və dağıntıların qarşısının alınması üçün yollar göstərilir, təkliflər verilirdi. Həmin təkliflərin mərkəzində isə Azərbaycan nümunəsi dayanırdı!

Qısa müddətdə böyük inkişaf yolu keçən, multikulturalizmi və tolerantlığı ilə ölkə daxilində birlik və mehribanlığı bərqərar edən Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti nəticəsində qosqoca dövlətlər üçün nümunəyə çevrilən Azərbaycan!

Ayın sonunda keçirilən bu möhtəşəm tədbir həm də ayın başlanğıcında cəbhədə əldə edilən qələbə sayəsində daha uca və əzəmətli görünürdü!

Dünya gəldi, gördü, eşitdi, bildi!

Nə öyrənib, necə tətbiq edəcəksə, bu, onun özündən asılıdır və özünün xeyrinədir. Çünki bu məclisdə deyilənlər dövlətlərin sabitliyinə xidmət edir və terror təhlükəsindən necə qorunacaqlarına kömək göstərə bilər!

Bizim üçün maraqlısı odur ki, biz bu tədbirə gələnləri öz nümunəmizlə əyani şəkildə tanış etdik, dediklərimizi olduğu kimi göstərdik. Qonaqlar müstəqil Azərbaycanı daxildən gördülər, müasir, gözəl Bakıya baxdılar, bölgələrə getdilər, gülərüzlü, mehriban azərbaycanlılarla tanış oldular. Eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri eşidib bildilər. Üstəlik, dövlət başçısı cənab İlham Əliyev öz çıxışında postsovet dövrünün ən qocaman münaqişəsi, beynəlxalq qurum və təşkilatların məsələyə ikili standartlarla yanaşması, BMT Təhlükəsizlik Şurasının

indiyədək icra olunmayan dörd qətnaməsi barədə açıq, kəskin danışdı, tənqidi fikirlərini səsləndirdi!

Prezident İlham Əliyev forumdan dərhal sonra bölgələrə getdi.

Bu, həm də dördgünlük müharibədən sonra hərbi əməliyyatlar gedən bölgəyə Ali Baş Komandanın birinci səfəri idi.

Bir məsələni də vurğulamaq istəyirik ki, əgər dünya üzrə statistika aparılsa, yəqin ki, başçılıq etdiyi ölkədə bölgələrə ən çox səfər edən Prezident cənab İlham Əliyev olar! Bu səfərlər zamanı hər dəfə yeni obyektlərin qırmızı lenti kəsilir, təməlqoyma mərasimləri keçirilir, yerli sakinlərin arzu və istəkləri dinlənilir.

Amma bu səfər fərqli idi!

Ordumuz tərəfindən ağır məğlubiyyətə düçar edilən Ermənistan silahlı qüvvələri təmas xəttindəki və döyüş bölgəsinə yaxınlıqdakı kəndləri top, tank və "Qrad" atəşinə tutaraq böyük dağıntılar törətmişdi. Nəticədə 500-dən çox evə ziyan dəymiş, 100-dən artıq ev isə tamamilə dağıdılmışdı. Mülki əhali arasında ölənlər və çoxsaylı yaralı vardı. Ali Baş Komandan vəziyyətlə yerində tanış olmaq istəyirdi.

Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan möhtərəm İlham Əliyevlə Ermənistanın kriminal və korrupsioner prezidenti Serj Sarkisyanı müqayisə etmək səviyyəsizlik və həm də günah olardı. Amma eyni hadisə ilə bağlı münaqişədə olan dövlətlərin ali baş komandanlarının səfərlərini müəyyən məqamlara işıq salmaqdan ötrü tutuşdurmaq məcburiyyətindəyik.

Erməni təxribatına cavab verən Azərbaycan Ordusu bir gecənin içində düşmənə bu münaqişənin tarixində ən ağır zərbəsini vurdu!

**ƏVVƏLA:**

* Ermənistan ordusu təkcə məğlub edilmədi, həm də sındırıldı;
* Ermənistan ordusunun "məğlubedilməzliyi", erməni səngərlərinin "keçilməzliyi" mifi bir gecənin içində dağıdıldı;
* Ermənilər Azərbaycan əsgər və zabitlərinin döyüş məharətini, cəsarət və qəhrəmanlığını şəxsən "yoxlayıb" gördülər;
* Düşmən ordumuzun hansı yeni silahlara (həm də hamısına olmasa da) malik olduğunun şahidinə çevrildi;
* Artıq təkcə Ermənistan başçıları, ordu generalları yox, bütün dünya anladı ki, müharibə başlasa, Azərbaycan qısa müddətdə Ermənistanı darmadağın edəcəkdir!

**DİGƏR TƏRƏFDƏN:**

* Azərbaycan əsgərinin özünəinamı geriyə qayıtmış, peşəkarlığı qat-qat yüksəlmişdir;

* Cəbhə bölgəsində yaşayan əhalidə qorxu və təşviş hissi yoxa çıxmış, orduya inam və etibar möhkəmlənmişdir;
* Xalqın dövlət başçısı ətrafında birliyi daha da möhkəmlənmiş, ona sevgi və məhəbbəti görünməmiş səviyyəyə çatmışdır;
* Dördgünlük müharibə Ali Baş Komandanın reytinqini daha da yüksəldərək 97 faizə çatdırmışdır!

Serj Sarkisyanın Dağlıq Qarabağa səfəri eks-prezident Ter-Petrosyanın evinə "qonaq" getməsindən fərqlənmirdi:

**MƏQSƏD:**

* Vəzifəsini qoruyub saxlamaq;
* Köçüb qaçan yerli əhalini birtəhər dayandırmaq;
* Ordudakı fərariliyin qarşısını almaq;
* Əsgər və zabitlərin canından Azərbaycan Ordusunun və yeni silahların doğurduğu vahiməni çıxarmaq;
* Ruhdan düşərək bədbinliyə qapılan orduda ümidsizliyi aradan qaldırmaq idi.

Erməni ali baş komandan başını o qədər itirmişdi ki, çöl-biyabandakı əsgərlərin qarşısında tribuna arxasında durub danışırdı. Özü ilə gətirdiyi tribunadan. Amma nə qədər çalışsa da, gözlərindəki təlaş və ümidsizliyi gizlədə bilmirdi. Artıq Sarkisyan başa düşüb ki, torpaqları qaytarmalıdırlar!

Cənab İlham Əliyev qalib ordunun məğrur sərkərdəsi kimi əsgər və zabitlər, mülki əhali ilə görüşə getmişdi.

Hərəkətlərində və danışığında bir qürur, cəsarət və inam duyulurdu!

Təmas xəttinin 200 metrliyində yerləşən kənddə heç nədən çəkinmədən, heç bir təhlükəni nəzərə almadan əminliklə addımlayırdı.

Yerli əhaliyə ürək-dirək verir, düşmənə isə meydan oxuyurdu!

Çünki öz torpağında idi, qalib ordunun Ali Baş Komandanı idi!

Bu qorxmazlığı, saymazlığı ilə düşmənə axırının çatdığını, tezliklə buradan rədd olub gedəcəklərini xatırladırdı!

Yerli əhali ilə görüşlər isə o qədər səmimi, mehriban, hərarətli idi ki... İnsanlar bütün rəsmiyyətin bir kənara qoyulduğu zamanda xilaskar rəhbərlə təmasdan böyük qürur və fəxarət duyduqlarını bildirir, bu görüşdən hədsiz ruhlandıqlarını söyləyirdilər!

Bəli, Ali Baş Komandan öz cəsarəti və qayğıkeşliyi ilə çətinliyə düşən vətəndaşlarına nümunə göstərir, daim onların yanında olduğunu xatırladırdı.

Xalqımız isə bir daha əmin oldu ki, onların sevdikləri və güvəndikləri dövlət başçısı cəbhə bölgəsində yaşayan hər bir vətəndaşın, səngərdə dayanan hər bir əsgər və zabitin yanındadır, onlar dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunmuşlar.

Qaçqın rayonunun təmsilçisi olaraq səmimi və mübaliğəsiz söyləyirəm:

Azərbaycanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ən tez zamanda həllini cənab İlham Əliyev qədər istəyən ikinci adam tanımıram!

Dağlıq Qarabağ probleminin həlli yolunda ölkə Prezidenti qədər də çalışan, səy göstərən, iş görən ikinci insan yoxdur!

Buyurun, onun bütün fəaliyyətinə, bütün ranqdan olan görüşlərinə, nitq və çıxışlarına baxın! Görün Qarabağ məsələsini bir dəfə olsun belə unudurmu?

Heç zaman!

Görün bu məsələnin son variantda həlli üçün necə bir qüdrətli ordu yaratmışdır!

Belədə hamımız onun bu yoldakı fəaliyyətinə dəstək olmalıyıq!

Biz hamımız!

Çünki Qarabağ münaqişəsi təkcə ərazi bütövlüyü deyil, həm də şərəf məsələsidir!

Dövlət başçısı cəbhə bölgəsindəki çıxışlarında Ermənistana mesajlarını da göndərdi:

"Əgər bir daha bizə qarşı təxribat, o cümlədən silahlı təxribat törədilərsə, yenə də Azərbaycan Ordusu öz sözünü deyəcək".

"Azərbaycan Ordusu Azərbaycanı, Azərbaycan vətəndaşlarını qoruyur".

"Bizim ərazi bütövlüyümüz toxunulmazdır, bərpa olunmalıdır, bərpa ediləcəkdir. Yaxşı olardı ki, bu, danışıqlar yolu ilə olsun".

Qorxmaz və məğrur Ali Baş Komandanı, onun ətrafında sıx birləşmiş xalqı, güclü iqtisadiyyatı, qüdrətli ordusu və beynəlxalq dəstəyi olan müstəqil Azərbaycanla hesablaşmaq vaxtıdır!

Ermənistandakılar bunu nə qədər tez anlayaraq sülhə gəlsələr, özlərinə yaxşıdır!

Artıq reallıq dəyişib və tamam başqadır!

Azərbaycan Ordusu hər an irəliyə getməyə, işğal altındakı torpaqları azad etməyə hazırdır və qadirdir!

Dinc əhali başına mərmi tökülüb, ev-eşiyi dağılsa da, heç yana tərpənmir, ordusuna və Ali Baş Komandanına güvənərək təsərrüfat işlərinə davam edir.

Cənab İlham Əliyevin Qarabağa bu səfəri yeni reallıqları və əsl həqiqətləri bir daha dünyaya nümayiş etdirdi, orduda və xalq arasında böyük rəğbət və ruh yüksəkliyi yaratdı!

Elə bir ruh yüksəkliyi ki, onun bir əmri ilə xalqa və ordumuza qısa müddətdə mənfur düşməni torpaqlarımızdan qovmağa kifayətdir!

***“Azərbaycan” qəzeti,***
***4 aprel 2016-cı il***

# Sərkərdə mətinliyi və qətiyyəti

*Ali Baş Komandan İlham Əliyev işğaldan yenicə azad edilmiş Azərbaycan torpağından düşmənə son xəbərdarlığını etdi*

**Lələtəpə Azərbaycan torpağıdır!**
**Dördgünlük Aprel müharibəsi zamanı işğaldan azad edilib!**
**Və ilk dəfədir ki, Ali Baş Komandan cənab İlham Əliyev düşməndən geri alınmış ərazilərimizə gedərək qəhrəman Azərbaycan əsgər və zabitləri ilə görüşdü, onları hərbi əməliyyatlarda fərqləndiklərinə görə mükafatlandırdı, komanda məntəqəsindən qarşı tərəfi seyr etdi, müvafiq tapşırıqlarını verdi!**
**Həm də düşmənə sonuncu xəbərdarlığını etdi!**

Hazırkı səfərə qədər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində bir sıra hadisələr və dəyişikliklər baş vermişdir. Azərbaycanın son iyirmi ildə ilk dəfə olaraq ərazilərinin bir qismini düşməndən geri alması ilə nəticələnən dəyişikliklər isə cənab İlham Əliyevin rəhbərliyi dövründə ölkə daxilində və beynəlxalq aləmdə, o cümlədən münaqişənin həlli istiqamətində apardığı uzaqgörən və səmərəli siyasətin birbaşa nəticəsidir.

## *"İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək"*

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi "müstəqilliyimizin övladıdır" - desək, yəqin ki, səhv etmərik! Çünki hər dəfə Azərbaycan dövlət müstəqilliyinə can atanda və buna nail olanda Azərbaycanın müstəqilliyini istəməyən dövlətlər və qüvvələr bunun qarşısını almaq üçün min bir məkrli planlar qurmuş, müxtəlif üsullarla ölkəmizdən ərazi qopararaq "alət millət" olan ermənilərə "pay" vermiş, onların dövlətini yaratmağa, ərazilərini genişləndirməyə nail olmuşlar. 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründə baş verən hadisələr də buna parlaq misaldır.

Qırmızı imperiyanın çöküşü zamanı baş verənlər isə tarixin yenidən təkrarlanmasının sübutudur.

Yenə eyni ssenari, yenə eyni qüvvələr...

Təəssüf ki, həmin dövrdə xalq həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən müvəqqəti olaraq aralı düşmüşdü. Azərbaycana rəhbərlik edənlər isə,

görünür, ya tarixin ibrət dərslərindən lazımi nəticələr çıxarmağı bacarmırdılar, ya da maymaq, qətiyyətsiz və təcrübəsiz olduqlarından mövcud proseslərdən baş çıxarmaq, yaxud mənfi meyillərə müqavimət göstərmək iqtidarında deyildilər. Odur ki, torpaqlarımız yenidən işğala məruz qaldı, 20 min vətən övladı şəhid verilərək bir milyon qaçqın və məcburi köçkün ordusu yarandı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yönündə görülən işləri üç şərti mərhələyə ayırmaq olar. Birinci mərhələyə Ulu Öndər Heydər Əliyevin gördüyü işlər daxildir. Buna qədər Azərbaycanın həm özünün, həm də o dövrdə ölkəyə rəhbərlik edənlərin bu mürəkkəb məsələnin qarşısının alınmasında və çözümündə siyasi-psixoloji hazırlıq və qabiliyyətlərinin lazımi səviyyədə olmadığını görürük. Onlar ya başlarını itirir, ya mərkəzin (Moskvanın) itaətindən çıxmağı bacarmır, ya da "demokrat olduqları üçün" kiminsə torpağı onlara qaytaracağına bel bağlayırdılar. Nəticədə nə vaxtında ordu yaradıldı, nə torpaqların müdafiəsi təşkil edildi, nə beynəlxalq aləmdə iş aparıldı, nə də BMT-nin qəbul etdiyi qətnamələrin dərhal icrasına nail olundu. Hətta Ulu Öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərək Dağlıq Qarabağ məsələsinin kökünün dərinliklərdə olduğunu və onun həllinə xüsusi yanaşma tələb edildiyini söyləyərək səmərəli təkliflərini verəndə ona qulaq asmaq istəmədilər. Sonradan ağrı-acısını isə tək keçmiş rəhbərlik yox, bütün Azərbaycan xalqı çəkəsi oldu!

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyev ilk günlərdən münaqişənin həllinə ciddi diqqət yetirməyə başladı və bir sıra mühüm addımlar atdı. 1994-cü ilin yanvarında onun rəhbərliyi ilə Füzuli rayonunda uğurlu hərbi əməliyyat keçirilərək Horadiz qəsəbəsi və 22 kənd işğaldan azad edildi. Düşmən Heydər Əliyevin qayıdışı ilə müharibənin gedişində mühüm dəyişikliyin baş verdiyini anlayaraq atəşkəs müqaviləsi imzalamalı oldu. Beləliklə, yeni ərazilərin işğalının da qarşısı alındı.

İkinci vacib məsələ ordu quruculuğuna başlanılması oldu. Ayrı-ayrı partiyaların və insanların maraqlarına xidmət edən qeyri-qanuni silahlı birləşmələr ləğv edildi, əhalidəki qanunsuz silah-sursat toplandı, möhkəm və dönməz sabitlik yaradılaraq milli ordunun formalaşdırılması prosesi sürətləndirildi.

Müstəqilliyin ilk illərində Azərbaycanın beynəlxalq aləmə çıxan informasiya və mətbu orqanları yox idi. SSRİ-nin informasiya resurslarından istifadə edən Ermənistan beynəlxalq aləmdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz xeyrinə təhrif olunmuş rəy formalaşdırmış, bizim haqqımızda isə "vəhşi millət", "zavallı erməniləri sıxışdıran xalq" imici yaratmışdı. Ulu Öndər yüzlərlə

jurnalistin görə bilmədiyi işi təkbaşına həyata keçirərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında əsl həqiqətlərin dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara və ayrı-ayrı dövlətlərə çatdırılmasına nail oldu.

Daha bir həlledici addım isə ATƏT-ə üzv ölkələrin Lissabon şəhərində keçirilən sammitində atıldı. Azərbaycan Prezidenti Heydər Əliyevin təkidi sayəsində "ölkələrin ərazi bütövlüyü prinsipi"nin "millətlərin öz müqəddəratını təyinetmə hüququ"ndan üstün olması fikrini əsaslandıran müddəanın qəbul edilən sənədlərə əlavə edilməsinə nail olundu. Ömür vəfa etmədiyindən Ulu Öndər başladığı işləri sona çatdıra bilmədi. Gördüyü nəhəng işlərlə yanaşı, öz layiqli siyasi varisini də yetişdirərək bizi cismən tərk etdi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev özündən əvvəl görülən işləri daha da inkişaf etdirərək yeni mərtəbəyə qaldırdı.

Müasir dövrdə müharibə cəbhəsində qələbə əldə etmək üçün ilk növbədə iqtisadi sahədə və beynəlxalq aləmdə uğur və nüfuz qazanaraq buna təməl yaratmalısan. Cənab İlham Əliyevin gördüyü işlər müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatın gücləndirilməsi, xalqın rifahının yüksəldilməsi və digər problemlərin müvəffəqiyyətli həlli ilə yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də ölkəmizin ərazi bütövlüyü əsasında çözümünə xidmət etmişdir.

Onlar hansılardır:

Əvvəla, Azərbaycan sürətli inkişaf yolu keçərək iqtisadiyyatını üç dəfə artırdı, dünya üzrə ən yüksək ÜDM istehsalına nail oldu. Müharibə həm də ölkələrin iqtisadiyyatından asılıdır və onun hər dəqiqəsi pul tələb edir. Odur ki, bu sahədə düşmənlərimizi xeyli üstələdik.

İkincisi, "hücum diplomatiyası" konsepsiyasını elan edən cənab İlham Əliyev Ermənistanın işğalçılıq əməllərinin beynəlxalq qurumlarda və dünya ölkələrində ifşasına start verdi. Artıq bütün dünya əsl həqiqətləri bilir. Və Ermənistanın işğalçı olduğu Avropa İttifaqının, AŞ PA-nın, İƏT-in, NATO PA-nın və digər qurumların qəbul etdikləri sənədlərdə öz əksini tapmışdır. Ondan çox ölkənin parlamenti Xocalı faciəsini soyqırımı kimi təsdiq etmişdir.

Üçüncüsü, münaqişənin sülh yolu ilə həllinə çalışan Azərbaycan müharibə variantını da heç vaxt istisna etməyib. Çünki Ermənistan rəhbərliyi hər vəchlə sülh danışıqlarından yayınır, ATƏT-in Minsk qrupu, habelə həmsədr dövlətlər onun şıltaqlıqlarına "akademik dözümlülük" göstərir, BMT Təhlükəsizlik Şurası isə öz nüfuzunun və qəbul etdiyi dörd qətnamənin icrasının qayğısına qalmır.

Azərbaycan Ordusunu Cənubi Qafqazın (həm də dünyanın) ən güclü və modern ordusuna çevirən cənab İlham Əliyev ordumuzun ən yeni texnologiyalara əsaslanan müasir silahlarla silahlandırılmasını diqqət mərkəzində saxlayır və buna lazım olduğu qədər vəsait ayırır.

Dördüncüsü, artıq Azərbaycanın özünün oturuşmuş Müdafiə Sənayesi vardır və orduya gərək olan silah-sursatın bir qismini özümüz istehsal edirik.

Bütün bunlar özünün məntiqi sonluğuna çatdı:

Cari ilin aprelində erməni təxribatına cavab verən Azərbaycan Milli Ordusu 2000 hektardan çox ərazini işğaldan azad edərək bir o qədərini də nəzarəti altına aldı! Aprel əməliyyatını yüksək qiymətləndirən Ali Baş Komandan İlham Əliyev demişdir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir".

## *"Ermənistan rəhbərliyi başqasının gücünə güvənməsin"*

Ermənistan marionet və monoetnik ölkəyə çevrilmişdir.

Dünyaya multikulturalizm nümunəsi göstərən Azərbaycanda isə onlarca etnos yaşayır.

Otuz mindən çox erməninin ömür sürdüyü ölkəmizə "erməni qonaqları"nın gəlməsi nadir hadisə deyil!

Biz heç zaman xoş niyyətlə gələnləri qapıdan qovmamışıq!

Bu günlərdə üç Ermənistan vətəndaşının Azərbaycana gəlişi də adi səfərlərdən biri sayıla bilərdi. Hərgah onu qeyri-adi edən müəyyən nüanslar olmasaydı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin gördükləri işlər barədə qısaca danışdıq. Bu işlərin yekununda aprel ayında baş verənləri isə təkcə Ermənistan yox, bütün dünya gördü və bildi! Reallıq budur ki, blokada vəziyyətinə salınan Ermənistan iflas həddindədir. Korrupsiyalaşmış kriminal ölkə rəhbərliyi ilə xalq arasında dərin uçurum yaranmış, dövlət müstəqilliyini itirən Ermənistan forposta, özgəsinin quberniyasına çevrilmişdir. Hazırda təkcə Dağlıq Qarabağda yox, Ermənistan ərazisində yaşayan on minlərlə sadə erməni də Ermənistanın cinayətkar rəhbərliyinin girovuna çevrilib. Onlar dilənçi şəraitində, daim səksəkədə, müharibənin yenidən alovlanacağı qorxusu və ölüm təhlükəsi altında əsir həyatı sürməkdədirlər. Rüşvət vermək imkanı olan ermənilər çoxdan ailələrini də götürərək bu dilən-

çi və perspektivsiz ölkəni atıb xaricə gediblər. Yerdə qalanlar qocalar, əlsiz-ayaqsızlardır. Onlar isə Azərbaycanın nə vaxtsa öz torpaqları ilə bərabər onları da girovluqdan azad edəcəyini, iqtisadi imkanlarımızdan barınaraq insan kimi yaşayacaqları günü gözləyirlər. Biz də Azərbaycan Respublikasının Konstitusiyasını qəbul edərək əvvəlki kimi ərazimizdə dinc fəaliyyət göstərəcək ermənilərlə birgə yaşamağa hazır olduğumuzu dəfələrlə söyləmişik. Sadəcə, problem biz tərəfdə deyil, erməni tərəfindədir!

Ən nəhayət, Azərbaycan Prezidenti cənab İlham Əliyev Rusiyanın "Sputnik" Agentliyinə verdiyi müsahibəsində "Dağlıq Qarabağa muxtar respublika statusu verilə bilər" deməklə güzəştin son həddini də müəyyən etdi.

Beləliklə, ya sülh, ya müharibə seçimi özünün pik həddinə çatdı!

Əgər dördgünlük Aprel müharibəsi və onun Ermənistanı şoka salan nəticələri olmasaydı, heç kəs, xüsusən ermənilər vəziyyətin dalana dirəndiyini və kəskinliyini aydınlığı ilə dərk etməzdilər. Artıq Ermənistan cəmiyyəti müharibənin birinci mərhələsinin eyforiyasından ayılıb və növbəti mərhələnin onlar üçün fəlakətlə nəticələnəcəyinin qaçılmazlığını dərk edir! Ermənistanın kriminal rəhbərliyi ilə reallığı dərk edən erməni toplumu arasındakı kəskin fikir ayrılığı və qarşıdurmanın ən yüksək səviyyəyə çatması da məhz bu səbəbdəndir. Artıq erməni xalqı bu qarşıdurmada kriminal ölkə rəhbərliyinə qalib gəlməsə, münaqişə beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsi əsasında həllini tapmasa, hansı fəlakətlərə düçar olacağını yaxşı anlayır. Hamı başa düşür ki, Azərbaycanla müharibə onlara heç nə qazandırmadı, özgə torpaqlarını işğal etməklə heç nə yiyəsi olmadılar! Əksinə, forpost dövlətə çevrilməklə müstəqilliklərini itirdilər, övladlarını onların olmayacaq torpaqlara görə qurban verdilər və nə qədər ki ağıllanmayıblar, yaxşılığa doğru heç bir dəyişiklik baş verməyəcəkdir!

Bütün bu fikirləri Bakıya gələrək beynəlxalq tədbirdə çıxış edən Ermənistan vətəndaşlarının dillərindən eşitdik. Ermənistanın "Milli Azadlıq Hərəkatı" Təşkilatının rəhbəri Vaan Martirosyan, yazıçı-publisist, ictimai xadim Vahe Avetyan və "Meridian" Qeyri-Hökumət Təşkilatının sədr müavini, hüquq müdafiəçisi Suzanna Caqinyan əvvəlcə Bakıdakı "Xocalı soyqırımı" abidəsini ziyarət edərək bu günahsız qurbanların xatirəsi önündə baş əydilər. Sonra "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: əsas maneələr və nizamlama perspektivləri: Ermənistan və Azərbaycandan baxış" mövzusunda beynəlxalq konfransda fikir və düşüncələrini iştirakçılarla bölüşdülər. Onların dediklərindən bəzi sitatlar gətiririk.

Ermənistanın "Milli Azadlıq Hərəkatı" Təşkilatının rəhbəri, hüquq müdafiəçisi Vaan Martirosyan:

* "Ermənistanda hakimiyyəti güc yolu ilə tutan və Xocalı soyqırımını törədən iqtidar indi də öz xalqına qarşı soyqırımı törədir. Bu hakimiyyət qaldıqca, tərəflər arasında sülh olmayacaq".
* "Ermənistan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin həllini istəmir. Belə desək, onlar bu münaqişədən qidalanırlar. Əgər münaqişə həll olunsa, onların avtoritar rejimi çökəcək".
* "Hazırda Ermənistan cəmiyyətində açıq şəkildə bildirirlər ki, Qarabağ onlara müsbət heç nə verməyib. Son 2-3 ildə müxalifətin mitinqləri və ya başqa toplantılar zamanı insanlar Qarabağ münaqişəsinin onlara ağrı-acı və nifrətdən başqa heç nə vermədiyini etiraf ediblər".
* "Referendum olsa, əhalinin 80 faizi Azərbaycanın tərkibində qalmağı seçəcək. Çünki Qarabağda insanlar ehtiyac içində yaşayırlar. Onların içməyə suları belə yoxdur."
* "Ermənistan ordusunun gücü hazırda hər hansı orduya cavab verəcək səviyyədə deyil. Orduda xidmət edənlərdə vətənpərvərlik yoxdur. Qeyri-döyüş itkiləri artıb. Hamımız bilirik ki, bu müharibə Ermənistanın iflası ilə bitəcək."
* "Ermənistan hakimiyyəti militarist, şovinist və faşist siyasəti yürüdür."
* "Dağlıq Qarabağ ətrafındakı yeddi rayon dərhal Azərbaycana qaytarılmalıdır. Erməni xalqı da sülh istəyir. Ancaq Sarkisyan rejimi bu xoş niyyətin reallaşmasına imkan vermir. Azərbaycanda 30 min erməni rahat yaşayır. Bu da onu göstərir ki, ermənilərin Azərbaycanda sülh şəraitində yaşaması üçün heç bir maneə yoxdur."

Erməni publisist, yazıçı və ictimai xadim Vahe Avetyan:

* "Mən bura həm yazıçı, həm də vətəndaş kimi gəlmişəm. Bir neçə məcburi köçkünlə görüşmüşəm, “Xocalı soyqırımı” abidəsini ziyarət etmişəm. “Xocalı soyqırımı” abidəsinin qarşısında, günahsız insanların qarşısında baş əymişəm".
* "Ermənistanın beynəlxalq hüquqa saymazyana münasibəti uzun müddət davam edə bilməz. Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir".

"Meridian" Qeyri-Hökumət Təşkilatının sədr müavini, hüquq müdafiəçisi Suzanna Caqinyan:

* "Ermənistanda Qarabağ münaqişəsinin sülh yolu ilə həllini arzulayan insanlar çoxdur. Əgər Serj Sarkisyan və Robert Köçəryan kimilər mühakimə olunmasa, 20 ildən sonra erməni xalqı qalmayacaq".
* "Serj Sarkisyan erməni xalqını talan edir. O, prezident yox, işğalçıdır. Serj Sarkisyan erməni xalqına qarşı soyqırımı həyata keçirib".
* "Dağlıq Qarabağ münaqişəsi erməni xalqına, Dağlıq Qarabağda yaşayan ermənilərə faciə və göz yaşları gətirib, bundan başqa heç nə bəxş etməyib. Yalnız Serj Sarkisyan kimilər bundan istifadə edərək hakimiyyəti ələ keçiriblər".
* "Mən Azərbaycan xalqına qarşı törədilən müsibətlərə görə Ermənistan xalqı adından azərbaycanlılardan üzr istəyirəm".

Ermənistan vətəndaşlarının söylədiklərinin hamısı həqiqətdir. Hətta müharibənin hər iki xalqa gətirdiyi faciə və fəlakətlərin miqyası baxımından bu, bəlkə də azdır!

Şübhə etmirik ki, bu həqiqətləri təkcə Dağlıq Qarabağda yaşayan erməni millətindən olan ermənilər yox, Ermənistan ərazisindəki sadə ermənilər də çoxdan dərk ediblər!

Bu gün onları danışmağa, əsl həqiqətləri ucadan söyləməyə sövq edən təkcə "vicdanları" deyil! Həm də yaranmış situasiyadır! Azərbaycan tərəfinin apardığı uğurlu siyasətdir ki, artıq Ermənistan dilənçi forposta çevrilib. Kriminal rəhbərlik ölkəni dirçəldə, dövləti idarə edə bilmir! Əslində, rəsmi Yerevan deyilənlərin itaətkar icraçısıdır!

Aprel müharibəsində Azərbaycan Ordusunun gücünü və imkanlarını gördən sonra torpaqları daha saxlaya bilməyəcəklərini də aydın dərk edirlər!

Müharibənin baş verəcəyi təqdirdə Ermənistanın kriminal rejimi təkcə Dağlıq Qarabağı itirəcəyini deyil, forpost dövlətini də məhv edəcəyini gözəl anlayır!

Ermənistanlı gənc Dağlıq Qarabağda özgə torpağı uğrunda müharibədə ölmək istəmir! Onun valideyni də buna qarşıdır, amma əllərindən heç nə gəlmir!

“Su meymunun boğazına çıxanda, balasını ayağının altına qoyar” - demişlər!

Bu gün erməni vətənpərvərlərini danışdıran vəziyyətin kritikliyini, dramatikliyini başa düşmələridir. Artıq anlayıblar ki, özgə torpağına yiyələnmək iddiası onları öz torpaqlarından, vətənlərindən də məhrum edə bilər! Bu gün Ermənistan özü də daxil olmaqla heç bir dövlət və beynəlxalq qurum Dağlıq Qarabağı nə müstəqil qurum, nə də Ermənistan torpağı kimi tanıyır!

Heç tanımayacaqlar da!

Ağlı başında olanlar Ermənistanın və erməni xalqının xilası qayğısına qalmalıdırlar!

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Lələtəpədən verdiyi mesajlar da bunu sübut edir!

"Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır".

Azərbaycan tərəfi belə hesab edir ki, işğal altındakı torpaqları sülh yolu ilə boşaltmaq üçün Ermənistana verilən müddət başa çatıb!

Ali Baş Komandan cənab İlham Əliyev əbəs yerə əyninə hərbi paltar geyinərək yenicə işğaldan azad etdiyi Lələtəpə yüksəkliyinə getməyib!

Onun bu səfəri Azərbaycan Silahlı Qüvvələrinin indiyədək keçirilən hərbi təlimlərin ən möhtəşəmi ilə təsadüfən eyni vaxta düşməyib!

Ali Baş Komandan komanda-idarəetmə məntəqəsindən düşmən tərəfi elə-belə seyr etmir!

Sözünün sahibi olan Azərbaycan Prezidentinin hər kəlməsini qarşı tərəf ciddiyə almalıdır!

Həm də düşmənlərimiz unutmamalıdırlar:

* Daha Azərbaycandan zorla torpaq qopara bilməyəcəklər!
* Zəbt etdikləri ərazi onların deyil və geri qaytarmalıdırlar!
* Müharibənin birinci mərhələsinin yekununa görə, özlərini "qalib" hesab etsələr də, əslində, miskin vəziyyətə düşənlərdir!
* Bu müharibə təkcə Azərbaycana dağıntı və fəlakət gətirməyib, erməniləri də qaçqın və dilənçi gününə salıb!
* Ermənistan təcrid vəziyyətinə düşərək dövlət müstəqilliyini itirib!
* Ermənilər kütləvi şəkildə təkcə Dağlıq Qarabağı yox, Ermənistanı da tərk etməkdədirlər!
* Təcrid vəziyyətinə düşməklə uzun illər fayda götürə biləcəkləri yüksək gəlirli beynəlxalq layihələrdən əlləri çıxıb və belə davam edərsə, heç zaman transmilli layihələrə qoşula bilməyəcəklər!
* Qonşu dövlətlərlə düşmənçilik daha çox onların özünə ziyan vurur!
* Nə qədər ki Ermənistana indiki kriminal insanlar başçılıq edirlər, nə Ermənistan müstəqil dövlət olaraq inkişaf edəcək, nə də erməni xalqı bir gün görəcək!
* Xilas yolu Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi variantla razılaşmaq və məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə razılıq verməkdir!

Ali Baş Komandan cənab İlham Əliyevin Lələtəpədə söylədiklərindən bəzi məqamları bir daha xatırladırıq:

- "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq".

- "Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var".

- "İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək".

- "Aprel döyüşləri Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun gücünü göstərdi. Düşmənə döyüş meydanında sübut etdi ki, biz güclüyük. Biz ermənilərin uzun illər ərzində yaratdıqları mifi, yalanı dağıtdıq ki, guya, onların belə güclü ordusu var. Bu gün döyüş meydanında biz sübut etdik ki, kimin ordusu güclüdür, kimin ordusu nəyə qadirdir".

Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində baş verən dəyişikliklər və gəlişmələr ən əvvəl:

* Ağıllı və uzaqgörən siyasətin nəticəsidir;
* İqtisadi nailiyyətlərin və islahatların bəhrəsidir;
* Həqiqətin və ədalətin qələbəsidir;
* Güclünün zəifi üstələməsidir;
* Azərbaycan xalqı ilə iqtidarın sarsılmaz birliyinin və xalqın dəstəyinin bariz sübutudur.

İnsanlar müharibələrdən, axıdılan qanlardan, inqilablardan və qaçqın həyatı sürməkdən beziblər!

Dönüş və dəyişiklik ən uzunsürən münaqişələrdən sayılan Dağlıq Qarabağdan başlanmalıdır!

Ermənistan qeyd-şərtsiz qoşunlarını işğal etdikləri ərazilərdən çıxarmalıdır!

Bu, ilk növbədə, onun özü üçün, dövlət və millətin xilası naminə gərəkdir!

Əgər yenidən müharibəyə başlasalar, tökdükləri qanın içində boğulacaqlar!

Bunu müzəffər Azərbaycan Ordusu, onun mətin və qətiyyətli sərkərdəsi edəcəkdir!

***"Azərbaycan" qəzeti,***
***16 noyabr 2016-cı il***

# Azərbaycan əsgəri erməni generallarını işdən necə qovdu!

**Hər bir əsgər general olmağı arzulayır!**
**Hər generalın komandanlığı altında isə yüzlərlə əsgər olur!**
**General istədiyi vaxt əsgər və zabiti tərifləyə, tənbeh edə, rütbəsini artıra, aşağı sala və ya mükafatlandıra bilər!**
**Əsgərin isə generalın əmrlərinə "baş üstə" deyərək, əməl etməkdən başqa səlahiyyəti yoxdur!**
**Sən demə, Azərbaycan əsgəri daha böyük "səlahiyyət" sahibiymiş!**
**O, hətta generalları işdən qovdurmağı, yüksəkçinli zabitləri həbs etdirməyi də bacarırmış!**
**Necə, nə sayaq?**
**2016-cı ilin dördgünlük Aprel müharibəsində olduğu kimi!**

Azərbaycan əsgəri bir həmləyə Ermənistan ordusunun 3 generalını işdən qovdu!

Onlar Alik Mirzəbekyan, Arşak Karapetyan və Komitas Muradyandır.

Alik Mirzəbekyan Ermənistan ordusunda maddi-texniki təchizat məsələlərinə baxırdı. Arşak Karapetyan baş qərargahın kəşfiyyat idarəsinin, Komitas Muradyan isə rabitə qoşunlarının və avtomatik idarəetmə sistemlərinin rəisi vəzifələrini daşıyırdılar.

Doğrudur, hər üç generalın işdən qovulma əmrlərini Ermənistan prezidenti Serj Sarkisyan verib! Amma, necə deyərlər, halvalarını Azərbaycan əsgəri çalıb!

Özü də bir gecədə!

Aprelin 1-dən 2-nə keçən gecə!

Buna qədər Serj Sarkisyan elə bilirdi ki, Ermənistan ordusu hələ də Azərbaycan Ordusundan güclüdür. Sülh danışıqlarına yaxın durmur, burnunu dik tuturdu. Hərçənd ki, danışıqlar prosesində məsələ ciddiləşəndə onu qarınağrısı tuturdu. Hətta buna görə "qarınağrısı diplomatiyasının banisi" sayılırdı. Hər vəchlə sülhdən qaçırdı.

Azərbaycan əsgəri öz hünəri ilə onun da burnundan vurub aşağı saldı!

Üstəlik, ordusunun korrupsioner generallardan, qorxaq zabitlərdən və fərarilərdən - silahını atıb qaçan əsgərlərdən təşkil edildiyini sübuta yetirdi!

İndi həmin generalları həbsxana gözləyir. Çünki orduya ayrılan vəsaiti basıb yeyiblər və hərbi əməliyyatlar zamanı, əvvəla, çox ağır itkilərə (texniki və canlı qüvvə sarıdan) yol veriblər, həm də öhdələrindəki texnika nasaz olub!



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il




**Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsi.** 2 aprel 2019-cu il



**Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsi.** 2 aprel 2019-cu il



**Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi.** 26 iyun 2014-cü il



**Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsi.** 2 aprel 2019-cü il

Əslində, bunlar Ermənistan ordusu üçün təzə xəbər deyil!

Kriminal ölkə rəhbərliyinin korrupsioner ordu yaratdığını hamı gözəl bilirdi!

Aprel ayından sonrakı həbslər də bunu göstərirdi. Bu dəfə Ermənistan Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat İdarəsinin rəisi general-mayor Mels Çilingəryan, polkovniklər Mqer Papyan və Armen Marqaryan həbs olundular. Nazirliyin avtomobil xidmətinin rəisi polkovnik David Abramyan da həbs edilib. Hərbi əməliyyatlar zamanı qaçıb gizlənən, döyüşlər səngiyəndən sonra üzə çıxan polkovnik, Mataqik polkunun komandiri Arutyun Əmirxanyan isə işdən azad edilib.

Adi əsgərlərimizdə olan gücə, qüdrətə baxın ey!

Əslində, Azərbaycan əsgəri həmişə qorxmaz və güclü olub. Sadəcə, onları vaxtında səfərbərliyə alan, təlim keçən, silahlandıran, hərb elminin tələbləri əsasında düşmən üzərinə aparan yox idi!

Bir ölkənin ki müdafiə naziri ortabab riyaziyyat müəllimi ola, o, düşmənə üstün gələ bilərdimi?

Hələ satqınlığı demirik...

Qarabağ müharibəsi başlayanda Azərbaycanın mərd oğulları silaha sarıldılar. Ürəklərinin səsi ilə, heç bir çağırış vərəqi gözləmədən yüzlərlə gənc Qarabağa gedərək könüllü özünümüdafiə batalyonlarına qoşuldular.

Hünər də, qeyrət də vardı!

Ancaq o zaman belələrinə nə silah-sursat verən vardı, nə də torpaqların müdafiəsini dövlət səviyyəsində təşkil edən!

Ordu yaradılması prosesi də yubadılırdı.

AXC-Müsavat iqtidarının hakimiyyətə gəlməsi vəziyyəti bir qədər də qəlizləşdirdi. Başları xalqın var-dövlətini satıb-sovurmağa qarışan "bəy"lər səriştəsizliklərini dərk etmir, torpaqların müdafiəsini qura bilmirdilər. Əslində, bu barədə heç düşünmürdülər də! Laçını, Şuşanı müdafiə etməli olan zirehli texnika və canlı qüvvə Bakının küçələrində cövlan edərək hakimiyyəti zorla qəsb etməklə məşğul idi.

Hərə özünə bir silahlı dəstə yaradaraq öz iddialarını təmin etməyə çalışırdı.

Düşmən isə belə vəziyyətdən bacarıqla istifadə edirdi. Həm də havadarları təkcə onlara yol göstərib müdafiə etmirdi. O dövr üçün üstün sayılan silahlarla silahlandırır, hərbi əməliyyatların keçirilməsini hazırlayır, döyüşlərdə muzdlular vasitəsilə iştirak edirdi.

Silahsız, arxasız və köməksiz qalan Azərbaycan əsgəri özünü qurban versə də, torpaqları qoruyub saxlaya bilmədi!

Xalq ayağa qalxaraq qorxaq, təcrübəsiz və səriştəsiz iqtidarı rədd etdi, sınanmış və sədaqətli oğlu Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə qaytardı. Həqiqi sərkərdəsinə qovuşan ordu qısa müddətdə ilk qələbəsini qazandı, Horadizi düşməndən azad etməklə öz sözünü dedi!

Böyük təcrübə və iradə sahibi olan Ulu Öndər Heydər Əliyev ordu quruculuğu məsələlərini də diqqət mərkəzində saxlayırdı. Bir vaxtlar onun dəstəyi və köməyi ilə keçmiş SSRİ-nin müxtəlif hərbi məktəblərini bitirərək sovet ordusunda xidmət edən zabitlər geriyə qayıdaraq müstəqil dövlətin yeni yaradılan ordusunda xidmət etmək arzularını bildirirdilər. Proses çətin və ağır olsa da, külli miqdarda vəsait tələb etsə də, dahi rəhbər Milli Ordu quruculuğunu bir an belə unutmurdu. "Əsrin müqaviləsi"ndən gələn gəlirlərin ilk növbədə yönəldildiyi ünvanlardan biri də məhz Azərbaycan Ordusu idi!

Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyev başlanan işi böyük uğurla sona çatdıraraq Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü, ən müasir silahlı qüvvəsinə çevirdi.

Ali Baş Komandan İlham Əliyevin sərkərdəsi olduğu Azərbaycan Ordusu növbəti imtahanını 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə verdi.

Bu, təkcə imtahan yox, həm də özündənrazı Ermənistana, onun generallarına, əsgər və zabitlərinə yaxşıca bir qulaqburması və dərs idi!

Düşmən hələ də ağrıyan qulağını ovxalamaqda və verilən dərsdən "nəticə çıxarmaqdadır!"

Bu dərsin əsas nəticəsinin nədən ibarət olduğunu isə qondarma Dağlıq Qarabağın "müdafiə ordusunun" sabiq komandanı Samvel Babayan (Syoma) deyib. Sabiq komandan öz rəhbərliyini lağa qoyaraq əsl həqiqəti dilə gətirib: "Bakıda çay içəcəyik" deməklə iş bitmir. Bakıda çay içmək olar, ancaq mən qorxuram ki, qarşı tərəf tezliklə İrəvana çatacaq və burada çay içəcək!"

Haqlı olaraq qorxan təkcə hərbçilər deyil! Dağlıq Qarabağda yaşayan mülki əhali də qorxusundan bölgəni tərk etməkdədir. Bütövlükdə isə bir dövlət kimi müstəqilliyini və hər cür perspektivini itirən Ermənistan özü boşalmaqdadır.

Əslində, işğal olunan torpaqların bir qismi ilə bərabər başını da itirən Serj Sarkisyan yenə də səhv edir, "günahsız generalları" işdən çıxarır.

Onların nə təqsiri var?

Onları o günə salan artıq güclənərək özünə inamı artan Azərbaycan əsgəridir!

Əslində, generalları işdən qovan da Azərbaycan əsgəridir!

Serj Sarkisyan yalnız məsələnin dəftərxana tərəfini həll edir!

Bu hələ harasıdır!

Torpaqlarımızdakı erməni generallarının hamısını qovacağıq!

Həm də təkcə generalları yox, bütün cinayətkar komandir, zabit və qorxaq əsgərləri düz Yerevana qədər qovacağıq!

Dünyanın ən yalançı prezidenti sayılan Serj Sarkisyan isə belədə heç kəsə cəza verə bilməyəcək!

Çünki ağlı başına gələn erməni xalqı onu və komandasını özü cəzalandıracaqdır!

Azərbaycan əsgəri isə, həqiqətən, güclüdür!

Əvvəla, öz torpaqlarındadır və mifik yunan qəhrəmanı Antey kimi daim doğma torpaqdan güc alır!

İkincisi, doğma el-obaya, xaraba qalmış yurda sonsuz qayıtmaq istəyi onu daim qüdrətli və yenilməz edir!

Üçüncüsü, ən müasir silahlarla silahlanıb və onlardan məharətlə istifadə etməyi bacarır!

Dördüncüsü, komandirləri, zabitləri ilə birgə yaxşı təlim keçib, peşəkarlığını, təcrübəsini xeyli artırıb!

Ən nəhayət, Azərbaycan əsgərinin Ali Baş Komandanı cənab İlham Əliyevdir!

ALİ BAŞ KOMANDANIMIZ:

* Əsgər və zabitlərini, onlar isə öz sərkərdələrini sevir və daim uca tuturlar;
* Cənab İlham Əliyev hər zaman ordu ilə birlikdədir. İldə bir neçə dəfə təmas xəttinə, ön səngərlərə gedir, əsgər və zabitlərlə görüşür, çay süfrəsi arxasında əyləşir;
* Ordunu ən yeni texnologiyaya əsaslanan bütün növ silahlarla silahlandırıb, ölkədə müasir müdafiə sənayesi yaradaraq silah-sursat istehsalını qaydaya salıb;
* Hər il ordunun ehtiyaclarının dolğun ödənilməsi üçün kifayət qədər - hətta bütövlükdə Ermənistanın dövlət büdcəsindən artıq vəsait ayırır;
* Azərbaycanın ədalətli mövqeyinin dünyada bilinərək müdafiə edilməsi üçün düzgün xarici siyasət yürüdür;
* Tez-tez təmas xəttində təxribat törədən, dinc əhalini və yaşayış evlərini atəşə tutan düşməni istənilən vaxt yerində oturtmağı bacarır;
* Müharibənin gedişində həlledici, tarixi dönüşə nail olub!

Öz xalqını dilənçi, dövlətini forpost və vassal vəziyyətinə salan Ermənistan rəhbərliyi anlamalıdır ki, bu xına o xınadan deyil!

Boş yalanlarla xalqı aldatmağının sonu çatıb!

Ya sülh danışıqlarına gələrək torpaqları qeyd-şərtsiz boşaltmalı, ya da...

Artıq Azərbaycan əsgərinin səbri tükənib!

Onun və silahının gücü isə daha hamıya bəllidir!

***"Azərbaycan" qəzeti,***
***26 iyun 2016-cı il***

# Heydər Əliyevin düşməndən geri aldığı kəndə İlham Əliyev qayıdışı təmin etdi

*"Böyük Qayıdış"a start verildi*

**Çox şükür, nəhayət, bu günü də gördük!**
**Jurnalist üçün düşməndən geri alınmış kəndə həmvətənlərinin geriyə qayıdışından yazmaqdan böyük peşə sevinci olarmı? Təsəvvürə gətirmək mümkün deyil!**
**Axı bu günü nə qədər gözləmişik: həsrətlə, ağrı-acılarla, ümid və ümidsizliklə, hətta bəzən qəzəblə!**
**Amma həmişə inanmışıq ki, Ulu Öndər Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edəcək!**
**Bu gün də əminik ki, Heydər Əliyevin başa çatdıra bilmədiyi işləri Prezident İlham Əliyev uğurla davam etdirərək gözlənilən və istənilən nəticəyə nail olacaq!**
**Xalq heç zaman inamında və sevgisində səhv etmir!**

Cənab İlham Əliyevin 24 yanvar 2017-ci ildə imzaladığı sərəncamda deyilir: "Ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da tarixən burada yaşamış dinc əhalinin öz doğma yurduna qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır".

Bu məqsədlə dövlət başçısı Prezidentin Ehtiyat Fondundan ilkin olaraq dörd milyon manat ayırmış, zəruri tapşırıq və göstərişlərini vermişdir!

Bu, həm də "Böyük Qayıdış"a start verilməsi deməkdir!

Gözün aydın, Vətən, ən böyük istəyin gerçəkləşir!

Gözün aydın, məcburi köçkün qardaşım və bacım, həsrətinə son qoyulmasına başlanır!

Gözün aydın, Azərbaycan, gücün və nüfuzun öz bəhrəsini verir!

## *Münaqişənin gedişində yeni mərhələ*

Əslində, bu "Qayıdış"ın başlanğıcı "Qurtuluş"da qoyulub!

Həm də gördük ki, həqiqi rəhbərindən ayrı düşən xalqın başına hansı müsibətlər gəlir (və ya gətirilir)!

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev uğursuzluqlar silsiləsinə son qoydu. Öz zəkası, nüfuzu, iradə və qətiyyəti ilə xalqı səfərbərliyə almağı, hadisələrin inkişafını düzgün məcraya yönəltməyi bacardı!

Hətta müharibənin gedişində dəyişikliyə nail oldu. Onun rəhbərliyi ilə 1994-cü ilin yanvarında Füzuli rayonunda ilk uğurlu hərbi əməliyyat keçirildi. Nəticədə Horadiz qəsəbəsi və 22 kənd işğaldan azad edildi!

Bu dönüşü görən düşmən atəşkəs müqaviləsini imzalamağa məcbur oldu!

Azad olunan kəndlər sırasında Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də vardı!

Doğrudur, həmin dövrdə insanların kəndə qayıdışı, təhlükəsiz yaşayışının təmini mümkün deyildi. Strateji yüksəkliklər düşmən əlində qaldığından yaşayış məntəqəsi daim atəş altında idi. Ermənilər isə dinc sakinləri, xüsusən qadınları və uşaqları güllə hədəfi seçməkdən "zövq" aldıqlarından insanların təhlükəsiz yaşaması qeyri-mümkün idi. Yalnız bircə ailə bütün qorxu və təhlükələrə üstün gələrək Cocuq Mərcanlını tərk etmirdi.

Tezliklə onların qonşularının və həmkəndlilərinin sayı artacaqdır!

Kəndin və kəndlilərin təhlükəsizliyini və normal yaşayışını isə Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyev təmin etdi!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin maraqlarını qətiyyət və prinsipiallıqla qoruyaraq dövlət başçısının diplomatiya və ordu quruculuğu, Azərbaycanın iqtisadi qüdrətinin və siyasi nüfuzunun durmadan yüksəldilməsi sahəsində gördüyü işlər uğurlu nəticələrini verir.

İlham Əliyev münaqişənin gedişində yeni mərhələnin başlanmasına - məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasına nail oldu!

## *Düşmən qazdığı quyuya düşdü*

Ötən ilin aprel ayının lap əvvəllərində Ermənistanın işğalçı ordusu növbəti dəfə atəşkəsi pozaraq Azərbaycan tərəfini təxribata çəkməyə, "öz gücünü" göstərməyə can atdı. Təmas xəttindəki və döyüş bölgəsinə yaxınlıqdakı kəndlər top, mina, tank və "Qrad" atəşinə tutularaq mülki əhaliyə ciddi ziyan vuruldu. Nəticədə 100-dən çox ev tamamilə dağıdıldı, 500-dən artıq evə isə ziyan dəydi.

Düşmən qazdığı quyuya düşdü.

Azərbaycan Ordusu əks-həmlə ilə Ermənistan ordusuna elə bir toy tutdu ki, səsi indi də qulaqlarından çəkilməyib. Serj Sarkisyanın lovğalıqla təriflədiyi "dağılmaz istehkamlar" və "alınmaz səngərlər" qısa müddətdə darmadağın edildi!

"Güclü erməni ordusu"nun mifdən başqa bir şey olmadığı, Azərbaycan əsgəri qarşısında bir saat belə duruş gətirə bilmədiyi əyani şəkildə göründü!

Nəinki işğal edilmiş yeddi rayondan və Dağlıq Qarabağdan, hətta Ermənistandan da köç başladı: işğal ərazilərində yaşayanlar qorxularından, Ermənistandakılar isə övladlarını orduda xidmətdən yayındırmaq üçün qaçırdılar!

Gedənlər heç də geri dönmək niyyətində deyillər. Çünki yaxşı bilirlər ki, indi yaşadıqları torpaqların sahibi var və əsl sahiblər qayıdacaqlar!

Və artıq qayıdırlar!

Prezident İlham Əliyevin 24 yanvar tarixli sərəncamı isə həmin qayıdışın başlanğıcı, ilkidir!

## *Biz öz torpaqlarımıza qayıdırıq*

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının ötən əsrin doxsanıncı illərinin əvvəllərində qəbul etdiyi dörd məlum qətnamə əsasında həll edilməlidir!

Lakin dünyanın ən nüfuzlu qurumu nə həmin qətnamələri yerinə yetirib, nə də öz nüfuzunun qayğısına qalıb!

Dağlıq Qarabağ problemi ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə nizamlanmalıdır!

Həmsədr dövlətlər (ABŞ, Rusiya və Fransa) nəinki münaqişəni çözüblər, əksinə, hərəsi bir formada işğalçı Ermənistana yardım göstərib və yenə də göstərməkdədirlər!

Azərbaycan isə münaqişənin sülh yolu ilə, BMT Təhlükəsizlik Şurasının yuxarıda xatırladılan qətnamələri, habelə beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tərəfdardır.

Münaqişəni dövlətin birnömrəli problemi elan edən cənab İlham Əliyev onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır və dayanmadan siyasi, iqtisadi, diplomatiya sahəsində prinsipial və qətiyyətli fəaliyyət göstərir. Eyni zamanda ordu quruculuğu məsələlərinə xüsusi diqqət və qayğı göstərir. Məhz bunun nəticəsidir ki, Azərbaycan Ordusu qısa müddətdə dünyanın ən güclü orduları səviyyəsinə yüksəlmişdir!

Dördgünlük Aprel döyüşləri zamanı bunu təkcə düşmən tərəfi deyil, bütün dünya gördü və bildi!

O cümlədən Ermənistanın havadarları da Aprel zəfərinin şahidi oldular!

İşğaldan yenicə azad edilmiş Lələtəpə yüksəkliyinə gedən Ali Baş Komandan cənab İlham Əliyev oradan bütün dünyaya öz mesajını verdi: "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bir gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq".

Sözünün sahibi olan Ali Baş Komandan artıq dediklərini həyata keçirir.

Biz öz torpaqlarımıza qayıdırıq!

## *Qayıdışın mübarək, Azərbaycan!*

Qayıdış Azərbaycan xalqına sevinc və fərəh, Ermənistanın kriminal rəhbərliyinə isə fəlakət bəxş edəcəkdir!

Artıq ağıllanmağa başlayan erməni xalqı bu müharibənin onlara yalnız ölüm, fəlakət, yoxsulluq və köləlik gətirdiyini anlayır!

Nə müstəqil Ermənistan var, nə ölkəyə uzun illər fayda gətirən transmilli layihələr, nə də millətin xoş gələcəyi...

Artıq "Qarabağ kartı" ilə Ermənistan rəhbərliyinə gələn "Qarabağ klanı"nın iç üzü hamıya bəllidir. Bunu ötən ilin noyabrında Bakıya gələn, “Xocalı soyqırımı” abidəsini ziyarət edərək Azərbaycan xalqından üzr istəyən erməni ictimai-siyasi xadimləri - Vaha Avetyan, Vaan Martirosyan, Suzanna Caqinyan və digərləri də etiraf etdilər!

Bəli, İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasət Ermənistanı da, onun ağılsız rəhbərliyini də rəzil duruma salıb! Doğrudur, hələ ki erməni xalqı kriminal rəhbərliyi hakimiyyət kürsüsündən süpürüb ata bilməyib! Serj Sarkisyanın bütün yalan vədləri isə puça çıxıb, özü nüfuzdan düşüb!

İndi Ermənistan və onun marionet rəhbərliyi məhvolma ilə sülh dilemması arasındadır!

Azərbaycan Prezidentinin başladığı "Böyük Qayıdış"ın başlanğıcı isə bu prosesi daha da sürətləndirəcəkdir!

Bəli, məcburi köçkünlərin ən böyük arzusu reallığa çevrilir!

Bu, bütövlükdə Azərbaycan xalqının arzusudur!

Bu, müstəqil Azərbaycanın tarixi nailiyyətidir!

Bu, rəhbəri və sərkərdəsi cənab İlham Əliyev olan Azərbaycanın siyasi, iqtisadi, ordu quruculuğu və diplomatiya sahəsindəki uğurlarının məntiqi yekunudur!

Qayıdışın mübarək, Azərbaycan!

***“Azərbaycan” qəzeti,***
***27 yanvar 2017-ci il***

## Torpağı Vətənə çevirən şəhidlər

**Nə ağırdır əsir ömrü yaşamaq!**
**Daim yadlar əhatəsində olursan!**
**Bir doğma üz görüb, doğma söz eşitmirsən!**
**Üzünə gülən, xoş söz deyən, qayğına qalan olmur!**
**Əksinə, hər dəqiqə aşağılanır, təhqir edilir, işgəncəyə məruz qalırsan!**
**Doğmalardan nigaran, dostlardan, qohumlardan uzaq, daim məşəqqət içində!**
**Hələ aclığı, susuzluğu, insani münasibətin yoxluğunu, havanın isti-soyuqluğunu demirik!**

Bütün bu zülmə ona görə dözməlisən ki, azərbaycanlısan!

Bütün bu zülmə ona görə dözməlisən ki, sənin torpağının əlindən alınaraq başqasına verilməsinə razı deyilsən!

Bütün bu zülmə ona görə dözməlisən ki, arxalı düşmən güclü, sən isə zəif və arxasızsan!

Amma haqlısan!

Hamı, bütün dünya bilir ki, ədalət sənin tərəfindədir!

Bilənlərin də hamısı riyakarlıq edir! Özünü elə göstərir ki, guya, sənə kömək edir! Amma elə köməyin bir adı olur: gizli düşmənçilik!

Əsirlik nə vaxt bitəcək?

Dünya nə zaman ağıllanacaq?

Haqq-ədalət haçan yerini tutacaq?

Bunu nə yerdəkilər bilir, nə də göydəki!

Bəs əgər əsir düşən torpağın özüdürsə, onda necə olsun?!

Danışmağa dili, qaçmağa ayağı, vuruşmağa əli olmayan torpaq?

O torpaq ki, adı Vətəndir!

O torpaq ki, onu şəhidlər qanları ilə yoğuraraq Vətənə çeviriblər!

❖❖❖

Düşmən nə pisliyi bacarırsa, edir!

Evləri dağıdır, ağacları qurudur, meşələri qırır, sərvətləri çapıb-talayır, kənd və şəhərləri xarabalığa çevirir!

Axı onun özü bayquş xislətlidir, xarabalığı sevir, viran qalmış yerdə yaşamaqdan zövq alır!

Dalbadal yalançı hərbi təlimlər keçirərək torpağın sinəsini tankın tırtılları və mərmilərlə param-parça edir!

Amma bütün bunlar gözdən pərdə asmaq üçündür!

Bizdən it kimi qorxur! Aprel müharibəsində bircə həmlə ilə tərifli səngərlərini, "möhkəm" istehkamlarını darmadağın etdik! Tülkü kimi qabağımızdan qaçırdılar, müharibəni dayandırmaq üçün ağalarının və müdafiəçilərinin ayaqlarına düşüb yalvarırdılar!

Təkcə təmas xəttindəkilər yox, qondarma qurumun ərazisində yaşayanlar da şey-şüylərini yığıb aradan çıxırdılar!

Arxalarına baxmadan!

Çünki yaxşı bilirlər ki, torpağın yiyəsi nə vaxtsa öz qisasını alacaq, hesabını soracaq!

Nə qədər ürək-dirək, yeni silahlar versələr də, xeyri yoxdur!

Ürəklərinə xof, canlarına vahimə salmışıq!

Artıq gücümüzü də, silahımızı da gördülər!

Həm də anladılar ki, havadarları haçansa arxalarından qaça bilər, ya da güvəndiyi gələnəcən iş işdən keçər!

❖❖❖

Can Vətən!

Yəqin, sən də bizimçün darıxmısan!

Həm də bizdən də çox!

Birlikdə olanda necə də xoşbəxt idik!

Hər yan gül-çiçək, taləzar idi!

İnsanlar necə də şad-xürrəm, firavan yaşayırdılar!

Demək-gülmək, çalıb-oynamaq, toy-bayram keçirmək...

Həmişə sənə baş əyirdik, alın tərimizlə hüsnünü bəzəyirdik.

Həm də sənə əyildikcə ucalırdıq...

Amma indi...

Yağı tez-tez sinənə od vurur, tüstün ərşə bülənd olur!

Vəhşi heyvanlar: ilanlar, siçovullar, çaqqallar və canavarlar belə murdar sifətliləri görməmək üçün səni tərk edərək bizə tərəf qaçırlar!

Bunu özünə dərd eləmə, axı səndə nə təqsir!

Özü murdar, əməli yaltaq, mayası haram, sözü yalan olanların yanında kim qalar?!

Döz, can Vətən, döz!

Yaman günün ömrü az olar desələr də! Əslində, bu ayrılıq yaman çox çəkdi!

Lap çox!

❖❖❖

Sənin əsirliyin həm də bir sınaq oldu!

Tək həqiqi dostu və düşməni yox, özümüzü də yaxşı tanıdıq!

Sənin necə igid, qeyrətli, qorxubilməz balaların varmış, ey Vətən!

Onlarla həmişə fəxr edə bilərsən!

Bilirik, hamısına qoynunda rahat yer vermisən!

Amma əsirlikdə qalan parçanda da uyumaq həsrətində olanlar çoxdur! Hətta gor evinə köçənlərin bir qismi yerini dəyişmək üçün azad ediləcəyin günü gözləyir! Həm də onu özləri üçün son istəyin icrası, son xoşbəxtlik sayırlar!

Bu gün sənin uğrunda ölmək hamı üçün şərəf hesab olunur!

Hər şəhid övladınla dövlət də, ölkənin hər bir vətəndaşı da qürur duyur!

Hələ görəydin Aprel döyüşlərinin şəhidlərini necə hörmət və ehtiramla dəfn etdilər, izdihama toplaşanlar onların qəhrəmanlığına necə yüksək qiymət verdilər!

Hamı yaxşı bilir ki, şəhid ailəsi, şəhid övladı olmaq elə də asan sınaq deyil! Amma dövlət, mərhəmətli insanlar daim onların yanında olur, ehtiyaclarını qarşılayırlar.

Şəhidlərin oğul balaları isə özlərinə hərbçi sənətini seçərək sənin əsirlikdən azad ediləcəyin günün iştirakçısına çevrilməyə çalışırlar!

Doğrudur, adlarını ATƏT-in Minsk qrupunun həmsədri qoyanlar, "beynəlxalq hüququ", "insan haqlarını" əllərində bayraq edən dövlətlər və qurumlar ikiüzlü siyasətdən və ikili standartlardan əl çəkmirlər. Nə işğalçını öz adı ilə çağırır, nə ona "özgə torpağından çıx" deyir, nə də ona göstərilən yardımı dayandırırlar!

Hətta adını "müsəlman" qoyanlar belə onlara "nəfəs" verir, blokadalarını yüngülləşdirməyə çalışırlar.

Amma xeyri yoxdur!

Erməni xalqı ayılmağa və ağıllanmağa başlayıb. Nümayəndələri Bakıya gəlir, “Xocalı soyqırımı” abidəsini ziyarət edir, törədilən əməllərə görə üzr istəyirlər! Həm də həqiqəti özlərinkilərə ucadan deyirlər: "İşğal olunmuş ərazilərdən çıxmayana kimi dilənçi kökündə yaşayıb, xoş, rahat gün görməyəcəksiniz!"

"Forpost dövlətin marionet başçılarından qurtulmaq, insan kimi yaşamaq vaxtıdır!" - söyləyirlər!

Artıq bu həqiqəti ucadan dilə gətirənlərin sayı günbəgün artır!

Nə deyirik:

Onsuz da biz torpağımızı azad edəcəyik!

Bu, sülh yolu ilə baş versə, daha yaxşıdır!

❖❖❖

Əsir torpaq, sənə o qədər vəd verib əməl etməmişik ki, bəlkə bizə olan ümidlərini itirmisən?

Amma bir həqiqəti bil: nə mümkündürsə, etmişik və edirik!

Diplomatiya sahəsində mühüm uğurlara imza atmışıq!

İqtisadi və siyasi cəhətdən güclü dövlət yaratmışıq!

Ən yeni texnologiyalar əsasında hazırlanmış silahlarla təchiz edilmiş müasir ordu qurmuşuq!

Vətənpərvər və cəsur hərbçilər yetişdirmişik!

Aprel savaşında özündənrazı düşmənə sarsıdıcı zərbə vuraraq xeyli ərazini işğaldan azad etmişik!

Şübhəsiz, səni də azad edəcəyik!

Şübhəsiz, tezliklə sənə də qovuşacağıq!

Onu da bil ki, biz sənsiz qalmayacağıq, sən isə bizsiz qalmayacaqsan!

Kim nə oyun oynasa da!

Kifayət qədər gücümüz də var!

Kifayət qədər ən güclü silahlarımız da var!

İlham Əliyev kimi Ali Baş Komandanımız da var!

Hər bir övladın isə hər an uğrunda şəhid getməyə hazırdır!

Onlardır sənin kimi adi torpağı Vətənə çevirən!

Darıxma! İkinci Apreldə görüşənədək!

***"Azərbaycan" qəzeti,***
***22 fevral 2017-ci il***

# Öndə Ali Baş Komandan idi

**Allah öz bəndələrinə görmək və eşitmək üçün göz və qulaq verir!**
**Bir də görüb-eşitdiyindən lazımi nəticə çıxarmaq üçün ağıl!**
**Bunlarsız insan nə normal yaşaya bilər, nə də xoş güzəranlı sabahın qurar!**
**Uzaq məsafəni "görmək" çətindir.**
**Eşitmək üçün isə yaxın-uzaq yoxdur!**
**Hərçənd ki, kosmosdan peyk vasitəsilə baxmaqla hər şeyi "görüb-eşitmək", nəyin necə olduğunu asanlıqla müəyyənləşdirmək də mümkündür!**

❖❖❖

Bir daha XX əsrin ən dəhşətli faciələrindən biri sayılan Xocalı soyqırımından söhbət açırıq.

Həm də təkcə söhbət açmırıq! Erməni faşizmi tərəfindən insanlığa qarşı ən qəddar cinayətlərdən birinin 25 illiyi ilə əlaqədar ikinci dəfədir ki, "Xocalıya ədalət!" hayqırtısı ilə ümumxalq yürüşü keçiririk.

Bu yürüş sənin üçündür!

Sənin gözünü və qulağını açmaq üçündür!

Eşit, bil, ey Dünya!

Bir gecədə Xocalıda 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər qətlə yetiriblər!

Ona görə ki, onlar azərbaycanlı olublar!

Ona görə ki, onlar dədə-baba torpaqlarından çıxmaq istəməyiblər!

Dinc əhalinin milli mənsubiyyətinə görə kütləvi şəkildə öldürülməsi soyqırımı sayılır!

Soy-qı-rı-mı!!!

❖❖❖

Budəfəki yürüşün önündə də daim dünyanı sülhə, əməkdaşlığa, həmrəyliyə və bir-birinə hörmətə çağıran, müstəqillik yaşı hələ otuza çatmayan dövlətin rəhbəri cənab İlham Əliyev gedir!

O İlham Əliyev ki, Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirərək qısa müddətdə Azərbaycanı Cənubi Qafqazın ən güclü və modern, sabit və əmin-aman dövlətinə çevirib!

O İlham Əliyev ki, Avropanın enerji resursları ilə təchizində ən etibarlı və sözünə sadiq tərəfdaşıdır!

O İlham Əliyev ki, təkcə regiona yox, bütün dünyaya fayda gətirəcək “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat, habelə "Cənub” qaz dəhlizi layihələrinin müəllifi və gerçəkləşdirənidir!

O İlham Əliyev ki, I Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsini təmin edərək IV İslam Həmrəyliyi Oyunlarına start verib!

O İlham Əliyev ki, Azərbaycanın multikulturalizm ənənələrini örnək kimi bütün dünyaya təqdim edib!

O İlham Əliyev ki, dövlətinin və xalqının maraqlarını hər şeydən uca tutmaqla yanaşı, dünyanın da sabahını düşünür!

Bu, dünyaya ədalət çağırışıdır!

Bu, insanları obyektiv və qərəzsiz olmağa çağırışdır!

Bu, işğalçını, təcavüzkarı cilovlamağa çağırışdır!

Bu, terrorizmin qarşısını qətiyyətlə və birgə səylə almağa çağırışdır!

Bu, dünyadakı bütün insanları rənginə, irqinə, dininə və millətinə görə növlərə ayırmadan, onların bütün hüquqlarını qətiyyət və prinsipiallıqla qorumağa çağırışdır!

❖❖❖

Eşit və bil, qoca Dünya!

Cinayət cəzasız qalanda qatillər azğınlaşırlar!

Sonra bənzər cinayətlərin də sayı artır!

Dünya XX əsrdə Avropada meydana çıxan faşizmi görmədi: milyonlarla yəhudi soyqırıma məruz qaldı!

İndi Berlinin mərkəzində Holokost qurbanlarının xatirəsinə həsr olunan soyqırımı abidəsi dayanır!

XXI əsrdə "köhnə" terrorizmin yeni təzahürlərinə laqeydliklə yanaşıldı: əvvəlcə, "əl-Qaidə", indi isə İŞİD dünyanı terrorizm meydanına çevirərək günahsız insanların qanını durmadan axıdırlar!

Nyu Yorkdakı əkiz binalar, ərəb və Avropa ölkələrində törədilən terror aktları ara vermir...

Şəhərlər xarabalıqlara çevrilir, dinc əhali ev-eşiyindən qaçqın düşərək dənizlərdə boğula-boğula Avropaya üz tutur...

Nədənsə dünya erməni terrorizmi və onların törətdikləri Xocalı soyqırımı barədə də qətiyyətli mövqe nümayiş etdirmir!

Doğrudur, "Xocalıya ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlər nəticəsində dünyanın 10-dan artıq ölkəsi və ABŞ-ın 20-dən çox ştatı Xocalı soyqırımını tanıyıb! Amma Xocalı soyqırımını törədərək bugünkü Ermənistana rəhbərlik edən cinayətkarlar hələ də beynəlxalq tribunal qarşısına çıxarılmayıblar!

Biz israrla Xocalıya ədalət istəyirik!

Biz israrla əli dinc əhalinin qanına bulaşmış cəlladların cəzalandırılmasını istəyirik!

Biz erməni terroruna və işğalına dərhal son qoyulmasını istəyirik!

Əgər bunu vaxtında etməsəniz, yeni soyqırımların törədilməsinə rəvac vermiş olacaqsınız!

Əgər bunu vaxtında etməsəniz, yeni soyqırımı abidələri ucaltmalı olacaqsınız!

Əgər bunu vaxtında etməsəniz, yeni terrorçu qrupların və terrorçu dövlətlərin yaranmasına şərait yaratmış olacaqsınız!

Əgər bunu vaxtında etməsəniz, İŞİD-in terrorundan qaçan yeni miqrantlar ordusu sizin ölkənizə axışaraq yerinizi dar, gününüzü qara edəcək!

Və günlərin birində sizin yetişdirdiyiniz və qoltuğunuzun altında yaşatdığınız terrorçular nüvə silahını ələ keçirərək dünyanın varlığına son qoyacaqlar!

O ZAMAN HƏR ŞEY:

* dünyanın ən firavan dövlətləri və onların bəxtəvər sakinləri də;
* planetin hər yerində yaşayan evsiz-eşiksiz, ac-yalavac binəvalar da;
* bütün siyasi oyunlardan kənarda qalan dövlətlər də;
* qeyri-insani şəraitdə və ümidsiz yaşamaqdan bezmiş qaçqın və miqrantlar da;
* milyonçuların və milyarderlərin topladıqları növbənöv sərvətlər də;
* indiyədək bəşəriyyətin nail olduğu bütün maddi və mənəvi nemətlər də

MƏHV OLUB GEDƏCƏKDİR!

Nə qədər ki gec deyil:

* Qulağınızı açın, eşidin!
* Gözünüzü silin, baxın!
* İkili standartları bir kənara qoyun, ədalətli və mərhəmətli olun!
* Özünüzə, dünya təşkilatlarının qəbul etdikləri qərar və qətnamələrə, beynəlxalq hüquqa və konvensiyalara hörmətlə yanaşın!
* Dünyanı özünüzünkünə və özgələrinkinə bölməyin!
* Dünya dağılanda heç kim salamat qalmayacaq!
* Dünyanın ədalətsizliyin və ikili standartların əlləri ilə məhv edilməsinə yol verməyin!

Hələ ki vaxt var!

Hələ ki fəlakəti cilovlamaq mümkündür!

Sonra gec olacaq!

Nə soyqırımlarından, nə terror əməllərindən ölənləri, nə də müharibədə qırılanları diriltmək mümkün olur!

Amma yeni faciələrin və qurbanların qarşısını almaq olar!

Ayıl, faciələrə və soyqırımlarına, insan fəlakətlərinə və qırğınlarına biganə Dünya!

Eşit bizi, kar Dünya!

Yoxsa sən özün də məhv ola bilərsən!

***"Azərbaycan" qəzeti,***
***28 fevral 2017-ci il***

# Aprel döyüşləri Azərbaycan dövlətinin, xalqının və ordusunun şanlı tarixi qələbəsidir

*Bir il öncə Silahlı Qüvvələrimiz Lələtəpədə Azərbaycan bayrağını dalğalandırdılar*

## *İlham Əliyevin Aprel zəfərinin yaratdığı dəyişikliklər*

Azərbaycanın hərb tarixinə düşən Aprel zəfərindən bir il ötür.

Uğur, ziddiyyət və təzadlarla dolu il.

Bu bir ildə cərəyan edən hadisələr dördgünlük müharibə nəticəsində baş verən dəyişiklikləri obyektiv qiymətləndirmək üçün kifayət qədər faktlar verir.

Əslində, Aprel zəfərinin əhəmiyyətini lazımınca dəyərləndirmək üçün həmin müharibəyədək mövcud vəziyyət və ondan sonrakı dəyişikliklər əlaqəli şəkildə təhlil edilməlidir.

Gəlin öncə baxaq görək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ötən 30 ilə yaxın dövründə qarşı-qarşıya duran tərəflər əvvəllər müharibəyə və müharibədəki mövqelərinə, hərbi, siyasi və diplomatik sahədəki imkanlarına və güclərinə münasibətdə hansı vəziyyətdə idilər və sonralar nə kimi dəyişikliklər baş verib.

Əvvəlcə "status-kvo"ya, tərəflərin, habelə beynəlxalq qurum və təşkilatların yaranmış situasiyaya hansı aspektdən yanaşdıqlarına qısaca nəzər salaq.

1988-ci ilin fevral ayının 22-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zəminində ilk qanlı toqquşma baş verdi, iki ağdamlı gəncin - Bəxtiyar və Əlinin öldürülməsi ilə Qarabağ müharibəsi başlandı.

* Ermənistan tərəfi buna uzun illərboyu hazırlaşmış, öz məqsədlərinə çatmaq yolunda xain Qorbaçovu satın almış və gizli yolla silah-sursat da tədarük etmişdi.
* Ulu Öndər Heydər Əliyevin Siyasi Bürodan uzaqlaşdırılması nəticəsində isə Azərbaycan xalqı həqiqi rəhbərindən ayrı düşmüş, hələ yaşamaqda olan Sovet İttifaqında güclü dəstəyini itirmişdi. Üstəlik, həmin dövrdə ölkəyə maymaq, qətiyyətsiz, Moskvaya kölə sədaqəti göstərən insanlar başçılıq edirdilər və hakimiyyət uğrunda aramsız mübarizə dövləti xaos və özbaşınalıq bataqlığına salaraq idarəolunmaz vəziyyətə gətirmişdi.

* Havadarlarına arxalanan Ermənistan Azərbaycan ərazilərini kəndbəkənd işğal edir, mərkəz bu işğalçılıq proseslərinə göz yumur (əslində, müxtəlif addımlarla, məsələn, "xüsusi idarəetmə komitəsi" yaratmaqla dəstək göstərir), beynəlxalq təşkilatlar isə bəyanatlar verməklə işlərini bitmiş hesab edirdilər. Yalnız 1992-ci ildən sonra işğal faktı ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etdi, sonra ATƏT-in (o vaxt ATƏM idi) Minsk qrupu yaradılaraq "münaqişənin sülh yolu ilə həlli" məsələsi ona həvalə edildi.

Bundan sonra baş verən proseslərin heç biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir əsaslı yeniliyə və dəyişikliyə gətirib çıxarmadı!

Tərəflər görüşdü, danışdı, müxtəlif variantlar söylənildi, vədlər verildi, müzakirələr getdi, sonra ayrıldılar və s.və i.a.

Münaqişənin mövcud olduğu dövrdə beynəlxalq təşkilatların problemin həllinə münasibətində heç bir yenilik görünməsə də, Ermənistanın və Azərbaycanın bir dövlət olaraq durumlarında ciddi dəyişikliklər baş vermişdi.

Baş verən həmin dəyişikliyi yığcam ifadə etsək, belə demək olar: Azərbaycan məğlub durumdan qalib mövqeyə yüksəlmiş, qalib Ermənistan isə acınacaqlı günə düşmüşdür!

## *Apreldən əvvəlki Azərbaycan*

Dəyişikliklərin təməli Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdışı ilə qoyulmuşdu.

Onlar hansılardır:

* İlk olaraq Azərbaycanda möhkəm və dönməz sabitlik yaradıldı, qanunsuz silahlı dəstələr ləğv edildi, əhalidəki külli miqdarda silah-sursat toplanıldı, beləliklə, görüləcək sonrakı işlərə şərait yaradıldı;
* Uğurlu Horadiz əməliyyatı aparılaraq 1994-cü ilin yanvar ayında ilk dəfə düşmənin işğal etdiyi 22 yaşayış məntəqəsi geri alındı;
* Cəbhə bölgəsində uzunmüddətli atəşkəsə nail olundu, yeni ərazilərin işğalının qarşısı alındı;
* Ölkə ətrafında yaradılmış informasiya blokadası aradan qaldırıldı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı;
* "Əsrin müqaviləsi" neft kontraktı imzalandı və dünyanın aparıcı dövlətlərinin maraqları ilə Azərbaycanın maraqları uzlaşdırıldı;



**Beyləqan rayonu "N" saylı hərbi hissə.** 13 fevral 2019-cu il



**Beyləqan rayonu "N" saylı hərbi hissə.** 13 fevral 2019-cu il



**Beyləqan rayonu "N" saylı hərbi hissə.** 13 fevral 2019-cu il



**Beyləqan rayonu "N" saylı hərbi hissə.** 13 fevral 2019-cu il



**Ağstafada Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi.** 4 mart 2020-ci il



**Müdafiə Nazirliyinin "N" hərbi hissəsi.** 23 yanvar 2017-ci il



**Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsi.** 11 iyun 2018-ci il



**Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsi.** 11 iyun 2018-ci il



**Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsi.** 16 may 2018-ci il



**Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsi.** 16 may 2018-ci il



**Tərtərdə yeni inşa edilmiş "N" saylı hərbi hissəsi.** 3 dekabr 2016-cı il



**Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsi.** 11 iyun 2018-ci il



**Ağstafada Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi.** 4 mart 2020-ci il



**Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlı döyüş texnikasına, raket komplekslərinə, zərbəendirici pilotsuz uçan aparatlarına baxış .** 30 aprel 2018-ci il



**"Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanışlıq .** 30 aprel 2018-ci il



**"Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanışlıq .** 30 aprel 2018-ci il

* Ölkəmizin dünyaya inteqrasiyası prosesi başlandı, Azərbaycan beynəlxalq təşkilatlarla sistemli və məqsədyönlü əməkdaşlığa start verdi, Avropa Şurasına üzv qəbul edildi;
* Ordu quruculuğu prosesinə və hərbi kadr hazırlığı işlərinə başlanıldı;
* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü prinsipi əsasında, sülh yolu ilə həllinə sadiq olan Azərbaycan "ərazi bütövlüyü məsələsinin heç zaman müzakirə mövzusu" olmayacağı və "öz ərazisində ikinci erməni dövləti yaradılmasına icazə verməyəcəyi" fikrinə daim sadiq qalacağını qətiyyətlə bildirdi və buna daim əməl etdi;
* Ən nəhayət, dövlət başçısı cənab İlham Əliyev güzəştin mümkün və son həddini də göstərdi: Kompromis olaraq "Dağlıq Qarabağa yalnız "muxtar respublika" statusu verilə bilər!

## *Apreldən əvvəlki Ermənistan*

Ermənistan Azərbaycan torpaqlarının işğalına uzun müddət hazırlaşmışdı. Bu işə təkcə M.Qorbaçov və keçmiş SSRİ-nin rəhbərliyi deyil, həm də dünyanın müxtəlif ölkələrindəki erməni diasporu, ABŞ-dakı erməni lobbisi ("Azadlığı Müdafiə Aktı"na 907-ci ədalətsiz düzəlişi yada salaq), habelə erməniпərəst qüvvələr dəstək verirdilər. Spitak zəlzələsindən istifadə edən ermənilər özlərini yenidən dünyaya "məzlum və zavallı millət", "köməyə ehtiyacı olan xalq" kimi təqdim etdilər. Həmin dövrdə dünyaya yalnız SSRİ-nin informasiya agentlikləri və KİV-i vasitəsilə çıxmaq mümkün idi. Həmin informasiya resursları isə birmənalı şəkildə erməniləri müdafiə mövqeyi tutur, Azərbaycan tərəfini isə "vəhşi", "zalım və qaniçən millət" qiyafəsində təsvir edirdi.

Necə deyərlər, yanan da biz idik, yaman da!

Müharibənin başlanğıcında hərbi, iqtisadi, siyasi, ideoloji üstünlük ermənilər tərəfində olduğundan və Azərbaycanın isə başı hakimiyyət uğrunda mübarizəyə qarışdığından Sovet Ordusuna arxalanan Ermənistan ərazimizin 20 faizini ələ keçirərək 20 min Vətən övladını şəhid etdi, bir milyondan çox azərbaycanlını isə qaçqın və məcburi köçkün vəziyyətinə saldı.

❖❖❖

* Müharibənin birinci mərhələsi başa çatanda - atəşkəs müqaviləsi imzalananda Ermənistan özünü qalib sayır, hətta Kür çayına qədər olan əraziləri işğal etmək gücündə olduğunu söyləyərək lovğalanırdı;

* Sonrakı dövr danışıqlarına üstün, öz iradəsini diktə etdirmək istəyən tərəf kimi gəlirdi;
* Dağlıq Qarabağa müstəqillik tələb edərək sonra onu Ermənistana birləşdirəcəyini, ərazi ilhaqı niyyətini gizlətmirdi;
* Bütün parametrlər üzrə Azərbaycandan üstün olduğundan müharibənin yenidən başlayacağı təqdirdə yeni ərazilər işğal edəcəyi ilə hədələyirdi;
* İki dəfə Rusiya onlara havayı olaraq bir milyard dollar həcmində silah-sursat verdiyindən hərbi cəhətdən özlərini Azərbaycandan tam üstün hesab edirdilər;
* Ermənistan rəhbərliyi öz gücünə o qədər inanırdı ki, hətta iqtisadi, siyasi və idarəetmə sahəsindəki uğursuzluqlarını hərbi ritorika ilə pərdələməyə çalışırdı;
* Kriminal rəhbərlik erməni xalqının beyninə yeritmişdi ki, "Qarabağ artıq bizimdir, qalan məsələləri isə zaman özü həll edəcəkdir";
* "Alınmaz səngərlər", "keçilməz sədlər" mifi ilə özlərini və xalqı inandırmışdılar ki, Azərbaycan hərbçiləri hücum etsələr belə, yeni istehkamları yarıb keçə bilməyəcəklər;
* KTMT-yə güvənərək dar gündə onun Ermənistanın müdafiəçisi qismində çıxış edəcəyini güman edirdilər;
* ATƏT-in Minsk qrupu həmsədrlərinin və onlara havadarlıq edənlərin "Dağlıq Qarabağ problemi yalnız sülh yolu ilə həll edilməlidir" tezisini əsas tutaraq Azərbaycanın törədilən təxribatlara hərbi yolla cavab verəcəyinə heç bir halda inanmırdılar!

## *Dördgünlük Aprel müharibəsində nə baş verdi?*

Hər dəfə cənab İlham Əliyev xarici səfərdə olanda və ya ATƏT-in Minsk qrupu çərçivəsində münaqişə edən tərəflər bir masa ətrafında oturmazdan əvvəl Ermənistan bir hoqqa çıxararaq danışıqlardan yayınırdı. Onun başını sığalladıqlarından Sarkisyan bu "taktikasından" əl çəkmirdi. Ötən ilin mart ayının axırlarında Ermənistan yenə öz manerasına sadiqliyini göstərdi. Hətta bir qədər də qudurğanlıq edərək Ağdam - Tərtər istiqamətində təmas xəttinə yaxın kəndləri artilleriya və minomyot atəşinə tutaraq dinc əhaliyə və mülki obyektlərə xeyli ziyan vurdu!

Düşmən yenə cəzasız qalacağına əmin idi...

Aprel ayının başlanğıcında Azərbaycan tərəfindən başqa heç kəsin gözləmədiyi bir hadisə baş verdi: Milli Ordumuz əks-zərbə ilə ildırım sürətli elə bir hərbi əməliyyat keçirdi ki, başda ermənilər olmaqla hamı çaş-baş qaldı! Sonralar döyüşün iştirakçıları olan erməni hərbçilər öz internet saytlarından etiraf edir-

dilər ki, əks-həmlə başlayandan qurtaranadək girdikləri səngərlərdən çıxa bilməyiblər. Şok vəziyyətinə düşüblər və sağ qaldıqlarını isə möcüzə sayırlar. Nə Azərbaycan Ordusunun müxtəlif təyinatlı silahlarından açılan belə güclü, intensiv və uzunmüddətli atəşini gözləyirmişlər, nə də bizim hərbçilərin uzun illər boyu hazırlanaraq "ən müasir üsullarla" möhkəmləndirilən müdafiə istehkamlarını belə asanlıqla dəf edəcəklərini güman edirmişlər.

Aprel müharibəsinin vahiməsi bu gün də düşmənin canından çıxmayıb!

Şokdan ayılaraq özlərinə gələn qoca erməni "döyüşçüləri" - torpaqların işğalında iştirak edən ("torpaqları işğal edən" demirik) keçmiş erməni hərbçiləri cavanları qorxaqlıqda qınayaraq özləri cəbhəyə yollanıb torpaqları geri qaytaracaqlarını (Aprel əməliyyatı zamanı geri alınan torpaqları-red.) bəyan etdilər. Lakin "qoca döyüşçü veteranlar"ın bu istəyi fiaskoya uğradı.

Onlar təmas xəttinə çatmamış Azərbaycan Ordusunun yeni silahlarının "dadına" baxası oldular!

Həyat şəraiti pisləşdiyindən Ermənistanda və Dağlıq Qarabağda yaşayan erməni əhalisi (adıçəkilən yerlərdə digər millətlərin nümayəndələri yaşamır) arasında demoqrafik göstəricilər xeyli aşağı düşüb. Əhalinin ölkəni birdəfəlik tərketmə prosesi də ilbəil sürətlənir. Xüsusən erməni ailələri oğlan övladları orta məktəbin IX sinfinə çatanda onları hərbi xidmətdən yayındırmaq üçün ölkədən çıxarırlar. Bütün bunlar Ermənistan ordusunun canlı heyətlə təmin edilməsində böyük çətinliklər yaradır. Problemin həlli üçün başlıca diqqət kənardan muzdlu hərbçilərin gətirilməsinə yönəldilmişdi. Düşmən tərəfi muzdluların daha çox "fayda verəcəyini" söyləyirdilər. Lakin qısamüddətli Aprel müharibəsi bu xülyanı da boşa çıxardı. Səngərləri tərk edib ilk qaçanlar elə həmin muzdlular oldular. Çünki müharibəyə pul qazanmaq üçün gələn muzdlular özgə torpağını işğalda saxlamaq yolunda ölmək niyyətində olmadıqlarını göstərdilər.

Artıq Ermənistan ordusuna xaricdən muzdlu hərbçi cəlbində də ciddi problemlər yaşanmağa başlayıb. Əvvəla, muzdlular daha bura gəlməyə həvəsli deyillər, ikincisi isə onların pullarının ödənilməsində də ciddi çətinliklər yaşanır. Aprel savaşından sonra muzdlular Azərbaycan torpağında qazancdan çox ölüm olduğunun da fərqindədirlər!

❖❖❖

İndiyədək 20 mindən çox şəhid verən Azərbaycan xalqı Aprel döyüşü qəhrəmanlarına münasibətində torpaq uğrunda yeni qurbanlara hazır olduğunu da nümayiş etdirdi. Xalq öz şəhid övladlarını xüsusi hörmət və ehtiramla dəfn etdi. Gənclərin vətənpərvərlik coşqusunun yeni mərhələyə yüksəlməsi xüsusi diqqətçəkən mə-

qamdır. Azərbaycan bayrağını başları üzərində dalğalandıran gənclər "Şəhidlər ölməz, Vətən bölünməz", "Ağlama, ay ana, biz hamımız şəhidik!", "Təki Vətən sağ olsun", - deyə hayqıraraq çoxsaylı yürüşlər keçirdilər. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerlərdəki nümayəndəliyinə gələrək hərbi əməliyyatlarda iştirak etmək üçün müraciət edənlərin sayı-hesabı bilinmirdi...

Aprel müharibəsi həm də onu göstərdi ki, Azərbaycan vətəndaşında, o cümlədən əsgər və zabitində Vətən eşqi, torpaq həsrəti o qədər artıb və güclənib ki, artıq hərbi əməliyyatların hər bir iştirakçısı qarşısıalınmaz qüvvəyə çevrilib!

Ən nəhayət, Aprel döyüşləri və orada işlədilən silahlar sübut etdi ki, Azərbaycan nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır!

### *Apreldən sonrakı Azərbaycan*

Aprel müharibəsi həm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində indiyədək yaranmış vəziyyəti ərazi baxımından qismən dəyişdi, həm qüvvələr nisbətində baş vermiş ciddi dəyişiklikləri nümayiş etdirdi, həm də çox ciddi psixoloji dönüşə səbəb oldu!

Cəmi dörd gün çəkən Aprel müharibəsi göstərdi ki, Azərbaycan iqtisadi, siyasi, mənəvi-psixoloji və hərbi cəhətdən düşməndən qat-qat güclü və üstün mövqedədir!

Qarabağ müharibəsinin başlanğıcındakı "Güclü Ermənistan - zəif Azərbaycan" gerçəkliyini "Qüdrətli Azərbaycan, iflasa uğramış Ermənistan" reallığı əvəz edib və bu dönüşün qarşısını artıq heç nə ilə almaq mümkün deyil!

Dördgünlük müharibə nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni keyfiyyət mərhələsinə keçid baş verdi!

Bu, özünü hansı məqamlarda göstərir:

Əvvəla, Azərbaycan əsgər və zabitlərinin timsalında Milli Ordumuz əmin oldu ki, artıq düşməndən bütün parametrlər üzrə qat-qat güclüdürlər və arsenallarındakı silahlarla qısa müddətdə torpaqları işğalçılardan təmizləmək qüdrətindədirlər.

İkincisi, atəşkəs çox kövrəkdir və hər an genişmiqyaslı müharibəyə çevrilə bilər. Odur ki, buna daim hazır olmaq lazımdır.

Üçüncüsü, Azərbaycan Ordusu dəqiq müşahidə-nəzarət və kəşfiyyat məlumatlarına malik olduğundan, habelə müasir silahlara yiyələndiyindən hərbi əməliyyatlara başlanan kimi Ermənistan ordusunun komanda-idarəetmə mərkəzlərini dağıtmaqla onu iflic və idarəolunmaz vəziyyətə salmaq imkanındadır.

Dördüncüsü, atəşkəs dövründə ordumuz nəinki ən müasir və yeni texnologiyalara əsaslanan silahlarla təmin edilmiş, eyni zamanda Müdafiə Sənayesi Kompleksi yaratmaqla minədək adda silah-sursat və yeni texnika istehsalına başlanılmışdır.

Beşincisi, Rusiya, Türkiyə, Ukrayna, Belarus, İsrail, Pakistan kimi dövlətlərdən sistemli şəkildə yeni silahlar alan Azərbaycan Ermənistanı hərbi cəhətdən iyirmi dəfədən çox üstələməklə yanaşı, onu "silahlanma yarışına" vadar etməklə iqtisadi və hərbi-mənəvi cəhətdən iflasını da sürətləndirir.

Ən nəhayət, artıq seçim Ermənistanındır: torpaqları ya sülh yolu ilə geri qaytarmalıdır, ya da nəticəsi hamıya gün kimi aydın olan müharibə variantına getməlidir!

## *Apreldən sonrakı Ermənistan*

Bir il əvvəl baş verən qısamüddətli müharibə Ermənistan dövlətində və cəmiyyətindəki bütün mənfi proseslərin katalizatoruna çevrildi. İndiyədək satellat dövlətdəki iqtisadi-siyasi, mənəvi böhranın dərinləşdiyi, bu forpost ölkənin və onun kriminal başçılarının düşüncəsiz siyasət və addımlarının girovuna çevrildiyi, dalandan çıxış yolunun yalnız Azərbaycanla sülh bağlaşmasından keçdiyini söyləyənlərin haqlı olduğu açıq-aşkar göründü!

Onlar hansılardır:

* Böhran səbəbindən Rusiyadan gələn pullar xeyli azalmış, korrupsioner Sarkisyan rejimindən üz çevirən erməni diasporu ianələri dayandırmışdır;
* Dilənçi vəziyyətinə düşən və müharibənin xofundan qorxan erməni əhalisi təkcə Dağlıq Qarabağı deyil, Ermənistanı da sürətlə tərk edir;
* Aprelə qədər Azərbaycandan əvvəlcə hər barədə üstün olan, daha sonralar isə özünü üstün sayan Ermənistan dördgünlük müharibə nəticəsində tamamilə zəiflədiyini və bütün parametrlər üzrə geri qaldığını etiraf etməli oldu;
* Müharibə erməni cəmiyyətini parçaladı, artıq qələbə eyforiyasından ayılanlar həqiqəti dərk edərək Azərbaycan torpaqlarını geri qaytarmaq zorunda olduqlarını anladılar!
* Apreldən sonra yaxın ətrafı Serj Sarkisyanı tərk etməyə başladığından, hətta əksəriyyətinin keçmiş dostluğu unudaraq ona qarşı çıxdığından və rəqibinə çevrildiyindən Ermənistan prezidentinin aqibəti faciəli görünür!

## *Aprel müharibəsinin açdığı yol*

Aprel müharibəsi qısa çəkməsinə, döyüşlər nəticəsində geri qaytarılan torpaqların bir o qədər də çox olmasına baxmayaraq, əslində, yeni və geniş bir yol açmış oldu!

Bu yol geriyə qayıdış yoludur!

Bu yol Böyük Qayıdışın başlanğıcıdır!

Bu yol münaqişədə keyfiyyət dəyişikliyinin baş verməsinin göstəricisidir!

Həmin yol dövlət başçısı cənab İlham Əliyevin 24 yanvar 2017-ci il tarixli sərəncamı ilə açılıb!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə ilk dəfədir ki, Azərbaycan öz torpaqlarını azad edərək geriyə qayıdır və məskunlaşma prosesinə start verir!

Bəli, Azərbaycan ona uğur gətirən strategiyaya - əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün möhtərəm İlham Əliyev tərəfindən uğur və ləyaqətlə davam etdirilən kursa sadiqdir:

Dayanmadan iqtisadi və hərbi cəhətdən güclənir, siyasi və diplomatik sahədə inadkarlıq və qətiyyətlə uğurlu fəaliyyət göstərir, beynəlxalq nüfuzunu daim artırır, işğalçıya rahatlıq və dinclik vermir!

Cənab İlham Əliyevin səyi ilə ölkəmizə, regiona və bütövlükdə dünyaya fayda gətirəcək yeni transmilli layihələr reallaşdırılır, əməkdaşlığın yeni formaları yaradılır və inkişaf etdirilir, İslam ölkələri ilə həmrəylik gücləndirilir, ordumuz ən müasir silahlarla sistemli şəkildə təchiz olunur!

Ermənistan prezidenti Serj Sarkisyan isə öz hayındadır! Bilmir ki, ölkə daxilində günü-gündən artan narazılığın qarşısını alaraq hakimiyyəti necə əldə saxlasın, iqtisadi problemləri necə həll etsin, ac-yalavac və işsiz erməniləri necə sakitləşdirsin, diasporla yaranmış problemi nə sayaq yoluna qoysun, yaxud yeni aprellərdən qorunmaq üçün kimə yalvararaq, kimin ətəyindən yapışsın!

Əslində, keyfiyyət dəyişikliyi Ermənistan tərəfində də baş verib. Bunun konkret göstəricisi erməni sosial şəbəkələrində sadə ermənilərin baş verənlərə və dövlət başçısına münasibətlərini əks etdirən və əvvəlkilərdən çox-çox fərqli statuslarıdır! Belə statuslarda isə Sarkisyan lağa qoyulur və yeni müharibənin fəsadları irəlicədən proqnozlaşdırılır!

Düzgün yol isə Azərbaycan tərəfinin təklif etdiyidir:

Bu yol - sülh yoludur!

Bu yol - özgə torpaqlarını tərk edərək işğala son qoymaq yoludur!

Bu yol - xalqı dilənçilikdən və özünün olmayan torpağı saxlamaq uğrunda ölümdən qurtarmaq yoludur!

Güclənmiş Azərbaycan gəlir!

Yeni aprellər də gələ bilər!

***"Azərbaycan" qəzeti,***
***1 aprel 2017-ci il***

# II Fəsil

# SƏRKƏRDƏNİN GÜCÜ AZƏRBAYCANIN QÜDRƏTİ

# Güclü ordu, qüdrətli sərkərdə

*Azərbaycanın Silahlı Qüvvələri Qarabağı azad etmək iqtidarında olduğunu tam təsdiqləyib*

**Azərbaycan xalqının məşhur məsəli var: "Ordum varsa, yurdum var!"**
**Biz bu deyimin nə qədər real olduğunu tarixi təcrübəmizdə dəfələrlə görmüşük. Sovet imperiyasının süqutundan sonra Azərbaycan müstəqillik əldə etsə də, ölkəmizi daim əsarət altında saxlamaq istəyənlər, onun milli sərvətlərindən bəhrələnmək arzusunda olanlar istiqlaliyyətimiz ilə barışmaq istəmirdilər. Buna görə də hələ ötən əsrin 80-ci illərinin sonlarında tarixdə "sınaqdan çıxmış" köhnə metoda əl atıldı - ermənilərin hər zaman alət millət olması nəzərə alınaraq süni şəkildə "Qarabağ problemi" yaradıldı, ərazilərimizin ələ keçirilməsi üçün məkrli planlar işə salındı. Sovet imperiyasının rəhbərliyinin, Moskvanın məqsədli və ikibaşlı oyunları, müxtəlif addımları nəticəsində Azərbaycan ədalətsiz hərbi münaqişəyə cəlb edildi.**

Savaşın ilk dövrlərindən etibarən Ermənistan müxtəlif üsullarla silahlandırılırdı. Guya, onlar hərbi hissələrə "hücum edib" silahlar ələ keçirirdilər. Amma bunların hamısının oyun olduğunu hadisələrin sonrakı inkişafı da təsdiqlədi. Digər tərəfdən, SSRİ-nin "Zaman" televiziya xəbərləri proqramı sistemli şəkildə Ermənistan ordusunun yaranması haqqında reportajlar verir, erməni hərbçilərinin fikirlərini tirajlayırdı. Hətta əsgərlərin hərbi biletlərini ekranda göstərirdilər. Bunun fonunda isə odövrkü Azərbaycan rəhbərliyində qəribə arxayınçılıq, "vəzifəni itirmək qorxusu" var idi. Azərbaycana rəhbərlik edənlər, xüsusən də Mütəllibov iqtidarı Azərbaycanın müstəqil dövlət olacağına inanmaq istəmirdilər. Ona görə də bu proseslərə laqeyd yanaşır, əks-tədbirlər görmürdülər. Əksinə, dinc azərbaycanlı əhalinin ov tüfənglərini belə əllərindən alırdılar. Bununla da həmin vaxtdan "tarazsızlaşdırma siyasəti"nə başlanıldı. Yəni hərbi cəhətdən Ermənistana kömək edilərək onları daim Azərbaycandan daha çox təchiz etməyə çalışırdılar. Ermənilər odlu silahlarla silahlanırdı, avtomatları, topları vardı, Azərbaycan tərəfi isə əliyalın qalmışdı.

Kəndlərimiz qarət olunur, azərbaycanlılar girov götürülür, pul müqabilində azad edilirdilər. Bütün bunlara isə SSRİ-nin rəhbərliyi "növbətçi açıqlamalar" verməklə kifayətlənirdi. Azərbaycan əhalisi çaş-baş qalmışdı ki, bu necə olan işdir, bir dövlətin tərkibində yaşayırıq, amma bizim əl-qolumuzu bağlayıblar, ermənilər isə istədiklərini edirlər. Nə səsimizi eşidən var idi, nə də bizə silah verən! Dövlət rəhbərləri isə Ermənistandakı soydaşlarımızın zorla, fiziki təzyiqlərlə, hətta qəsdlərlə dədə-baba torpaqlarından çıxarılaraq Azərbaycana qovulmasına şərait yaradırdılar. Qarabağda yaşayan azərbaycanlılar məcbur olurdular ki, kəndlərini, ev-eşiklərini, torpaqlarını özləri qorusunlar. Gecə səhərə qədər kəndlərdə tonqal qalayırdılar. Çomaqla, baltayla, dəhrəylə keşik çəkirdilər. Əlbəttə, əliyalın insanların silahlı "saqqallılar" qarşısında dayanması uzun çəkə bilməzdi.

Bir qədər keçəndən sonra Azərbaycanda xalqın təzyiqi, təhdidi qarşısında xüsusi təyinatlı milis dəstələri yaradıldı. Hər 2-3 əməkdaşa bir tapança, hərdən isə "təlim avtomatı" verirdilər. Bu strukturun formalaşması da, əslində, simvolik idi. Hər kənddən bir neçə nəfəri seçib bu dəstəyə üzv edirdilər.

Lakin bu zaman ermənilər artıq pulemyotlar, zirehli texnika ilə silahlanmışdılar. Xalq gördü ki, özü öz başına çarə qılmasa, dövlət heç nə etməyəcək! Beləliklə, yavaş-yavaş insanlar müxtəlif ov tüfəngləri və digər silahlar, məktəblərdən təlim avtomatları əldə etməyə başladılar. Beləliklə, ilk könüllü özünümüdafiə batalyonları yaradıldı. Yəni artıq ermənilərin silahlandırılması tam başa çatandan sonra biz silahlanmağa başladıq.

❖❖❖

Ə.Vəzirovun, ardınca isə A.Mütəllibovun "ov tüfənglərini yığmaq" tapşırığından sonra AXC-Müsavat cütlüyünün Azərbaycan Ordusunu "yaratmaq" addımları da özünəməxsus və qəribə idi. Onlar səriştəsizliklərini bu sahədə də göstərdilər. Təsadüfi deyildi ki, təyin etdikləri ilk müdafiə naziri vətən xaini çıxdı!

Orduda xidmət edən əsgərlər kimlər idi? Küçə ilə gedənlər, dayanacaqda duranlar. Reydlər zamanı əllərinə kim keçirdi təlimsiz-hazırlıqsız birbaşa cəbhəyə göndərirdilər. İnsanları həbsxanalardan buraxırdılar ki, gedin vətəni müdafiə edin! Bu adamların da bir qismi cəbhəyə gedib silah əldə edəndən sonra Bakıya qayıdaraq yeni cinayətlər törətdilər. Bundan sonra isə cinayətkarlığın sayı artmağa başladı. Əslində, elə ordu quruculuğunun nəticəsi belə olmalı idi!

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da möhtəşəm nailiyyətlərə imza atdı. O, uzun müddət dövlət təhlükəsizliyi orqanlarında işləmiş,

SSRİ-nin rəhbərlərindən biri olmuşdu. Həm dünyada gedən siyasi proseslərdən, həm də hərbi sahədən kifayət qədər xəbəri vardı.

Ulu Öndər hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan vaxtdan ölkəmizdə ordu quruculuğuna başlamışdı. Hansı formada? Ordu ilk növbədə milli zabit kadrların olması deməkdir və Heydər Əliyev öz nüfuzu və hörməti ilə mərkəzə müəyyən təsirlər edərək Cəmşid Naxçıvanski adına Hərbi Təmayüllü İnternat Məktəbini yaratmışdı. Bu, o dövr üçün çox mühüm bir addım idi.

Həmin vaxt Azərbaycanda bir neçə ali hərbi məktəb olsa da, kursantların çoxu digər millətlərin nümayəndələri idilər. Həmin məktəblərdə azərbaycanlılar demək olar ki, yox idi. Ulu Öndər öz nüfuzundan istifadə edərək kvota müəyyənləşdirdi ki, məktəblər Azərbaycanda yerləşdiyi üçün qəbul olunanların müəyyən faizi azərbaycanlılar olmalıdır. Bu da o dövr üçün çox mühüm hadisə idi!

Beləliklə, o dövrdə daha çox inşaat batalyonlarında xidmət edən, hərbi hissələrdə mətbəxlərdə qeyri-hərbi sahələrə yönəldilən Azərbaycan gəncləri hərbi təhsil almağa başladılar. Müstəqillik dövründə Azərbaycan Ordusu yarananda zabit heyətinin özəyini həmin insanlar təşkil etdilər. SSRİ-nin başqa yerlərində xidmətdə olanlar öz vətənlərinə qayıtmaq arzularını bildirdilər.

❖❖❖

Həmin dövrdə gec də olsa, Müdafiə Nazirliyinin tərkibində müxtəlif batalyonlar yaradılmışdı. Düzdür, o batalyonların hamısı Vətənin müdafiəsinə xidmət etmirdi. Bir çoxu müxtəlif siyasi partiyaların maraqlarını güdürdü. Həmin silahlı dəstələr Ulu Öndər tərəfindən ləğv olundu və əvəzində vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusu yaradıldı. Bu, bütün ictimaiyyətdə böyük ruh yüksəkliyi doğurdu! Tezliklə Horadiz hərbi əməliyyatı keçirildi və indiki Cocuq Mərcanlı kəndi də daxil olmaqla 22 yaşayış məntəqəsi işğaldan azad edildi.

Bu hərbi əməliyyatdan sonra ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular. Çünki gördülər ki, Azərbaycan yeni yaradılmış bu orduyla onlara üstün gəlir. Ona görə də məcburiyyət qarşısında qalaraq atəşkəsə razı oldular. Bundan sonra isə Heydər Əliyev ordu quruculuğu prosesini tam miqyasda həyata keçirməyə başladı.

O illər çox çətin və ağır dövr idi. Çünki dövlət büdcəsi boş idi, 1 milyondan çox qaçqın və məcburi köçkün çöllərdə qalmışdı. Dövlət onlara da qayğı göstərməli idi. Amma necə? İqtisadiyyat tənəzzül etmiş, güclü inflyasiya, anarxiya və xaos davam etməkdə idi. Lakin Heydər Əliyev sutkanın 18 saatını işlə-

məyi və problemlərin həllinə nail olmağı bacaran dövlət rəhbərlərindən idi. Ona görə də bütün bu istiqamətlərdə çox qısa müddətdə böyük işlər görüldü. Atəşkəs elan olunandan sonra qeyri-qanuni silahlı dəstələr ləğv edildi, əhalidə olan külli miqdarda silah-sursat toplanıldı. Ölkədə möhkəm və dönməz sabitlik yarandı. Nəhayət, iqtisadi islahatlara start verildi, bazar iqtisadiyyatı münasibətlərinə keçid üçün addımlar atıldı, özəlləşdirmə proqramları həyata keçirildi. Ən mühüm tarixi hadisə "Əsrin müqaviləsi" neft kontraktının imzalanması oldu! Beləliklə, həm də dünyanın aparıcı dövlətlərinin maraqları müstəqil Azərbaycanın maraqları ilə uzlaşdırıldı.

Bütün bu proseslərlə paralel ordu quruculuğu durmadan davam etdirildi, qısa müddətdə Azərbaycan Ordusu lazımi səviyyədə formalaşdırıldı.

❖❖❖

Ulu Öndərin ordu ilə bağlı müəyyən etdiyi strategiya bu gün onun layiqli siyasi davamçısı olan Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirilir. Cənab İlham Əliyevin bəyan etdiyi kimi, ordunun gücləndirilməsi daim prioritet məsələdir. Məlum olduğu kimi, Heydər Əliyevin müəllifi olduğu neft strategiyası 2005-ci ildən öz bəhrəsini verməyə başladı, Azərbaycanın iqtisadi imkanları daha da artdı. Məhz bundan səmərəli istifadə edərək ölkəmizin dinamik və davamlı inkişafına nail olan Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də ordudur. 2007-ci ildən etibarən Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsini ötdü. Ordumuzun arsenalına ən yeni silahlar daxil edildi. Hərbi hissələr ən müasir texnologiyaya əsaslanan silahlarla təchiz olunmağa başladı.

Beləliklə, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına və modern ordusuna sahibdir.

Ordunun digər vacib şərtlərindən biri onun idarə olunmasıdır. Texnika da var, əsgərlər də! Amma bunlar komandirlərin hazırladığı planlar, keçirilən təlimlər zamanı qazanılan təcrübə əsasında idarə olunmalıdır. Artıq ordunun mükəmməl idarə olunması, döyüşlər zamanı müxtəlif qoşun növləri arasında əlaqələrin koordinasiya edilməsi üçün müasir, intellektual komanda-idarəetmə mərkəzimiz var.

❖❖❖

Ordu quruculuğu tam başa çatsa da, ordunun təchizatı başa çatmayıb. Çünki bu, davamlı bir prosesdir. Daim sistemli şəkildə yeni silahlar alınır. Artıq hərbi məhsulları müasir texnologiyalar əsasında istehsal edən Müdafiə Sənayesi Nazirliyi də yaradılıb. Minə qədər adda müxtəlif təyinatlı silah-

sursatlar istehsal edilir. Azərbaycanın snayper silahları, avtomatları, tapançaları var. Azərbaycan özünün zirehli texnikasını yaradıb. Azərbaycan artıq silah ixracına başlayıb. Yəni sabah müharibə başlasa, bizim heç bir dövlətdən asılılığımız olmayacaq.

Ordunun ən mühüm şərtlərindən biri Ali Baş Komandanın özünün Silahlı Qüvvələrə bağlı olması, hərbi işi dərindən bilməsi və daim ordunun problemləri ilə maraqlanıb, onları uğurla həll etməyi bacarmasıdır. Bu sahədə də Azərbaycan Ordusunun bəxti gətirib. Cənab İlham Əliyev sistemli şəkildə təmas xəttində, səngərlərdə olur, əsgərlərlə görüşür, onları təltif edir, durumları ilə maraqlanır, onlarla birgə əsgər yeməyi yeyir. Bunlar həm orduda böyük ruh yüksəkliyi doğurur, həm də onun daxilində olan məsələləri öyrənib problemlərin dərhal həll olunmasına şərait yaradır. Bütövlükdə, ordu-rəhbər birliyi, ordu-xalq vəhdəti özünün yüksək səviyyədə həllini tapmışdır!

Bu vəhdətin təsdiqini biz ötən il Lələtəpə uğrunda gedən döyüşlərdə gördük. Həmin vaxt həyata keçirilən hərbi əməliyyat Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Gördük ki, bu ordu çox qısa müddətdə qarşısına qoyulan vəzifələri yüksək səviyyədə həyata keçirmək iqtidarındadır. Ermənilər uzun müddət kimlərinsə sayəsində "keçilməz sədd", "aşılmaz maneələr", "dəf edilməz səngərlər" yaratmışdılar.

Amma Lələtəpə əməliyyatı göstərdi ki, bütün bunlar mifdir, Azərbaycan əsgəri üçün asan hədəfdir! Həm də o əməliyyatlarda bizim malik olduğumuz silah-sursatın cüzi qismi işlədildi. Çünki əvvəlcədən hazırlanmış hücum əməliyyatı deyildi ki, bütün texnika oraya yığılsın. Uğurlu əməliyyat nəticəsində həm də Azərbaycan xalqının orduya olan məhəbbəti, inamı qat-qat artdı! Təmas xəttində yaşayan əhali uzun illər idi ki, ordumuza inanaraq orada yaşayır. Lələtəpə əməliyyatı zamanı onlar inamlarını əməli işdə sınadılar, evlərini tərk etmədilər və əmin oldular ki, Azərbaycan Ordusuna güvənmək mümkündür!

Əməliyyatda plana uyğun olaraq güclü müdafiə təşkil edilmişdi. Ermənilər orduya güclərinin çatmadığını görəndə murdar xislətlərinə sadiq qalaraq dinc əhalini hədəf seçdilər. Yaşayış evlərini gülləyə, mərmiyə tutdular. Bu zaman insanlar o qədər mütəşəkkil və peşəkar hərəkət etdilər ki, çoxsaylı evlər, tikililər dağıdılsa da, əhali arasında böyük tələfat olmadı. Deməli, cəbhə bölgəsində yaşayan Azərbaycan vətəndaşları da hərbi əməliyyatlar zamanı necə hərəkət etməyi öyrənib. Əhali arasında təfriqə, qorxu, köç-filan yaranmadı. Bunun özü də müharibə zamanı çox vacib amillərdəndir.

❖❖❖

Aprel döyüşləri başlayanda yüzlərlə Azərbaycan gənci hərbi xidmətə çağırış vərəqəsini gözləmədən döyüşmək istəyi ilə səfərbərlik orqanlarına müraciət etdilər. Əməliyyat gedən əraziyə bu gəncləri buraxmamaq üçün bir sədd yaratmışdılar. Ermənistan tərəfdə isə Azərbaycan əsgərindən, Azərbaycan silahından qorxub qaçan erməni əsgərlərini saxlamaq üçün sədd çəkmişdilər, hətta onları geriyə qaytarmaq üçün güllə ilə vururdular da! Bərkə düşən kimi erməni hərbçiləri qaçmağa başlayırlar. Çünki bilirlər ki, Qarabağ onların deyil və müvəqqəti olaraq bu ərazidədirlər!

Ordu quruculuğunun mərkəzində, özəyində insan amili dayanır. Yəni ilk olaraq insan Vətənini sevməli, fiziki cəhətdən güclü, sağlam, mənən zəngin, döyüşkən olmalı, qorxmadan düşmən üzərinə getməyi bacarmalıdır və nəhayət, hərbi vərdişlərə yiyələnməklə silahlardan məharətlə istifadə etməyi bacarmalıdır. Əgər orduda vətənpərvər, sağlam, güclü, torpağını sevən və hərbi vərdişlərə yiyələnmiş insanlar olmasa, müasir texnologiyaya əsaslanan silahlardan və texnikadan da səmərəli istifadə etmək çətinlik törədər.

Bu mənada ordumuzun gücü həm də şəxsi heyətin yüksək mənəvi durumu ilə ölçülür. Azərbaycan Ordusu bu sahədə əsl nümunə ortaya qoyur. Bizim Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov və Raquf Orucov kimi qəhrəmanlarımız var. Onlar Azərbaycan əsgərinin mərdlik, cəsarət, qorxmazlıq, igidlik simvoluna çevriliblər. Bunun səbəblərindən biri Vətən sevgisidirsə, digər mühüm səbəb Ali Baş Komandanın nümayiş etdirdiyi vətənpərvərlik örnəyidir. Azərbaycan Prezidenti davamlı şəkildə əsgər kazarmalarında olur, mövcud şəraitlə maraqlanır. Xidmətini başa çatdıran zabitlərə mənzillər verilir. Ermənistanda isə gördüyümüz odur ki, erməni anaları öldürülmüş uşaqlarının şəkilləri əllərində öz rəhbərlərindən haqq-hesab sorurlar. Bu cür hallar getdikcə daha da kütləviləşir. 9-cu sinifdən sonra erməni valideynləri uşaqlarını orta məktəbdən çıxarıb müxtəlif "səmərəli üsullarla" - rüşvət verməklə xaricə qaçırırlar. Ermənistanda hərbi çağırış zamanı hərbi hissələri komplektləşdirmək mümkün olmur!

Qürurverici məsələlərdən biri də odur ki, bu gün ölkəmizdə hərbi təhsil alanlar arasında xeyli sayda məcburi köçkün övladları var. Onlar hərbi peşəyə yiyələnməklə bəyan edirlər ki, müharibə başlayanda öndə olacaqlar, çünki öz torpaqlarını özləri azad etmək istəyirlər! Bu, orduya məhəbbətdir, dövlətə inamdır!

Azərbaycan gənci çağırış vərəqəsi gəlmədən könüllü olaraq orduya getmək istəyir. Erməni tərəfi isə təklif edir ki, kim Qarabağda üç il xidmət etsə, ona 10 min dollar veriləcək. Vətən sevgisinin nəticəsidir ki, Azərbaycan gənci torpaq uğrunda canından keçir, şəhid olur. Ermənistan gəncini isə orduya gətirmək üçün ona rüşvət təklif edirlər. Bu, üstünlükdür, dönüşdür, dəyişiklikdir. Bu dəyişikliyin nümunəsini bir neçə gün əvvəl də gördük. İyunun 14-də Prezident İlham Əliyev yenidən qurulan Cocuq Mərcanlı kəndində görülən işlərlə tanış oldu. İlkin olaraq 50 mənzil tikilib. Amma 250 ailə kəndə qayıtmaq arzusundadır. İnsanlarda nə qədər dövlətə güvən, torpağa sevgi var ki, hər kəs kəndə qayıtmaq, orada yaşamaq istəyir. Bu, Orduya və Ali Baş Komandana olan inam və etibardır.

❖❖❖

Ordunun arxalandığı digər məqamlar da var. Birincisi, onun tərkibi daim təzələnməlidir, köhnə əsgər, zabit heyətini yeniləri əvəz etməlidir və say tərkibi çoxalmalıdır. Bu cəhətdən bizdə heç bir problem yoxdur! Azərbaycan Ordusunda fərarilik yoxdur! Fərarilik Ermənistana xas olan faktdır. İkincisi, silah-sursat təminatı sahəsində də vəziyyət ürəkaçandır. Çünki həm xaricdən silah-sursat və ya texnika alırıq, həm də özümüz istehsal edirik. Digər mühüm məsələ isə ordunun idarə olunmasıdır. Sistemli şəkildə Azərbaycanda döyüş vəziyyətinə uyğun, atışlı hərbi təlimlərin keçirilməsi ordunun döyüş qabiliyyətinin və təcrübəsinin artırılmasında, qoşun növlərinin koordinasiyalı idarə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Ermənilər hərdən Ağdamın Uzundərə adlanan yerində bir neçə sınıq-salxaq texnika ilə atəş açıb səs-küy çıxarırlar ki, guya, hərbi təlim keçirirlər. Amma Azərbaycanın keçirdiyi hərbi təlimlərdə yüzlərlə zirehli texnika, canlı qüvvə, artilleriya qurğusu, döyüş aviasiyası atəş meydanına çıxır. Təlimlərə uzaqvuran toplar, vertolyotlar, təyyarələr cəlb edilir. Azərbaycan artıq Türkiyə Ordusu ilə birgə təlimlər keçirir. Bunlar sıradan hadisələr deyil! Özü də real atışlı təlimlər ordunun hərbi əməliyyatlara hazırlığı üçün çox vacib şərtdir. Əsgərlərimiz hər təlimdən sonra müharibə şəraitinə uyğun təcrübə toplayırlar. Bundan başqa, texnikanı necə idarə etmək lazım olduğunu öyrənirlər. Təhlillərin aparılması, ani qərarlar və s. barədə təcrübələrini artırırlar. Hər bir təlim həm də böyük vəsait deməkdir. Məhz vəsaitin yoxluğu imkan vermir ki, ermənilər çoxsaylı texnikanın cəlb edildiyi güclü təlimlər keçirsinlər.

Bunlar Qarabağ müharibəsində böyük qələbənin hazırlıq məşqidir. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək qətiyyətindədir! Cənab İlham Əli-

yevin bəyan etdiyi kimi, Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcək, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcək! Təəssüf ki, ATƏT-in Minsk qrupu və digər beynəlxalq təşkilatlar BMT-nin məlum dörd qətnaməsinin icrasını təmin etmirlər. Dünyada ikili standartlar var! Daim deyirlər ki, məsələ sülh yolu ilə həll olunsun! Sülh yolunda isə Ermənistan danışıqlara gəlmir, yaxud onu danışıqlara gətirmirlər. Bu mənada sülh danışıqları məhz erməni tərəfinin destruktivliyi səbəbindən baş tutmur. Lakin bir dəfə də olsun Ermənistan rəhbərliyinə sual etmirlər ki, sənin qoşunların niyə Azərbaycan torpaqlarındadır?! Ali Baş Komandan İlham Əliyev də bəyan etdi ki, əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpaqlarından rədd olub getsin!

Azərbaycan hələ ki sülh danışıqlarına sadiqdir. Lakin hərb variantı da istisna deyil! Ordunun modernləşdirilməsi, yeni silahların alınması, keçirilən təlimlər Azərbaycanın ərazi bütövlüyünün bərpasına xidmət edir. Əgər beynəlxalq qurumlar istəmirlərsə müharibə baş versin, birinci növbədə problemin sülh yolu ilə həllinə nail olmalıdırlar. Onlar işğalçını öz adı ilə çağırmalıdırlar! BMT-nin qətnamələrini yerinə yetirməlidirlər!

Bunların heç biri yoxdursa, onda hərbi əməliyyatdan çəkindirmək, snayperləri təmas xəttindən geri çəkmək və atəşkəsə əməl etmək barədə çağırışların heç bir effekti olmayacaq! Çünki Azərbaycan öz torpağını, işğal edilmiş ərazilərini azad etmək istəyir! Bunu hər bir Azərbaycan vətəndaşı, hər bir zabit və əsgər istəyir!

Bu məsələ nə qədər tez sülh yolu ilə həllini tapsa, o qədər yaxşıdır! Çünki artıq Azərbaycanın qüdrətli ordusu və qətiyyətli, prinsipial mövqeyi var! Bunu hamı bilməlidir: tək ermənilər yox, onların havadarları da! İndiyədək erməniləri sülh danışıqlarına vadar etməyən, yaxud danışıqlar masasına gətirmək istəməyən beynəlxalq təşkilatlar və dövlətlər də dərk etməlidirlər ki, Azərbaycanın səbri tükənməz deyil!

Gücü isə kifayət qədərdir!

***"Azərbaycan" qəzeti,***
***25 iyun 2017-ci il***

# Aprel şapalağı

**Tərs şapalaq yaman şeydir!**
**Elə aprel şapalağı da ondan idi!**
**Əvvəla, tərs şapalaq qəfildən olur!**
**İkincisi, adamın gözündən od çıxararaq qulaqlarını batırır!**
**Üçüncüsü, müvəqqəti də olsa, ağlını başından çıxarır!**
**Ən nəhayət, vahiməyə salır, qarabasmalar yaradır və insan başlayır səy-səy danışmağa...**
**Ali Baş Komandan İlham Əliyevin 2016-cı ilin aprel ayında Ermənistan ordusuna və onun kriminal başçılarına vurduğu tərs şapalaq həmin effekti yaradıb!**

Tərs şapalaq təkcə döyüş meydanında vurulmur. Onun da müxtəlif növləri var. Məsələn, Ermənistanın blokadaya alınması cingiltisi uzun müddət qulaqlardan çəkilməyən şapalaqlardandır!

Dəfələrlə əli ilə üzünü tutub sahibinin yanına qaçsa da, bir köməyi olmayıb!

Nə üzündən qızartı çəkilib, nə də qulağından səs!

Çünki şapalaq xəstəlik deyil ki, dava-dərmanla müalicə edəsən!

Tutuzdurdun, qurtardı getdi!

İndi yalvarıb yaxarırlar ki, heç olmasa elə edin ki, növbəti şapalaq gəlməsin! "Böyük qardaş"la "böyük bacı" "keçilərinin" (Qoçu Nəcəfqulunun keçisi nəzərdə tutulmur) mühafizəsini təmin etmək üçün qoruyucuların (Avropada buna "müşahidəçilər" deyilir) sayını artırmaq barədə məsələ qaldırdılar ki, bəlkə "rusca keçi" ürəklənə. Çünki ermənini çıldağa aparmaq da mümkün deyil ki, qorxuluğunu götürələr!

Amma o da alınmır. Əvvəla, təmas xətti boyunca o qədər müşahidəçi düzmək mümkün deyil ki, şapalaq salmağa mane ola bilsinlər. İkincisi, indiki "krizis" dövründə onların maaşını da çatdırmaq çətindir.

Amma iqtisadi şapalaqlar dalbadal dəyməkdədir!

Bakı-Tbilisi-Ceyhan Ermənistandan yan keçdi...

Bakı-Tbilisi-Ərzurum Ermənistandan yan keçdi...

Bakı-Tbilisi-Qars Ermənistandan yan keçdi...

Hələ bu harasıdır!

"Şərq-Qərb" nəqliyyat dəhlizinə Ermənistanın əli çatmır!

"Şimal-Cənub" nəqliyyat dəhlizinə Ermənistanın əli çatmır!

Üstəlik:

Azərbaycan-Türkiyə-Rusiya yeni əməkdaşlıq formatı yaradıldı...

Azərbaycan-Rusiya-İran yeni əməkdaşlıq formatı yaradıldı...

Rəşt-Astara və Astara-Astara dəmir yolu xətti çəkilməklə İran-Ermənistan dəmir yolunun çəkilməsi niyyəti puça çıxdı.

Pul tapılmadığına görə yox! Artıq əhəmiyyətsiz göründüyü üçün!

Bu gün Azərbaycan beynəlxalq nəqliyyat qovşağına çevrilir!

Amma bu qovşaqda Ermənistana yer yoxdur!

Çox çalışdılar ki, bir təhər Ermənistanı beynəlxalq layihələrə soxuşdursunlar!

Alınmadı!

Azərbaycanda insan hüquqlarının "pozulması", “mətbuat və söz azadlığının boğulması” barədə haray-həşir qopardılar!

Sübut edə bilmədilər!

Ermənistandan keçməyən layihələrin reallaşdırılması üçün kreditlərin verilməsinə mane oldular!

Xeyri olmadı!

Layihə gerçəyə çevrildi də, işləyib tərəfdarlarının sayını artırdı da, Azərbaycanın Cənubi Qafqazda söz sahibi olduğunu bir daha təsdiqlədi də!

Ermənistan öz havadarları ilə kənardan baxa-baxa qaldı!

Nə "Surix protokolları" kara gəldi, nə də "futbol diplomatiyası!"

Təzədən əvvəlki taktikaya qayıtdılar:

Atəşkəsin və işğalın ömrünü uzatmağa!

Hələ bəzilərinə çatmayıb ki, Qarabağ cəbhəsində atəşkəs yoxdur!

Əgər varsa, onda hər gün yüz dəfədən çox pozulan nədir?

O şey ki pozulur, ona var demək olarmı?

Ermənilər tərəfindən öldürülən azərbaycanlı mülki əhalini, o cümlədən uşaqları kimin ayağına, yaxud vicdanına yazaq?!

Məgər atəşkəs hərbçilər üçündür, onun mülki adamlara dəxli yoxdur?

Axı əsgər və zabitlərimiz də şəhid olur!

Erməni havadarları vəziyyətdən çıxış yolunu monitorinqlərdə iştirak edən müşahidəçilərin sayını artırmaqda görürlər!

Guya, müşahidəçi çox olsa, atəşkəs pozulmayacaqdır!

Mənasız fikirdir!

Onda təmas xəttindəki hər əsgərə bir müşahidəçi təhkim ediləcək?

Ermənistan tərəfindən bunu etmək asandır. Çünki nə orduya çağırmağa adam tapırlar, nə posta qoymağa əsgər!

Azərbaycan tərəfində isə elə bir ordu yaradılıb ki, kənar müşahidəçilər ona nəzarət edə bilməzlər.

Silahlar yeni, texnologiya müasir, ordu qüdrətli...

Nə atəşkəs, nə də müşahidəçi aprel toqquşmasının qarşısını ala bilmədi!

Böyük Qayıdışın başlanğıcı sayılan Cocuq Mərcanlı yarandı!

Daha sonra Tərtərin işğaldan azad edilmiş ərazisində yeni yaşayış massivi salındı!

Bütün bunlar iki il bundan əvvəl vurulmuş şapalaqdan sonra baş verdi!

Şapalaq qorxusu az qala digər problemləri arxa plana atır:

* Ermənilər sürətlə Ermənistanı tərk edirlər;
* Millətin sayı artmır, prezidentləri nə qədər qərar qəbul edib sərəncam versə də, analar həvəsdən düşüblər, doğmaq istəmirlər;
* Ermənistandakı analar oğlanlarının Dağlıq Qarabağda əsgəri xidmət keçməsinə razılıq vermirlər, çünki övladlarının özgə torpağında ölməsini istəmirlər;
* Orduda xidmət etmək üçün çağırışçı çatışmır;
* Təmas xəttindəki döyüş postlarında növbə çəkməyə əsgər yoxdur;
* Korrupsiya və rüşvətxorluq tüğyan edir;
* İşsizlik, yoxsulluq, dilənçilik dözülməz həddə çatıb...

Bir deyil, beş deyil! Hansını sayasan?!

Daha bir qəfil şapalaq isə YAP-ın VI qurultayından gəldi! Azərbaycan Prezidenti İlham Əliyev o qurultaydakı nitqində təkcə işğal olunmuş torpaqlara deyil, üstəlik, qədim Azərbaycan torpaqlarına - Yerevana və Zəngəzura da qayıdacağımızı bəyan etdi!

Ali Baş Komandanın bu açıqlaması Ermənistanda zəlzələ və vəlvələ effekti yaratdı!

Çünki ermənilər yaxşı bilirlər ki, Azərbaycanın dövlət başçısı dediyini edəndir!

Həm də Cocuq Mərcanlıya qayıdış da bu sözlərin zarafat olmadığını açıq-aydın göstərir!

Hamı yaxşı bilir ki, şapalaqdan sonra təpik gəlir!

Təpik isə adamı durduğu yerdən çox-çox uzaqlara atır!

Erməniləri qorumaq istəyənlər təpik gələnə qədər məsələni sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etməlidirlər!

Sonra gec olacaq!

Həm də Ali Baş Komandanımız hər şeyin vaxtını-vədəsini hamıdan gözəl bilir!

Aprel şapalağı kimi!..

***"Azərbaycan" qəzeti,***
***1 aprel 2018-ci il***

# İkinci şapalaq

*İlham Əliyevin əks-həmlə taktikası daha 11 min hektar torpağı geri qaytardı*

**2016-cı ilin aprel ayında təmas xəttindəki təxribat əməllərinə əks-hücumla cavab verən Azərbaycan Ordusu sarsıdıcı zərbəsi ilə düşmənin burnunu ovdu:**
* **Yarım saat ərzində erməni hərbçilərinin lovğalıqla "alınmaz səngər", "keçilməz sədd" adlandırdıqları və uzun illərboyu möhkəmləndirdikləri müdafiə qurğuları dəf edildi;**
* **Qəhrəman əsgər və zabitlərimiz düşmənə səngərdən çıxıb qaçmağa belə imkan vermədilər;**
* **Düşmənlərimiz indiyə qədər sorağını eşitdikləri yeni növ silahların gücünü və dağıdıcılıq qabiliyyətini də öz üzərlərində yoxladılar;**
* **Qısa müddətdə hətta Dağlıq Qarabağdakı mülki əhali belə şələ-şüləsini götürüb aradan çıxmağa başladı və onların qarşısını kəsən "müdafiə postları" da vahimələnmiş insanları saxlaya bilmədi.**

Bir həmləyə Lələtəpə yüksəkliyini və onunla birlikdə 2 min hektar ərazini itirənlər baş verənlərin hələ başlanğıc olduğunu, deyəsən, anlayırdılar.

Az vaxtda Cocuq Mərcanlını yenidən tikib-quran, əhalini geri qaytararaq vətəndaşlarına təhlükəsiz, rahat əmək və yaşayış şəraiti yaradan Azərbaycan dövlətinin gücü, imkanları və real mesajı artıq hamıya çatmışdı.

Prezident İlham Əliyevin hər bir addımı atmazdan öncə onun nəticələrini və həmin nəticələrdən baş verə biləcək istənilən situasiyanı aradan qaldırmağın üsul və vasitələrini irəlicədən hesablaması da artıq hamıya bəllidir!

❖❖❖

Budur, Ali Baş Komandanımız əlverişli məqam taparaq bu dəfə Ermənistanın yeni rəhbərliyinin hoqqalarına və oyunbazlığına cavab kimi düşmənə ikinci şapalağını vurdu!

Buna "tərs şillə" də demək olar!

Özü də bu şapalağın səsi Qarabağdan yox, Naxçıvandan gəldi!

Bu dəfə azad olunan Vətən torpağının adı isə Günnüt kəndidir!

Birincidən - Aprel hərbi əməliyyatından da qüdrətli olan bu şapalaq ermənilələri elə bir şoka salıb ki... Çünki:

* Bu dəfə nə bir güllə atıldı, nə bir yeni silah işlədildi! Hər şey səssiz-səmirsiz və qəflətən baş verdi!
* Nə az, nə çox - 11 min hektar torpaq sahəsi yenidən qəhrəman Azərbaycan Ordusunun nəzarətinə keçdi.
* 26 ildən sonra çox mühüm strateji nöqtələr - Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya və Mehridağ geri qaytarıldı!
* Üstəlik, Ermənistandan Dağlıq Qarabağa aparan Gorus-Laçın-Xankəndi yolu da hərbçilərimiz tərəfindən nəzarətə götürüldü!

Bu isə o deməkdir ki, əgər Ermənistan Azərbaycanda hərbi əməliyyatlara yenidən başlasa, düşmən ordusu Naxçıvanla Azərbaycan arasında mühasirə vəziyyətinə düşəcəkdir!

Deyəsən, hələ bunu bir qədər gec anlayacaqlar!

### *Ədalətsiz, hüququn gücsüz, gücün ikili standartlar tətbiq etdiyi zamanın uğur taktikası*

Azərbaycanın həll edə bilmədiyi yeganə problem Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir!

Münaqişə ona görə çözülməyib ki, bu işlə birbaşa Azərbaycanın özü yox, beynəlxalq təşkilatlar və həmsədr dövlətlər məşğuldur. Belə ki, özü dörd qətnamə qəbul edəndən sonra BMT bu işi ATƏT-in Minsk qrupuna həvalə edib!

ATƏT isə yaranandan bu günədək tapşırılan missiyanın öhdəsindən gələ bilməyib!

Yalnız səmərəsiz səfərlər edib və nəticəsiz danışıqlar aparıb...

Son sözü isə budur ki, "münaqişə tərəfləri hansı mövqeyə gəlsə", biz onunla razılaşacağıq!

Əgər tərəflər özləri razılaşa bilərdilərsə, onda ATƏT-i niyə yaradıb ona bu zəhməti verirdilər?!

Bəs BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsindəki "Ermənistan qoşunları Azərbaycan ərazilərini qeyd-şərtsiz və dərhal tərk etməlidirlər" tələbini kim yerinə yetirməlidir?!

Bəs Ermənistana işğalçı olduğunu kim deməli və işğal etdiyi ərazilərdən könüllü çıxmadığına görə kim ona sanksiyalar tətbiq etməlidir?!

Ataların bir sözü var: Deyir, çətini boynuna götürməkdir, sonra daşımaq asandır!

Deyəsən, ATƏT boynuna götürüb:

Ermənistan prezidenti Dağlıq Qarabağa gəlir, dalınca baş naziri, sonra müdafiə naziri...

ATƏT lal kimi baxır...

İşğal faktını bundan gözəl nə təsdiq edə bilər ki?..

Nə vaxt qeyrətə gələcəklər!

Hələ ki ədalətsizliyin baş alıb getdiyi, beynəlxalq hüququn gücsüz, gücün isə ikili standartlar tətbiq etdiyi bir dövrdə bu suallara cavab vermək istəyən yoxdur!

Azərbaycan Prezidenti cənab İlham Əliyev isə öz mövqeyində möhkəm və qətidir:

* Azərbaycan ərazi bütövlüyünü mütləq bərpa edəcəkdir!
* Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!
* Azərbaycan münaqişənin sülh yolu ilə həllinə çalışır!
* Azərbaycanın səbri hüdudsuz deyildir və lazım gələndə digər vasitələrdən də istifadə edəcəkdir!

Azərbaycanın dövlət başçısı bu qətiyyətli mövqeyini ortaya qoyarkən özünə güvənir, xalq - iqtidar birliyinə arxalanır, ölkənin iqtisadi gücünü, siyasi nüfuzunu, ordusunun qüdrətini nəzərə alır!

Məhz müstəqil dövlətin müstəqil, düşünülmüş və uzaqgörən siyasətidir onu yenilməz edən!

Budur, Ali Baş Komandanımızın uğur taktikası!

## *Cocuq Mərcanlıdan Günnütə boylanarkən Xankəndi də görünür*

Cənab İlham Əliyev sözünün sahibi olan dövlət rəhbəridir və bunu əməli fəaliyyətində dəfələrlə sübut edib!

2016-cı ilin dördgünlük Aprel müharibəsi deyilənləri əyani şəkildə göstərdi. Qısa müddətdə hərbi əməliyyatların nəticəsini təkcə Ermənistan deyil, bütün dünya da bildi və gördü!

Və bu gün də Prezidentimizin verdiyi proqnozlar addımbaaddım özünü doğrultmaqdadır!

Cənab İlham Əliyevin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində uğurlu həlli istiqamətində düşünülmüş, uzaqgörən və reallığa hesablanmış taktikası son iki ildə ikinci dəfədir ki, öz bəhrəsini verir!

Bu taktikanın parametrləri hamıya bəllidir:

* Azərbaycan sülh danışıqları yolu ilə münaqişənin həllinə çalışır;
* Ermənistan işğal olunmuş əraziləri boşaldana qədər blokada vəziyyətində qalacaqdır;
* Azərbaycan dayanmadan iqtisadi qüdrətini yüksəldir, qonşularına, Avropaya və dünyaya fayda gətirən, tərəfdarlarının sayını artıran transmilli layihələri reallaşdırmaqda davam edir!

Qloballaşan dünyaya dəyərli töhfələr verən Azərbaycanın artıq müasir imici də formalaşmışdır:

* Terrorizmə qarşı mübarizəyə daim dəstək verir;
* Dünyaya tolerantlıq nümunəsi göstərir;
* Bəşəriyyəti narahat və təhdid edən problemlərin müzakirə olunduğu, konkret tövsiyə və təkliflər verildiyi məkan funksiyasını oynayır;
* Ən müxtəlif idman yarışlarının mahir təşkilatçısı kimi tanınır;
* Özünün okeana birbaşa çıxışı olmasa da, beynəlxalq yükdaşımalar və logistika mərkəzinə çevrilir;
* Müstəqil, milli və dövləti maraqlara əsaslanan siyasət yeridir.

Bütün bunlarla bahəm, ən müasir texnologiyalara əsaslanan silahlarla silahlanmış güclü və qüdrətli ordu yaradıb. Bu ordu Aprel müharibəsində öz qüdrətini göstərdi, düşmənə elə bir zərbə vurdu ki, hələ də özünə gələ bilməyib.

Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə Lələtəpə yüksəkliyini azad etdi!

Cocuq Mərcanlı kəndi qısa müddətdə yenidən tikilib-qurularaq məskunlaşdırıldı!

Böyük Qayıdışa başlandı və bu istiqamətdə ilk addım atıldı!

İkinci addım isə Günnüt hesab olunur!

Bu, həm də son dövrlərdə hərbi, siyasi və diplomatik sahədə düşmənə vurulan ikinci şapalaqdır!

Azərbaycanın mövqeyini daha da möhkəmləndirən, Ermənistanı aciz və ümidsiz duruma salan şapalaqdır!

Aprel şapalağı düşməni möhkəm silkələdi!

Təkcə hərbi sistemini yox, siyasi mühitini, vətəndaş cəmiyyətini də sarsıtdı.

Ordu generallarının istefaya göndərilməsi, barələrində cinayət işi açılması ilə məsələ bitmədi!

Bu şapalaq erməni xalqını da ayıltdı!

Ermənistanın kriminal rəhbərliyinin əlində alətə çevrilərək dilənçi vəziyyətinə düşən insanlar küçələrə axışaraq haqlarını tələb etməyə, insan kimi yaşamaq hüquqlarının olduğunu kütləvi aksiyalar formasında bəyan etməyə başladılar!

Dövlət başçısı ilə xalq arasındakı hörmət və itaət pərdəsi ayaqlar altına atıldı!

Sarkisyanın korrupsioner, şəxsi maraqlarına xidmət edən və yalnız özünü düşünən cinayətkar olduğu meydanlarda ucadan səsləndirilməyə başlandı!

"Qarabağ klanı" və Ermənistan erməniləri arasındakı ziddiyyət, qarşıdurma və hətta düşmənçilik hərəkətləri bütün səviyyə və sferalarda daha da kəskinləşərək açıq müzakirə mövzusuna çevrildi.

Erməni xalqı dərindən anladı ki, təkcə rəhbər dəyişikliyi onun vəziyyətini heç zaman yaxşılaşdırmayacaq, ölkəni uçurumun dibindən çıxarmayacaq! Qurtuluş üçün dövlət siyasətini dəyişmək, Ermənistan silahlı qüvvələrini Azərbaycan torpaqlarından çıxarmaq, qonşularla yola gedərək blokadanı aradan qaldırmaq vacibdir!

Ən mühüm iki məqam!

Tərs şapalaqdan ağılları başlarına qayıdan ermənilər ilk dəfə olaraq:

* Düşdükləri müsibətdə əsas günahkarlardan birinin də erməni kilsəsinin olduğunu anlayaraq Ermənistan katalikosu II Qareginə qarşı da etiraz aksiyalarına başladılar!
* Hətta Qarabağ ermənilərinin bəziləri nicatlarının Azərbaycanla bağlılığını başa düşərək kömək üçün İlham Əliyevə müraciət edib, yenidən Azərbaycanın tərkibinə qatılmaq arzularını səsləndirdilər!

Bu gün Cocuq Mərcanlıdan Günnütə tərəf boylananda artıq ağıllanan və qaynayan Xankəndi də görünür!

## *Bərk ayaqda ağalarını satanların Paşinyan hoqqabazlığı*

Xankəndidə yaşayan sadə ermənilərin ixtiyarları özlərində deyil - bunu hamı bilir!

Heç Ermənistana rəhbərlik edənlər də özbaşına deyillər! - Bu da məlumdur!

Ən yaxşı halda buyruq quludurlar. - Forpost və satellat dövlətdirlər!

Odur ki, Sarkisyanın gedib, yerinə Paşinyanın gəlməsi mahiyyətcə heç nəyi dəyişmir.

Artıq dəyişən Paşinyanın özüdür!

Meydanda əsgər analarına, erməni gənclərinə, bütövlükdə erməni xalqına verdiyi vədləri "unudaraq", əslində isə, onların yerinə yetirilməsinin mümkünsüzlüyünü görərək əvvəlki rəhbərlərin dediyini deyir!



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il




**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il




**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində "Tufan" tipli sərhəd gözətçi gəmisi, döyüş texnikası və silah-sursatla tanış olub.** 10 yanvar 2019-cu il



**Şəki Sərhəd Dəstəsinin "Laza" sərhəd zastavası.** 10 avqust 2016-cı il




**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il




**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il




**"ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi.** 25 sentyabr 2018-ci il



**Daxili Qoşunların Qəbələdəki "N" saylı hərbi hissəsi.** 23 sentyabr 2014-ci il



**Daxili Qoşunların Qəbələdəki "N" saylı hərbi hissəsi.** 23 sentyabr 2014-ci il

Sülh danışıqlarından yayınmağa çalışır: ziddiyyətli, ağlasığmaz və gülünc bəyanatlar verir!

Paşinyanın baş nazir olduğu qısa müddətdə:

* Erməni anaları başa düşdülər ki, övladları yenə də Qarabağda xidmətə göndərilərək orada döyüləcək, öldürüləcək, tabutda geri qaytarılacaqlar!
* Erməni gəncləri anladılar ki, yenə də universitet auditoriyalarını əsgər kazarmaları ilə əvəz edəcəklər!
* Erməni xalqı əmin oldu ki, yenə dilənçi vəziyyətində, qorxu içində yaşayacaq, yalnız köçüb birdəfəlik xaricə getməklə canlarını cani rəhbərlərdən qurtara biləcəklər!

Rusiya ilə Qərb arasında vurnuxan, Dağlıq Qarabağı danışıqlar masasına gətirməyə çalışan Paşinyan Günnüt şapalağından sonra çətin ki özünə gələ!

Çünki sələfi Serj Sarkisyan da Cocuq Mərcanlı şapalağından sonra qulağı cırıldaya-cırıldaya getdi!

Yarıköhnə, yarıtəzə Ermənistan rəhbərliyi yarıqərb, yarırus siyasəti yürütmək istəyir...

Amma, əslində, ondan da olub, bundan da!

Üstəlik, ordunun yeni rəhbərliyi, Paşinyanın komandası da yeni ərazi itirdi!

Özü də bir dəfəyə 11 min hektar!

Day bunların Sarkisyan generallarından fərqi nə oldu?!

O generallar aprel şapalağı ilə getdilər!

Bunlar isə Günnüt itkisinə dözməlidirlər?!

Amma hələ bu da son deyil!

Azərbaycan üçün başlanan Böyük Qayıdışın davamıdır!

Başlanğıcını Cocuq Mərcanlıdan götürən qayıdışın!

Hadisələr göstərir ki, prosesi dayandırmaq mümkün olmayacaqdır! Çünki baş verənlərə Ermənistan yox, Azərbaycan tərəfi nəzarət edir!

Azərbaycanın isə dönməz və dəyişməz taktikası, qətiyyətli və uzaqgörən Prezidenti, artıq torpaqların hissə-hissə qaytarılmasını dayanmaz prosesə çevirən İlham Əliyev kimi Ali Baş Komandanı var!

Atalar üçdən deyib!

Birinci şapalaq 2016-nın aprelində gəldi!

İkinci şapalaq bu ilin mayında dəysə də, səsi iyunda çıxdı!

Deyəsən, təpiyin vaxtı çatıb!

***"Azərbaycan" qəzeti,***
***21 iyun 2018-ci il***

# Bu, bizim ordudur - AZƏRBAYCAN ORDUSU

**Ordun varsa, yurdun var!**
**Öz ordusunu yedizdirməyən xalq, özgə ordusunu yedizdirər!**
**Bu müdrik deyimlər tarixin sınaqlarından çıxan həqiqətlərdir! Mahiyyətcə ordunun zəruriliyini, xalqın və dövlətin taleyindəki müstəsna əhəmiyyətini əks etdirir.**
**İlk dəfə ordunun gərəkliliyini, ordusuzluğun acısını isə düşmən torpağımıza göz dikəndə dərindən anladıq...**
**Buna qədər elə zənn edirdik ki, adını sevə-sevə "Qızıl Ordu" qoyduğumuz sovet ordusu bizi hamıdan və hər təhlükədən qoruyur...**
**Doğrudur, 20 Yanvar hadisələrindən sonra bu inam və etibar xeyli sarsılmışdı. Amma hələ də qırmızı imperiyanın tərkibində olduğumuza görə, SSRİ-nin silahlı qüvvələrinə güvənməyə məcburduq...**

Bir vaxtlar arxalandığımız həmin ordunun 366-cı polku (alayı) 26 fevral 1992-ci ildə Xocalı soyqırımını törədəndə isə ordusuzluğun hansı fəlakətlərlə nəticələnə biləcəyini tam dolğunluğu ilə dərk etdik!

Amma ordu qurmaq da asan, hər kəsin bacaracağı iş deyil!

Bütün bunları yaşamış, bir çox hallarda canlı şahidi olmuşuq.

Müstəqil Azərbaycanın Azadlıq meydanında Milli Ordumuzun 100 illik yubileyi münasibətilə keçirilən möhtəşəm paradı seyr edərkən bir daha xəyalən geriyə döndük, yaxın keçmişdə baş verənləri yenidən xatırladıq!

❖❖❖

Hamının səbirsizliklə gözlədiyi gün, saat və dəqiqə gəlib çatır!

Azərbaycan Ordusunun 100 illik yubileyinə həsr olunmuş hərbi parada start verilir.

Müdafiə naziri Ali Baş Komandan cənab İlham Əliyevə raport verir!

Ali Baş Komandan əsgər və zabitləri, generalları, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edərək ordu quruculuğu sahəsində görülən işlərə yığcam nəzər salır.

Ulu Öndər Heydər Əliyevin başladığı ordu quruculuğu bu gün özünün zirvə nöqtəsinə çatmışdır.

Bunu 2016-cı ilin Aprel hərbi əməliyyatı sübut etmişdir!

Bunu ötən ay keçirilən Naxçıvan əməliyyatı sübut etmişdir!

Bunu yubiley paradında gördüklərimiz də sübut edirdi!

Əvvəlcə müxtəlif qoşun növlərinə məxsus şəxsi heyət nizami addımlarla tribunanın önündən keçdi.

Nə qədər qürurverici anlar idi...

Cüssəli, fiziki cəhətdən güclü və sağlam, mətin, nizami addımlarla irəliləyərək əllərində ən müasir atıcı silahlar tutmuş bu hərbçilər bizimkilər idi...

Öz qardaşlarımız, oğullarımız, öz balalarımız idi...

Nə qədər belə bir ordunun həsrətini çəkmişdik, İlahi!

❖❖❖

Ötən əsrin doxsanıncı illərində düşmən havadarlarına arxalanaraq torpaqlarımızın işğalına başlayanda Vətənin qeyrətini, torpağın təəssübünü çəkən igidlərimiz çox idi.

Onlar çağırış gözləmədən Vətənin müdafiəsinə qalxdılar.

Keçmiş SSRİ-nin müxtəlif hərbi hissələrində xidmət edən vətənpərvər zabitlərimiz geri dönərək torpaqların müdafiəsində iştirak etmək istəklərini bildirdilər.

Amma xalq əsl rəhbərindən, əsl sərkərdəsindən ayrı düşmüşdü...

Nə nizami ordu vardı, nə də onu yaratmağı bacaranlar...

Könüllü özünümüdafiə batalyonları zəruri silah-sursat, hərbi texnika, hətta geyimlə belə təmin olunmur, əsgərlərin yeməyinə və məişət şəraitinə lazımi qayğı göstərilmir, silahlı dəstələr vahid mərkəzdən idarə olunmur, müharibə dövlət səviyyəsində aparılmırdı!

Qeyrətli Vətən övladları şəhid getsə də, torpaqların müdafiəsi mümkün olmadı, ərazilərimizin 20 faizi işğala məruz qaldı.

Yalnız xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra vəziyyət dəyişdi.

Uğurlu Horadiz əməliyyatı keçirildi, 22 kənd işğaldan azad edildi.

Dövlət səviyyəsində, yüksək peşəkarlıqla müasir ordu quruculuğu prosesinə başlanıldı.

❖❖❖

Azadlıq meydanında gördüyümüz isə quruculuğunu başa çatdırdığımız müasir və milli Azərbaycan Ordusu idi!

Əhsən belə Prezidentə!

Əhsən belə Ali Baş Komandana!

Bu ordu öz dövlətini qorumağa qadirdir!

Bu ordu müstəqilliyimizi qorumağa qadirdir!

Bu ordu xalqımızı qorumağa qadirdir!

Bu ordu həm də işğal altındakı ərazilərimizi geri qaytarmağa qadirdir!

Yüksək döyüş ruhu, möhkəm nizam-intizam, fiziki hazırlıq və dözümlülük, mənəvi mətinlik müasir Azərbaycan Ordusunun xarakterik xüsusiyyətləridir!

Ali Baş Komandan Azadlıq meydanındakı tribunadan bütün dünyaya bəyan etdi: "Gün gələcək, işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək!"

Azərbaycan dövləti ordudan heç nə əsirgəmir!

* Kifayət qədər vəsait ayırır! 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artırılmışdır.
* Yüksək biliyə, təcrübəyə və hərbi vərdişlərə malik zabitlər daim şəxsi heyətlə məşğul olur, onları öyrədir, püxtələşdirir. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix də göstərir.
* Əsgər və zabitlər üçün ən gözəl məişət və istirahət şəraiti yaradılmış, yeni hərbi şəhərciklər salınmış, müasir kazarmalar tikilmişdir. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya təmir edilib.
* Əsgərin düzgün qidalanması və sağlamlığı, təmizliyi diqqət mərkəzindədir. Azərbaycan Ordusunun heç nədən korluğu yoxdur. Təkcə bir ildə əsgər və zabitlər 500 tondan çox ətlə qidalanırlar. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərara əsasən, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzil verilir.
* Ən müasir texnologiyalara əsaslanan yeni silahlar ardıcıl və sistemli şəkildə alınaraq gətirilir, ordunun sərəncamına verilir, onlardan istifadə qaydaları qısa müddətdə öyrədilir, müvafiq nöqtələrdə yerləşdirilir. Yeni silahlar arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarca döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri vardır.
* Müdafiə sənayesi kompleksi qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir, əvvəlki texnika və silahlar modernləşdirilir, yeniləri istehsal olunur.

Son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq.

* Bütün ixtisaslar üzrə zabit kadrları hazırlanır, şəxsi heyətin mənəvi, fiziki və hərbi hazırlığı daim diqqətdə saxlanılır, ordunun peşəkarlıq səviyyəsi durmadan yüksəldilir. Azərbaycan Ordusu bir sıra beynəlxalq hərbi təlimlərdə və əməliyyatlarda iştirak edir.

❖❖❖

Bəli, Azərbaycan Ordusu 100 yaşını qeyd etdi!

Ötən 100 il ordumuz üçün uğursuzluq, sınaq, eyni zamanda intibah dövrü olub!

Onun keçdiyi yol hamar və rahat yox, enişli-yoxuşlu olub!

Amma bu da bir həqiqətdir ki, Azərbaycan Ordusu heç zaman indiki qədər güclü, qüdrətli və möhkəm olmayıb!

Yüz yaşı ərəfəsində - 2016-cı ilin aprelində ordumuz yeni imkanlarını açıb göstərdi: Lələtəpə yüksəkliyi və onunla birgə 2 min hektar ərazi bizim nəzarətimizə qaytarıldı.

İkinci qeyri-adi əməliyyat isə may ayında baş verdi: Naxçıvanın Günnüt kəndi - bütövlükdə isə 11 min hektardan çox ərazi geri qaytarıldı!

❖❖❖

Bu əməliyyatlar barədə eşitmişdik, oxumuşduq!

Aprel qəhrəmanlarını tanımış, şəhidlərimizlə qürur duyaraq onlara rəhmət diləmiş, böyük hörmət və ehtiramımızı bildirmişdik!

Azadlıq meydanında keçirilən hərbi paradda isə hər şeyi öz gözlərimizlə gördük!

Həm də təkcə biz yox, bütün dünya gördü!

Sonsuz sevinc və fəxarət hissi yaşadıq!

Bəli, bu möhtəşəm ordu bizim ordumuzdur, müstəqil Azərbaycanın Milli Ordusudur!

Sevdiyimiz, fəxr etdiyimiz, güvəndiyimiz ordudur!

Möhtəşəmliyi, gücü və qüdrəti göz qabağındadır!

Bu ordu ən əvvəl xalqın arzularının ifadəçisi olan Ali Baş Komandanı ilə güclüdür!

Bu ordu yüksək biliyə və peşə vərdişlərinə malik zabit və generalları ilə güclüdür!

Bu ordu qəlbi Vətənə və xalqa böyük məhəbbətlə döyünən igid əsgərlərimizlə güclüdür!

Bu ordu ən yeni texnologiyalara əsaslanan müasir silah-sursatı və texnikası ilə güclüdür!

Bu ordu vətənpərvərliyi, döyüş ruhu, qarşıya qoyulan hər bir tapşırığı dəqiq yerinə yetirmək bacarığı və məharəti ilə güclüdür!

Ali Baş Komandandan daimi qayğı, dövlətdən tükənməz dəstək, xalqdan sonsuz məhəbbət görən ordu yenilməz və məğlubedilməz olur!

❖❖❖

Biz Lələtəpədə və Günnütdə gücümüzü və imkanlarımızı göstərdik!

Biz Cocuq Mərcanlı nümunəsi ilə Böyük Qayıdışa başladığımızı nümayiş etdirdik!

Hərbi paradda isə nəyimiz varsa, ortaya qoyduq: həm texnika, həm şəxsi heyət sarıdan!

İndi seçim düşmənindir!

Biz sülh tərəfdarı olmaqla bahəm, qüdrətli ordu da qurmuşuq!

Zaman bizə işləyir!

Hər gün daha da güclənirik, iqtisadi və hərbi qüdrətimizi artırırıq!

Baxın, a!

Sonra gec olar!

❖❖❖

Ən nəhayət, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Ordusunun 100 illiyi münasibətilə keçirilən möhtəşəm paradda söylədiyi dərin məzmunlu, parlaq nitqindən bəzi xatırlatmaları bir daha diqqətinizə təqdim edirik:

* Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır;
* Ölkəmizdə 1200 adda hərbi təyinatlı məhsul istehsal olunur;
* Düşmənin bütün hərbi obyektləri, strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən hər an məhv edilə bilər;
* Ermənilərin illərboyu yaratdıqları müdafiə xəttini bir neçə gün ərzində yardıq və məhv etdik;
* Ermənistan ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mifini darmadağın etdik;
* Ermənilərin işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərirlər;
* Tarixi ədalət, beynəlxalq hüquq, iqtisadi və hərbi güc, vətənpərvərlik ruhu bizim tərəfimizdədir;
* Aprel və Naxçıvan qələbələri bir daha əmin edir ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır;
* Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək!

***“Azərbaycan” qəzeti,***
***29 iyun 2018-ci il***

# Sarsıdıcı zərbə

*İlham Əliyevin "QARABAĞ AZƏRBAYCANDIR!" çağırışı milli ideyaya və hərəkata çevrilir*

**Azərbaycan xalqının elə bir nümayəndəsi tapılmaz ki, Azərbaycanın ərazi bütövlüyünün bərpasını və torpaqların işğaldan azad edilməsini istəməsin, bu yolda əlindən gələni etməyə daim hazır olmasın!**
**Yaşından, cinsindən, milliyyətindən asılı olmayaraq!**
**Çünki Qarabağın işğaldan azad edilməsi təkcə Azərbaycan dövlətinin deyil, bu torpaqda yaşayan hər kəsin arzusu, amalı və həm də problemidir!**
**Artıq illərdir ki, Qarabağın geri qaytarılması məramı xalqımızı dövlətin və dövlət başçısının ətrafında sıx birləşdirən başlıca dəyərə, milli birlik və vətəndaş həmrəyliyi ideyasına çevrilmişdir!**

Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunda "Qarabağ Azərbaycandır!" nidasını səsləndirməsi hamının ürəyindən olmaqla bərabər, bu ideyaya yeni güc, yeni nəfəs və həyat verdi!

Ermənistanın küçədən vəzifəyə gəlmiş baş naziri N.Paşinyanın sərsəm açıqlamasına Azərbaycan tərəfinin layiqli cavab verəcəyi kimsədə şübhə doğurmurdu!

Çünki hamı cənab İlham Əliyevin qətiyyətini və xarakterini, düşmənin hər bir hərəkət və addımına tutarlı, kəskin cavab vermək bacarığını, həm də sözü ustalıqla dediyini və özünəməxsus qrossmeyster gedişini məqamında etdiyini gözəl bilir.

Bu, belə də oldu!

ƏVVƏLA, cavab üçün çox uğurlu məkan seçilmişdi:

* Dünyanın hər tərəfindən gələn say-seçmə insanların, dövlət rəhbərlərinin, siyasi xadimlərin iştirak etdiyi "Valday" Beynəlxalq Diskussiya Klubunun panel iclası;
* Yenicə Ermənistana səfərdən qayıtmış Rusiya Prezidenti Vladimir Putinin iştirak etdiyi məclis;
* Dünya KİV nümayəndələrinin və beynəlxalq ekspertlərin təmsil olunduğu tədbir;

* İclasdakı çıxışların birbaşa bütün dünyaya yayımlandığı məqam;
* Üstəlik, ağılla qurulmuş, təmkinli və soyuqqanlı, fakt və arqumentlərlə söylənən nitq!

Nitqin ən böyük uğurlarından biri onun zəngin faktları əhatə etməsinə rəğmən, sərrastlığı və yığcamlığı idi!

İKİNCİSİ, hədəflər dəqiq və aydın seçilmişdi!

ÜÇÜNCÜSÜ, deyilənlər dəqiq və təkzibedilməz olmaqla bərabər, real faktlara və tarixi sənədlərə söykənirdi!

Cənab İlham Əliyev ilk növbədə N.Paşinyanın simasında təzahürünü tapan erməni yalanını ifşa etdi: "1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir".

İkincisi, Prezidentimiz son dərəcə ağıllı və məntiqli bir yanaşma nümayiş etdirdi: “Ermənistanın özünün də tanımadığı bu qanunsuz qurum Ermənistanın bir hissəsi necə ola bilər?!”

Sonra yaxın keçmişdə qəbul edilən sənədlərə əsaslanan faktlar bir-birinin ardınca açıqlanaraq xatırladıldı!

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bəyan etdikdən sonra Dağlıq Qarabağla birlikdə BMT-yə üzv olmuşdur!

Daha bir vacib məqam: BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib!

İlham Əliyev daha bir erməni uydurmasını ifşa etdi: "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil! Dağlıq Qarabağın münaqişəyədək birlikdə yaşayan azərbaycanlılardan və ermənilərdən ibarət əhalisi vardır!

O başqa məsələdir ki, dünyanın ali beynəlxalq orqanı sayılan BMT 25 ildən çox müddətdir ki, qəbul etdiyi qərarları yerinə yetirmir!

O başqa məsələdir ki, BMT Təhlükəsizlik Şurasının qərarlarının icrası seçmə xarakteri daşıyır: bir qismi mürəkkəbi qurumamış yerinə yetirilir, bəziləri isə uzun illərboyu kağız üzərində qalır!

O başqa məsələdir ki, hazırkı dünyada ikili standartlar mövcuddur və Azərbaycan da bundan əziyyət çəkir!

O başqa məsələdir ki, BMT-nin fəaliyyətinin səmərəsi aşağıdır, onun özündə islahatlara ehtiyac duyulur!

Bütün bu həqiqətləri faktların gücü və məntiqin dili ilə ucadan səsləndirən cənab İlham Əliyev münaqişənin həllinin doğru-dürüst variantını bir daha bəyan etdi:

* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır.
* Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtması təmin olunmalıdır!

İlham Əliyevin Ermənistana, "saqqallı təlxək" ləqəbi qazanmış Ermənistanın baş nazirinə və dünya erməniliyinə ünvanlanmış bu bəyanatı təkcə xatırlatma deyil, həm də xəbərdarlıqdır!

İlham Əliyevin bütün bu addımları xalqın ürəyindən xəbər verir, xalqın dəstəyinə, ona olan sonsuz məhəbbətinə və inamına əsaslanır.

İlham Əliyev daim xalqın istəklərini ifadə edir, xalqın arzularını gerçəkləşdirir!

Qarabağ məsələsi Azərbaycan xalqının milli qürur məsələsidir!

Dövlətin, dövlətçiliyin taleyinə təsir edən mühüm amildir.

Heç bir azərbaycanlı Qarabağın Azərbaycandan ayrılmasına heç zaman razı olmaz, buna yol verməz!

Qarabağ problemi ölkə vətəndaşları üçün həm də bir məhək daşıdır!

Bu mübarizədə dövlət başçısına dəstək verməyənlər, indiki həssas məqamda ölkədə sabitliyi pozmağa, xaos və özbaşınalıq yaratmağa çalışanlar isə, əslində, bu xalqdan sayılmırlar!

Qarabağ məsələsində müxalif və əks mövqe, ikinci yanaşma yolverilməzdir!

❖❖❖

Artıq xalqın səbir kasası daşmaq üzrədir!

ATƏT-in Minsk qrupunun səmərəsiz və dişsiz fəaliyyəti, Ermənistan rəhbərliyinin məsuliyyətsiz açıqlamaları problemin yubanmadan həllini zəruri edir.

Heydər Əliyev siyasi kursu ilə qətiyyətlə irəliləyən Prezident İlham Əliyevin rəhbərliyi altında münaqişənin qeyri-sülh yolu ilə həlli sahəsində də görülən işlər yekunlaşmaqdadır:

Azərbaycan iqtisadi cəhətdən güclənmiş, ən müasir silahlarla silahlanmış qüdrətli ordu yaratmış, diplomatiya sahəsində zəruri addımlarını atmış, dördgünlük Aprel müharibəsində baş məşqini də etmişdir!

Cənab İlham Əliyev gördüyü işlərə, xalqının dəstəyinə arxalanaraq "Qarabağ Azərbaycandır!" çağırışını səsləndirmişdir.

Qarabağ Azərbaycanındırsa, deməli, kimsə Azərbaycanı Ermənistana birləşdirmək xülyasına düşə bilməz!

Satellat Ermənistana!

Yoxsul və dilənçi Ermənistana!

Əhalisi durmadan ərazisini tərk edən Ermənistana!

Bu gün təkcə Ermənistanda yaşayanlar yox, bütün dünya erməniliyi də başa düşüb ki, N.Paşinyanın nə siyasətdən, nə diplomatiyadan, nə dövlət idarəçiliyindən, nə də hərbdən başı çıxır!

Yalan vəd vermək, populist çıxışlar etmək, adamlara xoş gəlmək üçün qol götürüb oynamaq, insanları aldatmaq dövlət idarəçiliyinə xas və aid olmayan məsələlərdir.

Artıq onun zamanı bitib!

Ermənistan isə nə blokadadan çıxıb, nə yoxsulluğun daşını atıb, nə əhalisinin ölkədən qaçıb getməsi dayanıb, nə buraya investisiya qoyan tapılıb, nə də nicat yolu müəyyənləşib!

Nicat yalnız işğal altındakı torpaqları qaytarmaqda, qonşu dövlətlərlə normal münasibət quraraq blokadadan çıxmaqdadır!

Cənab İlham Əliyev "Qarabağ Azərbaycandır!" açıqlaması ilə Ermənistanda bir çaxnaşma yaradıb!

Ermənilər dövlətlərinin də, rəhbərlərinin də Azərbaycandan, Azərbaycan rəhbərindən nə qədər zəif, miskin durumda olduğunu "nöqtə" ilə "nida"nın müqayisəsində də aydın gördülər!

İlham Əliyevin bu çağırışı xalqımızı daha sıx birləşdirir!

Bu çağırış milli ideya statusu qazanaraq əsl xalq hərəkatına çevrilməkdədir!

Ürəyində Vətən sevgisi, qəlbində vətənpərvərlik hissi olan hər bir azərbaycanlı dövlət başçısı ətrafında birləşərək bu hərəkatın fəal iştirakçısına çevrilir!

Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanın olacaq!

Bu hərəkata əməldə dəstək olaraq Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə tezliklə torpaqlarımızı azad edəcəyik!

"Qarabağ Azərbaycandır!" çağırışı həm də hər bir azərbaycanlının şüarı və fəaliyyət istiqamətidir!

“Azərbaycan” qəzeti,<br>12 oktyabr 2019-cu il

# İlham Əliyevin xəbərdarlıqları

*Ermənistan və onun havadarları deyilənlərdən nəticə çıxarmalıdırlar*

**Lap qədimlərdə belə bir qayda da varmış:**
**Müharibə etməyə hazırlaşan dövlətlərin qoşunları qarşı-qarşıya düzülər, döyüşdən qabaq meydana orduların sərkərdələri, hər tərəfin ən güclüləri çıxar, qüvvələrini sınayardılar. Bəzən sərkərdəsi biabırçı şəkildə məğlub olan dövlətin ordusu döyüşdən imtina edərək təslim olardı.**
**Ağıllı yol sayılırdı: ordunu niyə qırdırsınlar?!**
**Bu gün Ermənistan-Azərbaycan hərbi qarşılaşması qədim dövlətlərin adətini yada salır.**
**Aprel müharibəsi və son dövrdə baş verənlər əyani şəkildə göstərdi ki, ermənin nə gücü gücümüzə çatır, nə də "sərkərdəsi" bir şeydir...**

❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyevin dünyada hörmət və nüfuzu ilbəil deyil, aybaay, günbəgün artır!

Buna səbəb onun gördüyü əməli işlər, dünya dövlətlərinə və xalqlarına etdiyi yaxşılıqlar, həyata keçirdiyi layihələr, beynəlxalq gündəmə çıxardığı həlli vacib problemlər, dalbadal irəli sürdüyü təşəbbüslər, verdiyi faydalı təkliflərdir.

Bəli, İlham Əliyev Azərbaycanı dünya üçün maraqlı və əməkdaşlığa layiq ölkəyə çevirə bilib!

Bəli, İlham Əliyev dünya dövlətlərinin maraqlarını Azərbaycanın maraqları ilə uzlaşdıra bilib!

Bəli, İlham Əliyev uzaqgörən və düşünülmüş siyasəti, hər dəfə atdığı hesablanmış addımları ilə qısa müddətdə dünyanın müasir liderləri ilə bir səviyyəyə yüksəlməyi bacarıb!

Odur ki, dünyada keçirilən ən nüfuzlu tədbirlərin sevilən və arzuolunan dəvətlisi, ən ağıllı və maraqlı çıxışçısı, gərəkli və səmərəli təkliflərin müəllifi statusunu da qazanıb!

Əlbəttə, buna sevinməyənlər də, paxıllıq edənlər də, qısqanclıqla yanaşanlar da var və bütün bunlar təbii sayılır...

İndi dünya yeni, bənzərsiz, həm də xoş olmayan dövrünü yaşayır - COVID-19 pandemiyası hər şeyi tərsinə çevirib.

Qapılar bağlanıb, dövlətlər öz qınına çəkilib, dərin iqtisadi böhran öz nəfəsini hiss etdirir.

Yenə görünən İlham Əliyevdir!

Yenə yaranmış ağır vəziyyətdən çıxış yolunu görən və göstərən İlham Əliyevdir!

Yenə koronavirus bəlasına və iqtisadi böhrana qarşı ölkələri birliyə çağıran, bu birliyin yollarını və üsullarını, mübarizə vasitələrini göstərən İlham Əliyevdir:

* Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında onlayn iclasını keçirdi;
* Qoşulmama Hərəkatının möhtəşəm videokonfransının təşəbbüsçüsü və təşkilatçısı oldu;
* BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasının müəllifinə çevrildi!

Bütün bunlar sülhə, əməkdaşlığa, xeyirxahlığa və insanlığa xidmət edir!

❖❖❖

Azərbaycanın həll edə bilmədiyi yeganə problem Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir!

İlham Əliyev bu çoxillik münaqişəni də çözmək əzmindədir!

Son illərdə bu yolda bir-birindən qətiyyətli və inamlı addımlar atıb.

Əslində, işğal altındakı torpaqların azad edilməsi üçün zəruri işlərin hamısı görülüb:

* Azərbaycanın güclü iqtisadiyyatı, hətta müdafiə sənaye kompleksi yaradılıb;
* Ölkəmizin dünyada nüfuzu və çəkisi artıb, səsi və sözü daha ucadan və aydın eşidilməyə başlayıb;
* Mühüm beynəlxalq təşkilatlarda aparılan səmərəli fəaliyyət sayəsində Qarabağ həqiqətləri olduğu kimi qəbul edilməkdə və dəstəklənməkdədir;
* Ən müasir texnologiyalara əsaslanan silahlarla silahlanmış, mükəmməl təlim görmüş modern ordu yaradılıb;
* Ermənistanın faşist xislətli, yalançı və işğalçı dövlət olması dünya ictimaiyyətinə çatdırılıb!

Bütün bunlara nail olan Prezident İlham Əliyev son dövrlərdə mənfur düşmənə dalbadal və bir-birindən güclü zərbələr endirib:

* 2016-cı ilin dördgünlük Aprel müharibəsində min hektarlarla ərazini Lələtəpə yüksəkliyi timsalında Azərbaycanın nəzarətinə qaytararaq, Cocuq Mərcanlı qəsəbəsini salıb məskunlaşdırmaqla, əslində, geriyə qayıdışın bünövrəsi qoyuldu!
* Naxçıvanda Günnüt əməliyyatı sayəsində nəinki böyük bir ərazi ələ keçirildi, üstəlik, Ermənistandan Gorusa və Laçına gedən yol nəzarətə alındı!

Əlbəttə, ağlı olan dövlət başçısı yaranmış yeni situasiyanı anlamalı və xalqının gələcək taleyini (hələ indiki dilənçi vəziyyətini demirik) nəzərə almalı idi. Siyasi dərsini türmədə alıb hakimiyyətə meydandan gələn Ermənistanın baş naziri Paşinyan isə problemlər burulğanında başını itirib.

Gah Rusiyaya yalmanır, gah Qərbə yaltaqlanır...

Özündən olsa "hiyləgər siyasət" aparır.

Artıq hər şey onun əleyhinə işləyir: atdığı yanlış addımlardan tutmuş koronavirus pandemiyası və dalana dirənmiş iqtisadiyyata qədər.

Lakin yenə də erməni həyasızlığından əl çəkmir: "Qarabağ Ermənistandır - nöqtə" deməklə "ümumxalq məhəbbəti" qazanmağa çalışır.

Şuşada "andiçmə" mərasimi keçirir.

İşğal ərazilərində məskunlaşdırma aparır.

Əslində, bütün bunlar münaqişənin həllini sülh danışıqları müstəvisindən çıxararaq müharibəyə aparır!

Azərbaycan Prezidenti Paşinyanın iştirak etdiyi məclislərdə:

* Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda;
* Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibli iclasında;
* Münxen Təhlükəsizlik Konfransında çıxış edərək onun və bütövlükdə Ermənistanın faşist və işğalçı simasını ifşa etdi!

Axırının çatdığını yaxşı anlayan Paşinyan özünü xilas etmək üçün "yeni hiyləgər plan"a əl ataraq iyulun 12-də Azərbaycanın Tovuz bölgəsinə hücum etdi.

Məqsədi KTMT-ni - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını öz tərəfindən münaqişəyə cəlb etməkdir.

Ağılsızlığın bir əlaməti də özünü hamıdan ağıllı saymaqdır...

❖❖❖

Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı sərt və qətiyyətli çıxışı hamının ürəyindən oldu.

Ali Baş Komandan Ermənistanın təxribatından, ordumuzun ona verdiyi cavabdan ətraflı danışdı, bir daha Azərbaycanın qətiyyətli mövqeyini ortaya qoydu:

"Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərini qoruyacaq".

"Azərbaycan heç vaxt işğal edilmiş torpaqların bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin".

"Əgər Ermənistan öz ərazisindən Azərbaycan kəndlərinə atəş açırsa, təbii ki, biz adekvat cavab verəcəyik və veririk".

"Düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq".

Azərbaycan xalqı şəhid olmuş balalarını böyük hörmət və ehtiramla son mənzilə yola saldı!

Xalq dövlət başçısı, Ali Baş Komandanın ətrafında daha sıx birləşdiyini bir daha nümayiş etdirdi!

Azərbaycan Ordusu yenə də öz gücünü və qüdrətini nümayiş etdirdi!

Azərbaycan gəncləri dəstək yürüşü keçirərək torpaqların işğaldan azad edilməsi uğrunda döyüşə hər an atılmağa hazır olduqlarını söylədilər!

12 iyul döyüşləri Aprel savaşı və Günnüt əməliyyatında olduğu kimi, Ali Baş Komandana ümumxalq məhəbbətinin növbəti təsdiqinə çevrildi!

İlham Əliyevin rəhbərliyi ilə iqtisadi cəhətdən güclü, hərbi cəhətdən qüvvətli olan və düşünülmüş siyasət yürüdən Azərbaycan tezliklə işğaldakı torpaqlarını da azad edəcəkdir!

***"Azərbaycan" qəzeti,***
***16 iyul 2020-ci il***

# Kiçik qisas alındı, növbə böyük qisasındır!

*Satqınlar və xəyanətkarlar da məsuliyyətdən yaxa qurtara bilməyəcəklər*

**Sovet dövründə Sov.İKP ilə bağlı çoxsaylı lətifələr yaradılmışdı və hamı bunları bir-birinə söyləyərək gülürdü. Onlardan biri belə idi:**

**Bir dəfə sıravi fəhlələrdən birini raykomun bürosunda partiyaya qəbul edirlər. Büro üzvlərindən biri namizədə sualla müraciət edir:**

**- Bizim düşmənimiz kimdir? - (O zamanlar dünya imperializmi kommunizmin düşməni sayılırdı).**

**Fəhlə sadəlövhlüklə ürəyindəkini söyləyir:**

**- Ermənilər!**

**Partkom işin korlandığını və buna görə başının ağrıyacağını düşünərək onun səhvini düzəltmək üçün suala düzəliş verir:**

**- Adə, daxili düşmənləri soruşmur ey, xarici düşmənləri xəbər alır!**

Dövr və zaman dəyişib.

Hətta düşmənlər də!

Bu gün ermənilər artıq xarici düşmənə, torpaqlarımızın işğalçılarına çevriliblər.

Daxili düşmənlər rolunda isə özümüzünkülər çıxış edirlər: satqınlar, xəyanətkarlar, radikallar, "5-ci kolon" üzvləri, təxribatçılar və sosial şəbəkədə murdarlıq edənlər.

## *Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olan əməliyyat*

Öz aləmində özünü "ağıllı və bic" hesab edən Paşinyan sələflərinin "səhvini düzəltmək", Aprel müharibəsinin və Günnüt əməliyyatının əvəzini çıxmaq üçün qəflətən Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətindən Azərbaycana hücuma keçdi, yaşayış məntəqələrini və sərhəd postlarını top atəşinə tutdurdu.

Erməni xisləti, erməni məkri burada da duyulurdu. Ancaq, necə deyərlər, daş qayaya rast gəlmişdi!

Siyasətin ibtidai sinfində oxuyan Paşinyan siyasət nəhəngi İlham Əliyevi heç cürə çaşdıra bilməzdi.

Ermənistan ərazisindən gülünc bir bəhanə ilə Azərbaycana hücum edən Paşinyan Azərbaycanın Aprel döyüşlərində olduğu kimi, güclü əks-hücuma keçəcəyini gözləyirdi.

Öz ağlı ilə...

Bununla da o, KTMT-ni, xüsusən də Rusiyanı Azərbaycan əleyhinə hərbi əməliyyatlara cəlb edəcəyini düşünürdü...

Ali Baş Komandan İlham Əliyev öz siyasətçi müdrikliyini və uzaqgörənliyini, sərkərdəlik məharətini və qətiyyətini növbəti dəfə də nümayiş etdirərək Paşinyana hərb və siyasət dərsi keçdi, onu sələflərindən də axmaq vəziyyətə saldı!

Bütün bunları Azərbaycan xalqı ilə bərabər, bütün dünya da gördü!

Gördü ki, Azərbaycan "erməni bicliyi"nə uymadan Ermənistanın başından necə vurdu!

Gördü ki, dinc əhalini və sərhədyanı kəndləri top atəşinə tutan düşmənə müasir silahlardan necə dağıdıcı zərbələr endirildi!

Gördü ki, Azərbaycan düşmənə bir santimetr belə torpaq vermədən, bir addım belə geri çəkilmədən onu necə hərbi əməliyyata başlamasına peşman etdi!

Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə Milli Ordumuz düşmənin bütün atəş nöqtələrini, hərbi texnika və canlı qüvvəsini tar-mar edərək hərbçilərimizin qisasını qısa vaxtda aldı.

12 iyulda keçirilən əməliyyatda nə gördük?

2016-cı ilin dördgünlük Aprel müharibəsində gördüklərimizdən də artığını:

* Azərbaycan xalqı düşmənin hücum xəbərini alantək bir nəfər kimi ayağa qalxdı, dövlətinə, Ali Baş Komandanına dəstəyini və məhəbbətini ifadə etdi;
* Azərbaycan Ordusu baş sərkərdə İlham Əliyevin rəhbərliyi ilə düşmənə bir-birinin ardınca sarsıdıcı, dağıdıcı zərbələr endirərək, malik olduğu müasir silahların gücünü göstərdi;

* Azərbaycan gəncləri hərbi səfərbərlik məntəqələrinə gəlib Orduya yazılaraq, düşmənə qarşı vuruşmaq üçün hərbi paltar geyinib silah götürmək əzmini nümayiş etdirdi;
* Azərbaycan xalqı şəhid balalarını çox böyük izzət və məhəbbətlə son mənzilə alqışlarla yola saldı, şəhidlərə və onların ailə üzvlərinə hörmət və ehtiramını bildirdi;
* Azərbaycan vətənsevərləri dövlət başçısı İlham Əliyevin hərbi əməliyyatlara rəhbərliyindən, yeritdiyi siyasətdən, şəhidlərin qisasını dərhal almasından məmnun qalaraq Ali Baş Komandana hörmət, məhəbbət və razılıqlarını səmimi sözlərlə ifadə edən saysız-hesabsız məktublar ünvanladılar;
* Azərbaycan xalqı öz rəhbərinin başçılığı ilə tezliklə işğal altındakı torpaqları azad etmək əzmini və niyyətini bir daha ortaya qoydu!

Bəli, Ali Baş Komandanın qətiyyət və prinsipiallığı nəticəsində kiçik qisasımızı aldıq, itkilərimizin əvəzini artıqlamasilə çıxdıq!

Növbə böyük qisasındır!

* Bəli, Azərbaycan xalqı dağıdılan kənd və şəhərlərinin, məhv edilən tarixi abidələrinin, dini məbədlərinin, ictimai və şəxsi tikililərinin qisasını alacaqdır;
* Azərbaycan xalqı şəhid olmuş övladlarının, yetim qalmış balalarının, əlil olmuş qazilərinin qisasını alacaqdır;
* Azərbaycan xalqı Xocalı, Qaradağlı, Bağanıs Ayrım və törədilmiş digər soyqırımlarının qisasını alacaqdır;
* Azərbaycan xalqı xaraba qalmış ev-eşiklərinin, dağıdılmış qəbiristanlıqlarının, qaçqın düşərgələrində yaşadığı çətin və məşəqqətli günlərinin qisasını alacaqdır;
* Azərbaycan xalqı girovluqda iztirablar çəkdirilən qoca, qadın və uşaqların, gülləyə hədəf seçilən mülki vətəndaşlarının, qanına qəltan edilən fidan balalarının - Farizlərin və Aygünlərin qisasını alacaqdır!

Bu qisasdan yaxa qurtarmağın yalnız bircə yolu var:

Ermənistanın indiki ağılsız və faşistpərəst rəhbərliyi olub-qalan ağlını başına yığmalı, qoşunlarını gecikmədən işğal ərazisindən çıxarmalı, məsələnin sülh yolu ilə, BMT-nin məlum qətnamələri əsasında həllinə razılıq verməlidir.

Azərbaycan xalqının və onun Ali Baş Komandanı İlham Əliyevin səbri kimi qəzəbi də böyükdür!

Ermənistan növbəti dəfə bunu 12 iyul günlərində bir daha sınaqdan çıxardı!

## *Vətəni sevmək azdır, onu qorumağı da bacarmalıyıq*

Hər bir müharibədə hadisələr, adətən, iki məkanda cərəyan edir: ön cəbhədə və arxa cəbhədə!

Bu dəfə arxa cəbhə 3 "ərazi" sayılırdı:

* Tovuzun sərhəd kəndi Ağdam;
* Ölkə paytaxtı Bakı;
* Bir də sosial şəbəkə.

Ön cəbhədə hər şey aydındır:

Güclü və müasir Ordumuz, yüksək biliyə malik zabitlərimiz, təlim görmüş əsgərlərimiz var!

12 iyulda bir daha bunun şahidi olduq!

Arxa cəbhədə isə vəziyyət həm aydındır, həm də göründüyü qədər sadə deyil!

* Xalq Orduya inanır!
* Ali Baş Komandanına etibar edir və arxalanır!
* Vətənini, müstəqil dövlətini və torpağını qorumağa, yaşından asılı olmayaraq, hər an əlinə silah götürüb vuruşmağa daim hazırdır!
* Düşmənə, ondan da çox satqınlara və xəyanətkarlara, "5-ci kolon" üzvlərinə nifrət edir!

Üstəlik, müasir Azərbaycan vətəndaşlarının gözü açıqdır: insanlara dilinə görə yox, əməlinə görə qiymət verməyi bacarırlar.

Lakin unutmaq olmaz ki, ölkədə sabitliyi pozmağa çalışanlar, düşmən dəyirmanına su tökənlər, müxtəlif radikal ünsürlər də mövcuddur.

Biz 90-cı illəri unutmalı deyilik!

Biz Azərbaycan Xalq Cəbhəsinin torpaqlarımızı vəzifə ehtiraslarına necə qurban verdiklərini yaddan çıxara bilmərik!

Hələ də AXC-dən qalma tör-töküntü, xəyanət və saxtakarlığa adət etmiş Əli Kərimli və anti-Azərbaycan mövqeli Milli Şura və həmin şuranın dövlətin hər bir çətinliyinə sevinən marginallaşmış üzvləri vardır!

Onlar və xaricdə oturan həmkarları daim marıqdadırlar, arxadan xalqımıza bıçaq vurmağa məqam gəzirlər!

Əli Kərimli və ətrafı üçün qrantdan başqa müqəddəs heç nə qalmayıb!

Hətta xalqın ən möhtəşəm mənəvi tədbirlərini də murdarcasına öz niyyətlərinə asanlıqla qurban verirlər!

14 iyulda Bakıda olduğu kimi...

Ordumuz düşməni darmadağın edərək şəhidlərimizin qisasını almış, böyük qələbə qazanmışdı. Xalq qələbənin sevincini yaşamaq, şəhidlərin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Böyük əksəriyyət dövlətə, dövlət başçısına dəstəyini, Orduya məhəbbətini və hərbi əməliyyatlarda iştirak etmək istədiyini nümayiş etdirdi.

Sonra...

Sonra bu böyük insan axınının içərisindən xəyanətkarlar, öyrədilmiş insanlar, murdar xislətlilər ayrılaraq polisə tabe olmadılar, zorla Milli Məclisə girərək müəyyən dağıntılar törətdilər!

Belə möhtəşəm yürüşə ləkə gətirmək olardımı?!

Doğrudur, polis xəyanətkarların və təxribatçıların bir qismini saxlayıb, qalanları da istintaq yolu ilə müəyyənləşəcək.

Amma hərbi əməliyyatlar başlanan kimi yenə də adları azərbaycanlı olanlar sabitliyi pozmağa, dövlət əleyhinə təxribatlar törətməyə çalışırlar.

Xüsusən təcrübəsiz gəncləri yanıltmağa, öz təsirləri altına salmağa can atırlar.

Prezident İlham Əliyev beləlləri haqqında çox dəqiq deyib: "Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir...

Beləlləri xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yox, düşmənin yanındadırlar".

Başqa bir məsələ də var:

Biz vətəndaş olaraq xəyanətkarın, təxribatçının ifşasını yalnız polis və xüsusi xidmət orqanlarının üzərinə atmalı deyilik.

Onlar onsuz da daim bu işlə məşğuldurlar.

Bəs bizim vətəndaş mövqeyimiz, bəs bizim Vətən sevgimiz harada qaldı?!

Yanımızda kimsə, yaxud tanıdıqlarımızdan biri dövləti maraqlara xəyanət edirsə, "5-ci kolon" funksiyasını yerinə yetirirsə, susub durmalıyıq?

Ya da üzümüzü yana çevirib gediriksə, əslində, ona dəstək vermiş olmuruqmu?

Çünki belədə öz əməlini axıradək yerinə yetirməsinə şərait yaradırıq!

Həqiqət belədir ki, hər bir sahədə, hər bir tədbirdə və toplantıda vətənpərvər, sağlam əqidəli insanlar təxribatçılardan və satılmışlardan qat-qat çox olurlar!

Heç çoxluq da azlıqdan qorxarmı?

Çoxluq da azlığın qarşısından qaçarmı?

Əslində, həmin azlıq çoxluğun təpkisini, hadisələrə operativ və qətiyyətli, prinsipial müdaxiləsini görsə, bir qələt edə bilməz!

Qorxar, çəkinər, belələrinin sayı artmaz ki, əskilər!

Bəs bu laqeydlik, dönüklərə və təxribatçılara, Vətəni qranta satanlara belə loyallıq haradan, nədən yaranıb?

Və haçanacan davam edəcəkdir?

Biz Azərbaycan gəncliyini fəal görmək istəyirik!

Biz Azərbaycan gənclərini satqınlara qarşı mübariz görmək istəyirik!

* Nə üçün Şəhidlər xiyabanı qarşısındakı çoxluq təxribatçıların qarşısını almadı?
* Nə üçün polis maşınına qalxan əlləri mərd gənclərimiz polisdən qabaq qanıraraq qanuna tabe etmədi?
* Niyə o gözəllikdə yürüşü korlayanların qarşısını elə iştirakçıların özləri almadı?!
* Nə üçün Milli Məclisin şüşə və çilçıraqlarını sındıranların qarşısını vətənpərvər çoxluq polisdən qabaq özü kəsmədi?
* Milli Məclisin təqsiri nə idi?
* Sınan çilçıraqlar axı ali qanunverici orqanın binasını işıqlandırır, düşmən kazarmasını yox!

Kimin, nəyin qisasını alırsınız və kimdən, haradan!

Əslində, bu mənfur əməl sahibləri Azərbaycan əsgərinin yox, murdar erməninin yanında durduğunu göstərdi.

Bu xuliqanlara, təxribatçılara və satılmışlara laqeyd yanaşanlar isə ən azı mənəvi məsuliyyət daşıyırlar!

Əslində, vətəndaş, vətənsevər mövqe nümayiş etdirmədiklərinə görə!

Belə mövqe isə hər zaman gərəkdir və Azərbaycan gəncinə çox yaraşır!

## *Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq*

Bu gün dünyanın hansı nöqtəsində nə baş verir, dünyada hansı proseslər gedirsə, cavanından tutmuş qocasınacan hamı dərhal bilir.

Çünki hərənin cibində bir telefon var, bütün günü başını aşağı salıb onu qurdalamaqla məşğuldur.

Hadisələri təhlil etmək üçün ilkin bilgi toplamağa, "politoloq", "siyasi icmalçı", yaxud "hüquq müdafiəçisi" olmağa da ehtiyac yoxdur!

Əslində, bunların hamısı gün ərzində sosial şəbəkədədir, hər məsələni pis-yaxşı şərh edir, "bilməyənləri" maarifləndirməyə çalışırlar.

Son dövrlərdə sosial şəbəkələr də hərbi əməliyyatların iştirakçısına çevrilib!

Həm də təkcə xəbər çatdırmaq, baş verənlər barədə insanları məlumatlandırmaq mənasında yox!

Sosial şəbəkədən çox halda rəqib tərəfdə çaşqınlıq və vahimə yaratmaq, hərbi sirr daşıyan informasiyalar toplamaq, dezinformasiya ötürmək niyyətilə istifadə olunur.

Biz bu halları 2015-ci ildə Ermənistan vertolyotunu vuranda, 2016-cı ilin Aprel müharibəsində daha yaxından duyduq və yaşadıq!

Lakin yenə də hamımız lazımi nəticə çıxarmırıq!

Yaxud da çıxarmaq istəmirik!

Əgər hərbçilərimizin başı döyüşlərə qarışıbsa, arxa cəbhənin sabitliyini və sakitliyini, mümkün təxribatların qarşısının alınmasını biz vətəndaşlar da təmin etməliyik!

Nə vaxtadək saxta profillərə aldanmalı, satqınların tökdükləri göz yaşlarına inanaraq ruhdan düşməli, düşmənə gərəkli informasiya ötürənlərə dözməliyik?!

Təəssüf ki, bəzən keyliyimizdən düşmənin məkrli informasiyasının, əslində, dezinformasiyasının yayıcısına çevrilirik!

Ağıllanmaq zamanı çatmayıbmı?

Bizim aramızda "5-ci kolon" üzvləri, Vətənə xəyanət mövqeyi tutanlar yer almamalıdır və ala da bilməzlər!

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu münasibətlə Azərbaycan xalqına müraciətində deyir: "Gəlin hər dəfə yeni paylaşım

edərkən, foto yerləşdirərkən və ya şərh yazarkən unutmayaq ki, biz müharibə şəraitində yaşayırıq və qarşı tərəf informasiya məkanında yayımladığımız hər şeydən istifadə edə bilər. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalı olan millət və xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə".

❖❖❖

Ordumuz 12 iyulda öz vəzifəsini sonadək şərəflə yerinə yetirdi!

Tovuz bölgəsində yaşayanlar top atəşinə və təhlükələrə baxmayaraq, dövlətə və orduya inanaraq təşvişə düşmədilər, yerlərindən tərpənmədilər!

Anti-Azərbaycan şəbəkə paytaxt Bakıda sabitliyi pozmağa, insanları çaşdırmağa nail olmadı!

Sosial şəbəkələrdə məqsədli dezinformasiyalar getsə də, Azərbaycan KİV-i və Müdafiə Nazirliyinin Mətbuat xidməti əsl həqiqətləri zamanında insanlara çatdırdı!

Müharibə davam edir!

Mübarizə davam edir!

İlham Əliyevin rəhbərliyi ilə xalqımızı yaxın gələcəkdə yeni-yeni uğurlar və qələbələr gözləyir!

“Azərbaycan” qəzeti,<br>23 iyul 2020-ci il

# İLHAM ƏLİYEV qətiyyəti

*Prezidentin inamlı addımları sayəsində Qarabağ uğrunda müharibədə mühüm keyfiyyət dəyişiklikləri baş verdi*

**Tarixdə Ermənistan adlı dövlət olmayıb!**
**Onu XIX əsrdə bölgədə iqtisadi-siyasi-hərbi marağı olan güclər, fövqəldövlətlər Azərbaycan torpaqları hesabına yaradıblar!**
**Azərbaycan Prezidenti İlham Əliyev Münxen Beynəlxalq Konfransında Paşinyana tarix dərsi keçərkən bunu faktlarla sübuta yetirdi!**
**Tarixin bütün dönümlü məqamlarında sonradan yaradılan erməni dövlətini Azərbaycan torpaqları hesabına daim genişləndirməyə çalışıblar: bir tərəfdən azərbaycanlıları dədə-baba torpaqlarında soyqırımlarına uğradıb deportasiya etməklə, digər tərəfdən Azərbaycandan yeni ərazilər qoparmaqla.**

Sonuncu böyük ərazi işğalı isə qırmızı imperiya parçalananda, SSRİ-nin iflası zamanı baş verdi.

Bir dəfəyə Dağlıq Qarabağın və ona bitişik 7 rayonun - belə böyük ərazinin itirilməsinin də iki mühüm səbəbi oldu:

Birincisi, xalq həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən ayrı düşmüşdü, sovetlər birliyinin parçalanması dövründə Azərbaycana başçılıq edən maymaq, qətiyyətsiz, səriştəsiz dövlət başçıları baş verən proseslərin mahiyyətini zamanında dərk edə, ölkəni gözləyən bəlaları sovuşdura, torpaqların müdafiəsini təşkil edə bilmədilər!

İkinci səbəb isə Azərbaycan Xalq Cəbhəsinin pozuculuq fəaliyyəti, xalqın maraqlarını özlərinin vəzifə hərisliyinə qurban verməleri, bütövlükdə milli maraqlara xəyanət etmələri oldu. "Bəylər" Qarabağ uğrunda döyüşlərin getdiyi bir vaxtda Gəncədə "ikinci cəbhə" açmaqla vətəndaş müharibəsini alovlandırdılar, əsl cəbhədən texnikanı və canlı qüvvənin bir hissəsini Bakıya, hakimiyyətin zəbt edilməsi prosesində iştiraka cəlb etməklə torpaqların müdafiəsini pozdular.

Nə ordu yaratdılar, nə torpaqları qorudular, nə də düzgün daxili və xarici siyasət yürüdə bildilər...

## *İlham Əliyevin düşmənin başına endirdiyi növbəti zərbə*

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyevin görəcəyi işlər isə hədsiz dərəcədə çox idi: ölkədə baş alıb gedən xaos və anarxiyanın qarşısını almaq, qanunsuz silahlı dəstələri ləğv edərək əhalidəki külli miqdarda silah-sursatı toplamaq, pozulmuş iqtisadiyyatı bərpa edib dirçəltmək, ordu quruculuğu ilə məşğul olmaq, Azərbaycanın milli maraqlarını təmin edən neft müqavilələri imzalamaq, dünyaya inteqrasiya etmək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətləri beynəlxalq qurum və təşkilatlara, dünyaya çatdırmaq və s.

Bütün bunları həyata keçirmək üçün atəşkəsə nail olmalı, ölkədə möhkəm və davamlı sabitlik təmin edilməli idi.

Ulu Öndər Heydər Əliyevin müdrikliyi və zəkası sayəsində bu vəzifələr qısa bir vaxtda uğurla icra olundu.

Bundan əvvəl isə ATƏT-in Minsk qrupu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün fəaliyyətə başlamışdı...

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev tarixinin ən qüdrətli Azərbaycanını yaratdı: onu Cənubi Qafqazın ən güclü dövlətinə və söz sahibinə çevirdi, yeni texnologiyalara əsaslanan silahlarla təmin edilmiş modern ordu qurdu, beynəlxalq qurum və təşkilatlarda ardıcıl və səmərəli işlər aparıldı, gənc Azərbaycan öz rəhbəri hesabına nüfuz sahibinə çevrildi.

Lakin ATƏT-in səmərəsiz və dişsiz fəaliyyəti, Ermənistanın şıltaq və qeyri-konstruktiv mövqeyi münaqişənin sülh yolu ilə həllinə imkan vermədi.

Sülh olmayan yerdə isə müharibə qaçılmazdır!

Atəşkəs dövrünün ilk böyük toqquşması 2016-cı ilin aprelində baş verdi.

Azərbaycana qarşı növbəti təxribat əməlini həyata keçirən Ermənistana əks-həmlə ilə cavab verən Azərbaycan Ordusu düşmənə canlı qüvvə və texnika sarıdan ciddi itkilər yaşatdı, mühüm strateji nöqtə sayılan Lələtəpə yüksəkliyini götürməklə iki min hektardan çox əraziyə nəzarəti ələ keçirdi!

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dördgünlük Aprel müharibəsində qazanılan uğurlar sayəsində Azərbaycan təşəbbüsü öz əlinə aldı, Cocuq Mərcanlını məskunlaşdırmaqla ilk dəfə olaraq məcburi köçkünlər boşaldılan əraziyə qaytarıldı və beləliklə, böyük qayıdışın əsası qoyuldu!

Düşmən qisas almaq üçün Naxçıvan cəbhəsində fəallaşdı.

Burada da Günnüt əməliyyatı ilə burnu ovuldu!

Belə ki, on bir min hektardan çox ərazi geri qaytarılaraq Gorus-Laçın-Xankəndi yolu da nəzarət altına alındı.

İlham Əliyevin baş sərkərdəliyi ilə həyata keçirilən uğurlu əməliyyatlar Ermənistanda güclü əks-səda və çaxnaşma yaratdı!

Müharibə nəticəsində dilənçi vəziyyətinə düşən erməni xalqı korrupsioner və cinayətkar ölkə rəhbərliyinə bu biabırçı məğlubiyyəti bağışlamadı. Serj Sarkisyan hakimiyyətdən qovuldu!

Bu dəfə "Soros" İdarəetmə Fondunun maliyyəsi və dəstəyi ilə siyasətdən və diplomatiyadan, habelə idarəçilikdən başı çıxmayan Paşinyan familiyalı birisini meydandan ölkə rəhbərliyinə gətirdilər!

Xalqa bol-bol vədlər verən Paşinyan tezliklə bacarmadığı işə girişdiyini anladı. Hakimiyyətdə qalmaq üçün populist çıxışlara üstünlük verdi, burada da ciddi səhvlər buraxdı!

"Qarabağ Ermənistandır - nöqtə" kimi sərsəm, cəfəng yalanı deməklə, əslində, xalqın gözündə xal qazanmaq istədi...

Azərbaycan Prezidenti İlham Əliyev isə beynəlxalq auditoriya qarşısında, nüfuzlu tədbirlərdə "Qarabağ Azərbaycandır - nida işarəsi" söyləyərək, onun ağzından vurdu, dediklərini faktlarla sübuta yetirərək erməni baş nazirini rüsvay etdi!

Ancaq Paşinyan ağıllanmadı!

Özünü göstərmək, sələflərinin səhvini düzəltmək üçün başından böyük qələt etdi: dövlət sərhədini pozaraq Tovuz istiqamətindən Azərbaycana qəfil hücuma keçdi!

Hədəfi Azərbaycanın neft-qaz ixrac boru kəmərlərini və Böyük İpək yolunun bir hissəsi sayılan BTQ dəmir yolu xəttini nəzarətə almaq və dağıtmaq, məqsədi isə yeni ərazilər qoparıb təşəbbüsü geri qaytarmaqla özünü erməni xalqı qarşısında doğrultmaq idi!

İlham Əliyevin onun başına endirdiyi zərbələr nəticəsində niyyətlərinin heç birinə çatmadı!

Üstəlik, canlı qüvvə və texnika sarıdan ciddi itkilər verərək acınacaqlı duruma düşdü!

Beləliklə, Qarabağ uğrunda müharibənin gedişində növbəti, daha bir dönüş yarandı!

İlham Əliyevin düşünülmüş siyasəti, hesablanmış addımları, dəqiqliklə endirdiyi zərbələr nəticəsində müharibənin gedişində çox mühüm keyfiyyət dəyişiklikləri baş verdi!

## *Puça çıxarılan ümidlər, aciz duruma salınan baş nazir*

Azərbaycanla Ermənistanın Tovuz istiqamətindəki hərbi toqquşması qəflətən baş verdi.

Əslində, "qəflətən" sözü dırnaqda olmalıdır!

Çünki:

"Qəflətən" sözünü Ermənistana aid etmək olmaz!

Ermənistan bu təxribatı törətməyə əvvəlcədən gizli şəkildə hazırlaşmış, yeni hücum əməliyyatı keçirilməsi üçün məqsədyönlü şəkildə Dağlıq Qarabağı və işğal altındakı əraziləri yox, məhz dövlət sərhədini seçmişdi!

Bu niyyətində bir neçə strateji məqsədi, yaxın və uzaq hədəfləri güdmüşdü!

Azərbaycan üçün də "qəfil" yaxalanma anlayışı yoxdur!

Əvvəla, ordu elə bir ayıq-sayıq vəziyyətə gətirilib ki, nəinki sərhədə "gözlənilməz hücum" etmək, hətta hər hansı bir postumuza yaxınlaşmaq belə mümkün deyil!

İkincisi, kifayət qədər ən müasir müşahidə, aşkara çıxarma və müxtəlif təyinatlı izləmə vasitələrimiz var ki, onların "gözündən" heç nə yayına bilməz!

Üçüncüsü, kəşfiyyatımız da çox dəqiq və peşəkar çalışır!

Ən nəhayət, İlham Əliyevin baş sərkərdəsi olduğu ordunu artıq yanıltmaq və aldatmaq imkan xaricindədir!

Xüsusən meydandan hakimiyyətə gələn və siyasətin, diplomatiyanın ibtidai mərhələsində olan Paşinyana bu heç zaman nəsib ola bilməz!

Hətta onun "erməni bicliyi" də işə yarayası deyil!

Hücumdan sonrakı hadisələrin inkişafına baxaq.

* Azərbaycan budəfəki toqquşmada da hərbi gücünü və şəksiz üstünlüyünü göstərdi, düşmənə bir qarış belə torpaq verilmədi!
* Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə mütəşəkkil və düşünülmüş qaydada hücuma keçən ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, şəhidlərin qisası dərhal alındı!
* İnformasiya müharibəsində düşməni qabaqladıq, əsl həqiqətləri dünyaya birinci və olduğu kimi çatdırdıq!
* Diasporun, habelə xaricdə yaşayan və işləyən azərbaycanlıların operativ və mütəşəkkil qaydada fəaliyyəti işğalçı Ermənistanın faşist xislətinin ifşasında xüsusi rol oynadı!

* Hücum diplomatiyasına keçid, eyni zamanda səfirliklərin və diplomatik nümayəndəliklərin icazəli kütləvi aksiyalara verdikləri hüquqi dəstək hərəkatın effektliyini qat-qat artırdı!
* Xarici ölkələrin KİV-ində verilən informasiyalar, müsahibə və ifşaedici yazılar erməni yalanının ayaq tutub yeriməsinə imkan vermədi!

## *Münaqişənin və müharibənin gedişində baş verən yeni keyfiyyət dəyişiklikləri*

Ermənistanın Tovuz istiqamətindəki hücumunun qarşısının dərhal və qətiyyətlə alınması, budəfəki dördgünlük müharibənin Azərbaycanda və dünyada doğurduğu əks-səda münaqişənin gedişində mühüm keyfiyyət dəyişikliklərinin baş verdiyini də göstərir.

Onlar hansılardır:

* Azərbaycan Prezidentinin rəhbərliyi ilə ordu, diaspor və diplomatiya korpusu əlbir və əlaqəli fəaliyyət göstərdilər, xalq Ali Baş Komandanın atdığı bütün addımları bir daha müdafiə etdi. Bəyanatla çıxış edən ölkədəki 27 müxtəlif siyasi partiya Qarabağ məsələsində daim Prezidentin yanında olduqlarını elan etdilər.
* Ermənistanın baş naziri N.Paşinyanın istəyi baş tutmadı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanla Azərbaycan arasında gedən müharibəyə müdaxilə etmədi. Əksinə, quruma daxil olan 6 dövlətdən 4-ü müxtəlif açıqlama və addımları ilə Azərbaycana dəstəklərini bildirdilər.
* Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı birmənalı şəkildə Azərbaycanın tərəfini tutdu!
* İndiyədək işğalçı ilə işğala məruz qalanı öz adı ilə çağırmayan ATƏT-in Minsk qrupunun üzvlərindən biri - ABŞ (Ukrayna, Gürcüstan və Moldova ilə birlikdə) Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu və dinc əhalini ərazidən çıxarmaqla onların hüquqlarının pozulması barədə Konqresdə araşdırma başlatdı!
* Ermənistanın hücumundan dərhal sonra qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan "Qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək səylərinə dəstək veririk" fikrini səsləndirdi. Habelə Türkiyənin xarici işlər və müdafiə nazirləri də Ermənistanın bu hərəkətini pisləyərək bir dövlət kimi daim Azərbaycanın yanında olduqlarını, ona hər cür kömək göstərəcəklərini bəyan etdilər.

Bunun ardınca isə Naxçıvanda və Azərbaycanın digər ərazilərində Türkiyə ilə birgə çox geniş hərbi təlimlər başladı!

Ən mühüm keyfiyyət dəyişikliyindən biri isə budur ki, Ermənistanın Azərbaycana qarşı təxribatları və baş verən toqquşmalar nəinki işğal ərazilərindəki təmas xətlərini aşmış və dövlət sərhədinin güc və silah tətbiqi ilə pozulmasına səbəb olmuşdur, üstəlik, hər iki dövlətin hüdudlarından kənara çıxaraq dünya ölkələrinə yayılmış və qlobal müstəviyə çıxmışdır!

Əgər 12 iyul Tovuz müharibəsinədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq səviyyədə sülh yolu ilə çözülürdüsə, indi artıq dünya ölkələrində yaşayan erməni və Azərbaycan diaspor təmsilçiləri arasında lokal toqquşmalar da başlamışdır.

Əlbəyaxa vuruşa çevrilən bu toqquşmaların səbəbkarı və ilhamvericisi Ermənistanın baş naziri N.Paşinyandır.

Belə ki, 2016-cı ilin Aprel müharibəsində Azərbaycanın qələbəsindən sonra S.Sarkisyan orduda təmizlik işləri apardı, bir sıra generalları və müəyyən strukturlara rəhbərlik edən yüksəkçinli zabitləri qovdu, barələrində cinayət işi açdırdı.

Tovuz qələbəsindən sonra isə Paşinyan dünyadakı erməni diaspor təşkilatlarına nəzarət edən və onları əlaqələndirən qurumun işindən narazılığını bildirərək Ermənistanın diasporla iş üzrə komissarının ofisində çalışan 13 məmuru işdən çıxardı.

Hadisələrin gedişi göstərir ki, ASALA terror təşkilatını dirçəldən Paşinyan dünyadakı erməni diaspor təşkilatlarına dinc etiraz nümayişlərinə çıxan azərbaycanlıları döymək, qorxutmaq və onları Ermənistanı işğalçı dövlət kimi ifşa etməkdən çəkindirmək üçün nümayişçilərə zor tətbiq etmək barədə tapşırıqlar verib.

Dünyanın müxtəlif ölkələrində dinc kütləvi aksiyalara çıxan azərbaycanlıların döyülməsi, maşınlarının əzilməsi, onlara qarşı müxtəlif formada fiziki güc tətbiq edilməsi ilə baş verən kriminal xarakterli çoxsaylı hadisələr dediklərimizi təsdiq edir.

Bir neçə hadisə isə ilk dəfə baş verdi:

* Dövlət başçısına daim tam dəstəyini bildirən Azərbaycan xalqı ilk dəfədir ki, ayağa qalxaraq torpaqların müharibə yolu ilə qaytarılmasını tələb etdi!
* İlk dəfədir ki, Azərbaycan gəncliyi möhtəşəm dəstək aksiyası keçirərək döyüşmək istədiklərini söylədilər və Prezidentin çağırışı ilə bir həftə ərzində əlli mindən çox gənc hərbi səfərbərlik məntəqələrinə gedərək orduya yazılmaqla vuruşmaq istədiklərini rəsmiləşdirdilər!

* İlk dəfədir ki, dünyanın bir çox ölkələrindəki Azərbaycan diasporu əlbir və əlaqəli şəkildə çoxsaylı icazəli aksiyalar keçirərək erməni faşizmini və erməni terrorunu mütəşəkkil qaydada ifşa etdilər!
* İlk dəfədir ki, birgə səylə ermənilərin "məzlum", "zavallı millət" maskası cırıldı, onların dinc aksiya iştirakçılarına zorakılıq göstərən qəddar, işğalçı xalq olduqları sübuta yetirildi, bir çoxu barədə müxtəlif dövlətlərdə cinayət işləri açıldı!
* İlk dəfədir ki, Ermənistanın Azərbaycana qarşı təxribatı heç bir dövlət, beynəlxalq qurum tərəfindən müdafiə edilmədi. Əksinə, bir sıra beynəlxalq təşkilatlar (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı) və dövlətlər (Türkiyə, Pakistan, Ukrayna, İsrail və digərləri) ölkəmizə bir daha dəstəklərini ifadə etdilər.
* İlk dəfədir ki, Ermənistana gizlincə silah-sursat satan bizə "dost" ölkələrin səfirləri Azərbaycan XİN-ə dəvət edilərək onlardan "qeyri-dost əməllərinə" görə izahat tələb edildi!

Artıq Azərbaycanın düşmənə hücum meydanı əsaslı şəkildə genişlənib, müttəfiqlərimizin, bizə açıq dəstək verənlərin sayı xeyli artıb. Cəbhə xətti ilə bərabər dünyanın hər yerində ermənilərlə çarpışma gedir. Sosial şəbəkələrdə, beynəlxalq KİV-də uğurlu ifşaedici kampaniyalar aparılır.

Azərbaycanın səbrinin və mənasız sülh danışıqlarının limitinin tükəndiyi açıq şəkildə bəyan edilir!

## *Ermənistana qoyulan ilk sanksiya*

Tovuzla sərhəddə törədilən təxribata görə ilk dəfə Ermənistana qarşı sanksiya tətbiq edildi!

Doğrudur, bunu ATƏT-in Minsk qrupu, yaxud BMT etmədi. Moskvadakı “QUD-Siti” meyvə-tərəvəz bazarının sahibi Qod Nisanov bir ilkə imza atdı!

Nəticə özünü dərhal göstərdi!

Satılmayan erməni əriyinin səsi Rusiyanın birinci telekanalından gəldi.

Aparıcılar erməni təəssübkeşliklərini açıq-aşkar nümayiş etdirdilər. Odur ki, bir qrup azərbaycanlı ziyalıların qınağına tuş gəldilər.

Lakin məsələ bununla bitmədi. Rusiyanın xarici işlər naziri S.Lavrov işə qarışdı.

Beləliklə, sanksiya götürüldü.

İki mühüm məqam isə həmişəlik yadda qaldı:

Birincisi, Ermənistana tətbiq olunan sanksiya dərhal öz effektini verdi.

ATƏT və BMT, habelə digər beynəlxalq təşkilatlar nahaq yerə gözləmə mövqeyindədirlər. Ermənistanı sanksiyalarla sülhə gətirmək daha sürətli və təsirlidir!

İkincisi, multikultural siyasət yürüdən Azərbaycan öz ərazisində yaşayan bütün xalqlara və millətlərə eyni gözlə baxır. Onlar da özlərini əsl azərbaycanlı kimi apararaq xalqımızın birnömrəli probleminin həllinə töhfələrini verə bilirlər.

Milliyyətcə yəhudi, həm də azərbaycanlı olan Qod Nisanov kimi!

Ən nəhayət, əsl azərbaycanlılar Azərbaycanın milli və dövlət maraqlarına xidmət edənlərdir!

Xəyanət və satqınlıq yolu tutaraq "5-ci kolon"a qulluq göstərənlər yox!

### *Satqınlığın və xəyanətin son həddi*

Dağlıq Qarabağ məsələsi bizim üçün milli məsələdir!

Dağlıq Qarabağ bizim üçün şərəf, qeyrət, namus məsələsidir!

Dağlıq Qarabağ məsələsi bizim üçün həm də məhək daşı rolunu oynayır.

Bunu bütün Azərbaycan xalqı, hər bir Azərbaycan vətəndaşı birmənalı şəkildə belə qəbul edib!

Xalqımız çox günahları bağışlayar, amma Dağlıq Qarabağla bağlı xəyanətdən qətiyyən keçməz!

“Soros” Fondundan, digər antiazərbaycançı şəbəkələrdən, hətta erməni əsilli milyonçuların vəsaiti ilə formalaşan müxtəlif "hüquq müdafiə təşkilatlarından" pul alaraq Azərbaycana qarşı təbliğat aparanlara, murdar söyüş kampaniyasına qoşulanlara kimlərsə loyallıq göstərə bilərlər.

Demokratiyadır, söz azadlığıdır, insan zövqüdür - deyə susarlar.

Kimlərinsə çörəyi Vətənə xəyanətdən də çıxa bilər...

Müstəqillik dövründə belələrini - həm satqınları, həm də onlara bəraət qazandıranları çox görmüşük və yaxşı tanımışıq!

İstər ölkədə yaşayanlar, istərsə də xaricə gedərək müxtəlif adlarla sığınacaq alanlar olsun - bilirik!

Yəqin ki, belələrinin sosial şəbəkələrdəki boşboğazlıqlarına baxanlar da yox deyil!

Necə deyərlər, söyüş eşitmək istəyən söyən tapar, yalan eşitmək istəyən yalançı, şərçi!

Vay o gündən ki, Qarabağ məsələsində erməni mövqeyində olasan!

Bax bunu heç bir əsl azərbaycanlı bağışlamaz!

Beləsinin sifətini görüb, səsini də eşitmək istəməzlər!

Osman Mirzəyevin qızı Sevinc indiyə qədər Azərbaycan əleyhinə çox təbliğat aparmışdı.

Müstəqil dövlətimizə qarşı xəyanət yolunu tutaraq çox şər-böhtan yağdırmışdı.

Bircə dəfə dilinə Azərbaycanda gedən müsbət proseslər, uğurlar barədə xoş söz gətirməmişdi.

Neyləyək, çörəyini Vətənini satmaqla qazanır!

Bu dəfə isə millətə də xəyanət etdi:

Tovuz müharibəsi ilə bağlı baş verənləri şərh edərkən bütün günahları Azərbaycanın üzərinə yıxdı!

Erməniləri müdafiə etdi, onlara haqq qazandırdı!

Hətta təqsirin Azərbaycan tərəfində olduğunu sübuta yetirməkdən ötrü dəridən-qabıqdan çıxdı!

Beləliklə, sübut etdi ki, təkcə keçmiş vətəninin yox, həm də atası Osman Mirzəyevin də nankor, naxələf övladıdır!

Eyni əməlləri Vətənə və xalqa xəyanət etmiş, xüsusi murdarlıqları ilə seçilən Vidadi İsgəndərov, Orduxan Teymurxanov, Arif Məmmədov da sərgilədilər.

Hamısı bir ağızdan, xorla bildirdilər ki, bütün günah və məsuliyyət Azərbaycan tərəfindədir!

Daha bundan o yanası yoxdur!

Açıq-aşkar görünürdü ki, hamısına bir nöqtədən komanda verilib!

Pulverənləri onlara Ermənistanı müdafiə edərək Azərbaycanı təqsirkar çıxarmağı tapşırıb!

Təkcə Tovuz cəbhəsində yox, indiyədək düşmən gülləsindən həlak olan bütün şəhidlərimizin ruhu sizə qənim olsun!

Ay yala hürənlər!..

İnanmıram ki, bundan sonra özünə hörmət edən, şəhid ruhuna ehtiram göstərən hansısa azərbaycanlı belə murdarların çıxışına qulaq asa, eybəcər sifətlərini görmək istəyə!

## *İlham Əliyev hökmlü və qərarlıdır*

Paşinyanın "Tovuz əməliyyatı" Prezident İlham Əliyevin çox qısa zamanda atdığı düşünülmüş, qətiyyətli və ardıcıl addımlar sayəsində puça çıxdı. Azərbaycanın hərbi, mənəvi, diplomatik və beynəlxalq miqyaslı qələbəsinə çevrildi!

Paşinyanın simasında Ermənistan nəinki heç nəyə nail ola bilmədi, əksinə, uduzdu, təkləndi, ifşa olundu, Rusiyanın yanında və dünya miqyasında tam nüfuzdan, olmayan hörmətdən düşdü.

Ermənistanın və dünya erməniliyinin mənfur simasını və əsl niyyətini isə bütün dünya tam çılpaqlığı ilə görüb anladı!

Tovuz müharibəsi bir sıra vacib məqamlara da tam aydınlıq gətirdi.

Onlar hansılardır:

* Azərbaycan Prezidenti İlham Əliyev bir qarış torpağı belə düşmənə güzəştə getməyəcəyi, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına icazə verməyəcəyi fikrində qəti, ardıcıl və israrlıdır, üstəlik, səbir kasası da dolub: "Biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub".
* Özünə və ordusuna güvənən Ali Baş Komandan Ermənistanı təkbətək döyüşə çağırmaqla təkcə özünə inamı ifadə etmir, həm də düşmən dövləti mənən məhv edir: "Ermənistan hakimiyyəti, hünəriniz varsa, Dağlıq Qarabağı tanıyın".
* Artıq Azərbaycan xalqı Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə inamını itirib, müharibənin qaçılmaz olduğunu qəbul edib və buna tam hazırdır. Həm də daim Ali Baş Komandanının arxasındadır!
* Ermənistanın KTMT-yə güvənməsi mənasızdır. Çünki bu müqaviləyə qoşulan dövlətlərin hamısı münaqişənin mahiyyətini bilir. Odur ki, Azərbaycanla sıx dostluq və əməkdaşlıq, hətta strateji tərəfdaşlıq əlaqələri saxlayanlar heç zaman Ermənistana görə Azərbaycana qarşı müharibədə iştirak etməyəcəklər!
* Bir sıra dost dövlətlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində Azərbaycana açıq dəstək verəcək, haqq işini müdafiə edəcəklər.
* Dünya separatizmi qəbul etmir, ATƏT-in Minsk qrupunun münaqişəni tezliklə sülh yolu ilə həll edəcəyinə isə daha heç kəs inanmır!

Cənab İlham Əliyevin sözləridir: "Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik".

Bəli, reallıq dəyişib!

Qüvvələr nisbəti dəyişib!

Dağlıq Qarabağla bağlı dünyanın ictimai rəyi dəyişib!

İlham Əliyevin iradə və qətiyyəti, dediyi hər bir söz isə dəyişməzdir: "Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, "biz qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik", deməli, o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar! Budur mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər".

Ən nəhayət, Prezident İlham Əliyevin qəti qərarı belədir:

"Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdırlar".

Bu qərarda azərbaycanlı adını daşıyan hər bir kəs, o cümlədən xalqımızın və dövlətimizin dostları daim İlham Əliyevlədir!

***"Azərbaycan" qəzeti,***
***6 avqust 2020-ci il***

# İLHAM ƏLİYEV iradəsi

*Dövlətin və xalqın maraqlarına xidmət edən bu iradə möhkəm və sarsılmazdır*

**Bunu hamı bilir: əgər İlham Əliyev qarşısına məqsəd qoyursa, ona mütləq nail olur!**
**Bu birmənalıdır!**
**İlham Əliyev xalqla açıq danışır və şəffaf fəaliyyət göstərir!**
**Görülən və görüləcək işlər barədə ölkə ictimaiyyətinə ətraflı məlumat verir!**
**İlham Əliyev müəyyənləşdirdiyi hədəfə çatmaq üçün ortaya möhkəm və sarsılmaz iradə qoyur!**
**Sonra isə düşünülmüş siyasət yürüdərək hesablanmış addımlar atır!**
**Azərbaycan xalqı da, bütün dünya da bilir ki, Azərbaycan Prezidenti İlham Əliyev dediyi sözün, verdiyi vədin sahibidir.**
**Bunu dövlətə rəhbərlik etdiyi on yeddi ildə dəfələrlə, dönə-dönə sübut edib!**

❖❖❖

Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdanda "Mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" demişdi.

Sona qədər də belə oldu, vədinə sadiq qaldı!

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev də bütün fəaliyyətini xalqımızın xoşbəxtliyinə və firavanlığına həsr edib!

Qarşısına qoyduğu hər bir çətin, möhtəşəm vəzifə dövlətimizin inkişafına, xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edir.

Əslində, İlham Əliyevin hədəfləri bizim hamımızın arzu və istəyini, dövlətimizin yüksəliş və inkişafını ifadə edir!

Bu mənada xalq dövlət başçısını tam dəstəkləyir, İlham Əliyev bütün sosioloji mərkəzlərin keçirdiyi sorğularda daim ən yüksək nəticəyə - 90 faizdən çox reytinqə sahib çıxır!

Xalqla iqtidarın birliyi və həmrəyliyi həm də bu formada təzahür edir: arzu bir, istək bir, niyyət bir!

❖❖❖

Xalqımızın və dövlətimizin son 17 ildə qazandığı uğur və nailiyyətlər İlham Əliyevin adı, fəaliyyəti və müdrik rəhbərliyi ilə bağlıdır.

Bu zaman tarix üçün az sayılsa da, görülən işlər möhtəşəmliyi ilə diqqət çəkir.

Onların bir qisminə birlikdə nəzər salaq.

İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlayacağını, möhkəmləndirəcəyini və daim müstəqil siyasət yürüdəcəyini vəd etmişdi.

Biz hamımız bu sahədəki uğurların şahidiyik:

* Azərbaycan dünyada hamı tərəfindən tanınan və qəbul edilən müstəqil dövlətdir, heç kimin forpostu, əyaləti və ya quberniyası sayılmır;
* Dövlət başçısı daim xalqın milli maraqlarına əsaslanan daxili və xarici siyasət yürüdür;
* Dünya birliyində xüsusi çəkisi və nüfuzu vardır;
* Hamı Azərbaycana ləyaqətli dövlət kimi hörmətlə yanaşır.

İLHAM ƏLİYEV AZƏRBAYCANI indi tarixinin ən qüdrətli dövrünü yaşayır!

Bu hədəfə çatmaq üçün dövlət başçısı mərhələlərlə hədəflər müəyyənləşdirmiş, bu barədə açıqlamalar vermiş, qüvvə və imkanları məqsədə çatmaq üçün səfərbərliyə almışdır.

❖❖❖

İlham Əliyev prezidentliyə başlayanda xaos və anarxiya dövrü, çörək növbələri və xalqa çörək əvəzinə jmıx yedizdirilən vaxtlar arxada qalsa da, həyat səviyyəsi aşağı idi. Bakıda tez-tez elektrik enerjisi verilişində fasilələr yaranır, regionlar isə sutkada 5-6 saat işıq ala bilirdilər.

Kənd təsərrüfatı dağılmış, kəndlər boşalmış, yollar köhnələrək yararsız hala düşmüşdü.

İlham Əliyev bu vəziyyəti tezliklə düzəldəcəyinə söz verdi:

"Azərbaycanın hər bir kəndində günün istənilən vaxtı elektrik enerjisi olacaq".

"Aqrar sahə dirçəldiləcək, kənddə sahibkarlıq inkişaf etdiriləcək".

"Kəndlərimizin siması tamam dəyişəcək".

Atılan qətiyyətli addımlar vəziyyəti büsbütün dəyişdi.

Azərbaycan az vaxt ərzində özünün enerji, ərzaq və nəqliyyat təhlükəsizliyini təmin etdi.

* Bir vaxtlar xaricdən elektrik enerjisi, təbii qaz alan Azərbaycan qısa müddətdə onlarca yeni su, istilik, bərpa olunan enerji ilə işləyən elektrik stansiyaları qurdu. İndi özü qonşu ölkələrə elektrik enerjisi satır.
* Avropanın təbii qazla etibarlı təminatında fərqlənir, Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən sonra dörd seqmentli "Cənub qaz dəhlizi"nə həyat vəsiqəsi verib.
* Ölkə daxilindəki qazlaşma isə dünya üzrə ən yüksək səviyyə sayılan 95 faizi ötüb.
* Ən müasir yol infrastrukturu yaradılıb, Böyük İpək yolu bərpa edilib. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsindən sonra Azərbaycan beynəlxalq logistika mərkəzinə çevrilib!

❖❖❖

Torpaqların işğal olunması, bir milyondan çox qaçqın və məcburi köçkün ordusunun yaranması, doğma yurd-yuvalarından qovulan insanların ağır və bəzən qeyri-insani şəraitdə yaşaması çıxılmaz vəziyyət yaratmışdı.

İlham Əliyev "Bir nəfər də çadır şəhərciyində yaşamayacaqdır" vədinə dediyindən də tez əməl etdi!

* Artıq 110-dan çox yeni qaçqın şəhərciyi və yaşayış kompleksi salınıb, hər il yüzlərlə məcburi köçkün ailəsi yeni mənzillərə köçürülür.
* Təkcə məcburi köçkünlərə deyil, şəhid ailələrinə, əlillərə, hətta jurnalistlərə belə dövlət hesabına tikilib təmir olunan mənzillər verilir.
* Bu proses pandemiya dövründə də davam etdirilir.

❖❖❖

Regionların inkişafına dair dörd dövlət proqramının uğurlu icrası sayəsində kənd və qəsəbələr simasını büsbütün dəyişib. Çoxsaylı kəndli-fermer təsərrüfatları yaradılıb, aqrar sahənin inkişafına sistemli dövlət qayğısı təmin edilib, sahibkarlığın inkişafına, onların güzəştli kreditlə təminatına münbit şərait yaradılıb.

COVID-19 pandemiyası ilə əlaqədar bütün dünyada ümumi daxili məhsul istehsalının azaldığı bir vaxtda Azərbaycan kəndində istehsalın artımı fərəh doğurur.

Sosial layihələr davamlı şəkildə həyata keçirilir.

❖❖❖

"Azərbaycan gənci savadlı və sağlam olmalıdır" vədini də dövlət başçısı sürətlə yerinə yetirdi, neft kapitalının insan kapitalına çevrilməsi layihəsi uğurla icra olunmaqdadır.

* Son illərdə 4 minədək yeni məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Müəllim kadrların yetişdirilməsinə, onların əməkhaqlarının artırılmasına diqqət çoxalmışdır.
* Dünyanın qabaqcıl ölkələrinin tanınmış universitetlərində dövlət hesabına təhsil alan yüzlərlə gənc geri dönərək Vətəndə işə başlamışdır.
* Böyük idman uğurlarımız da vardır. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, beynəlxalq yarışlara evsahibliyi edir. Regionlarda 40-dan çox olimpiya idman kompleksi tikilərək gənclərin ixtiyarına verilmişdir.
* Azərbaycan I Avropa Oyunlarınıın təşkilatçısı, IV İslam Həmrəyliyi Oyunlarının qalibi kimi tarixə düşmüşdür.

❖❖❖

İlham Əliyevin daha bir vədi işğal altındakı torpaqların tezliklə azad edilməsi ilə bağlıdır.

Bu məsələdə qətiyyətli və prinsipial mövqe nümayiş etdirən dövlət başçısı ortaya möhkəm iradə qoymuşdur:

"Azərbaycan bir qarış torpağını da düşmənə güzəştə getməyəcəkdir".

"Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir".

"Azərbaycan işğal altındakı torpaqlarını hökmən azad edəcəkdir".

"Biz Qarabağda, Şuşada dalğalandırılan qələbə bayrağını Azadlıq meydanına gətirəcəyik!"

Dövlət başçısı məqsədə çatmaq üçün lazım olan bütün vasitələrdən istifadə edir:

* güclü ordu yaradılmış, ən müasir silahla təmin olunmuşdur;
* vətənpərvər hərbçilər, müasir hərbi biliklərə yiyələnən zabitlər korpusu yaradılmışdır;
* münaqişənin sülh yolu ilə həlli üçün sonadək cəhdlər göstərilmişdir;
* azğın düşmənə dördgünlük Aprel müharibəsində, Günnüt əməliyyatında, Tovuz istiqamətindəki döyüşlərdə qulaqburması verilərək ciddi xəbərdarlıq olunmuşdur.

Lakin havadarlarına arxalanan Ermənistan sülh danışıqlarından yayınır, mənasız şərtlər irəli sürür, işğal altındakı torpaqları özününküləşdirməyə çalışır:

* Dağlıq Qarabağı danışıqlar masasına gətirməyə çalışan Ermənistanın baş naziri Paşinyan "Qarabağ Ermənistandır - nöqtə", - deyə cəfəng bəyanat verir;
* Şuşanı Dağlıq Qarabağın mərkəzi elan edəcəklərini söyləyir, oradakı asma körpünün açılışına gedir;

* oğlu Xankəndidə hərbi qulluq keçir, arvadı Dağlıq Qarabağa gələrək oradakı digər arvadlara avtomatdan atəş açmağı öyrədir;
* Ağdamda yeni meyvə bağları salınır;
* xalqımıza məxsus mədəni-tarixi abidələr dağıdılır, yer adları dəyişdirilir;
* Livandan gətirilən terrorçular və erməni ailələri işğal ərazilərində yerləşdirilir, məskunlaşdırma aparılır və s.

❖❖❖

Artıq erməni həyasızlığı son həddə çatmışdır!

Öz iradəsini ortaya qoyan İlham Əliyevin və xalqımızın səbri tükənmişdir!

"Qarabağ Azərbaycandır - nida işarəsi" deyən Prezidentimizin qətiyyətli addımlar atacağı heç kəsdə şübhə doğurmur!

Ədalət bizim tərəfimizdədir!

Türk qardaşlarımız da daim yanımızdadır!

Düşmən isə Gəncə şəhərinə və Mingəçevir SES-ə raket atacağı ilə sərsəmcəsinə hədələyir!

Bu məsələdə İlham Əliyevin iradəsi Azərbaycan xalqının iradəsidir!

Xalq öz rəhbərini böyük məhəbbətlə sevir, daim dəstəkləyir!

Müsəlləh əsgərə çevrilən hər bir Azərbaycan gənci 14 iyul mitinq-yürüşündə Ali Baş Komandanından əmr gözlədiyini açıq şəkildə bildirmişdir.

Son sözü də xalq və onun rəhbəri söyləyəcəkdir!

***“Azərbaycan” qəzeti,***
***18 sentyabr 2020-ci il***

# "Mən Azərbaycan adından çıxış edirəm!"

*İlham Əliyev BMT-nin tribunasını Azərbaycanın tribunasına çevirdi*

**Prezident İlham Əliyev sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş yüksəksəviyyəli və videoformatda keçirilən iclasındakı çıxışının ikinci hissəsinə bu sözlərlə başladı: "İndi mən Azərbaycan adından çıxış edirəm!"**
**Son dərəcə qürurverici, iftixardoğurucu sözlərlə!**

Əslində, İlham Əliyevin nitqinin bu hissəsi adi çıxış yox, ali tribunadan Ermənistanın, həm də indiyədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmayanların, daha doğrusu, mane olanların, artıq faşistləşmiş dövlətə havadarlıq edənlərin açıq, qətiyyətli və cəsarətli ifşası idi!

Ermənistanı ərköyünləşdirən, bütün şıltaqlıqlarına dözümlülük göstərən, başını sığallayan, cibinə pul qoyan, əlinə silah verənlərin riyakar əməllərinin ifşası!

Bu, xalqının dəstəyinə, dövlətinin ədalətli və beynəlxalq hüquqa əsaslanan mövqeyinə, yaratdığı güclü iqtisadiyyata və qüdrətli orduya güvənən böyük rəhbərin, Ali Baş Komandanın atacağı növbəti addımlar qabağı ciddi xəbərdarlıqları da sayıla bilər!

Daha Azərbaycanın haqqın-ədalətin öz yerini tutacağına olan inamının, mənasız və məntiqsiz danışıqlarda iştirak etmək üçün səbrinin, indiyədək Ermənistana bir dəfə işğalçı deməyərək "tarazlaşdırma" siyasəti yolunu tutanlara göstərilən dözümünün tükəndiyinin, Ermənistanın qanunsuz məskunlaşdırma siyasətinə göz yumanların ikibaşlı oyunlarına baxmaqdan yorulduğunun bəyanı idi!

Artıq bıçaq sümüyə dirənib!

## *İlham Əliyevin ifşa hədəfləri*

Biz daim Prezidentimizin söylədiyi dərin məzmunlu, güclü məntiqə söykənən, səlis, rəvan, birbaşa hədəfi vuran nitqlərini böyük diqqət və məhəbbətlə dinləmişik!

Bu nitqin sinədəftər söylənilməsi bizə xüsusi zövq, ləzzət verib!

İlham Əliyevin Ulu Öndərə xas kompüter yaddaşına, hətta nitqinin bir neçə saat davam etdiyi vaxtlarda da belə kiçik bir yanlışlığa, redaktəyə ehtiyacı olan cümləyə yol vermədiyinə heyran qalmışıq!

Prezidentimizin son dövrlərdəki nitq və müsahibələri isə məzmun, dəqiqlik və dürüstlük, məntiqlilik baxımından heyranedicidir!

Bu dəfə İlham Əliyev çıxışını yazdığı mətndən oxuyurdu.

Bu, zərurətdən yaranmışdı, ayrılan müddətdə demək istədiklərinin hamısını söyləyə bilmək zərurətindən!

Hamımızın ürəyindən tikan çıxaran təkcə Prezidentimizin nitqindəki sərtlik, qətiyyət, ifşaedici mahiyyət və hədəfi dəqiq vurma məharəti deyildi.

Əslində, İlham Əliyev çıxışı müddətində BMT-nin ali tribunasını Azərbaycanın tribunasına, Azərbaycan xalqının və dövlətinin maraqlarını əks etdirən kürsüyə çevirmişdi!

Bunu isə hər siyasətçi, hər diplomat, hər dövlət xadimi, hər rəhbər bacarmır!

Azərbaycan Prezidenti bu tribunadan forpost Ermənistanın hansı əməllərini ifşa etdi?

Bu məqamda diqqəti İlham Əliyevin nitqindən gətirdiyimiz sitatlara çəkmək istəyirik:

* "Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir".
* "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir".
* "Ermənistan işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir".
* "Ermənistan Xocalı soyqırımını törətmişdir".
* "Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirir".
* "Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edib".
* "Ermənistan qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca mülki əhalini qəsdən hədəf alır və təxribatlar törədir".





**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**
16 sentyabr 2018-ci il





**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**
16 sentyabr 2018-ci il



**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**

16 sentyabr 2018-ci il





**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**
16 sentyabr 2018-ci il





**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**

16 sentyabr 2018-ci il





**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**

16 sentyabr 2018-ci il



**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**
16 sentyabr 2018-ci il





**Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi.**

16 sentyabr 2018-ci il

* "Ermənistan sonuncu təxribat aktını iyul ayında Ermənistan-Azərbaycan sərhədində törətdi. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilərimiz və bir mülki şəxsimiz öldürüldü, mülki infrastruktura ciddi zərər vuruldu".
* "Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur".
* "Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir".
* "O, (Ermənistanın baş naziri - B.S) danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir".
* "Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir".
* "Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir".
* "Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir".
* "Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib".
* "Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyasını qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və Azərbaycanofob fikirlər əks olunub".

## *İlham Əliyevin dəyişməz prinsipləri*

İlham Əliyev BMT-nin tribunasından dəyişməz prinsiplərini əks etdirən "Azərbaycan bir qarış torpağını da düşmənə güzəştə getməyəcəkdir", "Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcəkdir" mövqeyini də bir daha qətiyyətlə səsləndirdi: "Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir".

Bunları söyləməklə İlham Əliyev, əslində, dünya ictimaiyyətinə iki mesajını da çatdırdı:

"Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir".

"Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik".

Bu xəbərdarlıqlar düşmənin başlayacağı yeni müharibə qorxusundan irəli gəlmirdi!

Əksinə, güclü dövlətə, orduya arxalanan Ali Baş Komandanın ultimatumu sayıla bilərdi!

Həm də sabah düşmən qoşunlarını torpağımızdan hərbi vasitələrlə qovub çıxaranda bizə "Münaqişənin sülh yolu ilə həllindən başqa variant yoxdur" çağırışını etməyin" xəbərdarlığı idi!

Bu gün xalqına, ordusuna, Türkiyə kimi dostuna və qardaşına arxalanan İlham Əliyev ən qətiyyətli addımlar atmaq niyyətindədir!

Və bunu heç kəsdən gizlətmir!

Bəli, Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edən müharibəyə tam hazırdır!

Bu istək, əslində, Azərbaycan xalqının müqəddəs arzusu və istəyidir!

Xalq bu yolda öz rəhbəri və Ali Baş Komandanı ətrafında yumruq kimi birləşib!

Hamı çox gözəl anlayır ki, bu niyyəti ancaq cənab İlham Əliyev gerçəyə çevirə bilər!

Yalnız İlham Əliyev!

Odur ki, xalq öz Prezidentini sevir, ona arxalanır, müdafiə edir, ümid və inamla baxır!

## *Son xəbərdarlıq*

İLHAM ƏLİYEV ARTIQ MÜHARİBƏNİN QAÇILMAZ OLDUĞUNU BƏYAN ETMƏKLƏ:

* mənasız və Ermənistanın şıltaqlıqlarının əsiri olan danışıqlara...

* "Qarabağ Ermənistandır" sərsəmləməsinə...

* "yeni müharibə, yeni ərazilərin işğalı" hədəsinə;

* Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdinə...

* Azərbaycana məxsus təbii sərvətlərin sistemli şəkildə talanına...

* Azərbaycan torpaqlarında xaricdən gətirilən erməni ailələrinin və terrorçuların yerləşdirilməsinə...
* Azərbaycan xalqına məxsus dini, mədəni və tarixi abidələrin məhvinə, yer adlarının dəyişdirilməsinə və ərazilərin erməniləşdirilməsinə son qoyan...
* işğaldakı torpaqları faşistpərəst qüvvələrdən və terrorçulardan təmizləyən...

VƏTƏN MÜHARİBƏSİNƏ TAM HAZIR OLDUĞUMUZUN ANONSUNU VERDİ!

İndi hər şey aqressivləşən Ermənistandan, 28 ildir sülhyaratma missiyası adı ilə baş qatan ATƏT-in Minsk qrupundan, qətnamələri kağız üzərində qalan BMT Təhlükəsizlik Şurasından asılıdır!

Bütün dünya bilir: İlham Əliyev sözünün sahibidir!

İlham Əliyev dediyini edəndir!

Budəfəki xəbərdarlığını isə BMT-nin tribunasından etdi!

***"Azərbaycan" qəzeti,***
***23 sentyabr 2020-ci il***

# Sən demə,
# analar iki dəfə kövrəlirmiş

**Ana ürəyi bənzərsizdir, müqəddəsdir!**
**Həm də zərifdir, çırpıntılıdır.**
**Övladlarla bağlı məqamda isə bu zəriflik bir anda kövrəkliyə çevrilə bilir.**
**Qadının, övladın yaşından, ananın cəmiyyətdəki mövqeyindən, statusundan və digər amillərdən asılı olmayaraq...**

Və bəzən həyatın elə anı gəlib çatır ki, ananın ürəyi "bir damcı" olur...

Və bir də sən demə, bütün analar iki halda istisnasız olaraq kövrəlirlərmiş.

Ürəyin "bir damcı" olan vaxtı!

Bir qız övladı gəlinlik paltarında, "Vağzalı" təranələri altında ata ocağını tərk edəndə...

Bir də oğlu hərbi paltar geyinib Vətənin əsgər balasına çevriləndə!

Hətta göz yaşlarını zahirdə gizlətsələr də, ürəklərinə axır, hey axır...

Zərif, müqəddəs və övlad sevgisindən incəlmiş ürəklərinə...

Bilinmir bu göz yaşları sevincdən, nigarançılıqdan, yoxsa ən ülvi arzularına çatdıqlarındandırmı, yoxsa başqa səbəbdən!

Əbəs deməyiblər ki, qadın ürəyi həmişə sirli olur.

## *Azərbaycan güc göstərmir, gücünü göstərir*

Ötən həftə bir sıra hadisələrlə əlamətdar oldu.

Sentyabrın 15-də "Azərbaycan" qəzetinin 100 yaşı qeyd edildi!

O qəzetin ki, ilk nömrəsini Gəncədə buraxmaq məcburiyyətində qalaraq Bakının bolşevik-daşnak işğalından azad edilməsinə həsr etmişdilər.

Elə sentyabrın 15-də Azadlıq meydanında keçirilən ikinci möhtəşəm hərbi paradın da şahidi olduq!

* Bu parad təkcə nümayiş etdirilən hərbi texnikanın yeniliyi, dağıdıcı gücü və mükəmməlliyi ilə fərqlənmirdi.

* Bu parad həm də yüz il bundan əvvəldə olduğu kimi, Azərbaycan-Türkiyə qardaşlığının, çətin gündə daim bir-birinin yanında olmağın nümayişi idi!
* Bu parad, əslində, dostluğun, qardaşlığın və əməkdaşlığın paradı idi!

Artıq Azərbaycanın Paşinyansayağı bəyanatlar verməsinə, müharibə elan etməsinə, əzələ nümayişinə ehtiyac yoxdur!

Azərbaycan öz gücünü 2016-cı ilin aprelində - Lələtəpə yüksəkliyinin alınmasında, 2018-ci ildə isə Naxçıvanda Günnüt kəndinin və digər mühüm strateji yüksəkliklərin geri qaytarılmasında göstərdi!

Üst-üstə 13 min hektardan çox Azərbaycan torpağı düşmən işğalından azad edildi!

Həm də Yerevan-Gorus-Laçın-Xankəndi yolu qəhrəman ordumuz tərəfindən tam nəzarətə götürüldü.

Hər iki hərbi əməliyyatın "dadı" hələ də Ermənistan ordusunun "damağındadır"!

İtə deyirlər niyə hürürsən? - Deyir, qorxuduram!

Deyirlər bəs quyruğunu niyə bulayırsan? - Deyir, axı özüm də qorxuram!

Paşinyanın bəyanatlarının "fəlsəfi mahiyyəti" belədir.

## *Vətənə xidmət amalı*

Ötən həftənin maraqlı hadisələrindən biri Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissələrindən birində baş verdi.

Ordu sıralarına çağırılmış gənclərin hərbi andiçmə mərasimi keçirildi.

Azərbaycan üçün adi, adət etdiyimiz və tez-tez mavi ekranlarda gördüyümüz hadisədir!

Bu adi hadisəni təntənəli və qeyri-adi edən isə andiçmə mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin və ailə üzvlərinin iştirakı idi!

Bunun səbəbi isə oğul Heydər Əliyevin Azərbaycan Ordusunda hərbi xidmətə başlaması idi!

Vaxtilə babası Heydər Əliyev də orduda xidmət etmişdir!

Atası İlham Əliyev də əsgəri borcunu vermişdir!

İndi isə növbə ona çatmışdı!

Bu sayaq təntənəli mərasimlərdə valideynlərin, bacı və qardaşların iştirakı təbiidir.

Həm də ənənə şəklini alıb.

Elə dövlət başçısı və ailə üzvləri də bu unudulmaz mərasimə adi valideynlər kimi qatılmışdılar.

Valideynlər üçün ayrılmış yerdə, - hamı ilə birlikdə oturmuşdular.

Bütün atalar kimi qürur və fəxarət duyur...

Bütün analar kimi kövrəlir...

Bütün bacılar kimi həyəcan hissi keçirirdilər!

Bir neçə ay öncə ADA Universitetini bitirən Heydər bu dəfə əyninə məzun mantiyası yox, əsgər paltarı geyinmişdi!

Ordunun ab-havası zahiri görkəminə də təsirsiz qalmamışdı: üz cizgiləri bir qədər sərtləşmiş, baxışları qətiləşmiş, avtomatın qundağından tutan əlləri möhkəm-möhkəm sıxılmışdı!

Boy-buxunu, nizami yerişi də öz qaydasında!

Allah saxlasın!

Bəd nəzərdən qorusun!

Hamısını!

İnsanın əsl xoşbəxtliyi özünü valideyn kimi xoşbəxt saymasındadır!

* Əgər övladın fərli çıxıbsa...
* Əgər övladın yaxşı oxuyub, bilikli mütəxəssis olubsa...
* Əgər övladın sağlam, güclüdürsə və Vətənin keşiyində dayanmağa gedirsə...

Bunun özü valideyn xoşbəxtliyi deməkdir!

Əslində, bütün valideynlər də, Allah onlara oğul payı verəndə, bunu arzulayırlar!

Övlad sənindir!

Amma əsgər paltarı geyinib kazarmaya köçdüsə, deməli, hamımızındır!

Hər bir əsgər bizim hər birimizin doğma balasıdır!

Çünki Vətənin keşiyini çəkir!

Deməli, həm də Vətənin övladıdır!

Yerləri nə qədər rahat, yeməkləri nə qədər yaxşı olsa da, yenə onlardan nigaran qalırıq!

Xidməti müddətlərini başa çatdırıb tezliklə evə dönəcəkləri günü səbirsizliklə gözləyirik.

Ayları, həftələri, günləri saya-saya!

## *Silahdan güclü siyasət*

Ali Baş Komandan bütün əsgərlərin atası sayılır!

Bəzən səbrimiz daralır, nəfəsimiz tıncıxır:

"Niyə torpaqları hərbi yolla azad etmirik!"

Yaxşı da bilirik ki, hamımızın ümid yeri İlham Əliyevdir!

Şübhə etmirik ki, torpaqları o geri qaytaracaq!

Əminik ki, özünün yaratdığı və ən yeni texnologiyaya əsaslanan silahlarla silahlandırdığı orduya əmr etsə, müasir Azərbaycan Ordusu çox qısa vaxtda Ermənistan qoşunlarını süpürüb torpaqlardan atar!

Necə ki bunu Lələtəpə və Günnütdə eləmişdi!

Amma İlham Əliyev Ali Baş Komandan olaraq bu əmri verməyə tələsmir!

* Çünki dünyada hansı proseslərin getdiyini hamımızdan yaxşı bilir!
* Çünki müharibənin əvvəlcə siyasət, sonra hərb meydanında udulduğunu hamıdan gözəl anlayır!
* Müharibəyə haçan, hansı şəraitdə, necə başlamağı da hamıdan əla hesablayır!

Eyni zamanda hər əsgərin də qədrini hamıdan yaxşı bilir!

Hər gənc oğlanın bir ailənin, bir nəslin ümid çırağı olduğunu gözəl anlayır!

Odur ki, o çırağı söndürməyə tələsmir.

Sülh yolu ilə inadla, inamla gedir!

Hətta ümidsiz vəziyyətlər yarananda belə təmkinini itirmir!

Həm də bütün müharibələr sülhlə bitir!

O sülhə qurbansız nail olmaq mümkünsə, tələsmək nəyə lazım?!

Bəli, "Torpaq uğrunda ölən varsa, Vətəndir!"

Bunu indiyədək verdiyimiz 20 min şəhid balamız da sübut edib!

Müharibə başlasa, hamımız əsgərə çevriləcəyik!

Azərbaycanın əsgərinə!

İlham Əliyevin əsgərinə!

Çünki ona inanırıq, güvənirik və sevirik!
İlham Əliyev də yeganə oğlunu başqalarından ayrı tutmur.
Orduda xidmətə göndərir!
Həm də ailə üzvləri ilə birlikdə andiçmə mərasiminə qatılır!

## *Faktlar nələri söyləyir*

Azərbaycan Prezidenti mərddir, əyilməzdir, vüqarlıdır!

Çünki o, müstəqil dövlətə rəhbərlik edir, iqtisadi və siyasi cəhətdən kimsədən asılı olmayan dövlətə!

Başqalarına forpostluq edən, sərhədlərini özgə qoşunları qoruyan, ərazisində başqa dövlətin ordusu yerləşən ölkənin prezidenti isə yaltaq və yalaq olar, sahibinə xoş gəlmək üçün daim onun üzünə müticəsinə gülər, qəddini şax tutmağa qorxar.

Azərbaycan Prezidenti şanlı-şöhrətli nəslin nümayəndəsi, keçmiş SSRİ-nin rəhbərlərindən biri olmuş Heydər Əliyevin oğlu və siyasi varisidir! Hər dəfə prezident seçkilərində xalqın böyük dəstəyi və məhəbbəti ilə yenidən bu yüksək vəzifəyə seçilir!

Paşinyan özünə yeni ağa axtaran nökərin günündədir: köhnəsindən qorxduğundan qopa bilmir, təzəsi isə onu havayı yemləmək niyyətində deyil! O, Ermənistanın cinayətkar rəhbərlərinin korrupsiya əməllərindən bezərək dilənçi vəziyyətinə düşmüş erməni xalqının narazılıq dalğasında meydana gəlib. Meydana isə həbsxanadan gəlmişdi. İndi isə həm qisasını alır, həm də layiq olmadığı kürsünü əldən verməmək üçün min bir hoqqadan çıxır, tez-tez sərsəm və səfeh bəyanatlar səsləndirir.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars transmilli layihələrini reallaşdırır; "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə salır; "Yeni əsrin müqaviləsi"ni imzalayır; okeana birbaşa çıxışı olmayan Bakını nəqliyyat qovşağına və logistika mərkəzinə çevirir.

Paşinyan sədəqə həsrəti ilə Avropanı gəzir, Amerikadan yardım umur, erməni diasporuna yalvar-yaxar edir, qəpik-quruş üçün sinov gedir.

Azərbaycan beynəlxalq görüşlərin, tədbirlərin, möhtəşəm idman oyunlarının keçirildiyi meydana, qlobal dünyanın problemlərinin müzakirə olunduğu mərkəzə çevrilib.

Ermənistanın bir-iki dövlətdən savayı qapısını açan, Paşinyanı adam yerinə qoyan yoxdur!

Biz heç vaxt dünya şöhrətli Prezidentimizi forpost Ermənistanın rəhbərliyində təsadüfi ünsür sayılan Paşinyanla müqayisə etmərik!

Allah eləməsin!

Sadəcə, hamının gördüyü, bildiyi və şahidi olduğu faktları sadaladıq.

### *Şərəfli missiyanın davamı*

Andiçmə mərasimindən sonra Heydər Əliyev Azərbaycanın birnömrəli əsgərinə çevrildi!

Özü boyda daş kimi Paşinyanın təpəsinə düşdüyünə görə!

Paşinyanın büdcəsi boşdur, meydanda verdiyi vədləri yerinə yetirə bilmir, sədəqə alası yerlər isə bir-birinin ardınca fıs çıxır!

Deyəsən, hələ də anlamır ki, Ermənistanı fəlakətdən, erməni xalqını isə dilənçilikdən qurtarmaq üçün münaqişəni həll etməli, işğal altındakı torpaqları boşaltmalıdır.

Populist çıxışlar və hərəkətlər qısa zamanda effekt verir!

Müvafiq biliyi, təcrübəsi və hörməti olmayanlar dövlət gəmisini idarə edə bilməzlər!

Xüsusən minalanmış körfəzdə!

Oğlunu Qarabağa göndərməklə nə demək istəyirdi?

Onsuz da hamı bilir ki, kiçik Paşinyan bütün günü Xankəndidə kef-damaqdadır!

Buna Ermənistanda sosial şəbəkəyə yazanlar özləri şahidlik edirlər.

Guya, Qarabağı bu ikisi qoruyub saxlayacaqmış...

Heydər Əliyev doğma Vətən torpağını azad etmək üçün təhsilini yarımçıq qoyaraq əyninə əsgər paltarı geyinib!

O, öz Vətənində xidmət edir!

Nəyin uğrunda vuruşacağını gözəl anlayır və şüurlu şəkildə qəbul edib!

Nəslinin başladığı şərəfli missiyanı şərəflə davam etdirir.

Vətənə xidmət bu nəslin ən böyük amalı, müqəddəs saydığı işdir!

Paşinyanın narahatlığı da elə-belə deyil!

Torpaqların qaytarılma vaxtı sürətlə yaxınlaşır!

İndi dünyada çox şey dəyişib, yeni situasiyanın yaranması prosesi başlayıb!

Ümidimiz yenidən inama çevrilməkdədir!

Həm də inanırıq ki, Qarabağı məhz Heydər Əliyevin xidmət etdiyi dövrdə qaytaracağıq!

Siyasətlə gücün, ağılla uzaqgörənliyin, hərblə diplomatiyanın vəhdəti buna möhkəm təməl yaradıb!

Aprel və Günnüt şapalaqlarından sonra əsgər təpiyinin zamanı yetişir!

***"Azərbaycan" qəzeti,***
***19 sentyabr 2018-ci il***

# III Fəsil

# VƏTƏN MÜHARİBƏSİ

# İlham Əliyev "İRƏLİ" əmri verdi!

*Azərbaycan Ordusu müqəddəs missiyasının icrasına başladı*

## *Əsir kəndlər, xaraba yurdlar bizi çağırır*

Səbrin hüdudu olur!

İnsan dözümü də sərhədsiz deyil!

Aydın məsələdir ki, torpağı işğalda olanlar düşmənin "sülhə gəlmək insafını" sonsuzadək gözləyə bilməzlər!

ATƏT-in Minsk qrupunun on illərlə davam edən mənasız səfərlərini, səmərəsiz danışıqlarını, həmsədr dövlətlərin heç nə ifadə etməyən standart bəyanatlarını çox gördük, eşitdik.

Torpaqların sülh yolu ilə azad ediləcəyinə ümidimizi itirsək də, yenə də dünyada ədalətin mövcudluğuna, beynəlxalq qurum və təşkilatların, nəhayət, ikili standartlardan əl çəkəcəyinə inanmaq, bəlkə də özümüzü inandırmaq istədik!

Hər dəfə erməni tərəfinin şıltaqlığını, sülh danışıqlarından nümayişkaranə, ərköyüncəsinə yayındığını görəndə, nəhayət, onlara sanksiya tətbiq ediləcəyinə, "kreativ", "predmetli", "səmərə verən" danışıqların başlanması üçün ATƏT aradüzəldənlərinin insafa gələcəyinə bel bağlamağa çalışdıq!

## *Heyhat!!!*

Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağı və yeddi rayonu işğal edən Ermənistana bircə dəfə də "işğalçısan" deyən olmadı!

İşğalçı Ermənistanla işğala məruz qalan Azərbaycana fərq qoyulmadı, əksinə, hər dəfə aralarına bərabərlik işarəsi yazmağa çalışdılar və yazdılar!

Müxtəlif adlar və bəhanələrlə yardımlar göstərdilər!

Çox halda gizli, yarıgizli, yaxud elə aşkar, birbaşa, pullu, pulsuz silahlandırdılar!

Ermənistanın işğal altındakı torpaqları özününküləşdirməsinə, məskunlaşdırmasına, Azərbaycana məxsus təbii sərvətləri çapıb-talamasına, həyasızcası-

na Azərbaycan tərəfinə meydan oxumasına rəvac verdilər, özlərini keyliyə və bilməzliyə qoyaraq gözlərini və qulaqlarını yumdular!

Azərbaycan xalqını işğalla barışdırmaq, sülh gözləyə-gözləyə torpaqların erməniyə verilməsinə alışdırmaq yolunu tutdular!

Torpağı işğalda olan xalqa və dövlətə müharibəni qadağan etməyə, tutuquşu kimi "münaqişənin yalnız bircə həlli yolu var - o da sülh yoludur" söyləməklə məsələnin uzanmasına, bəlkə də unudulmasına açıq-aşkar cəhdlər göstərdilər.

Hətta bəzi "din qardaşlarımız" düşmənə dəstək vermək, silah satmaq kimi addımlar belə atdılar!

Harınlamış düşmən isə dinc dayanmadı, Mingəçevir Su Anbarını, Gəncə şəhərini raketlə vurub dağıdacağı barədə təhdidlər etməyə başladı.

"Yeni müharibə, yeni torpaqların zəbti" çağırışı ilə hədə-qorxu gəldi!

2016-cı ilin aprelində təxribat yolu ilə hərbi əməliyyata başladı.

2020-ci ilin iyulunda dövlət sərhədini pozaraq yeni əraziləri tutmaqla Azərbaycana məxsus transmilli boru kəmərlərini və dəmir yolu xəttini dağıtmağa, ələ keçirməyə can atdı.

Dözdük, gözlədik, "sülh yolu"na inanmaq istədik!

Qaradan artıq rəng olmur!

Cəzasız qalacağına, işğal etdiyi torpaqları geri qaytarmayacağına əmin olan düşmən təhdid və hədələrini növbəti dəfə reallaşdırmaq üçün 27 sentyabr saat 06:00-da silaha əl ataraq bütün istiqamətlərdə Azərbaycan ərazisini, yaşayış məskənlərini və mülki obyektləri artilleriya atəşinə tutdu!

Bu, düşmən tərəfindən atəşkəsin ciddi şəkildə pozulması və hərbi əməliyyatların başlanması demək idi!

Beləliklə, cavab vermək zorunda qalan Azərbaycan xalqı Qarabağı azad etmək uğrunda Vətən müharibəsinə başladı!

Ali Baş Komandan xalqımızın və ordumuzun çoxdan gözlədiyi "İrəli" əmrini verdi!

❖❖❖

Azərbaycan əsgəri, indi söz sənindir!

Azərbaycan xalqına nəyə qadir olduğunu göstərmək, müqəddəs Vətən torpaqlarını murdar ləpirlərdən təmizləmək zamanıdır!

Səbri qəzəblə, kini, nifrəti mərmi və güllə ilə əvəz etmək məqamıdır!

Əsir torpaqlar, xaraba yurdlar bizi çağırır!

Diplomatların bacarmadıqlarını sən etməlisən!

İndiyədək dözməyinin, gözləmək məcburiyyətində qalmağının əvəzini çıxmalısan!

Daha bundan o yanası yoxdur!

Hər birimiz müsəlləh əsgərə çevrilməliyik!

Ali Baş Komandanın, ordunun ətrafında yumruq kimi bir olmalıyıq!

## *Ümid sənədir ancaq...*

Biz torpaq uğrunda döyüşlərdə qanlar tökmüşük, qanımızı axıtmışıq!

Biz iyirmi min şəhid vermişik!

Biz Xocalı, Qaradağlı, Bağanis Ayrım soyqırımlarını yaşamışıq!

Biz yayda isti, qışda soyuq çadırlarda, qaçqın şəhərciklərində zülm və əziyyət çəkmişik, bəzən qeyri-insani şəraitdə yaşamışıq!

Ancaq nə doğma yurd-yuvanı unutmuşuq, nə də dədə-baba torpaqlarını erməniyə güzəştə getmək barədə düşünmüşük!

Prezident İlham Əliyevə bütün varlığımızla inanmışıq, onun, yalnız onun bizi doğma el-obaya qaytaracağına əmin olmuşuq!

❖❖❖

Ali Baş Komandanımız bu ümidi və inamı doğrultmaq üçün yorulmadan gecə-gündüz çalışdı!

Bir çox istiqamətlərdə mübarizə apardı, işlər gördü:

* sülh danışıqlarının səmərəli və nəticəli olması üçün çox səylər göstərdi;
* xalqımızın ədalətli mübarizəsini dünyaya çatdırdı, beynəlxalq qurum və təşkilatlarda dövlətimizin maraqlarını əzmlə müdafiə etdi;
* hücum diplomatiyasına start verərək bu sahədə uğurlarımızın təşkilatçısı oldu;
* vətənpərvər əsgər və zabitlərdən ibarət yüksək təlim görmüş, peşəkar, dünyanın əlli ordusu sırasında yer alan milli ordu yaratdı;
* Azərbaycan Ordusunun bütün ehtiyaclarını qarşıladı, daim kifayət qədər vəsait ayırdı, ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırdı;
* dünyada özünəxas yeri, sözü və mövqeyi, imici olan müasir, qüdrətli Azərbaycan dövləti formalaşdırdı;
* düşmən dövləti və onun uğursuz başçısını bütün parametrlər üzrə ifşa edərək Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini və haqq işini beynəlxalq ictimaiyyətə çatdırdı;

* ən nəhayət, yeni torpaqların işğalı iştahası ilə Azərbaycanla yenidən müharibəyə hazırlaşan Ermənistanı əks-hücumla darmadağın etməyin əsasını qoydu!

Beləliklə, düşmənin "yeddi şərti"nə bir şərtlə - "Ermənistan qeyd-şərtsiz Azərbaycanın bütün ərazilərini tərk etməlidir" şərtilə cavab verərək "təmizləmə əməliyyatı"na başladı!

İlham Əliyev xalqımızın inam və etibarını daim doğruldub, onun bütün arzu və istəklərini mərhələlərlə həyata keçirib!

Bu gün söz onun yaratdığı Azərbaycan Ordusunundur!

Ümid sənədir ancaq, Ali Baş Komandanımız!

Ümid sənədir ancaq, Azərbaycan əsgəri!

Xalq sizə və sizlərin bizə bəxş edəcəyi qələbəyə - böyük həsrət və səbirsizliklə gözlədiyimiz QƏLƏBƏYƏ lap qısa zamanda qovuşacağına inanır!

Allah sizləri qorusun!

**QARABAĞ AZƏRBAYCANDIR!**

***“Azərbaycan” qəzeti,***
***30 sentyabr 2020-ci il***

# Üç cəbhənin sərkərdəsi

*İLHAM ƏLİYEV kimi övladınla fəxr et, Vətən!*

**Azərbaycan Ermənistanın növbəti təxribatına yenə əks-hücumla cavab verdi!**
**Bu dəfə atəşkəsin pozulması hərbi əməliyyatların bərpası, Qarabağ uğrunda yeni - ikinci müharibənin başlanması ilə nəticələndi!**

Müharibə qan, ölüm, itki deməkdir və heç kim müharibə istəmir!

Amma acı bağırsaq kimi uzanan mənasız sülh danışıqlarından bezən xalqımız müharibənin başlanmasını böyük ruh yüksəkliyi, xüsusi coşqu ilə qarşıladı!

Çünki daha heç kəs 30 il gözləmək, "sülh danışıqları"na vaxt itirmək istəmirdi!

Çünki hamı əmin olmuşdu ki, münaqişənin yeganə həlli variantı daha sülh danışıqları deyil, müharibədir!

Çünki açıq-aydın görünürdü ki, Ermənistanın qudurmuş, kriminal hərbi-siyasi rəhbərliyi nə sülh danışıqlarına gəlir, nə də torpaqları qaytarmaq niyyətindədir!

Çünki uzun illərdir ki, ATƏT-in Minsk qrupu və digər beynəlxalq qurum və təşkilatlar BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsini həyata keçirməyərək "icra mexanizmi yoxdur" deməklə yaxasını kənara çəkir, danışıqlar prosesini boşuna yola verirdi.

Belədə torpaqları işğaldan yalnız Azərbaycan əsgərinin gücü ilə təmizləməkdən, min bir hüququ pozulmuş məcburi köçkünləri doğma yurd-yuvasına silah gücü ilə qaytarmaqdan savayı başqa yol qalmamışdı!

Azərbaycan xalqı bu yolu özünün qəhrəman övladına, mahir diplomatına, dünya çaplı liderinə arxalanmaqla seçirdi!

Bilirdi ki, İlham Əliyev ötən 17 ildə olduğu kimi, bu savaşda da xalqının etimadını doğruldacaq, torpaqları murdar xislətlilərdən, yolunu azmış qudurmuşlardan sonadək təmizləyəcək, işğalçı Ermənistan əsgərlərini Azərbaycan torpaqlarından iti qovan kimi qovacaqdır!

Hərbi əməliyyatların başlandığı ilk dəqiqələrdən Ali Baş Komandanımız xalqın bu etimadını doğrultmaq qüdrətində olduğunu sübut etdi!

Həm də eyni vaxtda üç cəbhədə böyük hünər və şücaətlə çarpışmaqla!

❖❖❖

Televiziya vasitəsilə xalqa müraciət edən Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının işğal altındakı torpaqları azad etmək uğrunda Vətən müharibəsinə başladığını bildirdi.

Hərbi əməliyyatlar davam edən müddətdə bir neçə dəfə telekanallarda çıxışlar etdi, müsahibələr verdi.

Özünün "Twitter" səhifəsində yazdı!

İlham Əliyevin Vətən müharibəsinin qısa dövründəki gərgin, çoxcəhətli, intensiv və səmərəli fəaliyyətini izləyərək bir Azərbaycan vətəndaşı kimi öz Prezidentimi, rəhbərimi, Ali Baş Komandanımı yenidən kəşf etdim, bir daha onunla qürur duydum!

Biz Prezidentimizi daim soyuqqanlı, təmkinli, emosiyadan uzaq, son dərəcə ölçülü-biçili danışan və davranan bir siyasi və dövlət xadimi kimi görməyə adət etmişik.

Budəfəki çıxışlarında isə bütün bunlarla bahəm, onun nə qədər böyük vətənpərvər olduğunu, torpaqların işğalından, xüsusən Şuşa ilə bağlı ermənilərin murdar əməllərindən nə qədər təsirləndiyini, içində böyük qəzəb və hiddət olsa da, daim öz hisslərini boğub saxladığını anladıq, duyduq!

İlk dəfə idi ki, o, düşmənə açıq və sərt tərzdə müraciət etdi, onu döyüş meydanında məğlub edərək aşağıladı və azğın işğalçıya nifrətini büruzə verdi!

Bu səmimiyyət həm də xalqda yaranan inamın, ruh yüksəkliyinin daha da artmasına, xalq-rəhbər birliyinin keyfiyyətcə yeni, ən yüksək zirvəyə qalxmasına təkan verdi!

İlham Əliyev adi sözlər söyləmirdi, Azərbaycanın maraqlarını ifadə edirdi!

İlham Əliyev adi sözlər söyləmirdi, bizim hər birimizin ürəyindən keçənləri dilə gətirirdi!

İlham Əliyev adi sözlər söyləmirdi, dostlara məhəbbətini çatdıraraq, düşmənə qəzəb və nifrətini püskürürdü!

Bu, həm də ona görə adi sözlər deyildi ki, deyilənlər rəşadətli Azərbaycan Ordusu tərəfindən döyüş meydanlarında uğurla həyata keçirilirdi!

Bu ordunu da İlham Əliyev yaratmışdır!

Bu ordunu da İlham Əliyev ən müasir silahlarla silahlandırmışdır!

Bu ordunu da ən yeni müasir taktika əsasında döyüşmək üçün təlimləndirərək düşmən üzərinə göndərmişdir!

İndi Ali Baş Komandanımız uzun illər boyu böyük vəsait və zəhmət bahasına yaratdığı ordusu ilə qürur duyur!

İndi Ali Baş Komandanımız yetişdirdiyi qəhrəman əsgər və zabitlərinin dal-badal qazandıqları şanlı qələbələrdən haqlı iftixar hissi keçirir!

Bu qələbələri şəxsən özü elan edir, Azərbaycan xalqına çatdırır!

Çünki bu qələbə həm şanlı sərkərdəmizin, həm də hər birimizin qələbəsidir!

Bu zəfər xəbərini qalib Ali Baş Komandanımızın dilindən eşitməyimiz onu daha da şirinləşdirir, daha coşqun və əzəmətli edir.

İlham Əliyev bu zəfərlərlə Azərbaycan tarixinin ən qüdrətli sərkərdəsi olduğunu da sübut edir!

❖❖❖

Hərbi əməliyyatlar başlayan dövrə qədər artıq İlham Əliyev özünü mahir diplomat kimi tanıdaraq sübut etmişdi:

* transmilli layihələrin reallaşdırılması üçün müxtəlif dövlət başçıları ilə keçirdiyi görüşlərdə;

Habelə:

* BMT Təhlükəsizlik Şurasına;
* Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına;
* Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövrlərdə həm dünyanı düşündürən və narahat edən məsələləri gündəmə gətirmiş, onların həlli üçün doğru yollar göstərmiş, həm də Azərbaycanın maraqlarını təmin etmişdir.

Bu gün də biz Prezidentimizin diplomatik məharətinin şahidinə çevrilirik!

Qüdrətli ordu, güclü dövlət yaradan İlham Əliyev müharibənin xalqımızın qələbəsi, işğal altındakı torpaqların azad edilməsi ilə başa çatacağına əmindir və hər gün bizi möhtəşəm qələbəyə yaxınlaşdırır.

Bizim vüqarlı və qürurlu Prezidentimiz heç kimə, heç haraya zəng etmir, hərbi əməliyyatların dayandırılması üçün kimsəyə yalvararaq qarşısında diz çökmür!

Bu onun təbiətinə və kişiliyinə uyğun deyil!

Əksinə, bu gün İlham Əliyevə zənglər gəlir, ondan xahişlər edilir!

Prezidentimiz hər kəsə hörmətlə yanaşaraq müharibəyə Ermənistanın bais olduğunu, "Qarabağ Ermənistandır" deməklə sülh danışıqlarını Paşinyanın pozduğunu sübut edir, Azərbaycanın haqlı olduğunu, beynəlxalq hüquqa söykəndiyini göstərir, ən nəhayət, daha 30 il gözləməyin mümkünsüzlüyünü və hərbi əməliyyatlara da təxribatçı Ermənistanın başladığını bildirir.

Onun məntiqli, səlis, aydın nitqi, məsələyə tarixi, hüquqi, ədalət və insan haqları nöqteyi-nəzərindən yanaşması xahiş sahiblərinin gecikdiklərini də ortaya qoyur.

Hərdən əsassız təkid edənlərə, ermənilərı açıq-aşkar, gözgörəti müdafiə edənlərə isə yerlərini göstərir!

İlham Əliyevlə mübahisədə ona üstün gələ bilməyəcəklərini duyan qərəzli opponentləri "Bizim məktəbin yetirməsidir" - deyərək Prezidentimizin böyük diplomatik bacarığını etiraf etmək məcburiyyətində qalırlar.

❖❖❖

Müasir müharibələrə hibrid müharibəsi də deyilir.

Çünki müharibələr artıq təkcə döyüş meydanında yox, digər müstəvilərdə də aparılır.

Belə vacib meydanlardan biri informasiya müharibəsidir.

Ali Baş Komandan İlham Əliyev irəlicədən bu cəbhəni də nəzərə almış, onun əhəmiyyətini layiqincə qiymətləndirərək öz tədbirini görmüşdür.

Xislətləri yalanla, şər və böhtanla yoğrulan ermənilər informasiya müharibəsində həmişə fəal olmuş, diasporları vasitəsilə dünya mediasında üstünlüyü ələ keçirmiş, çox halda yalanlarına "həqiqət donu" geyindirə bilmişlər.

Birinci Qarabağ müharibəsi dövründə və sonrakı proseslərdə bunun dönə-dönə şahidi olmuşuq!

İndi isə erməni yalanı hərdən ayaq tutsa da, yerimir, Prezidentimiz dərhal onun qıçlarını sındırır!

Həm də təkzibolunmaz faktlar əsasında!

Bir neçə misal.

Paşinyan "şəxsən" bəyan etmişdi ki, Azərbaycanın F-16 təyyarəsi Ermənistanın iki Su-25 təyyarəsini vurub.

Cənab İlham Əliyev çox soyuqqanlı şəkildə bunun ağ yalan olduğunu göstərdi:

Əvvəla, Azərbaycanın heç F-16 təyyarəsi yoxdur, ikincisi, indi dünya elə güclü müşahidə sistemlərinə malikdir ki, istənilən yerdən havaya qalxan təyyarə qeydə alınır, üçüncüsü isə, Ermənistanın Su-25-ləri təyyarəçilərin naşılığı üzündən dağa çırpılaraq partlayıb.

Başqa sübutunuz varsa, təqdim edin!

Ermənistanın Azərbaycan tərəfindən muzdluların döyüşməsi ilə bağlı iddiasına da eyni soyuqqanlılıqla cavabını verdi: "Sübutunuzu göstərin!"

İlham Əliyev özü düşməni ittiham edəndə isə konkret sübut və faktları sadalayır.

Mülki obyektlərə hücum və evlərin dağıdılması, dinc əhalinin hədəf seçilərək öldürülməsi və yaralanması, erməni tərəfindən Suriyadan gəlmiş muzdluların döyüşməsi foto, video çəkilişləri və sosial şəbəkədəki materiallarla sübuta yetirilir.

Müharibə dövründə beynəlxalq informasiya məkanında ən böyük fəallığı da cənab İlham Əliyev göstərir.

Onun qısa zamanda dünyanın ən məşhur və çoxmilyonlu tamaşaçı auditoriyası olan televiziya kanallarına verdiyi müsahibələri xatırlatmaq kifayətdir:

"Rossiya-1" telekanalının "60 dəqiqə" proqramı;

"Əl-Cəzirə" televiziya kanalı;

"Əl-Ərəbiyə" televiziya kanalı;

"TRT Haber" televiziya kanalı;

"Pervıy kanal" televiziyası;

"CNN-Türk" televiziyası;

"Euronews" televiziyası.

Kanalların əksəriyyəti (başqa sözlə, Türk kanalları istisna olmaqla) mövzuya birtərəfli qaydada yanaşır, erməni yalanlarını və öz qərəzli mövqelərini sübuta yetirməyə çalışırdılar!

Amma canfəşanlıqları heç bir nəticə vermədi.

İlham Əliyev soyuqqanlı və məntiqli mühakiməsi, təmkinli davranışı ilə indiyədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş mühüm sənədlərə istinadən Azərbaycanın haqlı olduğunu, münaqişənin Paşinyanın sülhdən daim yayınmaq və işğal etdikləri torpaqları azad etməmək niyyətindən yarandığını, Azərbaycanın bu münaqişədə haqlı tərəf olduğunu və hərbi əməliyyatların məhz Azərbaycan ərazisində getdiyini əsas gətirərək bütün qərəzli və məkrli hücumları asanlıqla rədd edirdi.

Çox halda verilən suallarda istinad olunan faktların yalan, böhtan olduğunu da ortaya qoyurdu!

Azərbaycana qarşı qərəzli olan belə telekanalların canfəşanlığını puça çıxaran İlham Əliyev əksinə, həmin kanalların verdiyi tribunadan bacarıqla istifadə edərək Ermənistanın işğalçılıq əməllərini, faşist xislətlərini və yalanlarını bütün dünyaya çatdırdı!

Biz hamımız bu müharibədən qələbə gözləyirik!

Biz hamımız bu müharibədə Ali Baş Komandan İlham Əliyevə güvənir və əminik ki, həsrətlə gözlədiyimiz qələbəyə bizi məhz böyük rəhbərimiz çatdıracaq!

Biz hamımız İlham Əliyevi indi daha böyük coşqu və məhəbbətlə sevir və bir xalq olaraq ətrafında yumruq kimi birləşmişik!

İlham Əliyev bu günlərdə dayanmadan, durmadan, istirahət etmədən üç cəbhənin hamısında böyük əzm və uğurla çalışır, əsl sərkərdə, müdrik rəhbər, uzaqgörən dövlət başçısı kimi xalqın etimad və etibarını ən yüksək səviyyədə doğruldur!

Yaşa Ali Baş Komandanımız!

Tarix bu xidmətlərinizi heç zaman unutmayacaq!

**QƏLƏBƏ BİZİMLƏDİR!**

**QARABAĞ BİZİMDİR!**

***“Azərbaycan” qəzeti,***
***11 oktyabr 2020-ci il***

# İlham Əliyevin tarix və jurnalistika dərsləri

*Müharibə dövrü beynəlxalq media da savaş meydanına çevrilib*

**Otuz ildən çoxdur ki, Qarabağ uğrunda çarpışma gedir!**
**Verdiyimiz qurbanlara, çəkdiyimiz əziyyətlərə baxmayaraq, Birinci Qarabağ müharibəsini uduzduq!**
**Ermənistan havadarlarının köməyi ilə ərazimizin 20 faizini işğal etdi, iyirmi min şəhid verərək bir milyondan çox qaçqın yiyəsi olduq!**

Sonra 27 il ATƏT-in Minsk qrupuna inanaraq gözlədik ki, torpaqlarımızı sülh yolu ilə bizə qaytaracaq.

Bu müddətdə nə ATƏT-in gördüyü işin səmərəsi və nəticəsi oldu, nə də erməninin şıltaqlığının sonu.

Bizi güzəştə getməyə, mövcud reallıqla barışmağa çağırışlar isə daim səsləndi.

Nə erməniyə təzyiq göstərildi, nə sanksiya tətbiq olundu.

Nəhayət, İkinci Qarabağ müharibəsi başlandı!

Beləliklə, tarix və tale torpaqların işğaldan azad edilməsi missiyasını cənab İlham Əliyevin üzərinə qoydu!

Hərbi əməliyyatlar başlayan ilk dəqiqələrdən etibarən İlham Əliyev üç mühüm istiqamətdə: Ali Baş Komandan kimi cəbhədə, dövlət başçısı kimi isə diplomatiya və informasiya sahəsində gərgin və məhsuldar fəaliyyətə başladı.

Onu da deyək ki, Prezidentimiz diplomatiya və beynəlxalq KİV-də təkbaşına mübarizə aparırdı.

Qeyd edək ki, düşmən Ermənistan Birinci Qarabağ müharibəsində öncə informasiya savaşını udmuşdu.

Beləliklə, separatçılıq və işğalçılıq siyasətinə uzun müddət "məzlum xalqın əzilməsi", "millətlərin öz müqəddəratını təyin etməsi hüququnu gerçəkləşdirməsi" donunu geyindirə bilmişdi.

Daha bir vacib məqam.

Ötən əsrin 90-cı illərində müttəfiq respublikaların müstəqil şəkildə xaricə çıxışı, habelə beynəlxalq səviyyəli mətbu orqanları və informasiya agentlikləri

yox idi. Sovetlər İttifaqı məkanına da, dünyaya da yalnız SSRİ-yə məxsus mərkəzi qəzetlər, informasiya agentlikləri və televiziya kanalları vasitəsilə informasiya yaymaq mümkün idi.

Mərkəz qəzet-jurnal, informasiya agentlikləri və televiziya kanallarında erməni millətindən olanların mövcudluğu, Rusiyada ermənilərə bəslənən rəğbət, habelə dünya erməni diasporunun imkanları haqlı Azərbaycanı dünyada haqsız, ədalətsiz, separatçı və işğalçı Ermənistanı isə "zavallı", "vəhşi müsəlmanlar tərəfindən əzilən və hüququ tapdalanan millət" kimi təqdim etməyə imkan yaratmışdı.

Torpaqların işğaldan azad olunmasına və məkrli düşmənə qarşı mübarizəyə artıq dünyada yaradılmış stereotiplərin dağıdılmasından, informasiya blokadasının yarılmasından başlanıldı!

Bu sahədə ən effektli işi Ulu Öndər Heydər Əliyev gördü, böyük jurnalistlər ordusunun yerinə yetirə bilməyəcəyi missiyanı təkbaşına həyata keçirdi!

Ulu Öndərimiz bəzən xarici səfərləri zamanı əlində çubuq xəritə önündə dayanaraq Qarabağın yerləşdiyi ərazini, işğalçı ilə "məzlum millət"in əməlinin fərqini əyani şəkildə, faktlarla izah etməli oldu.

## *Təkzibçi tərəfdən hücumçu mövqeyə*

İkinci Qarabağ müharibəsində isə eyni missiyanı, beynəlxalq KİV-də dünya erməniliyi ilə mübarizəni İlham Əliyev yerinə yetirməli oldu.

Əslində, dünya erməniliyi - ermənilərin dostları və ikili standartlar səbəbindən bizə düşmən münasibəti bəsləyənlər sülh danışıqlarının dayandırılaraq hərbi əməliyyatların başlayacağını, yeni müharibədə Azərbaycanın yeni taktika, yeni silahlarla yeni nümunə ortaya qoyacağını, öz gücü və imkanları hesabına torpaqlarını bu qədər sürətlə və həm də Ermənistan ordusuna sarsıdıcı zərbələr vurmaqla, onu tar-mar etməklə nail olacağını güman etmirdilər.

Çaş-baş və özlərini itirmiş vəziyyətində qalanlar hərbi əməliyyatlara müxtəlif səbəblərdən müdaxilə edə bilmədiklərindən güclərini diplomatiya, o da nəticə vermədiyindən informasiya müharibəsində cəmləşdirmişdilər.

Məqsəd Azərbaycanı sülh danışıqlarını pozaraq müharibəyə başlayan, Türkiyə Ordusundan kömək alan, döyüşlərdə əcnəbi muzdlulardan istifadə edən, qadağan olunmuş silahları tətbiq edən, demokratiyanı pozan, erməniləri Qarabağdan qovmağa çalışan bir dövlət kimi təqdim etmək, siyasi nüfuzuna xələl gətirmək idi.



**Fəxri xiyaban.** 8 noyabr 2020-ci il



**Şəhidlər xiyabanı.** 8 noyabr 2020-ci il



**Şəhidlər xiyabanı.** 8 noyabr 2020-ci il



**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti**

Şəhidlər xiyabanı, 8 noyabr 2020-ci il



**Şəhidlər xiyabanı.** 8 noyabr 2020-ci il





**1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüş**

11 noyabr 2020-ci il





**1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüş**

11 noyabr 2020-ci il





**1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüş**

11 noyabr 2020-ci il





**1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüş**

11 noyabr 2020-ci il





**Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüş.**

30 sentyabr 2020-ci il

Daim mətbuata açıq, jurnalistlərin istənilən suallarına cavab verməyə hazır olan İlham Əliyev çox qısa bir müddətdə 25 televiziya, informasiya agentliyinə və qəzetə müsahibə verdi.

Bunların sırasında "Əl-Cəzirə", "Ewronevs", "Sky News", habelə Fransanın "Fiqaro" və "France - 24", Rusiyanın RBK, ABŞ-ın "Fox News", Almaniyanın ARD televiziya kanallarını qeyd etmək olar.

Sonuncu müsahibə isə İtaliyanın "La Repubblica" qəzetinə verilmişdir.

## *Daş qayaya rast gələndə*

Biz Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunda, Münxen Beynəlxalq Təhlükəsizlik Konfransında parlaq çıxışını və polemika məharətini, habelə yüksək hazırlığa malik olduğunu görmüşük.

Eyni zamanda sözünü demək üçün əlverişli yer və zaman seçməsinə, necə deyərlər, sözü məqamında deməsinə yaxşı bələdik.

Onun müsahiblərinə konkret faktlar əsasında "qəfil zərbə" endirərək çaşdırmasına, çıxılmaz vəziyyətə salmasına da dəfələrlə şahid olmuşuq.

Hərbi əməliyyatlar başlayandan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə təmas qurmaq istəyən KİV-in marağı təkcə yenicə alovlanan müharibə ocağı barədə informasiya toplayaraq yaymaq və həqiqəti söyləmək niyyətindən qaynaqlanmırdı. Bir aydan bir qədər çox müddətdə Prezidentimizlə görüşə gələn 20-dən çox KİV-in bir qisminin erməni diasporunun sifarişini icra etdiyi diqqət çəkən başlıca məqamlardandır. Bunu müsahibə alan jurnalistlərin jurnalistikanın bir sıra mühüm prinsiplərini pozmalarından da aydın görmək mümkündür. Həmin prinsiplər jurnalistlərin beynəlxalq peşə davranışı qaydalarında (ona uyğun olaraq həm də Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarında) öz əksini tapmışdır.

Jurnalistikanın ali məqsədi həqiqəti yaymaq, obyektivlik isə əsas peşəkarlıq meyarı sayılır. Jurnalist müsahibinə istədiyi sualı verməkdə sərbəstdir. Ancaq tərəf nümayiş etdirməməli, qərəzsiz olmalıdır. Müsahibinə hörmətlə yanaşmalı, etik normalara ciddi riayət etməlidir. Müsahibinin demək istəmədiyini zorla ona dedirtməyə çalışmamalı, öz fikrini məcburən qəbul etdirməyə cidd-cəhd göstərməməlidir.

Müsahibə həm də xüsusi janrdır. Burada müxbir şərhinə, jurnalist müdaxiləsinə yol verilmir. Hər şey jurnalistin peşəkarlığından, müsahibini danışdırmaq

bacarığından asılı olur. Ona sərf etməyən fikir söyləyən zaman müsahibinin sözünü kəsmək, cavablara açıq şübhə ilə yanaşmaq, xüsusən dirəniş göstərmək və deyilənlərə düzəliş etməyə çalışmaq yolverilməzdir.

Adətən, müsahibin kimliyi, hansı səviyyə sahibi olduğu da nəzərə alınır. Ona uyğun müxbir seçilir. Jurnalistin özü müsahibəyə diqqətlə hazırlaşmalıdır, redaksiya da ona müəyyən istiqamətlər verə, qarşısına hansısa vəzifə qoya bilər.

Lakin bunların hamısı etik çərçivədə, jurnalistikanın mühüm prinsiplərinə əməl olunmaqla icra edilməlidir.

Prezident İlham Əliyevlə müsahibələrə baxdıqda nələri dərhal hiss etmək olurdu.

Əvvəla, jurnalistlərin bir qisminin bu müsahibələri xoş məramla götürmədikləri, kimlərdənsə (indiki halda erməni diasporundan) sifariş aldıqları açıq-aydın duyulurdu.

İkincisi, hamısı eyni sualları verib ( müxtəlif şəkildə fərqləndirilsə də), eyni məsələni qabartmağa çalışırdılar.

Üçüncüsü, eşitdiklərini həqiqət kimi təqdim edərək suala israrla cavab almağa can atırdılar.

Məsələn, bütün müsahibələrdə səsləndirilən suallar təxminən aşağıdakılardır:

* Müharibəyə niyə başladınız?
* Türkiyə niyə sizə kömək edir?
* Müharibə ilə ölkəniz daxilindəki problemləri başqa səmtə yönəltmək istəyirsiniz?
* Türkiyənin F-16 təyyarələri niyə Azərbaycandadır?
* Siz tərəfdən muzdlular döyüşür?
* Etnik təmizləmə aparmaq istəyirsiniz?
* Niyə müharibəni dayandırmırsınız və s.

Lakin Azərbaycanın dövlət başçısı bu sualların hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verir, məsələnin mahiyyətini səbirlə izah edir, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini və dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirirdi.

Necə deyərlər, daş qayaya rast gəlirdi!

## *Yersiz gəldi, yerli qaç*

Jurnalistlər vasitəsilə səsləndirilən əsas suallardan biri ermənilərin bu ərazilərdə lap qədimlərdən yaşamaları ("ən qədim millət və ən zəngin mədəniyyətə malik xalq" tezisinə uyğun olaraq) barədə olurdu!

Əslində, bu sualın əsl mahiyyəti belə idi: ermənilər əvvəldən burada yaşayıblar, işğal etdikləri ərazi onlarınkı olub, niyə yerlərindən qovursunuz?!

Bəlkə də bu sualı verən (verdirən yox) onun gülünc səslənməsinin mahiyyətinə varmırdı.

Ancaq cənab İlham Əliyev özünü o yerə qoymayaraq 1805, 1813 və 1828-ci il Kürəkçay, Türkmənçay və Gülüstan müqavilələrinə əsasən, ermənilərin sonralar - XX əsrdən Qarabağ və Şuşa xanı İbrahimxəlil xanla rus generalı Sisianovun imzaladıqları müqaviləyə uyğun olaraq bu torpaqlarda yerləşdirildiklərini, qədim Azərbaycan şəhəri İrəvanın isə onlara paytaxt kimi verildiyini söyləyərək həm də tarix dərsi keçirdi.

Üstəlik, tarixi mənbənin yerini də göstərirdi: internetə girməklə həmin sənədlərlə özünüz də tanış ola bilərsiniz!

Həm də başa salırdı ki, yerli əhali azərbaycanlılardır, indi isə yersiz ermənilərə yerlərini göstərirlər!

## *Qara məni basınca...*

Öyrədilmiş jurnalistlərin ən çox hallandırdıqları faktlardan biri Şuşadakı kilsəyə, guya, bizim zərbə endirərək onu zədələməyimizlə bağlı idi.

Münaqişənin başlanmasından ermənilər məsələyə daim dini don geyindirməyə, beləliklə, həm işğal faktını gizlətməyə, həm də dünya xristianlarını öz müdafiəçilərinə çevirməyə çalışmışlar.

Azərbaycan tolerant ölkədir. Biz hansı dinə sitayiş etməsindən asılı olmayaraq, bütün millətlərə və xalqlara eyni nəzərlə baxırıq, hər bir dini məbədi Allah evi sayırıq!

Heç bir müsəlman Allah evinə xor baxmaz, onu dağıtmaz!

Heç kim ermənilər kimi orada heyvan saxlayaraq murdarlanmasına yol verməz!

Bu, erməni xislətindən doğan haldır!

Cənab İlham Əliyevin belə ittiham xarakterli suallara da cavabı aydın və qısa olurdu:

Əvvəla, biz bilmirik kilsə kim tərəfindən, qəsdən, ya təsadüfən zədələnib. Zədə cüzidir və bir həftəyə düzəldilə bilər. İkincisi, Bakıdakı erməni kilsəsini təmir edərək qoruyuruq, içərisində isə qədim erməni kitablarını saxlayırıq. Ermənilər isə işğal etdikləri ərazilərdəki məscidlərimizdə donuz və inək saxlayırlar, tövlə kimi istifadə edirlər.

Ermənistan tərəfdən muzdluların vuruşduğunu bilən jurnalistlər Azərbaycan tərəfində də muzdlular olduğunu söyləyərək "qara məni basınca..." prinsipi ilə hərəkət etməyə çalışırlar.

Dövlət başçısı yenə təmkin göstərərək bunun feyk xəbər olduğunu, ilk dəfə bu fikrin kimlər tərəfindən söylənildiyini xatırladaraq, onlardan sübut istədiyini bildirir: "Mən hələ bu iddia ilə bağlı dəlillər istəyirəm, onu isə təqdim edən yoxdur!"

Müharibə ilə bağlı söylədiklərinin təsdiqini tapa bilməyən müxbirlər isə istiqaməti başqa səmtə yönəldirlər.

Almaniyanın ARD televiziya kanalının müxbirinin bir neçə belə çapasına diqqət yetirək:

- Mən bildiyimə görə, oktyabrın 1-ində Azərbaycanda bir nəfər sülh tələb etdiyinə görə həbs olunub. Bəzi insan haqları ekspertləri, müdafiəçiləri deyirlər ki, Siz bu müharibəyə həm də xalqı ətrafınızda birləşdirmək, demokratiya və insan haqları ilə bağlı ölkədəki problemlərdən diqqəti yayındırmaq üçün başlamısınız.

- Bu, tamamilə yanlış qiymətləndirmədir. Birincisi, mənim həbs olunan hər hansı şəxs barəsində məlumatım yoxdur. Əgər adını deyə bilərsinizsə, əgər sizdə adı varsa, mənə deyin. Sizdə adı var?

- Hazırda məndə adı yoxdur, öyrənərəm.

Qaranlıq otaqda kösöv bulamağa bənzər bu sualın uğursuzluğunu İlham Əliyev uğurlu və sərt şəkildə sonuclayır:

- Öyrənəndə mənə deyərsiniz. Beləliklə, biz bu sualı etibarsız edə bilərik, çünki sizdə ad yoxdur və məndə də bu məlumat yoxdur.

Bu qiymətləndirmədəki incə istehzanı sezməmək də mümkün deyil!

Jurnalistlərin bir neçə dəfə toxunduqları "ölkədaxili problemlərdən diqqəti yayındırmaq üçün müharibəyə başlamısınız" fikri, əslində, qeyri-ciddi səslənir. Lakin onun qeyri-ciddiliyi verilən cavabdan sonra tam aydınlığı ilə meydana çıxır.

Prezidentimiz, sadəcə, Azərbaycandakı mövcud siyasi və iqtisadi vəziyyəti faktlar və rəqəmlər əsasında təsvir etməklə kifayətlənmir:

- Pandemiya dövründə iqtisadiyyatımız cəmi 3,9 faiz azalıb. Bu, bəzi Avropa ölkələrində olduğundan xeyli aşağıdır. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faiz, işsizlik səviyyəsi isə 7 faizdir. Bizim konvensiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzdan 6 dəfə çoxdur. Bütün müxalifət partiyaları isə rəsmən torpaqların işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatların başlanmasını dəstəklədiklərini bəyan ediblər.

Sonra isə cənab İlham Əliyev öz təklifini verir:

- Bizdəki mövcud durumu ölkəmizdəki analoji faktlarla müqayisə edin!

Elə buradaca qeyd edək ki, eyni məntiqlə çıxış edən həmin jurnalistlər belə bir müqayisə aparsalar, kiminləsə müharibəyə özlərində daha çox əsasların olduğunu görərlər.

Azərbaycanın isə bir əsası var - torpaqları 30 ildir işğaldadır, düşmən onu sülh yolu ilə geri qaytarmaq istəmir. Güclənmiş dövlətimiz isə bunu özü və həm də çox uğurla icra etməyə başlayıb!

Kim bundan narahatdırsa, qoy olsun!

## *Öz gözlərində tiri görməyənlər...*

Mətləbə dəxli olmayan suallardan birini də ABŞ-ın "Fox News" televiziya kanalının müxbiri vermişdi. Cavab "Öz gözündə tiri görmür, özgə gözündə tük axtarır" məntiqi ilə səsləndi:

- Ailə idarəçiliyinə gəlincə, mən bir daha sizin öz ölkənizə diqqət çəkmək istəyirəm. Orada mühüm vəzifələri ata və oğul tutmuşdu. Buş ailəsi, Klinton ailəsi, ər və arvad, Kennedi ailəsi və bir çox başqa ölkələrdə. Beləliklə, bu, ABŞ-da baş verənlərdən fərqlənmir.

Belə bir cavabı gözləməyən müxbir son cəhdini göstərir:

- Lakin onların hamısı demokratik və şəffaf şəkildə seçilmişlər.

Cavab isə həm sərt, həm də istehzalıdır:

- Bəli, xüsusilə ABŞ Ali Məhkəməsinin qərarı ilə seçilmiş Buş.

Belə bir tutarlı arqumenti gözləməyən müxbir güzəştə gedərək geri çəkilir və müsahibinin gücünü etiraf etməli olur:

- Siz Amerika siyasətini bilirsiniz, cənab Prezident.

Söz duelinin dövlət başçımızın parlaq qələbəsi ilə başa çatması bizim hər birimizdə sonsuz iftixar hissi doğurur.

Analoji vəziyyətə Almaniyanın ARD televiziya kanalına müsahibədə də rast gəlinir. Müxbirin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır" sualına da İlham Əliyev təmkinini pozmadan sual-dərslə cavab verir:

- Elzas və Lataringe sizin üçün önəmlidir, Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir... Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.

Dəqiq cavabını alan müxbir həmin cavabın daxilində xatırladılan incə mətləbi də sezməmiş deyil!

## *Fəxr et, Azərbaycan!*

İyirmidən çox görüb dinlədiyimiz müsahibədə belə maraqlı məqamlar kifayət qədərdir. Bəzən jurnalistlər kiminlə söhbət etdiklərini unudaraq, Prezidentimizin təbirincə desək, özlərini prokuror kimi aparır, etik çərçivədən kənara çıxır, mövzudan uzaqlaşaraq nələrisə sübut etmək üçün dirənir, inad göstərirlər, müsahibin sözünü belə kəsirlər.

Lakin Prezident İlham Əliyev dəmir məntiqi, gətirdiyi təkzibolunmaz faktları, yüksək mədəniyyəti və intellekti ilə daim ucalıqda dayanır, səbir və təmkinlə Azərbaycan həqiqətlərini dünyaya çatdırır.

Bəzən müxbir söylədiyi feyk faktın həqiqiliyini sübut edəcək dəlil tələb edildikdə, "etibarlı mənbə" göstərməklə vəziyyətdən çıxmağa çalışır:

- Dəlil "New York Times"dadır. Sizi beş gün əvvəlki məqaləyə yönəldə bilərəm. Orada deyilir ki, Azərbaycanda qətlə yetirilmiş 57 suriyalı döyüşçü Türkiyə sərhədinin o biri tərəfində geri qaytarılaraq Suriyada dəfn olunub. Ailələrinin hamısı təsdiqləyiblər ki, onlar Sizin ordunuzla birlikdə döyüşmək üçün Azərbaycana getmişdilər.

Jurnalist inadı daha bir "mötəbər mənbə" ilə darmadağın edilir:

- Siz Prezident Trampın "New York Times"ı necə adlandırdığını bilirsiniz, xatırlayırsınız?

Feyk xəbərlər. Bu, feyk xəbərdir. Heç bir dəlil, heç bir sübut yoxdur. Bizə dəlil verin.

Əslində, cənab İlham Əliyev bu müsahibələri ilə həm xarici KİV-də dünya erməniliyinə qarşı mübarizə aparır və onların əməllərini ifşa edirdi.

Həm də Azərbaycanın haqlı, ədalətli mövqeyini göstərməklə;

Ordumuzun düşmən üzərindəki qələbələrini xatırlatmaqla;

Ərazilərimizin işğaldan təmizləndiyi barədə qürurlu faktlardan söz açmaqla;

Hər birimiz Prezidentimizin bu möhtəşəm müsahibələri ilə fəxr edirik, məmnun qalırıq!

Bu müsahibələr həm də jurnalistikanın qızıl fonduna düşəcək, dərsliklərdə istifadə oluna biləcək nümunələr sırasındadır.

Fəxr et, Azərbaycan!

***“Azərbaycan” qəzeti,***
***5 noyabr 2020-ci il***

# Nooldu, Paşinyan?!

**Nooldu, Paşinyan!**
**Bəs deyirdin "Qarabağ Ermənistandır - nöqtə"!**
**İndi alçaldılmış durumda təslimçilik sənədinə imza atırsan!**
**İndi İlham Əliyevin qarşısında diz çökürsən!**
**Azərbaycan Prezidentinin "Qarabağ Azərbaycandır - nida!" bəyanatını qəbul edirsən!**
**Başqa çarən yoxdur!**
**Çünki onu sənə İlham Əliyev qəbul etdirir!**
**Təpənnən yumruqla vurmaqla!**
**Dediklərini özünə yedirtməklə!**

❖❖❖

Nooldu, Paşinyan!
Bəs Şuşada yallı gedirdin!
Tut arağından içib açarını itirmişdin!
Şuşada inauqurasiya keçirirdin!
Nooldu!
Bəs qondarma "Dağlıq Qarabağ Respublikasının" paytaxtını Şuşaya köçürürdün!
Nooldu!
İndi niyə Şuşada yallı getmirsən, atılıb düşmürsən!
Çünki Şuşa bizimdir!
Şuşanı qəhrəman Azərbaycan əsgəri, şanlı Azərbaycan Ordusu geri aldı!
Sizi oradan iti qovan kimi qovdu!
Nooldu, Paşinyan!
Bəs Şuşanı "Şuşi" eləmişdin!
İndi harada gizlənmisən!
Deyəsən, siçan deşiyi tapmısan!
Nooldu, Paşinyan?!
Bəs yeni müharibəyə başlayıb yeni ərazilər işğal edirdin!
Tovuza hücum edib neft-qaz kəmərlərini partlatmaq istəyirdin!
Bizə hədə-qorxu gəlirdin, sülh danışıqlarını pozurdun!
Görürsən, adama necə təslim sənədi imzalatdırırlar?
Görürsən, adama necə etmək istəmədiyini etdirirlər?

❖❖❖

Nooldu, Paşinyan?!

Bəs Dağlıq Qarabağı müstəqil respublika edirdin?!

Erməni xalqının öz müqəddəratını təyin etmək hüququndan dəm vururdun!

İkinci erməni dövləti yaratmaq eşqinə düşmüşdünüz?!

Nooldu?!

Həftə səkkiz, mən doqquz Dağlıq Qarabağa gəlirdin!

Şuşadakı asma körpüdə zurna çaldırırdın!

Nooldu, Paşinyan?!

İndi də gəl görüm!

Ay Dağlıq Qarabağı müstəqil respublika etdin, ha!

Hanı imzaladığın sənəddə status məsələsi!

Yoxdu!

Heç olmayacaq da!

❖❖❖

Nooldu, Paşinyan?!

Keçilməz səngəriniz, dağılmaz bunkerləriniz bunlar idi?

Arvadın Qarabağa gəlib buradakı arvadlara avtomat atmağı öyrədirdi.

Nooldu!

Bəs oğlun Xankəndidə hərbi xidmət keçirdi?

Müharibə vaxtı nə anası, nə də balası döyüşlərdə göründü...

❖❖❖

Nooldu, Paşinyan?!

Yalvarmadığın dövlət başçısı, yalamadığın daban qalmadı!

Bütün günü təyyarələrlə silah-sursat, texnika daşıyırdın.

Nooldu?!

Suriyadan PKK-çıları, muzdluları gətirib işğal etdiyin torpaqları əldən vermək istəmirdin.

Bəs niyə verdin?

❖❖❖

Nooldu, Paşinyan?!

Bəs müsəlman məscidlərində donuz saxlatdırırdın?

Allahın evini təhqir edirdin!

Gördün, Allah adamı necə alçaq, şərəfsiz duruma salır?

Şuşadakı kilsənizin böyründən bir daş qopmuşdu, bunu bütün qohum-əqraban faciəyə çevirdi.

Nooldu?!

Görüm həmin kilsəyə gələ biləssən?

Görüm orda dua edib özünü xilas edə biləssən?

Gördün, İlham Əliyev məsciddə donuz saxlayanın özünü necə donuza döndərir?

Gördün, adamın anasını necə ağladırlar!

Di get!

Adamı belə şərəfsiz edirlər!

Adamı belə diz üstə qoyurlar!

Adamı belə itin gününə salırlar!

Nooldu, Paşinyan?!

Gördünmü ki, Qarabağ Azərbaycandır!

❖❖❖

Sonda bu möhtəşəm Qələbənin müəllifi İlham Əliyevin xalqa sonuncu müraciətindən bir parçanı da yada salıram:

Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla!

Rəqs edirdin, nə oldu bəs status, cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status.

Yoxdur status və olmayacaq!

***"Azərbaycan" qəzeti,***
***12 noyabr 2020-ci il***

# Ulu Öndərin daha bir müqəddəs vəsiyyəti yerinə yetirildi

**Ulu Öndərimizin daha bir müqəddəs vəsiyyəti yerinə yetirildi!**
**Şuşa düşmən işğalından azad edildi!**
**Şuşa bizimdir!**
**Qarabağ Azərbaycandır!**
**Bu, dövlətimizin qələbəsidir!**
**Bu, xalqımızın qələbəsidir!**
**Bu, ordumuzun qələbəsidir!**
**Dövləti bu qələbəyə İlham Əliyev çatdırdı!**
**Xalqı bu qələbəyə İlham Əliyev səfərbər etdi!**
**Ordunu bu qələbəyə İlham Əliyev hazırladı!**
**Bu qələbənin şəriksiz və şəksiz qəhrəmanı da məhz cənab İlham Əliyevdir!**

❖❖❖

Şuşa qədim mədəniyyət mərkəzidir!

Şuşa ədəbiyyatımızın, musiqimizin, mənəviyyatımızın beşiyidir!

Şuşa şəhərlərimizin gözəli, dünya şəhərlərinin incisidir!

Şuşa xalqımızın sevgi ünvanı, ülviyyət məkanıdır!

Şuşanın işğalı sinəmizə çəkilən çalın-çarpaz dağ idi!

Şuşanın işğalı arxadan kürəyimizə saplanan bıçaq idi!

Şuşanın işğalı bir millət olaraq məğlubiyyətimiz idi!

Əslində, Şuşa çirkin oyunların qurbanı oldu!

Şuşa vəzifəni qeyrətindən, pulu şərəfindən yüksək tutanların qurbanı oldu!

Şuşa "daqqapapaq" qoyanların xəyanətinin qurbanı oldu!

Şuşa hakimiyyət uğrunda aramsız mübarizənin qurbanı oldu!

Şuşa ölkədə sabitliyin pozulmasının, qarşıdurmanın, Vətən uğrunda, milli maraqlar naminə birləşə bilməməyimizin qurbanı oldu!

Beləliklə, Şuşanı itirdik!

Uzun müddətə itirdik!

Ağrıya-ağrıya, ağlaya-ağlaya itirdik!

❖❖❖

Düşmən Şuşanın dəyərini yaxşı bilirdi!

Ona məxsus olmasa da, özününküləşdirməyə çalışırdı və bu istiqamətdə nə bacarırdısa, edirdi!

Adını dəyişdirdi...

Xalqımıza məxsus tarixi, mədəni abidələri varvarcasına məhv etdi...

Qədim erməni şəhəri adı ilə dünya turizm mərkəzinə çevirməyə çalışdı...

Qondarma qurumun qondarma parlamentini Şuşaya köçürmək istədi...

Şuşanı qondarma "Dağlıq Qarabağ Respublikasının" paytaxtına çevirmək niyyətinə düşdü...

Ermənistanın qudurmuş rəhbərləri tez-tez Şuşaya gəlir, bizə acıq verən tədbirlər keçirir, şəhəri özününküləşdirdiklərini nümayiş etdirirdilər...

“Quduran qırx gün gedər” - demişlər.

❖❖❖

Biz hamımız Şuşanın qaytarılmasını istəyirdik!

Biz hamımız tezliklə Şuşaya qovuşmaq istəyirdik!

Təəssüf ki, bəzən istəklə, arzu ilə reallıq arasında məsafə çox uzun olur, çox!

Xalqımızı bu istəyinə Ali Baş Komandan cənab İlham Əliyev qovuşdurdu!

Uzun illər yorulmadan, dayanmadan, məqsədyönlü şəkildə mübarizə aparmaqla!

Bu mübarizə asan deyildi!

Biz bizdən güclülərlə çarpışmalı olurduq!

Bu mübarizədə qalib gəlməkdən ötrü İlham Əliyev mümkün olmayanları belə gerçəkliyə çevirdi!

Ölkəyə rəhbərlik etdiyi 17 ildə Azərbaycanı iqtisadi cəhətdən gücləndirmək üçün ardıcıl addımlar atdı, beynəlxalq layihələri gerçəkləşdirərək ölkəmizin maraqları ilə dünyanın aparıcı dövlətlərinin maraqlarını uyğunlaşdırdı.

Zəngin karbohidrogen ehtiyatlarını dünya bazarına çıxaran Azərbaycan bundan böyük faydalar götürdü, iqtisadi imkanlarını genişləndirdi.

Beləliklə, iqtisadiyyatın digər sahələrinin inkişafına da şərait yarandı.

Azərbaycan həm də əməkdaşlıq etdiyi ölkələr hesabına özünə yeni dostlar qazandı.

İqtisadiyyatın güclənməsi güclü ordu qurmağa, onu ən müasir silahlarla silahlandırmağa imkan verdi.

Dost ölkələr bu işdə bizə yaxından kömək göstərirdilər.

Prezident İlham Əliyevin hücum diplomatiyasına keçidə start verməsi, beynəlxalq qurum və təşkilatlarda səmərəli iş aparması haqq işimizi dəstəkləyənlərin sayını xeyli artırdı.

Ermənistanın yeni rəhbərliyi "Qarabağ Ermənistandır - nöqtə" deməklə sülh danışıqlarını mənasız etdi!

Üstəlik, işğalçı ölkə bir qədər də irəli gedərək "yeni ərazilər uğrunda yeni müharibə" hədəsi ilə Azərbaycanı təhdid etməyə başladı.

Düşmənin növbəti təxribatına isə Azərbaycan əks-hücumla cavab verdi!

Beləliklə, işğal altındakı torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başladı.

İlk günlərdə Ermənistan da, bütün dünya da Azərbaycan Ordusunun qüdrətini, yeni taktika ilə uğurla döyüşdüyünü gördü.

Amma düşmən yenə sülhə gəlmək istəmir, müharibəni beynəlmiləlləşdirməyə çalışırdı!

Ali Baş Komandan İlham Əliyev "Şuşasız qələbəmiz yarımçıq olar" söyləyərək ordumuzun bütün torpaqlarımızı azad etmək qətiyyətini ortaya qoydu!

Xalq Prezidentimizə güclü dəstək verdi, yumruq kimi onun ətrafında birləşdi!

Əsgər və zabitlərimiz qəhrəmanlıqla döyüşərək bir-birinin ardınca şəhər, kənd və qəsəbələrimizi işğaldan azad etməyə başladı.

Növbə Şuşaya da çatdı!

Ali Baş Komandanın rəhbərliyi ilə bu qədim şəhər də düşmən əsarətindən qurtuldu!

❖❖❖

Şuşanın işğaldan azad edilməsi Azərbaycan Ordusunun parlaq qələbəsidir!

Bu, həm də əsgər və zabitlərimizin ən çətin şəraitdə, dağlıq ərazidə də uğurlu döyüş əməliyyatı apardıqlarının əyani göstəricisidir.

Şuşanın alınması Qarabağ uğrunda döyüşlərin yeni mərhələsinə keçid deməkdir!

Xalqımız bu möhtəşəm Qələbəni elliklə, kütləvi şəkildə bayram etdi!

Düşmən isə yasa batdı.

Qalib ordunun Ali Baş Komandanı İlham Əliyev də bu tarixi qələbə münasibətilə Azərbaycan xalqına müraciət etdi.

Həmin müraciətdə xalqı təbrik etməklə yanaşı, hər birimizin ürəyindən keçənləri də ifadə etdi:

"Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir!

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!"

***"Azərbaycan" qəzeti,***
***13 noyabr 2020-ci il***

## Həsrətin sonu varmış

*Bu həsrətə Ali Baş Komandan*
*İlham Əliyev son qoydu*

**Ağdam da azad edildi!**
**Şanlı Azərbaycan Ordusu tərəfindən!**
**İlham Əliyevin rəhbərliyi ilə!**
**Nə yaxşı ki Ağdamı döyüşərək azad etdik!**
**ATƏT-in Minsk qrupu "sülh yolu ilə" onu bizə qaytarmadı!**
**Belədə Ağdam uğrunda vuruşaraq həlak olan oğullarımızın ruhu narahat olardı!**
**Heç bilirsiniz Ağdamda necə oğullar itirmişik?**

Ürəyinin hökmü ilə respublikanın hər yerindən könüllü olaraq gəlmiş, doğma Azərbaycanımızın coğrafiyasını əks etdirən igid, nər oğullar!

Biz ağdamlılar onların hamısını öz ağdamlımız hesab edirik, xatirələrini əziz tuturuq, heç zaman unutmuruq və unutmayacağıq da!

Düşmən torpaqlarımıza soxulanda Ağdam Qarabağın qeyri-rəsmi mərkəzinə çevrilmişdi.

Azərbaycanın nəbzi burada döyünürdü!

Əsl Azərbaycanın, vətənpərvər Azərbaycanın!

O biri Azərbaycanın, siyasiləşmiş, "Xalq Cəbhəsi"ndə birləşsə də, xalqın düşmənə qarşı müharibə cəbhəsində iştirak etməyən Azərbaycanın yox!

Onları hakimiyyət düşündürürdü, vəzifə ehtirası idarə edirdi!

İşğal olunmuş torpaqlar isə belələrinə ölkə rəhbərliyinə qarşı mübarizədə, onu hakimiyyətdən kənarlaşdırmaqda gərək idi!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi müstəviyə keçəndə, silahlandırılmış düşmən torpaqlarımıza hücuma başlayanda "Həyat" və "Azərbaycan" qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri - hərbi müxbiri olmuşam.

O zaman nə internet vardı, nə də elektron poçt. Yazılarımızı ya kiminləsə Bakıya göndərər, ya da özümüz gətirərdik.

Bir ayağımız paytaxtda, digəri bölgədə olardı. Odur ki, paytaxtda və döyüş cəbhəsində vəziyyəti şəxsən müşahidə edib öyrənmək, müqayisəli şəkildə təhlil etmək imkanımız vardı.

Yekun qənaət isə daim belə olardı: Bakının müharibədən xəbəri yoxdur!

Qarabağda qanlı döyüşlər gedir, paytaxtda isə hakimiyyət uğrunda mübarizə!

İqtidara gələndən sonra müxtəlif partiyalara parçalanan AXC Bakıda "ikinci cəbhə" açmaqla əsl xəyanət yolu tutmuşdu.

1992-ci ildə Parlament çevrilişi edərək hətta Laçını və Şuşanı müdafiə etməli olan zirehli texnikanı, döyüşçüləri Bakıya gətirərək müdafiəni zəiflətmişdilər. Düşmən isə belə vəziyyətdən dərhal istifadə edirdi.

Əslində, müharibə dövlət səviyyəsində aparılmırdı: nə ordu yaradılmışdı, nə də lazım olan silah-sursat vardı!

Xalq öz gücü, öz vəsaiti hesabına könüllü özünümüdafiə dəstələri yaradırdı. Müxtəlif adlar daşıyan belə hərbi birləşmələr şəxsi igidliyə və şücaətə arxalanır, adətən, bir-biriləri ilə əlaqəli şəkildə hərəkət etmir, vahid komandanlığa tabe olmurdular.

Silah-sursat, ərzaq təchizatı sistemi hərbin tələblərinə uyğun deyildi.

Ancaq ozamankı dövlət başçıları müdafiəni təşkil etmədiklərindən, öz haylarına qaldıqlarından başqa çarə yox idi.

Ağdamın sayılıb-seçilən, sözü keçən igid oğlanlarının təşəbbüsü ilə müxtəlif könüllü özünümüdafiə dəstələri yaradılmışdı. Sonralar bu işə yeni yaradılan Müdafiə Nazirliyi də qoşuldu. Rayonun yaşayış məntəqələrini müxtəlif istiqamətlərdən aşağıdakı dəstələr qoruyurdu:

Milli Qəhrəman Şirin Mirzəyevin komandiri olduğu 836 nömrəli özünümüdafiə alayı;

Milli Qəhrəman Allahverdi Bağırovun özünümüdafiə batalyonu;

Milli Qəhrəman Asif Məhərrəmovun (Fred Asif - B.S.) özünümüdafiə batalyonu;

Yaqub Rzayevin (Qatır Məmməd) özünümüdafiə batalyonu;

Ərşad Nadirovun "Kötəl" batalyonu;

Ədalət Zeynalovun "Qıyaslı" batalyonu;

Həsən Sarıyevin komandiri olduğu Papravənd rotası və başqaları uzun müddət Ağdamın müdafiəsində dayandılar.

Lakin düşmənin nizami ordu hissələrinin mövcudluğu, daha üstün silahlar və texnika ilə təmin edilmələri, AXC-Müsavat cütlüyünün ölkəni Vətəndaş müharibəsinə sürükləməsi, igid oğulların və batalyonların vahid ordu şəklində birləşdirilməməsi öz acınacaqlı nəticəsini verdi.

Göstərilən kütləvi qəhrəmanlıqlara, verilən çoxsaylı şəhidlərə baxmayaraq, Ağdamı qoruyub saxlamaq mümkün olmadı!

Batalyon komandirlərinin bir qismi isə xəyanət əməlləri nəticəsində şəhid oldu! Qeyd edək ki, Qarabağ müharibəsi dövründə ölkə üzrə verilən iyirmi min şəhidin altı minə yaxını Ağdamın payına düşür.

Ölkədəki hərki-hərkilik və sahibsizlik üzündən çəkilən bütün əziyyətlərə, verilən qurbanlara baxmayaraq, müharibədə mühüm strateji mövqeyə malik Ağdam düşmənin əlinə keçdi və beləliklə, 27 illik ayrılıq, həsrət, torpaq dərdi qövr etməyə başladı.

Havadarlarının köməyi ilə hücuma keçən düşmən 23 iyul 1993-cü ildə Ağdamı ələ keçirdi.

Həmin vaxtlarda yazdığım və "Azərbaycan" qəzetinin 28 iyul 1993-cü il tarixli nömrəsində dərc olunmuş "Müharibə ya qeyrətlə udular, ya siyasətlə" adlı yazımdan bir parçanı xatırladıram:

- Düşmən Ağdama çoxdan dişini qıcatmışdı. Lakin beşillik müharibə dövründə Ağdamın qazandığı təcrübə, coğrafi mövqeyi elə idi ki, onu digər rayonlar kimi "bir həmləyə almaq" olmazdı. Həm də Ağdam Qarabağ uğrunda (əslində isə, "Böyük Ermənistan"ın yaradılması yolunda) müharibədə sonuncu və həlledici nöqtə olduğundan məqam gözləmək, geniş hazırlıq görmək lazım idi. Şuşa, Laçın, Kəlbəcər alınandan, Ağdərə qaytarılandan sonra növbə Ağdama çatmışdı. "Gəncə əməliyyatı" nəticəsində (Surət Hüseynovun məlum qiyamı - B.S.) respublikada yaranan gərgin vəziyyət isə əsl məqam idi.

Ermənistan Rusiyadan aldığı bütün silahı və zirehli texnikanı, habelə güclü təlim keçmiş külli miqdarda canlı qüvvəni Ağdamın üzərinə göndərmiş, hücum əməliyyatı diqqətlə hazırlanmışdı. "Gəncə əməliyyatı" ərəfəsində döyüş texnikası və canlı qüvvənin Gəncəyə və Bakıya göndərilməsindən istifadə edən düşmən mühüm strateji yüksəklikləri ələ keçirərək orada möhkəmlənmişdi. 24 kənd alındıqdan sonra mühasirə vəziyyətinə düşən Ağdam şəhərinin müdafiəçiləri qaçmaq və təslim olmaq niyyətində deyildilər. Ağdam 40 gün döyüşdü, 40 gün müdafiə olundu. Şəhərə saysız-hesabsız top və "Qrad" mərmiləri yağdırılsa da, müxtəlif növ silahlardan fasiləsiz atəşə tutulsa da, hətta dinc sakinlər oranı tərk etmir, kömək gələcəyinə, Ağdamın saxlanılacağına ümidlərini itirmirdilər! Heyhat! Rafaellinin (ATƏT-in o zaman fəaliyyətdə olan sədri - B.S.) gəlib-getməsi də ermənini ağıllandırmadı!

Ağdamın da düşmən əlinə keçməsi, yandırılıb-dağıdılması "bizim apardığımız" müharibənin qanuni və məntiqi yekunudur.

Müharibə ya qeyrətlə udular, ya siyasətlə!

❖❖❖

Biz Ağdamdan çıxanda abad şəhər, kənd və qəsəbələr, işlək vəziyyətdə olan fabrik, zavod, müəssisələr, barlı-bəhərli bağlar, üzüm plantasiyaları, içi zəruri əşyalarla dolu evlər, mənzillər qoymuşduq.

İndi isə xarabalıqlara, dağıdılıb viranə qalmış, bayquşlar ulayan məkana qayıtdıq.

Ağdamın erməni faşistləri tərəfindən xarabazara çevrildiyini bilirdim. Arasıra sosial şəbəkələrə sızan şəkil və video çəkilişlərini görmüşdüm. Dostlarımın, qohumlarımın Google vasitəsilə Ağdamdakı xaraba qoyulmuş evlərini tapıb baxdıqlarından da xəbərdardım. Dəfələrlə mənə internet vasitəsilə ruhlar şəhərinə çevrilmiş Ağdama baxmağı tövsiyə də etmişdilər. Amma heç vaxt ürəyim gəlməmişdi, baxa bilməmişdim və baxmırdım! Düşünürdüm ki, düşmən nə etməlidir, xüsusən faşist xislətli düşmən?! Həm də istəyirdim ki, Ağdam yadımda əvvəlkitək, abad, yaraşıqlı, döyüşkən, yağıya toy tutan şəhər kimi qalsın!

❖❖❖

Erməni hər şeyi öz xislətinə, murdar mahiyyətinə uyğun dəyişmişdir.

Bizə heç zaman unutmayacağımız və unudulması mümkün olmayan yaralar vurub qaçmışdır.

Bəli, biz güclü, arxalı-köməkli düşmən qarşısında doğma yurd-yuvamızı məcburən tərk etmişdik.

O dövrün ən varlı, ən abad yaşayış məntəqələrindən sayılan Ağdamı boşaltmışdıq.

Çünki zəif idik - nə ordumuz vardı, nə rəhbərimiz, nə də sərkərdəmiz!

İndi isə cənab İlham Əliyevin simasında məğrur sərkərdə və müdrik rəhbəri olan qüdrətli ordu ilə geri qayıtdıq!

Dağıdılmış, xarabalıqlara çevrilmiş, tanınmaz vəziyyətə düşmüş Ağdama qədəm qoyduq!

Düşmən arxasına baxmadan qaçırdı!

Çünki onu İlham Əliyev Qarabağdan iti qovan kimi qovurdu!

❖❖❖

Uzunsürən ayrılıqdan, doğma el-oba həsrətindən sonra, nəhayət, biz Ağdama qayıtdıq!

Əsl həqiqət budur ki, bizi Ali Baş Komandan İlham Əliyev Ağdama qaytardı!

Açıq desək, çoxumuz "Biz tezliklə doğma yurda qayıdacağıq" söyləsək də, əslində, qayıdışa ümidimizi tamamilə üzmüşdük.

Bu, İlham Əliyev möcüzəsi oldu!

Həm də bu möcüzəni Prezidentimiz ölkəyə rəhbərlik etdiyi 17 ildə yaratmış, bizi qələbəyə, qayıdışa addım-addım yaxınlaşdırmışdı!

Həmin möcüzəli addımlar hansılardır:

Dövlətin gücü onun büdcəsi, maliyyə imkanları ilə ölçülür.

* Ən əvvəl, İlham Əliyev uğurlu daxili və xarici siyasəti, həyat vəsiqəsi verdiyi transmilli layihələri hesabına Azərbaycana çoxlu pul qazandırdı.
* Elə həmin siyasətlə də dostlarımızın, sıx əməkdaşlıq etdiyimiz ölkələrin sayını artırdı.
* Güclü ordu qurdu, qazanılan vəsait və dostlar hesabına Azərbaycan Ordusunu ən yeni silahlarla təchiz etdi.
* Ordumuz ən yeni, hədəfi dəqiq vuran silahlarla, müasir taktiki variantlardan istifadə etməklə hərbi əməliyyatlar aparmağı da öyrəndi.
* Ermənistanın küçədən hakimiyyətə gəlmiş baş naziri Paşinyanın naşı hərəkətlərindən, məsuliyyətsiz bəyanatlarından onun öz əleyhinə məharətlə istifadə etdi.
* Beynəlxalq qurum və təşkilatlarla sıx və səmərəli əməkdaşlıq etdi, BMT-nin tribunasından bacarıqla bəhrələndi.
* Qabaqcadan informasiya müharibəsinə hazırlaşaraq bu sahədəki uğuru da təmin etdi.
* Şəxsən özü dünya informasiya məkanında Azərbaycanın haqq işinin təbliği və Paşinyanın ifşası ilə bağlı intensiv və səmərəli fəaliyyət göstərdi.
* Ənənəvi müttəfiqlərinin Ermənistanı açıq-aşkar dəstəkləməsinin, kömək göstərməsinin qarşısını irəlicədən aldı.
* Türkiyə və Azərbaycan dostluğunu, qardaşlığını indiyədək olmamış səviyyəyə yüksəltdi.
* İldırımsürətli əks-hücum əməliyyatı ilə düşməni tar-mar etdi!

Beləliklə, Prezident İlham Əliyev Azərbaycan tarixinin yeni, ən şərəfli səhifəsini yazdı!

❖❖❖

Ağdam aran Qarabağın qapısıdır.

Bu qapı həm də Dağlıq Qarabağa açılır.

Ağdamın geri qaytarılması müharibənin həlledici mərhələsi, strateji uğurudur!

Qarabağa qayıdışın, torpaqların işğaldan azad edilməsinin banisi və müəllifi isə məhz cənab İlham Əliyevdir!

Qədirbilən xalqımız bunu heç zaman unutmayacaq!

Ümidləri çiçəkləndirdiyinə, doğma yurda dönüşü təmin etdiyinə görə ağdamlılar da Ali Baş Komandana qəlbən minnətdardırlar!

Səni min yaşa, Ali Baş Komandanım!

Qələbən mübarək, mənim Prezidentim!

Gözün aydın, Azərbaycanım!

Qarabağ Azərbaycandır!

***"Azərbaycan" qəzeti,***
***21 noyabr 2020-ci il***

# Sənə minnətdarıq, Ali Baş Komandanımız!

**Yenə də dediyini etdin, mənim Prezidentim!**
**Sözünün sahibi olduğunu bir daha təsdiqlədin!**
**Azərbaycan tarixində itirilmiş torpaqları qaytaran ilk sərkərdə oldun!**
**Vətənin ərazi bütövlüyünü bərpa etdin!**
**Xalqımızın ən böyük arzusunu gerçəkləşdirdin!**
**Düşmənləri xar edib, dostlarımızı sevindirdin!**
**Bizi qalib xalqa, qalib dövlətə çevirdin!**
**Bütün bunlara görə Sənə minnətdarıq, Ali Baş Komandanımız!**

❖❖❖

Düşmən sülhə gəlmirdi!

Həqiqət ayaqlar altına salınaraq tapdalanırdı!

Beynəlxalq qurum və təşkilatlar susqunluq, fəaliyyətsizlik göstərirdilər.

Erməni diasporunun maliyyəsindən bəhrələnənlər haqqı qoyub, nahaqqı müdafiə edirdilər!

Doğma el-obasından məcburən ayrı düşmüş Azərbaycan vətəndaşları isə mənəvi iztirab çəkirdilər!

Alçaq düşmən də bizə yanıq verirdi.

Ermənistanın yeni rəhbərliyi gah Şuşada qondarma quruma inauqurasiya mərasimi keçirir, gah "yeni torpaqlar uğrunda yeni müharibə" hədə-qorxusu gəlir, gah da "Qarabağ Ermənistandır" söyləyərək özlərini həyasız, qudurğan aparırdılar!

Endirdiyin dəqiq zərbələrlə yolunu azmışlara yerini göstərdin!

Bütün bunlara son qoyduğuna görə Sənə minnətdarıq, Ali Baş Komandanımız!

❖❖❖

Qudurmuşlara və arxalı köpəklərə divan tutdun!

Dünyaya XXI əsrin ən yeni müharibəsinin nümunəsini göstərdin!

Yağının otuzillik müdafiə mövqelərini, dostları ilə bərabər tikdiyi bunkerlərini, beton səngərlərini darmadağın edərək düşmənin canına vahimə saldın!

Azərbaycan Ordusunun qüdrətli həmlələri ilə lovğa düşmən əsgərlərini kütləvi fərarilərə çevirdin!

Hələ bu harasıdır, düşməni öz əsgərini postlarda zəncirləməyə vadar etdin!
İşğalçı ermənilәri ölkəmizdən iti qovan kimi qovdun!
Bu hünərinə görə Sənə minnətdarıq, Ali Baş Komandanımız!

❖❖❖

Müdrikliyinizə heyranıq!
Uzaqgörənliyinizə heyranıq!
İradənizə heyranıq!
Qətiyyətinizə heyranıq!
Hünərinizə heyranıq!
Siyasətinizə heyranıq!
Gücünüzə və qüdrətinizə heyranıq!
Bu heyranlığı, bu məhəbbəti özün qazanmısan, öz əməlinlə!
Azərbaycan naminə və Azərbaycan üçün gördüyün işlərinlə!
Xalqın maraqlarını daim və dönmədən müdafiə etməyinlə!
Həmişə Azərbaycanı bax belə ucalt!
Özün də daim ucal, mənim Prezidentim!

❖❖❖

Xalqının yüksək etimadı ilə bu vəzifəyə qədəm qoyduğun gündən gərgin fəaliyyətinlə, atdığın addımlarla qürur ünvanına çevrilmisən, millətə və dövlətə başucalığı gətirmisən:

BMT Təhlükəsizlik Şurasının sədri oldun, fəxr etdik!
Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etdin, fəxr etdik!
Qoşulmama Hərəkatına sədr seçildin, fəxr etdik!
Dünyanın ən nüfuzlu qurum və təşkilatlarının möhtəşəm tədbirlərində sinədəftər parlaq nitqlər söylədin, fəxr etdik!
Düşünülmüş siyasətinlə, zəka və fəaliyyətinlə müstəqil Azərbaycanımıza nüfuz, hörmət gətirdin, fəxr etdik!
Bütün bunlara görə də çox sağ ol, mənim müdrik Prezidentim!

❖❖❖

Məcburi köçkünlərin arzusunu yerinə yetirdin!
Yurda həsrət qalan insanların arzusunu yerinə yetirdin!
Şəhid analarının arzusunu yerinə yetirdin!
Azərbaycan gənclərinin arzusunu yerinə yetirdin!
Bütün Azərbaycan xalqının ən böyük arzusunu və istəyini yerinə yetirdin!
Var ol, yaşa, həmişə arzularımızı çin et, mənim Ali Baş Komandanım!

❖❖❖

Xocalı soyqırımının qisasını aldın!

Dağıdılmış, viran qoyulmuş yurdlarımızın qisasını aldın!

Təhqir olunmuş məscidlərimizin qisasını aldın!

Yer üzündən silinmiş tarixi, mədəni abidələrimizin qisasını aldın!

Şəhid edilmiş oğullarımızın qisasını aldın!

Yetim qalmış uşaqların, toy xonçasına qara bağlanmış qızlarımızın qisasını aldın!

Birinci Qarabağ müharibəsi şəhidlərinin, qazilərinin qisasını aldın!

HƏM DƏ:

Bizə həqarətlə yanaşanları yerləyeksan etdin!

Diz çökdürərək ona-buna yalvartdın, başqalarının dabanını yalatdırdın!

Qudurmuş düşmənə dediyini yedirdərək Azərbaycanla hesablaşmağa vadar etdin!

Buna görə də Sənə minnətdarıq, Ali Baş Komandanımız!

❖❖❖

Daha heç kim bizə torpaqlarını itirən və onu qaytara bilməyən xalq kimi baxmayacaq!

Daha heç kim bizə məcburi köçkün deməyəcək!

Daha heç kim bizi məğlub hesab etməyəcək!

Daha heç kim bizi qorxaq saymayacaq!

Daha heç vaxt doğma el-obaya uzaqdan həsrətlə baxmayacağıq!

Bütün bu mənəvi iztirablara son qoyduğuna, millətin ləyaqət hissini özünə qaytardığına görə sənə minnətdarıq, mənim müdrik, şanlı Prezidentim!

İkinci Qarabağ müharibəsinin əsl baş qəhrəmanı Sənsən, əziz Prezidentim!

Azərbaycanın üzünü ağ edən Prezidentim!

Müvəqqəti məğlubiyyəti əbədi Qələbəyə çevirən Ali Baş Komandanım!

***“Azərbaycan” qəzeti,***
***24 noyabr 2020-ci il***

# İlham Əliyev hünəri

**Nə böyük xoşbəxtlikdir İlham Əliyev kimi möhkəm iradəli, qətiyyətli, uzaqgörən, müdrik və cəsarətli Prezidentin rəhbərlik etdiyi ölkədə yaşamaq!**
**Fəxr edirik ki, vədinə sadiq, əməlində düz, dediyini edən Prezidentimiz var!**
**İlham Əliyev dövlət başçısı seçildiyi gündən indiyədək verdiyi bütün sözləri ləyaqətlə yerinə yetirib!**

Demişdi ki, bir qarış torpağımızı belə düşmənə güzəştə getməyəcəyik!

Demişdi ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik!

Demişdi ki, məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdacaqlar!

Demişdi ki, "Qarabağ Azərbaycandır!"

Dediklərinin hamısını etdi!

Cəsarətlə!

Hünərlə!

Şücaətlə!

Özünəməxsus qəhrəmanlıqla!

Bəli, cənab İlham Əliyev xüsusi hünər sahibidir!

❖❖❖

İlham Əliyev hər bir azərbaycanlıya, hər bir azərbaycansevərə sonsuz fərəh və xoşbəxtlik sevincini gətirən bu zəfərə bizi inadla, ardıcıllıqla, düşünülmüş və hesablanmış siyasət yeritməklə, addımlar atmaqla gətirdi!

Səbirlə, dönmədən, dayanmadan, ən çətin maneə və əngəlləri dəf edə-edə gətirdi!

Azərbaycanı ucaltmaqla, dünyada tanınıb söz sahibinə çevirməklə, dünya ictimaiyyətini xalqımızın haqq işinə inandırmaqla gətirdi!

Ən nəhayət, özü də ucalaraq, müasir dünyanın tanınmış, ən mötəbər qurumlarına uğurla sədrlik etməyi bacaran dünya miqyaslı siyasi liderə çevrilməklə gətirdi!

❖❖❖

Azərbaycan ilk dəfə 1918-ci ildə - müstəqillik yoluna qədəm qoyduğu gündən torpaq itkisinə məruz qalıb!

Öz dövlətini yaratmaq xatirinə kənardan gələn özgə millətlərə "torpaq payı" verməli olub!

“Arxalı köpək qurd basar” - demişlər!

Köpəyin qudurmuşu isə daha pis olur!

Çörək verənini, qapısında saxlayanını dalamağa başlayır.

Torpaqlarımız hesabına özünə dövlət quran xain xislətli ermənilərin iştahası getdikcə artırdı. Sovet hakimiyyəti simasında özünə yeni ağa taparaq 1948-1953-cü illərdə minlərlə azərbaycanlını dədə-baba torpaqlarından çıxarmaqla qədim ərazilərimizin daha bir hissəsini ələ keçirdilər.

İkinci dəfə dövlət müstəqilliyi qazanılanda - ötən əsrin doxsanıncı illərinin əvvəllərindən Azərbaycana maymaq, qətiyyətsiz, təcrübəsiz və səriştəsiz insanlar başçılıq etməyə başlayanda əllərinə yeni fürsət düşdü.

Havadarlarına güvənərək qısa müddətdə Dağlıq Qarabağı və ətrafındakı daha yeddi rayonu işğal etdilər.

Sonra 27 il işğal dövrü davam etdi...

Həmin 27 il mənasız danışıqlar, atəşkəsin vaxtaşırı pozulması, şəhidlər verilməsi və bütün bunların səbəbkarı olan erməni həyasızlığı və ikili standartlarla yadda qaldı...

Bu 27 ilin 17 ili cənab İlham Əliyevin Prezidentliyi dövrünə düşür.

Əslində, hadisələrin gedişi, tarixin gərdişi torpaqların azadlığı missiyasını da cənab İlham Əliyevin üzərinə qoymuş oldu!

Məlum səbəblərdən itirdiyimiz torpaqları geri qaytarmaq axan çayı tərsinə axıtmaqdan daha çətin idi...

Amma İlham Əliyev bunu bacardı!

Özünün polad iradəsi, uzaqgörən siyasəti, yorulmadan çalışması, düşünülmüş və hesablanmış addımları, cəsarətli və qətiyyətli fəaliyyəti ilə reallaşdırdı!

Sözün həqiqi mənasında, böyük hünər, qəhrəmanlıq göstərdi!

Həmin on yeddi il ərzində gördüyü işləri, həyata keçirdiyi tədbirləri son nəticədə bu məqsədin gerçəkləşdirilməsinə müvəffəqiyyətlə yönləndirdi!

Düşmənin özxoşuna, sülh danışıqları yolu ilə torpaqları geri qaytarmayacağı bəlli idi.

MÜHARİBƏ ÜÇÜN İSƏ:

* güclü dövlət və güclü iqtisadiyyat;

* fəal və çevik diplomatiya;

* beynəlxalq qurum və təşkilatlarla səmərəli iş tələb edirdi;

ÜSTƏLİK:

* dünyanın aparıcı dövlətlərinin maraqları ilə Azərbaycanın maraqlarının uyğunlaşdırılmasını;
* Ermənistanı açıq-aşkar müdafiə edən dövlətlərin zərərsizləşdirilməsini;
* düşmənin səhvlərinin özünə qarşı yönəldilməsini;
* ölkəmizin dostlarının, haqq işimizi müdafiə edənlərin sayının artırılmasını;
* ən nəhayət, güclü və modern ordu yaradılmasını şərtləndirirdi!

İlham Əliyev bu vəzifələrin öhdəsindən böyük məharətlə gəldi!

Ancaq Ali Baş Komandanımız torpaqların azad edilməsini hərbi müstəviyə keçirməyə tələsmirdi.

Paşinyanın Ermənistan rəhbərliyinə gəlişi ilə daha da həyasızlaşan düşmən artıq həqarətə, açıq şəkildə danışıqlar prosesini pozmağa başlamışdı.

Əslində, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" - deməklə torpaqları işğaldan azad etmək niyyətində olmadıqlarını nümayiş etdirdi.

Cənab İlham Əliyev yenə səbir və təmkin göstərdi, dəfələrlə BMT-yə, ATƏT-ə, münaqişənin sülh yolu ilə həllinə kömək edə biləcək qurum və təşkilatlara müraciət etdi.

Faydası olmadı!

Bu dəfə Ali Baş Komandanımız yeni ərazilərimizi ələ keçirmək niyyəti ilə təmas xəttində və sərhədimizdə təxribatlara əl atan düşmənə Azərbaycan Ordusunun gücü ilə 2 dəfə - 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda Tovuz istiqamətindəki döyüşlərdə dərs verdi.

Amma Ermənistan həmin dərslərdən nəticə çıxarmadı!

Növbəti təxribatda isə Ali Baş Komandanımız "irəli" əmrini verdi!

❖❖❖

Bu gün İlham Əliyev öz əli ilə dünyada əllinci, MDB məkanında isə ikinci sayılan bir ordu yaradıb!

Müasir, modern, güclü ordu!

Ordunu ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırıb.

Yüksək təhsilli, peşəkar, öz işini dərindən bilən zabit heyəti və vətənpərvər əsgərlərlə komplektləşdirib.

Orduda yüksək vətənpərvərlik və döyüş ruhu yaradıb.

Bu ordu əks-hücuma başlayanda heç kim onun bu qədər uğurlu və müasir əməliyyatlar keçirə biləcəyini güman etmirdi.



**Cəbrayıl rayonu.** 17 noyabr 2020-ci il



**Cəbrayıl rayonu.** 17 noyabr 2020-ci il



**Cəbrayıl rayonu.** 17 noyabr 2020-ci il



**Cəbrayıl rayonu.** 17 noyabr 2020-ci il




**Fizuli rayonu.** 17 noyabr 2020-ci il



**Füzuli rayonu.** 17 noyabr 2020-ci il



**Füzuli rayonu.** 17 noyabr 2020-ci il



**Ağdam rayonu.** 24 noyabr 2020-ci il




**Ağdam rayonu.** 24 noyabr 2020-ci il



**Ağdam rayonu.** 24 noyabr 2020-ci il



**Ağdam rayonu.** 24 noyabr 2020-ci il



**Ağdam rayonu.** 24 noyabr 2020-ci il



**Ağdam rayonu.** 24 noyabr 2020-ci il



**Ağdam rayonu.** 24 noyabr 2020-ci il

Bəli, Azərbaycan əsgəri düşmənin ən uzaq və əlçatmaz mövqelərinə belə dəqiq, dağıdıcı zərbələr endirir, atəş nöqtələrini və istehkamlarını yerləyeksan edirdi!

Düşmən göydən başına yağan od-alov qarşısında bayrağını, döyüş texnikasını, sursatını ataraq vahimə içində qaçırdı.

İnformasiya müharibəsində də cənab İlham Əliyev hamıdan öndə gedirdi, bu cəbhənin də bütün ağırlığını öz üzərinə götürmüşdü.

Hərbi əməliyyatların davam etdiyi dövrdə bütün dünyaya yayımlanan ən məşhur televiziya kanallarına Azərbaycanın haqq işini, ədalətli mübarizəsini əks etdirən müsahibələr verir, əsl həqiqətləri söyləyirdi.

Xalqımıza atılan böhtanları, deyilən yalanları ifşa edir, Ermənistanın faşist xislətini konkret faktlarla göstərirdi!

Azərbaycanı öz maraqları naminə günahkar çıxarmaq istəyənləri, bu mübarizənin və müharibənin mahiyyətini təhrif etməyə can atanları qətiyyətlə yerində oturdurdu!

Çoxdan həsrətlə gözlədiyimiz qələbə müjdələrini də məhz Prezident İlham Əliyevin dilindən eşidir, onun "Twitter" səhifələrindən oxuyurduq.

Cənab İlham Əliyevin xalqa müraciətləri, hər bir çıxışı hər birimizin ürəyindən xəbər verir, yüksək emosionallığı, hədəfi vuran fikirləri, üslub və intonasiyası ilə ruhumuza su səpir, ürəyimizdən tikan çıxarırdı.

İlham Əliyevin belə çıxış və müraciətləri orduya yeni güc və qüvvət, xalqa böyük ruh yüksəkliyi və əminlik bəxş edirdi.

Eyni vaxtda üç cəbhədə döyüşmək, üç istiqamətdə çarpışmaq və hər üçündə də uğur və müvəffəqiyyət qazanmaq hər rəhbərə və sərkərdəyə nəsib olmayan hünərdir!

Vətənpərvər insanlara xas olan hünər!

❖❖❖

İlham Əliyev indiyədək beynəlxalq aləmdə yaradılmağa cəhd göstərilən bir sıra stereotipləri də darmadağın etdi.

Ermənipərəst qüvvələr və erməniləri müdafiə edənlər sübut etməyə çalışırdılar ki, münaqişənin hərbi yolla həlli variantı yoxdur!

Ali Baş Komandan İlham Əliyev isə Azərbaycan xalqının Vətən müharibəsində sübuta yetirdi ki, münaqişə, əslində, hərbi yolla daha sürətlə həll oluna bilərmiş!

O halda sülh yolu məqbul olardı ki, Ermənistan silahlandırılmasın, müxtəlif üsul və vasitələrlə müdafiə olunmasın, torpaqları işğalda saxlamaqda ona açıq və gizli dəstəklər verilməsin!

Ermənilərlə təkbətək döyüşən Azərbaycan çox qısa müddətdə və böyük şücaətlə 30 ildə ATƏT-in yarada bilmədiyi sülhə şərait yaratdı və boşalda bilmədiyi torpaqları boşaltdı!

Bu isə İlham Əliyevin diplomatik məharəti və müharibə aparmaq bacarığı sayəsində mümkün oldu!

İlham Əliyev tarixin qarşıya qoyduğu vəzifəni yerinə yetirdi!

İlham Əliyev haqqı-ədaləti bərpa etdi!

İlham Əliyev Azərbaycan xalqına şərəfli anlar, şərəfli dəqiqələr, şərəfli günlər yaşatdı!

EYNİ ZAMANDA:

İlham Əliyev ATƏT-in Minsk qrupunun 30 ildə görə bilmədiyi işləri çox qısa müddətdə gördü.

İlham Əliyev BMT-nin 4 qətnaməsini təkbaşına, uğurla icra etdi.

İlham Əliyev 30 illik söz-söhbətə, qalaq-qalaq icrasız qalan sənədlərə, standart açıqlamalara, boş və mənasız görüşlərə, erməni tirpaşlığına bir həmlə ilə son qoydu!

Erməni işğalçılarını Azərbaycandan iti qovan kimi qovdu!

İlham Əliyev hünəri bax budur!

İlham Əliyev həm də Ulu Öndərimizin "Mən ona özüm qədər inanıram və əminəm ki, mənim sona çatdıra bilmədiyim işləri o, uğurla başa çatdıracaqdır" sözlərini, xalqımızın etimad və etibarını tamamilə doğrultdu!

EŞQ OLSUN HÜNƏRVƏR, QƏHRƏMAN ALİ BAŞ KOMANDANIMIZA!

QARABAĞ BİZİMDİR!

QARABAĞ AZƏRBAYCANDIR!

***"Azərbaycan" qəzeti,***
***27 noyabr 2020-ci il***

# Dəmir yumruq

*"Hər kəs bizim gücümüzü gördü,*
*hər kəs bizim dəmir yumruğumuz nədir, anladı".*
**İlham ƏLİYEV**

**Qədim Azərbaycan atalar sözüdür:**
**"Dua oxumaqla donuz darıdan çıxmaz!"**
**Görünür, müdrik babalarımız bu sözü ermənilərə baxaraq yaradıblar.**
**Çünki son 27 ildə bu qudurmuş millətin simasında onun təsdiqinin dönə-dönə şahidi olduq:**
**Ermənilər "sülh danışıqları yolu ilə" - yəni ATƏT-in oxuduğu "dualarla" işğal etdikləri Azərbaycan ərazilərindən çıxmadılar!**
**Onları Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu çıxardı.**
**Deməli, yumruq "dua"dan təsirli imiş!**

***

Əgər kimsə düşünürsə ki, yumruq yalnız zorakılıq əlamətidir, ciddi səhv edir!
Yumruq həm də təsirli tərbiyə vasitəsidir!
Çünki yolunu azmış adamları ağıllandıra bilir!
Necə deyərlər:
* Qanmazı qandırır!
* Anlamazı başa salır!
* İslaholunmazı düz yola qaytarır!
* Bir sözlə, dəyişməzi dəyişir!

Amma baxır adamına.
Atalar həm də deyib ki, yüyürən at qamçı yeməz!
Paşinyan kimilərini isə yalnız yumruqla başa salmaq mümkündür!
Özü də adi yumruqla yox!
Dəmir yumruqla!

❖❖❖

Dəmir yumruq beş barmaqla yaranır və hər barmağın öz mənası var.
* Baş barmaq rəhbərin müdrikliyinin və uzaqgörənliyinin, zəka və bacarığının, habelə iradə, qətiyyət və mənəvi gücünün göstəricisidir!

Sonrakı barmaqlar isə:

* Dövlətin iqtisadi və siyasi müstəqilliyini, dayanıqlığını;
* Dünya diplomatiyasında yerini və nüfuzunu, çəkisini;
* Ordunun gücünü, silahlanmasının müasirliyini və keyfiyyətini, eyni zamanda əsgər və zabitlərinin peşəkarlığını və qəhrəmanlığını, cəsarət və şücaətini;
* Ən nəhayət, iqtidarla xalqın vəhdətini, milli birliyi və həmrəyliyi əks etdirir.

Bunların beşi də mövcud olmadan, bir əldə qərar tutmadan yumruğun dəmirə çevrilməsi çətindir!

* Daha bir vacib məqam isə yumruğun ustalıqla işlədilməsi, düşmənin kəlləsinə zamanında və dəqiqliklə çırpılmasıdır!

Çünki zamanında və yerində tutuzdurulan yumruq birə-yüz effekt verir!

Onun "dadını" dadanlar ömürləri boyu unutmurlar!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu vədəsində və anında Paşinyanın başını əzərək onu rəzil, miskin günə saldı!

Azərbaycan qarşısında diz çökdürdü!

Ona-buna yalvarmaqdan, daban yalamaqdan bir şey çıxmadığını görən erməni baş nazir kapitulyasiya sənədinə qol çəkdi!

* Bu yumruq Ermənistan ordusunu darmadağın etdi.

Artıq düşmənin öz etirafına görə ordusunun 80 faizi yoxdur!

* Bu yumruğun qorxusundan Ermənistanın keçmiş prezidentləri R.Köçəryan və S.Sarkisyan hərbi əməliyyatlar zamanı qorxularından üzə çıxa bilmədilər!
* Həmin yumruğun zərbindən Qarabağ müharibəsinin "erməni qəhrəmanları"nın aldıqları torpaqlar da geri qaytarıldı, orduları isə fərarilər və qorxaqlar yığnağına çevrildi!
* Bu yumruğun qorxusundan Paşinyan özünün yeddi şərtini unudaraq Azərbaycanın bir şərtinə - rədd olub getmə şərtinə yalvara-yalvara razı oldu!

Çünki bilirdi ki, hərbi əməliyyatlar dayanmasa, dəmir yumruğun sahibi onu ordusuz və Xankəndisiz qoyacaq!

* Bu yumruğun zərbindən Ermənistan iqtisadiyyatı elə günə düşüb ki, çətin bir daha özünə gələ.

Çətin ki, Paşinyan və onun dəstəsi bu yumruğu unuda!

Çətin ki, dünya erməniliyi bu yumruğu unuda!

Çətin ki, Ermənistan ordusu, onun yalançı generalları və saxta "qəhrəmanları" bu yumruğu unuda!

Bu dəmir yumruğun dadını dadanlar bir də Azərbaycana xain nəzərlərlə baxıb bizdən torpaq və status uma bilməyəcəklər!

❖❖❖

Dəmir yumruğun bir hikməti də var:
Dəmir yumruq təkcə əzmir, qandırmır!
Dəmir yumruq həm də tarix yazır, tarix yaradır!
* Zəfərlər tarixi!
* Qələbələr tarixi!
* Hünər tarixi!
* Xilaskarlıq tarixi!
* Ən əsası isə, millətin şərəf tarixini!
Eşq olsun bu yumruğa!
Eşq olsun onun sahibinə!

❖❖❖

Yumruq sahibi dəmir yumruğunun gücünü və hikmətini xalqa belə açıqlayıb: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq!"

❖❖❖

Qarabağ uğrunda zəfər müharibəsi faktiki olaraq başa çatıb!

İndi Azərbaycan xalqı müzəffər Ali Baş Komandan ilə şanlı qələbəsini qeyd edir.

Şübhə etmirik ki, müharibələr tarixində kütləvi şücaət və qəhrəmanlığına görə Şuşanın alınma əməliyyatı dünya hərb tarixində özünəxas yer tutacaqdır!

Yəqin ki, qədim Şuşada Azərbaycan əsgərinə gözəl bir abidə də ucaldılacaq!

Eyni zamanda Şuşanın ən hündür qayalarından birində "Dəmir yumruq" abidəsi də qoyulacaq!

Hər dəfə Ermənistandan Qarabağa sarı boylanan ermənilər dəmir yumruğu görəndə özlərini yığışdıracaq, ağıllarını başlarına yığacaqlar!

Başqa yolları yoxdur!

Dəmir yumruqlu Azərbaycanla, onun qalib sərkərdəsi ilə daim hesablaşmaq lazımdır!

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

***"Azərbaycan" qəzeti,***
***29 noyabr 2020-ci il***

# Kimdir günahkar?!

*Birinci Qarabağ müharibəsindən*
*Vətən müharibəsinədək keçilən yola nəzər*

**Sanki hər şey 30 il əvvəlki kimidir:**
*** Xalq həmin xalq;**
*** Torpaq həmin torpaq;**
*** Düşmən həmin düşmən;**
*** Havadarları və diasporu olduğu kimi qalır;**
*** İddialar və əməllər dəyişməyib.**

Əslində isə, hər şey tam dəyişərək bambaşqa olub.

* Xalq həmin olsa da, düşüncəsi və əhvali-ruhiyyəsi dəyişib, gördükləri və yaşadıqları onu 360 dərəcə çevirərək yetkinləşdirib.
* Torpaq onda bizim idi, qurulu evlər, xoş və firavan yaşayış vardı.

İndi isə torpağı qaytarmışıq: xaraba yaşayış məntəqələri, minalanmış sahələr, təhqir edilərək dağıdılmış müqəddəs məbədgahlar yiyəsi olmuşuq.

* Dəyişməyən düşməndir: faşist xislətli, yaşadığı yerləri xarabazara çevirən, öz tutduğu əraziləri xoşluqla boşaltmaq istəməyən.
* Yenə Ermənistan silahlandırılır, gizli, dolayısı və açıq şəkildə müdafiə olunur, beynəlxalq hüquq işləmir, ikili standartlar hökm sürür, erməni diasporu dəridən-qabıqdan çıxır.
* Kapitulyasiya sənədinə qol çəkib işğal ərazilərini tərk edərək evləri və meşələri yandırır, mal-qaranı qırır, havadarlarının yaxasını buraxmır, statusu qaytarmaq üçün məkrli planlar qurur, Laçın, Kəlbəcər və Şuşanın "itirilməsi ilə" heç cürə barışmaq istəmir, düşmənçilik və qisasçılıq niyyətindən əl çəkmir.

❖❖❖

Dağlıq Qarabağ münaqişəsi davam edən dövrdə:

* 20 mindən çox Vətən övladını şəhid vermişik.
* 100 trilyon dollardan çox zərərə düşmüşük.
* 1 milyondan çox vətəndaşımız 30 ildən çox maddi və mənəvi əziyyət çəkib, bəziləri illərlə qeyri-insani şəraitdə yaşayıb, minlərlə azərbaycanlı dünyanı vaxtından əvvəl tərk edib.

* On illərlə müddətdə "torpağını itirmiş qorxaq millət" damğası ilə gəzmiş, sıxılmış, sınmış, gözükölgəli olmuşuq...

İstər-istəməz özünə sual verirsən:

Bütün bunlar niyə baş verdi?

Fəlakətdən vaxtında qurtarmaq olardımı?

Ən nəhayət, kimdir müqəssir?

Həm də:

* Biz heç zaman ermənidən qorxmamışıq, təkbətək döyüşlərdə həmişə onları məğlub etmişik.
* Erməni hücuma keçən kimi kəndləri boşaldıb qaçmamışıq, Xocalı soyqırımı da göstərir ki, sona qədər müqavimət göstərmişik.
* Vətən müharibəsindəki qələbəmiz isə bütün dünyaya göstərdi ki, biz ən yüksək səviyyədə müharibə aparmağı da, əlbəyaxa döyüşlərdə düşməni məhv etməyi də, ermənini diz çökdürərək təslim sənədinə qol çəkdirməyi də bacarırıq.

❖❖❖

Nə vaxtlarsa jurnalistləri kəşfiyyatçılara bənzədirdilər.

Hadisələri başqalarına nisbətən daha əvvəl gördüklərinə, bəzi gizlinlərdən xəbər tuta bildiklərinə görə!

Bəli, peşə vəzifələrini icra edən jurnalistlər bəzi hadisələrin şahidinə çevrilir, yazıları isə qəzet səhifələrində, arxivlərdə, kitablarda uzun illər boyu "yaşayır".

Mövzuda qaldırılan məsələləri və verilən sualları gördüklərim, şahidi olduqlarım və bildiklərim faktlar əsasında cavablandırmağa çalışacağam.

27 il bundan öncə baş verənlərə isə bu günün nəzərləri ilə baxsam da, həmin dövrdə "Həyat" və "Azərbaycan" qəzetlərində yazdığım (müharibə dövrü bu qəzetlərin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri olmuşam) yazılardan gətirdiyim parçalardan istifadə edəcəyəm.

Zaman dəyişsə də, haçansa baş verənlər, deyilənlər, edilənlər və yazılanlar dəyişməz olaraq qalır!

❖❖❖

Erməni heç vaxt öz ağzı ilə hürməyib!

Erməni həmişə marıqda yataraq hücuma keçməyə fürsət gözləyib.

Erməni tarixi təbəddülatların sərt dəyişmələrində bizdən torpaq qoparmağı bacarıb!

Elə öz dövlətini də bizim torpaqların hesabına yaradıb.

Bəs niyə qırmızı imperiya çökməyə başlayanda, erməni "miatsum" deyə Dağlıq Qarabağ Muxtar Vilayətinə yiyə durmağa başlayanda sayıqlığımızı itirdik?

Axı Ulu Öndər Heydər Əliyev hadisələr başlayanda Ali Sovetdə (indiki Milli Məclis - B.S.) çıxış edərək gözümüzü açmaq istədi, bəlaya qarşı xüsusi konsepsiya hazırlayaraq onun əsasında mübarizə aparmağın vacibliyini söylədi! Təəssüf ki, salondakıların bəziləri ona qulaq asmaq istəmədilər və çox keçmədən bunun ağrı-acısını yaşadılar. Doğrudur, sonradan Ulu Öndərimizi Naxçıvandan geriyə yalvara-yalvara çağırdılar, xaos və anarxiyadan yalnız onun rəhbərliyi ilə çıxa, problemlərin yalnız onun göstərdiyi yolla həllinə nail olacaqlarını dərk etdilər!

Bəlkə də, böyük rəhbəri eşitmədiyimizə görə Tanrı bizə bu cəzanı verdi!

Hər halda məğlubiyyətimizin səbəbləri çoxdur və indi, tarixi qələbəni qazandıqdan sonra bu haqda danışmaq, keçilən yolu təhlil edərək müəyyən nəticəyə gəlmək mümkündür.

❖❖❖

Birinci Qarabağ müharibəsi 22 fevral 1988-ci ildə başladı. Həmin gün ağdamlı iki gəncin - Əli və Bəxtiyarın ermənilər tərəfindən öldürülməsi ilə ilk şəhidlərimizi verdik!

Qəzəblənmiş kütlə ermənilərin başına ağıl qoymaq üçün Xankəndiyə doğru yürüş edirdi. Əsgərana yaxınlaşanda düşmənin açdığı atəş onun bu münaqişəyə həm də silahlanaraq hazırlaşdığını göstərdi.

Həmin dövrdə Azərbaycana başçılıq edənlər - Kamran Bağırov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov Moskvanın dediyi ilə durub-oturur, müstəqil addım atmağa cürət etmirdilər. Mərkəz isə separatçılıq hərəkətlərinə qəti yox deməməklə, əslində, erməni mövqeyi sərgiləyirdi. Məsələn, Qorbaçovun Yerevana göndərdiyi yüksəkçinli emissarlar orada "Dağlıq Qarabağ Ermənistana veriləcək" söyləyərək separatçıları qızışdırır, Bakıya gələnlər isə "Qarabağ Azərbaycanındır" deyərək bizi arxayınlaşdırırdılar.

SSRİ-ni dağıtmağa xidmət edən M.Qorbaçovun erməni diasporunun təşəbbüsü ilə qaldırılan və "Böyük Ermənistan" sərsəm ideyasına dəstək verən

"miatsum hərəkatı"na hər cürə dəstəyi vardı (həm də havayı yox). Faktiki olaraq qırmızı imperiyanın çöküşü Qarabağ hadisələrindən başladı.

Bütün bu dərinlikləri o dövrdə Azərbaycana başçılıq edənlər qədərincə dərk edə, qarşısını ala bilmədilər.

Ulu Öndər Heydər Əliyev isə böyük siyasətdən kənarda idi.

Bu məqamda "KQB"nin razılığı ilə müttəfiq respublikalarda eyni ssenari ilə "xalq cəbhələri" yaradılmağa başladı. Xalq cəbhələri "demokratiya" adı ilə etiraz aksiyaları keçirir, idarəetməni pozur, mitinq və piketlərlə iqtisadiyyatı çökdürürdülər.

Azərbaycanda da belə "cəbhə" yarandı və ozamankı Lenin meydanı onların ixtiyarına verildi.

Bu məqamda bir faktı da qeyd edək: 1988-ci ildə Sovet hökuməti elə zəif və gücsüz deyildi ki, kimsə, yaxud kimlərsə onun əleyhinə iş apara, mitinq keçirə və dövlətin müvafiq strukturları onun qarşısını ala bilməyə!

Üstəlik, Qazaxıstanın paytaxtı Alma-Atada və 1990-cı ilin 20 yanvarında (buna qədər isə Çexoslovakiya hadisələrində) hamı açıq-aşkar gördü ki, SSRİ öz maraqlarına təhlükə gördüyü məqamda utanıb-çəkinmədən dinc əhaliyə qarşı zor tətbiq edir, hətta belə halda ordunun da gücündən istifadə edir!

Əgər 1988-ci illərin mitinqlərində güc tətbiq olunmayıbsa, faktın özü dövlətin buna gizli razılığının təsdiqidir.

Xalqın meydana çıxma səbəbi isə demokratiya və aşkarlıqla, hətta "yenidənqurma" ilə bağlı deyildi.

İnsanlar mərkəzin ədalətsizliyinə, ermənilərin separatçı hərəkətlərinə, Ermənistan və Dağlıq Qarabağ ərazisindəki kəndlərdən azərbaycanlıların zorla qovulub çıxarılmasına etirazlarını bildirir, qəzəblərini ifadə edirdilər.

Azərbaycan Xalq Cəbhəsi yarananda onun tərkibi, əsasən, uğursuzlardan ibarət idi. Xalqın sevdiyi, hörmət etdiyi ağıllı elm adamları, ziyalılar aşkarda o qədər də görünmürdülər. Sonralar onları müxtəlif üsul və vasitələrlə bu qurumdan kənarlaşdırdılar.

Əsasən, Elmlər Akademiyasının bazasında yaranmışdı. Bir qədər keçmiş "uğursuz laborantlar", "müdafiə edə bilməyən çoxillik aspirantlar" aparıcı qüvvəyə çevrildilər. İqtidara gələndə dövlətdə "əsas postları" beləleri tutdular. "Yağlı vəzifə" ala bilməyənlər isə AXC-dən qoparaq müstəqil partiya yaratdılar və müxalifətə keçdilər.

"Meydan hərəkatı" 20 Yanvar faciəsindən sonra Ulu Öndər Heydər Əliyevin təsiri ilə milli-azadlıq hərəkatına çevrildi.

Lakin AXC milli-azadlıq hərəkatının gücündən və dalğalarından istifadə edərək hakimiyyətə gəlməklə, əslində, bu hərəkatı gözdən saldı, iqtidarda olduğu qısa bir dövrdə torpaqların işğalına, bir milyondan çox qaçqın və məcburi köçkün ordusunun yaranmasına, ölkədə xaos, anarxiya və özbaşınalığın baş alıb getməsinə, iqtisadiyyatın dağılmasına səbəb oldu!

Hətta xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycan bir dövlət kimi məhv olaraq əvvəlkitək kiçik xanlıqlara parçalanacaqdı!

1992-ci ilin martında Bakıda parlament çevrilişi yolu ilə A. Mütəllibovun hakimiyyətdən qovulması və AXC-nin iqtidara gəlməsi prosesində Şuşanı və Laçını müdafiə edən bir sıra hərbçilərin və zirehli texnikanın paytaxta gətirilməsi torpaqların müdafiəsini pozdu.

AXC-nin səriştəsiz iqtidarı isə erməni separatçılarının qalibiyyətinə münbit şərait yaratdı.

Aralıqda itirən xalq, işğala məruz qalan isə ərazilərimiz oldu!

Həmin dövrlərdə Qarabağdan Bakıya, Bakıdan isə Qarabağa baxanda görünən nə idi?

Qarabağlılar Bakıya baxanda gördülər ki, qorxaq və qətiyyətsiz A.Mütəllibov iqtidardan qovuldu, onun yerinə gələnlər isə:

* Prezident Ə. Elçibəy və baş nazir Pənah Hüseynov nəinki ömürləri boyu 3-5 işçisi olan bir "JEK"ə müdirlik etməyiblər, heç "elmlər namizədi" dissertasiyasının da müdafiəsini bacarmayıblar;
* Dövlət katibi Əli Kərimli BDU-nun Hüquq fakültəsini bitirsə də, ən böyük vəzifəsi müxalifət qəzetinin şöbə müdirliyi olub;
* Xarici işlər naziri Tofiq Qasımov diplomatiyadan xəbərsiz, bu sahədə bir gün də işləməyən, heç bir dil bilməyən fizika müəllimi idi.
* Daxili işlər naziri İsgəndər Həmidov keçmiş "OBXSS" işçisi (indi elə qurum və vəzifə yoxdur) olmaqla fəaliyyəti dövründə jurnalistləri döyüb maşının "baqajına" basmaq, tənqidi məqaləni zorla müəllifinə yedirtmək, Rusiyanın ölkədəki səfirini "başına bir güllə çaxacağı" ilə hədələmək və Azərbaycanda "atom bombası" olduğunu söyləməklə gündəmi zəbt edirdi.

* Müdafiə naziri Rəhim Qazıyev xəyanətkar, Rusiyanın ozamankı müdafiə naziri Şapoşnikovun "dostu", Şuşanın işğalından sonra "başına güllə çaxmaq" vədinə əməl etməyə kişiliyi çatmayan ortabab riyaziyyat müəllimiydi.
* Bu iqtidarın torpaqları müdafiə üçün yaratdığı ordu küçələrdən yığılaraq əllərinə avtomat verilib döyüşə göndərilən gənclərdən, yaxud həbsxanalardan buraxılaraq silahlandırılan keçmiş məhkumlardan ibarət idi.

İqtidarda olduqları on bir ay ərzində gördükləri işlərin hesabatını isə 25 may 1993-cü ildə verdilər.

Bu barədə bir qədər sonra...

O vaxtlar Qarabağda yaşayanlar nə görür, nə söyləyir, nə istəyirdilər?!

Bununla bağlı həmin dövrdə cəbhə bölgəsində yaşayan və çalışan hərbi müxbir kimi öz yazılarıma istinad edirəm: "Bu matəm sonuncudurmu?" məqaləsindən:

* "İki yüz min azərbaycanlı Ermənistandan qovulanda, yolda öldürülüb qırılanda yas tutmağı heç ağlımıza da gətirmədik. "Rəhbər"lərdən heç kim bu barədə dinib-danışmadı. "Milli ədavəti qızışdırmamaq", "Bakıda sabitliyi pozmamaq", "emosiyaları coşdurmamaq" üçün öz qəzetlərimizdə bu mövzuda "kəskin yazmaq" qadağan edilmişdi. "Daimi yaşayış yerini müvəqqəti tərk etmiş şəxslər" - qeyrətimiz bu ifadəyə çatırdı. "Köçkün", "didərgin", nəhayət, sonradan "qaçqın" sözünü işlətməyə icazə verdilər. Özümüz belə, özgələrinin isə vecinə də gəlmirdi ki, azərbaycanlılar zorla qovularaq ata-baba yurdlarından çıxarılır. Bunu açıb-ağartmaq onlara sərf eləmirdi. Beləliklə, indi cidd-cəhdlə yarmaq istədiyimiz informasiya blokadasını ən əvvəl özümüz yaratdıq özümüz üçün" ("Həyat" qəzeti, 3 mart 1992-ci il).
* "Ən çox narahatlıq doğuran Əsgəran əməliyyatının baş tutmamasıdır. Əsgəran vaxtında alınsaydı, Xocalı faciəsi baş verməz, növbəti dəfə matəm saxlamazdıq. Görəsən, Ağdamdakı silahlı dəstələrin birləşməsinə mane olan hansı gözəgörünməz qüvvədir? Niyə milli müdafiə qüvvələrinin döyüş hazırlığı yüksəldilmir? Bu gün Qarabağa bütün respublika maddi yardım göstərir (bəzən yardımın lazım olan yerə çatmaması başqa söhbətin mövzusudur). Ev-eşiyini, hər cür azuqəsini itirmiş adamlar üçün bu, son dərəcə qiymətlidir. Bəs nə vaxt Qarabağ bütün respublikadan HƏRBİ YARDIM görəcək? Axı Qarabağ Azərbaycanın bir parçasıdır və əslində, müharibə Azərbaycan uğrunda gedir" (yenə orada).

"Azərbaycan" qəzetinin 28 iyul 1993-cü il tarixli nömrəsində dərc edilmiş "Müharibə ya qeyrətlə udulur, ya siyasətlə" yazımdan iki iqtibas:

* "Dörd ildə altı müdafiə naziri dəyişmişik, bizə qarşı kimlərin döyüşdüyünü bilsək də, öz tərəfimizdən müharibənin aparılmasını qeyri-peşəkarlara, hərbi işdən xəbəri olmayanlara etibar etmişik. Heç görün bu qədər generalı və Milli Qəhrəmanı olan xalq da bu qədər torpaq itirər? Kim vicdanına, qeyrətinə and içib ki, Qarabağı azad edəcək - inanmışıq. Kim Qurana əl basıb ki, buranı düşmənə verməyəcəyik - etibar etmişik! Özümüzdən çox başqalarına arxayınıq, istəyirik ki, kimsə bizim yerimizə gəlib düşməni məhv edib getsin. Biz də azad və suveren respublikamızda "kresloları" bölək! Unuduruq ki, hərənin öz niyyəti, öz məqsədi var! Ən qüdrətli dövlətlər belə iki cəbhədə müharibə apara bilməyiblər. O vaxt Almaniyanı məğlub etmək üçün müttəfiqlər birləşərək ikinci cəbhəni açmışdılar.

Azərbaycan isə beş ildir ki, iki cəbhədə vuruşur. Bakıda hakimiyyət uğrunda, Qarabağda isə torpaq uğrunda "ağır döyüşlər" gedir.

Bakı öz "havası" ilə nəfəs alıb yaşayır, Qarabağ isə od-alovun pəncəsində çapalayır. "Özfəaliyyət qaydasında" gedən bu müharibədə xalqın ən qeyrətli və mərd oğulları həlak olur".

("Qeyrət və xəyanət" kitabı, səh.107-108)

* "Torpağı yad əllərə keçən, əsirlikdə yüzlərlə oğlu-qızı zillət çəkən, ev-eşiyini itirərək yaşamaq üçün heç nəyi olmayan bir xalqın küçələrdə demokratiya tələb etməsi gülüncdür!

İndi bütün siyasi partiyalar, cəmiyyət və hərəkatlar birləşib xalqı fəlakətdən qurtarmaq yollarını tapmaq əvəzinə hakimiyyətdən "öz paylarını" umurlar. İmperiyalar dağılsalar da, imperiyanı sevən qüvvələr yaşayırlar və onu yenidən başqa formada bərpa etmək üçün fürsət gəzirlər!" (yenə orada, səh. 109)

Ən nəhayət, daha iki sitat:

Biri 1994-cü ildə Bakıda, "Şərq-Qərb" nəşriyyatında çıxan "Qeyrət və xəyanət" adlı kitabımdandır:

* "Müharibənin başlandığı vaxtdan beş ildən artıq müddət keçsə də, onun dövlət səviyyəsində aparılması qətiyyən hiss olunmur. "Qarabağın xilası" - adı altında gündə bir siyasi partiya, hərəkat peyda olur. Müharibənin maliyyələşdirilməsində xalqa, ayrı-ayrı pullulara istinad edilir. Yaxud "Laçını laçınlılar", "Şuşanı şuşalılar" və s. müdafiə, yaxud azad etməlidir fikri-

nə rəvac verilir. Dəstəbazlıq, mənəm-mənəmlik azarı sağalmaq bilmir. "Qarabağ kartı" ilə vəzifəyə gəlmək, siyasi kapital toplamaq istəyənlərin sayı və iştahası günbəgün artır. Xalq isə bundan əziyyət, olmazın məşəqqət çəkir. Nə qədər ağrılı və acınacaqlı olsa da, etiraf etməliyik ki, respublikada yeni bir zümrə - qaçqınlar ordusu yaranmışdır". (səh.113)

İkincisi isə "Azərbaycan" qəzetinin 21 avqust 1993-cü il tarixli nömrəsində dərc olunmuş "Sən kimsən, qaçqın?!" adlı məqalədəndir:

* "Neyləməli, bizim xalq sadə qəlbli olub, unutqan olub, inanan olub! Amma qeyrətsizliyi özünə sığışdırmayıb. Bu inanmağının və qəlbigenişliyinin altını çəkməliydi. Elə çəkdi də! Ağıllı başçısı, uzaqgörən siyasətçisi olmadı. Siyasət aləmində ağ və qara rəngdən özgə çalarları seçmədi. Şirin nağıllara, dadlı xülyalara uydu. Elə bildi ki, meydanda yığışıb "A-zadlıq!" deyib bağırmaqla azadlıq olur. Pərdə arxasındakı personajları, onların məkrli niyyətlərini irəlicədən görüb anlamadı. Bir də uydu "şirin-şəkər" nemətə" - vəzifə ehtirası, kreslo davası hər şeyi unutdurdu ona! Hətta Vətənin bütövlüyünü, torpaqların müqəddəsliyini də! İtirilən hər parça torpaq kimlər üçünsə "böyük kresloya doğru" bir addımı əvəz etdi. Vəzifə ehtirası alovlanıb gurladıqca, Vətən "kiçildi", torpaq daraldıqca, sənin sayın, həmdərdlərin artdı, çoxaldı..."

Bu, xalqın həmin dövrün ictimai-siyasi, hərbi müstəvidə baş verən hadisələrinə və Azərbaycana başçılıq edənlərə verdikləri qiymətdir.

Bəs ölkədə idarəsizlik və xaosun yaranmasında, torpaqların müdafiəsinin pozulmasında, diletant və xəyanətkar insanın müharibə dövründə müdafiə naziri təyin edilməsində birbaşa rolu və məsuliyyəti olan AXC iqtidarının komandası (komandanın hər bir üzvünün işinə və əməlinə onun rəhbəri birbaşa cavabdehlik daşıyır) özü-özünə hansı qiyməti verib?

Bunu 1993-cü ilin məşhur may konfransında "rəhbər şəxslərin" özlərinin etirafından öyrənmək, zənnimizcə, daha doğru olar.

İndi isə özünəqiymətə nəzər salaq:

Prezident Əbülfəz ELÇİBƏY:

"Respublikada talançılıq baş alıb gedir. Nizami demişkən, əgər oğurlanan maldan gözətçinin xəbəri yoxdursa, demək, gözətçinin orada əli var. Burada milis orqanıdır, prokuror orqanıdır və bir də məhkəmə orqanıdır. Burada oturan orqanların əli həmin cinayətdə var".

❖❖❖

"Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan heç olmasa yüz minlərlə al, beş manat al, insafla al".

❖❖❖

"Biz, doğrudan da, dövlətimizi itirəcəyik. İtirməyəcəyik, bu dövlət yenə də bir vaxt yaşayacaq. Amma biz qanın içində gedəcəyik".

❖❖❖

Dövlət katibi Əli KƏRİMLİ:

"Xalqın böyük narazılığına səbəb olan bir qüsurumuz da iqtisadi sahədə cinayətkarlığın baş alıb getməsidir. İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanılması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib".

❖❖❖

"İqtisadiyyatın bütün sahələrində cinayətkarlıq iri miqyas alıb və hətta ayrı-ayrı cinayət faktları göstərir ki, hüquq mühafizə orqanlarının da müəyyən vəzifəli şəxsləri daxil olmaqla, artıq dövlət orqanlarının daxilində müəyyən cinayətkar təbəqələr formalaşmaqdadır".

❖❖❖

"Bu gün Azərbaycanın maddi sərvətləri qaçaqmalçılıq yolu ilə talan olunur. Respublikanın on minlərlə iribuynuzlu mal-qarası, minlərlə texnikası və digər maddi sərvətləri sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilir. Bu, respublika iqtisadiyyatına sarsıdıcı zərbə vurur".

❖❖❖

"Respublikada bütövlükdə nəinki qanunçuluq, hətta icra intizamı xeyli dərəcədə aşağıdır. Prezident fərman və sərəncamlarının icrası qənaətbəxş səviyyədə deyil. Bəzən elə ab-hava yaradırıq ki, qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik demokratiya ilə eyniləşdirilir. Çox təəssüf ki, hətta fərmanlar icra olunduğu təqdirdə belə, istənilən nəticəni vermir. Qarşıya qoyulan nəticəyə nail olunmur".

❖❖❖

Baş prokuror İxtiyar ŞİRİNOV:

"Respublikada mafioz qüvvələr get-gedə güclənməkdə, baş qaldırmaqdadır. Belə qüvvələr müxtəlif fırıldaqlarla dövlət əmlakını çapıb talayır, iqtisadiyyata

böyük zərbə vururlar. Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdə böyük mafiya fəaliyyət göstərir".

❖❖❖

"1991-ci illə müqayisədə indi qeydə alınan cinayətlərin sayı böyük sürətlə - 43,8 faiz artaraq 22450 hadisəyə çatmış, ağır cinayətlərin sayı isə iki dəfədən çox artmış və 6009 belə cinayət hadisəsi qeydə alınmışdır".

❖❖❖

"Cinayət işlərinin qeydiyyatdan gizlədilməsi halları müəyyən edilmişdir. Qanunsuzluqların nəticəsidir ki, banditizmin 98, qəsdən adamöldürmənin 55,2, zorlamanın 52, dövlət əmlakının mənimsənilməsinin 61,8, soyğunçuluğun 79,7, quldurluğun 81,4 faizi açılmamış qalmışdır. Bu, prokuror nəzarətinin zəif olması deməkdir".

❖❖❖

"Respublikamızda rüşvətxorluğun belə tüğyan etməsi, bu cür baş alıb getməsi hüquq mühafizə orqanlarının özünün həmin hallara şərait yaratması nəticəsində baş vermişdi. Dövlət aparatında, hüquq mühafizə orqanları arasında rüşvətxorlar həddindən artıq çoxdur. Bunu açıq qeyd etmək lazımdır və biz hələ də belələrinə qarşı mübarizə aparmaqda zəiflik göstəririk. Nə qədər ki, dövlət aparatında sağlam əhvali-ruhiyyə yaratmamışıq, nə qədər ki, dövlət aparatında, o cümlədən hüquq mühafizə orqanlarında rüşvətxorları ifşa edib kənarlaşdırmamışıq, belə şərait davam edəcəkdir. Dövlət aparatı özü iflic vəziyyətindədir, daha doğrusu, özü rüşvətxorluqla məşğul olur. Ona görə də rüşvətxorluqla məşğul olan dövlət aparatı rüşvətxorluqla mübarizə apara bilməz və biz bu məsələnin həllini dövlətdən başlamalıyıq".

❖❖❖

Daxili işlər naziri Abdulla ABDULLAYEV:

"Cinayətkar əlaqələrin zorakılığı və qəddarlığı güclənir, silahlı formalarda cinayətkar terrorizm yayılır, iqtisadi sahələrin kriminallaşması davam edir, mütəşəkkil cinayətkarlığın və korrupsiyanın kriminal-siyasi təhlükəsi böyüyür...”

❖❖❖

Ədliyyə naziri İlyas İSMAYILOV:

"Cinayətkarlar öz içimizdədir. Ona görə də onun dağıdıcı qüvvəsi çox böyükdür. Ümumiyyətlə isə, ölkədəki cinayətkarlıqla bağlı mübarizədə biz heç nə edə bilməmişik. Cinayətkarlıq bizim fəaliyyətimizi üstələyir, bu, çox acı gerçəklikdir".

❖❖❖

"Hakimiyyətimiz dövründə rüşvətxorluq kommunistlərin dövründəkindən dəfələrlə çoxalıb. Bu, faktdır. Vəzifəli şəxslər içərisində təmizləmə aparılmalıdır".

❖❖❖

"İqtisadi sahədə böyük dağıntılar gedir. Guya ki, apardığımız "mübarizə" ilə, əslində, cinayətkarları cinayətlərə daha da həvəsləndiririk. Məhkəmələr, doğrudan da, işləmir. Bu sistemdə yoxlama aparmışıq, adamı dəhşət bürüyür. Adi fakt: məhkəmə prosesi olmadan hökm çıxarırlar. Bu, ən böyük biabırçılıqdır".

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev hər dəfə yaşayış məntəqələrindən biri düşmən işğalından azad olunanda xalqa müraciət edirdi.

Bu müraciətdə xalqımıza şad xəbərin çatdırılmasının nikbin notları və təbriklə yanaşı, dərin təhlil və qiymətləndirmələr də olurdu.

Belə qiymətləndirmələrdən biri xalqımızın bu bəlaya düşməsində və torpaqların itirilməsində özünəməxsus "xidmətləri" olan AXC - Müsavat cütlüyü iqtidarının fəaliyyəti ilə bağlı idi.

Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa 25 noyabr 2020-ci il tarixli müraciətindən parçalar:

* "İndi gənc nəsil xatırlamır, ancaq bilməlidirlər ki, o vaxt Azərbaycana kimlər rəhbərlik edirdi, hansı bilik sahibləri, hansı səriştə sahibləri. O adamların heç bir təcrübəsi yox idi. O adamlar - o vaxt rəhbərlikdə təmsil olunmuş adamlar, yüksək postlar tutmuş adamlar bir gün belə heç bir idarəyə, heç bir kiçik bir müəssisəyə rəhbərlik etməmişdilər. Onlar ölkəni, xüsusilə böhranlı vəziyyətdə olan ölkəni necə idarə edə bilərdilər? Amma onların vəzifə hərisliyi, tamahı, iştahası, görməmişliyi Azərbaycanı bax bu vəziyyətə gətirib çıxardı".
* "Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar".
* "Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlmə-

səydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi. Əlbəttə ki, tarixə qayıdıb nə ola bilərdi, nə olmaya bilərdi demək çox çətindir. Ancaq hər halda torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır".

* "Onlardan hansı idarəçilik gözləmək olardı?! Onlardan hansı vətənpərvərlik gözləmək olardı?! Hansı peşəkarlıq gözləmək olardı?! Xarici işlər naziri. Heç bir dildə bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər nədir? Sadəcə olaraq, turist kimi ora-bura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma bir güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri".
* "Bizim dərdimiz və faciəmiz budur ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər və ölkəmizi uçuruma apardılar".
* "Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? Ovaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, idarəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax kollektiv Paşinyandır onlar. Onları tanımayanlar əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında ovaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər".

❖❖❖

Bütün Azərbaycan xalqının və Azərbaycanı yaxından tanıyanların yekdil bir qənaəti var: "Əgər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycana Ulu Öndər Heydər Əliyev rəhbərlik etsəydi, nə vəziyyət gəlib bu həddə çatar, nə bu qədər ərazi itirilər, nə də bir belə şəhid verərdik!"

Bəli, müdrik və uzaqgörən rəhbər, təcrübəli, iradəli və qətiyyətli, nüfuzlu, ən nəhayət, xalqın sevdiyi rəhbər xalqını və dövlətini tarixin sınaqlı dövrlərində bəlalardan qurtarmağa qadirdir.

Təsadüfi şəxslərin hakimiyyətə gəlməsi isə çox zaman faciə və fəlakətlə nəticələnir.

İnsanlar zülm və əzab çəkir, evsiz, işsiz, çörəksiz, ümidsiz qalır.

Dədə-baba torpaqlarından qovularaq düzlərə düşür, düşmənə qalan evləri isə yandırılıb-dağıdılaraq xarabazara çevrilir.

Ağdam Qarabağın mərkəzi, ən çox əhalisi olan rayonu, varlı-imkanlı yaşayış məntəqəsi idi. Bu müharibənin insanlara vurduğu maddi və mənəvi zərbələri onun timsalında daha aydın görmək mümkündür.

22 fevral 2015-ci ildə Ağdamın düşmən işğalından sonra salındığı ağır durumu ürəkağrısı ilə yazıb "Azərbaycan" qəzetində dərc etdirdiyim "Ruhlar şəhərinin sakinləri" məqaləsini yenidən diqqətinizə təqdim edirəm:

## *Ruhlar şəhərinin sakinləri*

Bu şəhər o şəhərlərdən deyil!

Həm də o şəhərlərə bənzəyir.

Küçələri və səkiləri...

Evləri, meydanları, parkları...

Bazar və mağazaları...

Məktəbləri, uşaq bağçaları...

Qəbiristanlığı...

Hər şey var!

Amma küçələr dağılıb, səkiləri ot basıb...

Evləri və meydanları boşdur, parklarındakı ağaclar çoxdan quruyub, həyətlərdə adam boyundan uca qanqal, alaq otları bitib.

Bazarda, meydan və mağazalarda ins-cins gözə dəymir, mal alıb, mal satan görünmür.

Məktəbləri və bağçaları uşaq səsinə həsrət qalıb...

Daha qəbiristanlıqlarda "Yasin" oxunmur!

Bura Ağdamdır!..

Bura ruhlar şəhəridir!..

❖❖❖

Ruhlara işıq və istilik gərək deyil!

Heç sökülüb dağıdılmış, xaraba qalmış evlərdə işıq yandırıb ocaq qalamaq da mümkün deyil!

Ruhlar yemək yemirlər!

Odur ki, bir zamanlar qaynayıb-daşan, hətta "atom bombası belə satmağa" qadir olan Ağdam bazarına, bütün günü dolub-boşalan mağazalara ehtiyac yoxdur!

Məktəblilər böyüyüb döyüşçüyə, şəhidə, məcburi köçkünə, uşaqlar isə qaçqın şəhərciklərindəki yeni məktəblərdə oxuyan şagirdlərə çevriliblər.

Təkcə ölülərin "Yasin"ə ehtiyacı var!

Onlar Allah kəlamını eşitməkçün darıxırlar!

Bu aclığı isə yalnız ulu Tanrı özü, Onun sözü dəf edə bilər!

Ona yalvaraq!

❖❖❖

Ruhlar şəhərinin öz qanunları var!

Bu qanunlar pozulmazdır!

Ruhlar bu şəhərin hüdudlarını tərk edə bilməzlər!

Ruhlar gördüklərini yadda saxlayır və heç zaman unutmurlar!

Sonradan bu şəhərin həndəvərinə gələrək bu yolda şəhid olanların ruhları da burada qalır!

Ruhlar qocalmırlar, güllə və mərmidən qorxmurlar!

Onlar insan bədənini tərk etdikləri vaxt necədirlərsə, eləcə də qalırlar!

Özlərinə xas tərzdə sevinir, kədərlənir və ağrıyırlar.

Eşidir, görür, qiymətləndirirlər!

Bunların arasında uşaq, qoca, qadın və keçmiş döyüşçülər var...

Şəhid sayıldıqlarından onlara əzab-əziyyət verilmir!

Onları bura bağlayan Vətən sevgisi, torpaq məhəbbətidir! Elə bilirlər ki, ruhlar şəhərinin hüdudlarını tərk etsələr, ermənilər həmişəlik bura yiyələnəcəklər. Odur ki, gecə-gündüz ayıq-sayıqdırlar!

Düşmən ruhlar buralara gələ, dolaşa bilməz!

Burada güc silahla, kimin "arxalı" olması ilə ölçülmür!

❖❖❖

Ruhun gücü onun müqəddəs dəyərlərə tapınmasındadır!..

Ruhun gücü onun torpağın əzəli və əbədi sahibi olmasındadır!

Ruhun gücü onun ədalətə və Tanrının böyüklüyünə, gec-tez haqlını müdafiə edəcəyinə inamındadır!

❖❖❖

RUHLARIN KƏDƏRİ VAR!

Onların ailə üzvləri respublikanın bütün kənd və şəhərlərinə səpələniblər. Uzun müddət əziyyət və ehtiyac çəkiblər...

Çadırda, şəraitsiz yerlərdə yaşayıb, işsiz qalıblar...

İndi hər şey axarına düşüb. Övladları təhsil alıb, ailə qurub.

İndi dövlətin tikdirib təmir etdirdiyi evlərdə və mənzillərdə yaşayırlar.

Artıq hər şeyləri var.

Təkcə torpaq həsrəti çəkirlər!

Ruhlar qoyub getdikləri doğmalarını və əzizlərini daim görə bilmədiklərinə görə kədərlənirlər...

❖❖❖

RUHLAR AĞRIYIRLAR!

Onların gözəl və abad şəhərləri, topdağıtmaz evləri xaraba və kimsəsiz qalıb.

Yadlar gəlib evləri talan edib daşıyır, dəmirini, daşını, taxtasını dinini və Allahını unudanlara satırlar!

Məscidlər dağıdılır, tarixi abidələr məhv edilir!

Bura gələn başqa millətin nümayəndələri nədənsə gördüklərini yox, onlara deyilənləri yazıb yayırlar!

Burada torpaqlar əkilmir, bağlar becərilmir.

Düşmən düşmənliyini davam etdirir!

❖❖❖

RUHLARIN TƏSƏLLİSİ DƏ VAR!

Düşmən burada məskunlaşmağa qorxur!

Bilir ki, bu torpaq onunku deyil və haçansa yiyəsi gəlib ona sahib duracaq!

Heç düşmən istəsə də, məskunlaşmaq imkanı yoxdur!

Əvvəla, sayı azdır və azalmaqda davam edir.

İkincisi, tikib-qurmaq, abadlaşdırmaq onun xislətinə xas deyil!

Üçüncüsü, əkib-becərməyə, tikib-qurmağa imkanı və vəsaiti yoxdur.

Erməni bayquş kimi xarabalıq sevir.

Ermənidə vətən hissi yoxdur, harada yaxşı yaşasa, oranı özünə "vətən" seçir.

❖❖❖

RUHLAR SEVİNƏ BİLİRLƏR

Cəbhə xəttinin o tayında məskunlaşan, tikib-quran, əkib-becərən, düşmənə meydan oxuyan həmkəndlilərini görəndə!

Hər dəfə Azərbaycanın Mübariz İbrahimov və Fərid Əhmədov kimi igidlərinin təmas xəttini keçərək düşmən hərbçilərini gəbərtdiklərinin şahidinə çevriləndə!

Düşmən cəbhə xəttində təxribat törədərək vahimə yaratmaq istəyəndə özü ciddi tələfata uğradılaraq onlarca əsgəri leş-leşə söykənəndə!

Azərbaycan hərbçisi tərəfindən erməni vertolyotu vurularaq keçirdikləri təlim gülünc vəziyyətə salınmaqla burnu ovulanda!

Ruhlar nikbindirlər, ruhlar ümidlərini itirmirlər!

Ruhlar xaraba şəhərləri, dağıdılmış qəbiristanlıqları tərk etmək niyyətində deyillər!

Ruhlar tezliklə şəhərə qayıdacağımıza və onu yenidən, əvvəlkindən də yaxşı tikib-quracağımıza inanırlar!..

❖❖❖

Hərb dahisi Napoleonun maraqlı bir fikri var: "Sərkərdəsi şir olan qoyun sürüsü hər şeyə qadirdir. Sərkərdəsi qoyun olan şir dəstəsi heç nədir!"

Azərbaycan 20 min övladını şəhid versə də, torpaqlarını qoruya bilmədi!

Müxtəlif millətləri təmsil edən özünümüdafiə batalyonlarının və hərbi birləşmələrinin üzvləri şir kimi döyüşsələr də, canlarını qurban versələr də, istəklərinə çata bilmədilər.

Çünki bu orduya səriştəsizlər, naşılar, şəxsi maraqlarını hər şeydən üstün tutanlar başçılıq edirdilər.

Təqsir məğlub orduda yox, onu qələbəyə çatdıra bilməyən başçılarda idi!

Bəli, xalq həmin xalqdı!

Düşmən həmin düşməndi!

Onun havadarları yenə müdafiəsindədir!
Müdafiə mövqeləri isə ötən 30 ildə qat-qat gücləndirilmişdi!
Azərbaycan Ordusunda da yenə həmin cəngavər oğullar döyüşürlər.
Şir kimi, canlarını və qanlarını əsirgəmədən!
Amma bu dəfə qalib gəldilər!
Şərəfli qələbə qazandılar!
Düşməni diz çökdürdülər, torpaqlarımızdan qovdular!
Çünki sərkərdəmiz də aslan idi!
Xalqını, dövlətini, torpağını və əsgərini sevən əsl rəhbər!
Belə Ali Baş Komandanla fəxr etməyə dəyər!
Torpağı azad edərək ərazi bütövlüyünü bərpa etdi!
Azərbaycan Ordusunu bütün dünyada şöhrətləndirdi!
Xalqın üzərindən "məğlub" damğasını sildi!
"Məcburi köçkün" adını tarixin arxivinə verdi!
Azərbaycan vətəndaşını ən böyük istəyinə, ən müqəddəs arzusuna çatdırdı!
Eşq olsun belə Sərkərdəyə, Rəhbərə, Prezidentə!
İndi hamımız ona qoşularaq birlikdə və bir səslə, sevinc və vüqarla ucadan deyirik:
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!

***“Azərbaycan” qəzeti,***
***6 dekabr 2020-ci il***

# IV Fəsil

# ZƏFƏRİN TƏNTƏNƏSİ

# İLHAM ƏLİYEV dərsləri

**Birinci Qarabağ müharibəsi qurtarandan 27 il sonra - 27 sentyabr 2020-ci ildən başlayan İkinci Qarabağ müharibəsi ilə Ali Baş Komandan İlham Əliyev Ermənistana və onun havadarlarına mükəmməl bir dərs də verdi:**

* Yeni nümunədə yeni tipli müharibə dərsi!
* Düşməni işğal etdiyi ərazilərdən sürətlə qovmaq dərsi!
* Ali diplomatiya dərsi!
* Dünya KİV-ində düşməni ifşa dərsi!
* Dost qazanmaq, dostluq etmək və dost köməyindən istifadə dərsi!
* Ədalət uğrunda vuruşarkən ədalətsiz tərəfə kömək göstərənlərə ədalət dərsi!
* Vətəni əməldə sevmək dərsi!
* Xalqın məhəbbət və dəstəyini qazanmaq dərsi!
* Ordunu sevmək, idarə etmək, şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratmaq dərsi!
* Şəhidlərə hörmət və ehtiram göstərmək, xatirələrini əziz tutmaq dərsi!
* İqtidarla xalqın yumruq kimi birliyini necə yaratmaq dərsi!

Bütün dünya böyük auditoriya qarşısında və aşkarlıq şəraitində verilən bu dərsləri gördü və ağlı olanlar özləri üçün müəyyən nəticələr də çıxardılar.

❖❖❖

Hərbi əməliyyatlar davam edən dövrdə İlham Əliyevin etdiklərindən və dediklərindən Azərbaycan vətəndaşları da çox mətləbləri anladılar və mənimsədilər.

Prezidentimizin dərsləri bizə nələr öyrətdi?

İlham Əliyev ən əvvəl Vətəni necə sevməyin nümunəsini ortaya qoydu!

Bəli, Vətəni hamı sevir!

Amma bu sevgi təkcə sözlə bitməməlidir!

Vətəni səmimi məhəbbətlə sevmək, lazımi məqamda onun yolunda fədakarlıq göstərməyi bacarmaq da vacibdir!

Əslində, İlham Əliyev Vətən sevgisini bizə öz nümunəsi ilə öyrətdi!

❖❖❖

Üçrəngli bayrağımız bizim üçün qürur mənbəyidir.

Bu bayraq həm də müstəqilliyimizin rəmzidir.

Hər bir dövlət, hər bir vətəndaş öz bayrağı ilə qürur duyur!

O cümlədən biz azərbaycanlılar!

Ali Baş Komandanımız İlham Əliyev işğaldan azad etdiyi yaşayış məntəqələrində üçrəngli bayrağımızı yüksəltməklə onu bizə daha da çox sevdirdi!

Bayrağımızı qalib xalqın bayrağına çevirdi!

❖❖❖

Azərbaycanın haqq mübarizəsində, doğma torpaqlarını işğaldan azad etmək uğrunda müharibədə türk qardaşlarımız daim bizim yanımızdadırlar, lazımi dəstək verirlər.

Bu gün Azərbaycan bayrağı ilə Türkiyə bayrağı şəhər və kəndlərimizdə, yaşayış məntəqələrində, yürüşə çıxan Vətən övladlarının əllərində qoşa tutulur, paytaxtdakı binaların üzərində, balkonlarda qoşa dalğalanır.

Türkiyə Cümhuriyyətində də eyni vəziyyətin şahidiyik!

Dünyanın müxtəlif ölkələrində erməni vandalizminə və terroruna qarşı keçirilən etiraz aksiyalarında da qardaşlarımız və bayraqlarımızla daim yanaşıyıq.

Bu qardaşlığın, bu sevginin, bayraqlarımızın qoşa dalğalanmasının yaradıcısı da İlham Əliyevdir!

❖❖❖

Vətən müharibəsinin gedişində Prezidentimizdə bir sıra yeni keyfiyyətlər də kəşf etdik!

Rəhbərə məxsus bir çox mənəvi dəyərlərin dərinliyinin və zənginliyinin şahidinə çevrildik.

İlham Əliyev, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyeva heç zaman dara düşmüş insanları - istər təbii fəlakət, istərsə də xain düşmənin terror əməlləri nəticəsində ev-eşiklərini itirənləri, yaralananları, şəhid ailələrini köməksiz qoymurlar.

Müharibə əlilləri də daim diqqət mərkəzindədir, onlara minik avtomobilləri, dövlət hesabına tikilib təmir olunan mənzillər verilir.

Şəhidlərin dəfni xüsusi hörmət və ehtiramla keçirilir, şəhid ailələri daim qayğı əhatəsində saxlanılır.

Hər bir müharibə yeni şəhid və qazi deməkdir!

Qədirbilən xalqımız torpaqların azadlığı uğrunda vuruşanları, şəhidləri və qaziləri heç zaman unutmur, şəhidlərin xatirəsinə, müharibə qazilərinə ehtiramla yanaşır.

İlham Əliyev həm də bu nümunəvi münasibəti ehtiramla davam etdirəndir.

❖❖❖

Bəşəriyyət yarandığı gündən haqq və ədalət uğrunda mübarizə aparır!

Amma heç də həmişə ədalətə nail olmaq, haqqa sahib çıxmaq mümkün olmur!

Bunun üçün təkcə ağıllı yox, həm də güclü olmaq gərəkdir!

İlham Əliyev ədalətsiz dünyada ədalətə nail olmağın yolunu göstərdi!

Həm də əyani şəkildə!

Xalqla iqtidarın birliyi formasında!

Dünyanın təsir və təzyiq cəhdlərinə sinə gərməyin mümkünlüyünü meydana qoydu!

Təkcə döyüş meydanında yox, informasiya cəbhəsində də yorulmadan çarpışdı, Azərbaycana qarşı illər boyu davam edən ədalətsizliyin mahiyyətini açaraq, kökünü, səbəblərini ifşa etdi!

Bu sahədə də düşməni məğlubiyyətə uğratdı!

❖❖❖

Artıq dünya erməniliyi dünyanın bəlasına çevrilib!

Maliyyələri, mütəşəkkillikləri ilə yaşadıqları ölkələrin siyasətinə, hətta prezidentlərinin mövqeyinə belə təsir göstərirlər!

BMT-nin daimi üzvləri olan Minsk qrupunun həmsədr dövlətlərinin başçıları belə seçkilər dövründə erməni diasporu ilə hesablaşmağa, onların istəklərinə əməl etməyə çalışırlar.

İlham Əliyev dünya erməniliyinə necə qalib gəlməyin yollarını göstərdi:

* Həm torpaq uğrunda sonadək döyüşməklə;
* Həm diplomatik cəbhədə çarpışmaqla;
* Həm düşmənin alçaq xislətini, terrorçu mahiyyətini - dinc əhalini, qadın və uşaqları Gəncədə, Bərdədə, Tərtərdə hədəfə çevirərək qadağan olunmuş silah-sursatla qətlə yetirməsini ifşa etməklə;

İlham Əliyev dünyanın hesablaşdığı ermənilərə elə bir dərs verdi ki, onlar Ali Baş Komandanımızla hesablaşmağa məcbur oldular!

❖❖❖

Müharibənin davam etdiyi dövrdə İlham Əliyev dəfələrlə xalqa müraciət etdi, hadisələr barədə doğru-düzgün və ətraflı məlumat verdi.

Həmişə düz danışdı, olanı söylədi!

Açıq danışdı, öz xalqından heç nəyi gizlətmədi!

Səmimi danışdı: uğuru da, çətinlikləri də ölkə vətəndaşları ilə açıq şəkildə bölüşdü.

Bəzən hisslərini gizlətmədi, emosiyalara yol verdi - lazımi ölçü-biçidə!

Xalq daim qələbə xəbərini Ali Baş Komandanının özündən eşitdi!

Ölkə vətəndaşları bu açıq, təmiz müraciətlərinə, parlaq və emosiyalı çıxışlarına görə rəhbərini bir daha qəlbən sevdi, səmimiyyətinə heyran oldu!

Bu da bir dərsdir!

Xalqa hər şeyi olduğu kimi çatdırmaq, uğur və qələbələrlə bərabər, mövcud olanları da birgə müzakirə edib, bölüşə bilmək dərsi!

❖❖❖

İkinci Qarabağ müharibəsini zəfərlə başa çatdıran İlham Əliyev xalqı müqəddəs arzu və istəyinə necə qovuşdurmağın nümunəsini də göstərdi!

Arxalı düşmənlə cəngə başlayarkən xalqı möhkəm birliyə, qüvvələri səfərbərliyə almağa səslədi!

Bu çağırış dərhal böyük əks-səda doğurdu.

Ölkədə fəaliyyət göstərən bütün müxalif partiyalar Ali Baş Komandanı dəstəklədiklərini rəsmən bəyan etdilər!

Xalq rəhbər ətrafında yumruq kimi birləşdi!

Ölkə bir nəbzlə döyünməyə başladı!

İlham Əliyev milli birliyə nail olmağın ən gözəl yolunu da göstərdi!

Şübhə yoxdur ki, bu birlik bundan sonra heç zaman pozulmayacaq, işğaldan azad olunmuş ərazilərin bərpa edilməsində, insanların doğma yurd-yuvalarına tezliklə qayıdaraq rahat yaşamalarında, viran qoyulmuş torpaqların laləzara çevrilməsində, müstəqil Azərbaycanın daha da qüdrətlənməsində başlıca stimullardan biri olacaqdır!

❖❖❖

İlham Əliyev ağlayan Azərbaycanı güldürdü!

İlham Əliyev gülən Ermənistanı ağlatdı!

İlham Əliyev Dövlət bayrağımızı qalib xalqın bayrağına çevirdi!

İlham Əliyev məğlub Azərbaycan Ordusunu qalib orduya, dünyada yeni müharibə nümunəsini yaradan orduya çevirdi!

İlham Əliyev Azərbaycanı qalib dövlətə, Cənubi Qafqazda söz sahibinə, dünyada yüksək nüfuzu və müsbət imici olan dövlətə çevirdi!

***“Azərbaycan” qəzeti,***
***3 dekabr 2020-ci il***

# XİLASKAR

**Hər bir xalqın, dövlətin yüksəliş və tənəzzül dövrü olur.**
**Hər bir xalqın, dövlətin təhlükəli, sınaqlı illəri, günləri olur.**
**Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən, yüksək rifaha, mədəni intibaha çatdıran liderləri olur!**
**Xoşbəxt o dövlətdir ki, təhlükəli, sınaqlı illərində ona müdrik, uzaqgörən, iradəli, qətiyyətli və hünərli rəhbərlər başçılıq edirlər.**
**Başı çox bəlalar çəksə də, Azərbaycan xalqını xoşbəxt xalqlardan hesab etmək olar!**
**Bu gün bu sözləri daha inamla, daha sevinclə söyləyə bilirik.**
**Bu inamı, bu sevinci bizə bəxş edən xalqımızın xilaskar oğlu İlham Əliyevdir!**
**Müstəqillik dövrümüzün ilk xilaskarlıq missiyası Ulu Öndər Heydər Əliyevə məxsusdur.**

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanı xaos və anarxiya burulğanından, özbaşınalıq və qanunsuzluqlardan, bir dövlət kimi məhvolmadan xilas etdi.

Tariximizin ən böyük xilaskarlıq missiyasını isə yeni dövrün yeni rəhbəri cənab İlham Əliyev yerinə yetirdi!

Həm də Ulu Öndərimizin vəsiyyətlərini icra etməklə, onun yarımçıq qalmış işlərini başa çatdırmaqla, Azərbaycanı müasir və qüdrətli dövlətə çevirməklə, xalqın ən müqəddəs arzusunu uğurla gerçəkləşdirməklə!

Prezident İlham Əliyev bizi nələrdən xilas etdi?

Birlikdə nəzərdən keçirək.

❖❖❖

Xalqımızın ən böyük ağrısı, sağalmaz yarası torpaqların erməni işğalında qalması idi!

BMT qəbul etdiyi dörd qətnaməni yerinə yetirə bilmir, ATƏT-in Minsk qrupu danışıqların imitasiyası ilə məşğul olur, digər beynəlxalq qurum və təşkilatlar beynəlxalq hüququn norma və prinsiplərini, ədaləti təmin etməkdə acizlik göstərir, Ermənistan isə sülhdən boyun qaçırırdı.

Belə bir mürəkkəb məqamda həm dünya miqyaslı nüfuzlu siyasi xadim, həm mahir diplomat, həm də qətiyyətli sərkərdə kimi meydana girən İlham Əliyev bir həmlə ilə işğal altındakı torpaqlarımızı düşməndən azad etdi!

Beləliklə, itirilmiş əraziləri geri qaytaran dövlət başçısı kimi Azərbaycan tarixinə düşdü!

❖❖❖

Düz 27 il idi ki, Azərbaycan parçalanmış vəziyyətdə qalmışdı.

Düşmən təkcə Dağlıq Qarabağı deyil, üstəlik, ona bitişik yeddi rayonumuzu da ələ keçirərək möhkəmləndirmə işləri aparmışdı.

Hətta münaqişəyə "nöqtə qoymaqla" torpaqları özününkü sayırdı.

Azğınlaşmış düşməni ərazimizdən qovan Ali Baş Komandanımız Vətəni parçalanmış vəziyyətdən xilas etdi, torpaqlarımızı yenidən bütövləşdirdi!

❖❖❖

XIX əsrdən başlayaraq Azərbaycan əraziləri hesabına özlərinə dövlət quran ermənilər sonralar da bizdən torpaq qoparmağa fürsət gəziblər.

Əllərinə düşən imkanı heç zaman qaçırmayıblar: bu, 1918-ci ildə ilk dəfə müstəqil dövlət quranda da belə oldu, sovet hökumətinin erməniپərəstliyindən istifadə edib 1948-1953-cü illərdə soydaşlarımızı Ermənistan ərazisindəki tarixi torpaqlarından deportasiya etdirəndə də!

Ötən əsrin doxsanıncı illərində, ikinci dəfə dövlət müstəqilliyi qazanmaq şansı yarananda da ermənilər fürsəti əldən vermədilər...

Təəssüf ki, həmin dövrdə Azərbaycan çox ağır durumda idi: xalq həqiqi rəhbərindən ayrı düşmüşdü: ölkəyə maymaq, qorxaq, qətiyyətsiz insanlar rəhbərlik edirdilər, AXC-Müsavat cütlüyü isə vəzifə hərisliyinə düşdüyündən ölkədə xaos, anarxiya və özbaşınalıq mühiti yaratmaqla torpaqların müdafiəsinə imkan vermirdi.

Əslində, nə nizami ordu quran vardı, nə də onu silah-sursatla təmin edə bilən!

Belə bir vəziyyətdə 20 faiz ərazimiz işğal olundu!

Düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparan xalq 20 min şəhid versə də, torpağını qoruyub saxlaya bilmədi!

Gözəl Qarabağ, ətrafındakı yeddi rayon, bütün strateji yüksəkliklər işğala məruz qaldı!

Məğlub, miskin duruma düşdük!

İllər boyu düşmənlə bir masa ətrafında oturmalı, onların sülh yolu ilə torpaqlarımızı nə vaxt qaytaracaqlarını gözləməli olduq...

Tariximizin ən görkəmli sərkərdəsi İlham Əliyev bizi bu gözkölgəliyindən, baş qaxıncından qurtardı!

Sərkərdələr sərkərdəsi İlham Əliyev bizi "qorxaq millət", "torpağını qoruya bilməyən xalq", "torpaq itirən dövlət" töhmətindən də xilas etdi!

❖❖❖

Vətəndə vətən həsrəti çəkmək çox ağırdır, çox çətindir!

Əl uzatsan əlin çatacaq elinə-obana gedə bilmirsən!

İllər boyu min bir əziyyətlə, əl qabarı ilə tikib-qurduğun evini, kəndini, şəhərini gözünün qabağında dağıdıb xarabalığa çevirirlər, durdurmağı bacarmırsan!

İlham Əliyev bizi bu mənəvi iztirablardan xilas etdi!

❖❖❖

Doğma el-obada təkcə evlərimizi yox, qəbiristanlıqlarımızı, küçə və məhəllələrimizi, uşaqlıq və gənclik xatirələrimizi də qoyub gəlmişdik.

Ölülərimiz "Yasin" səsinə həsrət qalmışdılar!

Novruz bayramlarında doğmalarımızın məzarlarını ziyarət edə bilmirdik!

Qohum-qardaşdan, qonum-qonşudan ayrı düşərək hərəmiz respublikanın bir güşəsinə səpələnmişdik!

Ürəyimiz istəyən insanları ildə bir dəfə görə bilmirdik!

İlham Əliyev bizi bu həsrətdən xilas etdi!

❖❖❖

ATƏT yarananda o qədər sevinmişdik ki...

Hər dəfə ATƏT-in Minsk qrupuna yeni həmsədr təyin olunanda çiçəyimiz çırtlayırdı: bu sədrin dövründə məsələ həllini tapacaq...

Hətta sədrlərdən biri Ağdam məscidindən bir daş parçasını gətirib bizə ərməğan da etmişdi...

Sonralar onların bu gəliş-gedişi müxtəlif lətifələrə çevrilmişdi.

Amma həmin lətifələri ucadan danışıb gülə bilməzdik: ATƏT-in xətrinə dəyərdi!

Ermənilər isə ATƏT-in ... boşluğundan istifadə edərək həqarətə keçmişdilər.

Gah formatı dəyişmək istəyirdilər, gah Şuşada yallı oynayırdılar, gah da işğal rayonlarının beşini qaytararaq ikisini özlərinə saxlayacaqlarını söyləyirdilər...

İlham Əliyev bizi erməni təhqirindən, ATƏT-in aşağılamasından, boş-boşuna gözləntilərdən xilas etdi!

❖❖❖

Erməni özünü işğal etdiyi torpaqlarda ağa kimi aparırdı.

Təkcə yurdumuzu viran qoymurdu!

Meşələrimizi qırıb daşıyırdı!

Üzümlüklərimizin məhsullarından "erməni konyakı", çaxır istehsal edərək satırdı.

Mineral sularımızı öz adı ilə xarici bazarlara çıxarırdı.

Kəlbəcər dağlarındakı yeraltı sərvətlərimizi talan edirdi.

Xarici şirkətlərin cəlbi yolu ilə Zod mədənlərindən çıxardıqları qızılımızı acgözlüklə mənimsəyirdilər.

Həm də təkcə maddi sərvətlərimizi yox!

Tarixi-mədəni abidələrimizi uçururdular.

Məscidlərimizdə heyvan saxlayırdılar.

Musiqimizi mənimsəyib öz adlarına çıxırdılar.

İlham Əliyev maddi sərvətlərimizi, mənəviyyatımızı, mədəni dəyərlərimizi talandan və məhv edilmədən xilas etdi!

❖❖❖

Ən nəhayət, xalqın yeni bir zümrəsi yaranmışdı: məcburi köçkün adı verilmişdi onlara.

Taleyin nəsib etdiyi bu ad insanları sıxırdı, əzirdi.

Vətəndə yurdsuz olduğumuzu daim yadımıza salırdı.

Dövlət nə qədər kömək göstərib əl tutsa da, bunlar dərdə çarə deyildi.

İlham Əliyev bizi çarəsizlikdən xilas etdi!

İlham Əliyev bizi "məcburi köçkün" adından xilas etdi!

İlham Əliyev bizi Vətəndə yurd həsrəti çəkməkdən qurtardı!

❖❖❖

Əsl rəhbərin xilaskarlıq missiyası belə olur!

Əsl sərkərdə ərazi bütövlüyünü bax belə, düşməni əzə-əzə, qova-qova bərpa edir!

Əsl Prezident vətəndaşına belə qayğı göstərir, onun mənəvi iztirablarına son qoyaraq bütöv Vətən adlı əvəzsiz sərvətə qovuşdurur!

Tariximizin ən böyük rəhbəri, qüdrətli sərkərdəsi, mahir dövlət başçısı İlham Əliyev kimi!

***"Azərbaycan" qəzeti,***
***9 dekabr 2020-ci il***

## Sənə qurban olum...

*Həsrətlə gözlədiyimiz gün,*
*çoxdan arzusunda olduğumuz qələbə!*

**Bu günü nə qədər gözləmişik...**
**Bu qələbəni nə qədər arzulamışıq...**
**Bu qələbəyə yetmək üçün nə qədər şəhid vermişik...**
**Qələbə intizarı ilə dünyasını dəyişənlər də çox oldu.**
**İndi nə qədər əmanət qəbirlərdə doğma qəbiristanlığa aparılacağı günü gözləyən cəsədlər var.**
**Hətta ümidsiz qaldığımız günlər, dizimizi qucaqlayaraq göz yaşı tökdüyümüz anlar da az olmayıb!**

Nə dünya bizi eşitmək istəyirdi, nə də Tanrı kömək edirdi!

İndi də kövrəlirik, amma bu, kədərdən və qəzəbdən yox, sevincdən, xoşbəxtlik duyğularından doğan göz yaşlarıdır.

Səni min yaşa, Ali Baş Komandanım!

Dünya durduqca durun, mənim türk qardaşlarım!

Afərin, Azərbaycan Ordusu, Azərbaycan əsgəri!

Sizlər bu xoşbəxt anları, bu sonsuz sevinc və səadəti bizə yaşatdınız!

Ölmüş ümidlərimizi diriltdiniz, ən müqəddəs arzumuza qovuşdurdunuz, dünyanın ən gözəl, qeyri-adi hədiyyəsini - insana fərəh gətirən Qələbə sevincini hər birimizə ərməğan etdiniz!

Vətən torpağından əziz və qiymətli nə ola bilər?

Doğma yurd-yuvaya qayıtmaq sevincini yaşamaq nə böyük bəxtəvərlikdir!

***Sənə qurban olum, torpağım!***

Heç bilirsən, həsrətini nə qədər çəkmişdim?

Heç bilirsən, səninçün nə qədər qəribsəmişdim?

Heç bilirsən, ətrinçün nə qədər darıxmışdım?

Bilirəm, səninçün də asan keçməyib bu işğalda, əsirlikdə olduğun dövr!

Murdar xislətlilərin ayaqları altında qalmısan, gecə-gündüz tapdalanmısan!

Sinənə halal sahiblərinin alın təri tökülməyib!

Meşələrin qırılıb qurtarıb, çaylarının qarşısı kəsilərək axarı dəyişdirilib, yeraltı sərvətlərin çapılıb-talanıb!

Azğın düşmən qoynunda fəxrlə saxladığın gözoxşayan evləri-binaları, məscid və türbələri, mədəni-tarixi abidələri dağıdıb yox edəndə, hər tərəfdə erməniləşdirmə aparanda nələr çəkmisən, nələr!

Əlbəttə, sənə də çətin idi, bizə də!

Sən yerindən tərpənə bilmirdin!

Bizim isə yanına gəlmək imkanımız yox idi!

İndi görüşünə tələsirik, hüzuruna gəlirik, mənim ana Torpağım!

HƏM DƏ:

* Səni əsirlikdən qurtarmağa;
* Murdar ləpirlərin izlərindən təmizləməyə;
* Yenidən əkib-becərməyə, alın tərimizlə suvarmağa;
* Sinəndəki çalın-çarpaz dağları, yaraları sağaltmağa;
* Qoynunu laləzara çevirməyə, toy-düyün, şadlıq-sevinc dolu bayramlar, şənliklər keçirməyə can atırıq!

Sənə qurban olum, Torpağım!

Nə yaxşı ki, bu həsrətə son qoyuldu!

### *Sənə qurban olum, ordum mənim!*

Ordun varsa, yurdun var!

Yurduma sən qaytardın məni, əziz, şanlı Ordum!

Bilirəm, bəzən bizi görəndə sıxılırdın!

Torpaqların işğalında özünü sanki günahkar sayırdın!

Amma səndə nə təqsir: düşmən hücum edib Vətən torpaqlarını kəndbəkənd ələ keçirəndə "bəy"lərin başı hakimiyyət davasına qarışmışdı!

Nə əsgər və zabitin qədrini bilən, nə ordu quran, nə də onu silah-sursatla, ərzaq və geyimlə təmin edən vardı...

Düşmən bu boşluqdan yaxşıca istifadə etdi!

Ulu Öndərimiz geri dönəndə isə artıq hər şey gec idi!

Amma Heydər Əliyev gecikmədi, Horadiz əməliyyatı ilə xeyli kəndi geri qaytardı!

Düşmən də ilk dəfə sənin gücünü gördü!

Odur ki, atəşkəsə razı oldu!

Sonra ATƏT-in vasitəçiliyi ilə "sülh danışıqları" başladı...

Başladı və uzandı...

Amma daha səni unutmadılar, böyük qayğı və diqqət göstərdilər.

Ali Baş Komandan İlham Əliyev gördüyü çoxcəhətli işlər sayəsində Azərbaycan Ordusunu dünyanın ən güclü əlli ordusu sırasına çıxardı!

Birgə təlimlərdə, beynəlxalq miqyaslı hərbi oyunlarda gücünü, peşəkarlığını dəfələrlə nümayiş etdirdin.

Xalq səni sevdi, sənə inandı, güvəndi!

2016-cı ilin dördgünlük Aprel müharibəsində, bu ilin iyulunda Tovuz istiqamətindəki döyüşlərdə sən öz sözünü dedin!

Növbəti təxribat baş verəndə isə əks-hücuma keçərək bütün qüdrətini, imkanlarını ortaya qoydun!

Əsgərimin də, zabitimin də, generalımın da qisasını aldın!

Çox sağ ol, şəhid balalarımın qanını yerdə qoymadın!

Şuşada yallı gedənlərə mərmi və güllə yağışı altında "müharibə yallısı" oynatdın!

Sənə qurban olum, Ordum mənim!

Düşməni gəldiyi yerədək qovdun, Vətən torpağını azadlığa çıxardın!

## *Sənə qurban olum, a şəhid balam!*

Çoxunuz lap cavan idiniz...

Ananız gəlin gətirib, toyunuzu belə görməmişdi...

Övladlarını yetim qoyub gedənləriniz də oldu...

Vətən çağıranda, Vətənə gərək olduğunuzu hiss edəndə heç nəyə baxmadan ələ silah götürərək əsgər libasını geyindiniz!

Təkcə ata-ananızın deyil, həm də Vətənin övladı olduğunuzu sübut etdiniz!

Yaraqlı-silahlı, arxalı-köməkli erməninin üstünə hünərlə, cəsarətlə getdiniz!

Nə düşməndən qorxdunuz, nə də ölümdən!

Əslində, heç ölməmisiniz də, şəhidlik məqamına, şəhidlik zirvəsinə yüksəlmisiniz!

"Şəhidlər ölməz, Vətən bölünməz" - sözləri dilinizin əzbəri idi.

Bunu ucadan, qürurla söyləyərdiniz!

Vətənin bölünməsinə yol verməmək üçün dünyada malik olduğunuz, sizə xas olan ən yüksək dəyərdən - şirin canınızdan belə keçdiniz!

Siz söylədiklərinizi əməlinizlə sübut etdiniz, bizlər isə sizi daim anacağıq, qəlbimizdə, xatirəmizdə əbədi yaşadacağıq!

Cismən aramızda olmasanız da, mənən daim bizimləsiz, Qarabağın azad edilmiş hər bir kəndinin ən əziz, ən doğma, əbədi sakinlərindən biri sayılırsınız!

Sənə qurban olum, a şəhid balam!

Sən axıtdığın müqəddəs qanınla Azərbaycan tarixinin qızıl səhifələrini yazırsan!

Sən özün qəhrəmanlığın və şücaətinlə həmin tarixin şərəfli səhifələrinə çevrilirsən!

Vətən Səni unutmayacaq!

Azərbaycan xalqı sənin qəhrəmanlığını və rəşadətini daim yaddaşında hifz edəcəkdir!

Sənə qurban olum, a şəhid balam!

Məni qınama ki, səninlə birgə döyüşüb, səninlə bərabər ölə bilmədim!

Allah sizlərə rəhmət eləsin, şəhid balalarımız!

Parçalanmış torpaqlarımızı qanınızla birləşdirdiniz!

## *Sənə qurban olum, türk qardaşım!*

Nə böyük ürəyin, nə böyük etibarın varmış!

Ey gözəl İstanbulun əbədi sahibləri, dostla dost, düşmənlə düşmən olmağı hamıdan yaxşı bacaran, böyük türk qardaşım!

Necə də qüdrətli, əzəmətli şəxsiyyətlər, sərkərdələr yetişdirə bilirsən!

Dünənin Atatürkünü, bu günün Rəcəb Tayyib Ərdoğanını!

Fəxr edirik: indi dünyada keçəri sözü, xüsusi çəkisi, hamının hesablaşdığı bir dövlətə çevrilmisən!

Nə qədər güclənsən də, nə qədər qüdrətlənsən də dostlarını, türk qardaşlarını unutmursan!

Səninlə Çanaqqalada birgə vuruşduq!

Sənin hünərinlə Bakını daşnak-bolşevik işğalından birlikdə azad etdik!

Bu gün yenə bir yerdəyik, Qarabağın azadlıq mücadiləsində sizi yanımızda görürük!

"İki canda bir ürək" - söyləyən Türkiyə iqtidarı da, müxalifəti də, bitərəfi də haqq işimizi dəstəkləyir, birmənalı şəkildə yanımızda olduqlarını, lazım gələn köməyi göstərəcəklərini bəyan edirlər!

Çoxları bu dostluğa həsəd aparır, paxıllığımızı çəkənlər də var.

Bu gün heç kim Azərbaycan rəhbərinin yanında Türkiyə Prezidenti barədə heç nə deyə bilməz və ya əksinə, Azərbaycan Prezidenti olmayan yerdə Türkiyə dövlət başçısının yanında Azərbaycan Prezidenti haqqında artıq-əskik danışmağa cəsarət edə bilməz!

Dərhal ağzından vurular, susdurular!

XXI əsr türk əsri olacaq - deyirdilər.

Çoxları bundan qıcıqlanır, narahatlıq duyurdu.

Ancaq sayın Rəcəb Tayyib Ərdoğan Türkiyəni nəhəng dünya dövlətinə, öz sözü, mövqeyi olan, milli maraqlarını təmin edəcək gücə malik dövlətə çevirməyi bacardı!

Ulu Tanrı Türkiyənin bu mərdliyinin, bu xeyirxahlığının mükafatını gecikdirmir - ona Aralıq və Qara dənizlərində yeni neft-qaz yataqları ərməğan edir.

Halal haqqıdır!

Sənə qurban olum, Türk qardaşım!

Həmişə belə mərd, cəsur, güclü, qüdrətli, dostluqda etibarlı və bizimlə birgə ol!

## *Sənə qurban olum, Ali Baş Komandanım!*

Tanrı bizi çox ağır sınağa çəkdi: əsl rəhbərimizdən ayrı düşdük, torpaqlarımız işğala məruz qaldı, məşəqqətli məcburi köçkün həyatı yaşamalı olduq...

Tanrı bizə rəhm göstərdi: Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı, ölkəni xanlıqlara parçalanmadan və fəlakətlərdən qurtardı, yeni neft strategiyasını hazırlayıb icrasına başladı, daxili və xarici siyasətin konturlarını cızdı, ordu quruculuğunun, qaçqın və məcburi köçkünlərə dövlət qayğısının əsasını qoydu, Azərbaycanın haqq işini dünyaya yaydı...

Amma ömür vəfa etmədi, Qarabağın düşməndən azad edilməsi prosesini sona çatdıra bilmədi...

Beləliklə, yarımçıq qalmış işləri başa çatdırmaq, xalqın istək və arzularını gerçəkləşdirmək kimi çətin və məsuliyyətli vəzifələrin ağırlığı sənin çiyinlərinə düşdü, mənim Ali Baş Komandanım!

Sən nələr etmədin?

Bütövlükdə, Ulu Öndərimizin və xalqımızın ümid və etimadını ən yüksək səviyyədə doğruldaraq, mümkün olmayanları belə gerçəkliyə çevirdin!

ETDİKLƏRİNİ SAYMAQLA QURTARMAQ OLMUR...

* Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlətə, dünyada söz sahibinə, transmilli layihələr müəllifinə çevirdin;
* Güclü, ən müasir silahlarla silahlanmış modern ordu yaratdın;
* Azərbaycanın haqq işini dünyaya çatdırmaq üçün BMT-nin tribunasından dönə-dönə, səmərəli şəkildə istifadə etdin;
* Ermənistanın faşist simasını və terrorçu mahiyyətini bütün dünyaya tanıtdın;
* Azərbaycan tarixinin ən cəsarətli, ən qüdrətli qərarını qəbul edərək əks-hücum əməliyyatı üçün "irəli" əmrini verdin!

Sənə qurban olum, Ali Baş Komandanım!

Vətən müharibəsinin bütün ağırlığını və məsuliyyətini öz üzərinə götürdün!

Bizi həsrətlə gözlədiyimiz qələbəyə çatdırmaq üçün bütün qüvvə və imkanları səfərbər etdin!

Xalqımızı bu zəfərə sən çatdırdın, qələbənin şirinliyini bizə sən daddırdın!

Azərbaycanın dostları ilə etibarlı dost, düşmənləri ilə barışmaz düşmən oldun!

Həyata keçirdiyin bu nəhəng fəaliyyət sayəsində Azərbaycan tarixinin ən müdrik, ən qüdrətli dövlət xadimi və sərkərdəsi səviyyəsinə yüksəldin!

Sənə qurban olum, Ali Baş Komandanım!

Bu müharibənin baş sərkərdəsi, baş qəhrəmanı, baş təşkilatçısı Sənsən!

Bu qələbənin müəllifi, əldən çıxmış torpaqlarımızı yenidən geri qaytaranı Sənsən!

Əvvəlcə ermənini peşman etdin!

Sonra məğlub etdin!

Daha sonra rüsvay etdin!

Ən nəhayət, rəzil vəziyyətə saldın!

Gəldiyi yerədək qovdun!

Davamçısı olduğun siyasi kursa, düşünülmüş siyasətinə, yüksək diplomatık istedadına, parlaq natiqlik məharətinə, hərbi bacarığına, böyük səbrinə, ən nəhayət, nifrət və qəzəbinə qurban olum, mənim Ali Baş Komandanım!

Bizi bu zəfərə Sən çatdırdın!

Bizi bu şərəfə Sən çatdırdın!

Bizə bu xoşbəxt anları, günləri, illəri yaşamağı məhz Sən qismət elədin!

Mənim qəhrəman Prezidentim!

Mənim şanlı Ali Baş Komandanım!

“Azərbaycan” qəzeti,<br>12 dekabr 2020-ci il

# Tarixə qızıl hərflərlə yazılan tarixi Qələbə

**Böyük Zəfər Gününü də gördük!**
**Bu sevinci və xoşbəxtliyi də yaşadıq!**
**Ordusunu məhv etdiyimiz düşmənin kapitulyasiyasında gücünü və qüdrətini təsdiq edən Azərbaycan Ordusunun Qələbə paradının qürurunu da duyduq!**
**Xalqımızın, dünya azərbaycanlılarının, Azərbaycansevərlərin aşıb-daşan sevincini Azadlıq meydanına cəmləyərək buradan Yer üzünün hər tərəfinə yaydıq!**

Hamı bildi ki, Azərbaycan qalibdir!

Hamı gördü ki, Azərbaycan Ordusu erməni işğalçı ordusunu diz çökdürdü!

Hamı gördü ki, Azərbaycan əsgəri qəhrəmanlıqla döyüşərək faşist xislətli düşməni öz torpaqlarından sürətlə qovdu, bir qarış ərazisini belə özgədə qoymadı!

Bu, Azərbaycan xalqının möhtəşəm Qələbəsidir!

Bu, Azərbaycan Ordusunun hünər və şərəfli çarpışmasının məntiqi və qanuni nəticəsidir!

Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ikiəsrlik münaqişəyə əbədilik nöqtə qoyan və tarixə qızıl hərflərlə həkk edilən tarixi Qələbəsidir!

Bu, həm də Azərbaycan - Türkiyə qardaşlığının, bir millətin iki dövlətinin rəhbərləri olan İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın sarsılmaz dostluğunun və birliyinin təntənəsidir.

❖❖❖

İki il bundan qabaq - 15 sentyabr 2018-ci ildə bu iki qardaş və qalib sərkərdə Bakının bolşevik-daşnak əsarətindən azad edilməsinin 100 illiyinə həsr olunmuş təntənəli hərbi paradın tribunasında da qoşa dayanmışdılar!

O zaman cənab İlham Əliyev tezliklə Şuşada qaldırılacaq Qələbə bayrağının Bakıya gətirilərək Azadlıq meydanında dalğalandırılacağına söz verdi!

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işi uğrunda mübarizəsinə daim dəstək verəcəklərini bəyan etdi!

Bu gün hər iki sərkərdə dediklərinə əməl etdiklərini də birlikdə nümayiş etdirdilər!

Bəli, Şuşada ucaldılan Qələbə bayrağı Azadlıq meydanında dalğalandırılır!

Dost və qardaş ölkələrin rəhbərləri isə möhtəşəm paradı seyr edərək haqlı və şərəfli qələbələrindən məğrurcasına qürur duyurlar!

Qələbə dostluğun və qardaşlığındır!

Qarabağ Azərbaycandır!

❖❖❖

Zəfər paradını Müzəffər Ali Baş Komandan İlham Əliyev qəbul edirdi!

Azərbaycan Ordusunun qurucusu, müharibənin baş qəhrəmanı, xalqımızı möhtəşəm qələbəyə çatdıran Prezident İlham Əliyev!

Bu gün onun hamıdan çox sevinməyə, hamıdam çox zəfər sevincini yaşamağa, hamıdan çox qürur duymağa haqqı var!

Zəfər paradını qardaş Türkiyəni dünya dövlətinə çevirən, haqq işi uğrunda mücadiləsində Azərbaycanı birmənalı və hərtərəfli şəkildə dəstəkləyən, daim yanında olan hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan qəbul edirdi!

Onun sevinci dost sevincidir, dostunun qələbəsinə verdiyi töhfələrdən doğan məmnunluq sevincidir, Azərbaycanın düşmən üzərindəki tarixi qələbəsindən duyduğu qanuni iftixar hissindən yaranan sevincdir!

Bu məqamda sevinməyən, qürur və iftixar duymayan insan yoxdur!

Bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycan xalqının tarixi qələbəsindən fərəhlənməyən azərbaycanlı da tapa bilməzsən!

Budur birlik, budur qüvvət, budur milli birliyimizdən doğan möhtəşəmlik!

❖❖❖

Əvvəlcə Müzəffər Ali Baş Komandan İlham Əliyev təntənəli nitq söylədi!

Qalib sərkərdəyə məxsus sevinc və qürurla!

Xalqının etimadını doğruldan Rəhbər, düşməni məğlub edərək rəzil günə salan Ali Baş Komandan kimi!

Hər sözü dosta bir sevinc və fərəh, düşmənə qurğuşun ağırlığında!

Qısa və parlaq nitqində 30 il davam edən işğala, dünyadakı proseslərə, Azərbaycan Ordusunun rəşadətli hərbi əməliyyatlarına dəqiq qiymət verdi.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan orijinal bir çıxış etdi.

Öz çıxışını Azərbaycan şairlərinin şeirləri ilə bəzədi!

Dünya çaplı dövlət rəhbəri, müdrik və təcrübəli insan, Azərbaycan xalqının böyük dostu kimi bu münaqişəyə və müharibəyə münasibətini bildirdi, daim yanımızda olduqlarını və olacaqlarını söylədi, xalqımızı səmimi-qəlbdən təbrik etdi.

Bu tarixi nitqlərin bəzi məqamlarını olduğu kimi diqqətinizə təqdim edirik.

**PREZİDENT İLHAM ƏLİYEV:**

* Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Qubadlı rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il



**Zəngilan rayonu.** 23 dekabr 2020-ci il

* Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.
* Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik.
* Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir.
* Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi və Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik.
* Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.
* Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq.
* Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq.

**PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN:**

* Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir.
* Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.
* Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.
* Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuzillik həsrət sona çatmışdır.
* Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!

❖❖❖

Zəfər paradında təqribən üç min, Vətən müharibəsi şəhidləri qədər hərbçi iştirak edirdi.

Bunun rəmzi mənası vardı: Şəhidlər ölməz, Vətən bölünməz!

Bəli, şəhidlik zirvəsinə yüksələn hər bir Azərbaycan döyüşçüsü bu meydanda təmsil olunurdu!

Yəqin ki, onların ruhları da Azadlıq meydanındaydı, Qələbə paradında bu sayaq iştirak edərək canlarını fəda etdikləri Zəfərin sevincinə qoşulmuşdular.

Zəfər paradında qazilərimiz də iştirak edirdilər!

Bəzisi əlağacına dayanaraq gəlmişdi...

Bu qələbədə onların hər birinin payı, şəxsi töhfəsi var.

Həm də təkcə döyüşərək qələbənin qazanılmasında iştirak etməmişdilər.

Onlar öz sağlamlıqları ilə də qələbəyə xüsusi paylarını əlavə etmişdilər.

Qazilərimiz həm də şəhidlərlə bu gün orduda xidmət edənlər arasında bir fəxarət körpüsü bağlantısını yerinə yetirirdilər.

Onların bu paradda iştirakı dövlətin bu qəbildən olan insanlara xüsusi münasibətinin, hörmətinin, qayğı və diqqətinin daha bir təzahürüdür.

Bütün qoşun növləri təmsil olunurdu.

Qalib Azərbaycan Ordusunun əsgər və zabitləri ritmik marşın sədaları altında vüqarla, nizamla addımlayır, boy-buxunları, geyimləri, zəhmli görkəmləri ilə qəlbləri riqqətə gətirirdilər:

Bunlar bizim igidlərdir!

Torpağı işğaldan bu cəngavərlər azad ediblər!

Düşməni torpaqlarımızdan bu igidlər qovublar!

Şəhidlərin və qazilərin qisasını bu oğullar alıblar!

Belə ordu ilə, belə qəhrəmanlarla fəxr etməyə dəyər!

❖❖❖

...Təntənəli marşın sədaları altında bir anda meydanda canlanma yaranır.

Qalib Azərbaycan Ordusunun Qələbə paradında iştirak edən qəhrəman əsgər və zabitlər, onların ardınca hərbi texnika hərəkətə başlayır.

Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunanın önündən keçir.

Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanında dalğalanır.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanından keçirirlər.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən fəxrlə addımlayırlar.

Silahlı Qüvvələrdən sonra meydana hərbi texnika daxil olur.

Düşmənin vurulub sıradan çıxarılmış, habelə qənimət götürülmüş hərbi texnikası, Azərbaycan Ordusuna məxsus müxtəlif adda və çeşiddə ən yeni silahlar, erməni ordusunu vahiməyə salan, məhv edən pilotsuz uçuş aparatları, raket kompleksləri bir-birini əvəz edir.

Bəli, Zəfər paradında hər şey var: qəhrəmanlıqla, cəsarət və ruh yüksəkliyi ilə döyüşən şanlı Azərbaycan əsgər və zabitləri, onların ixtiyarına verilmiş ən yeni texnologiyaya əsaslanan silahlar, qardaş Türkiyənin dost münasibəti...

Bir də hamımızın həsrətlə gözlədiyimiz böyük Qələbə, Qələbə sevinci və bayramı!

❖❖❖

Meydana erməni tankları "daxil olur!"

Lakin onlar özləri gəlməyib, gətiriblər!

Bir zamanlar erməni başbilənləri kimlərəsə arxalanaraq yeni müharibənin başlayacağı təqdirdə tanklarının və zirehli texnikalarının Bakının küçələrində görünəcəyi ilə lovğalanırdılar!

Bu lovğalıq onlara baha başa gəldi, Müzəffər Ali Baş Komandan İlham Əliyev ordularını məhv etdi, özlərini diz çökdürdü, indi isə dağıdılmış ordunun zirehli texnikalarının "nümunə"lərini dünyaya göstərir: bir qismi Azərbaycan əsgərinin dəqiq atəşləri nəticəsində sıradan çıxarılaraq dağıdılmış halda, bir hissəsi isə hərbi qənimət kimi!

Onların sayı o qədərdir ki, hərbi paradda siyahısını belə səsləndirmək mümkünsüzdür!

Yığcam rəqəm isə belədir: Vətən müharibəsində təcavüzkarın 3,8 milyard dollarlıq hərbi texnikası məhv edilib və ya qənimət götürülüb!

❖❖❖

Parada düşmən bayrağı da gətirilmişdir!

Məhv edilmiş Ermənistan ordusunun endirilmiş bayrağı...

Bükülmüş, əzilmiş, əski parçasına dönmüş vəziyyətdə.

Bu bayraqlar əbədi olaraq Azərbaycan əsgərinin çəkmələri altında olacaq, bir daha Qarabağı görməyəcək!

Daha Azərbaycan ərazisində heç bir statuslu, yaxud qondarma qurum olmayacaq!

Münaqişəni hərbi yolla həll edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan xalqının iradəsi budur!

❖❖❖

Meydana PUA-lar daxil olur!

Azərbaycan Ordusunun qısa müddətdə düşməni təslim etməsində mühüm rol oynayan pilotsuz uçuş aparatları!

* Məhz bu PUA-lar Azərbaycana XXI əsrin yeni müharibə nümunəsini yaratmağa kömək etdi!
* Məhz bu PUA-lar ən qısa vaxtda, ən az itki ilə ən yüksək nəticə qazanılmasına şərait yaratdı!
* Məhz bu PUA-lar düşmənin ən əlçatmaz yerlərdə, ən dərin səngərlərdə gizlənmiş canlı qüvvəsinin və zirehli texnikasının tapılıb məhv edilməsində başlıca vasitə oldu!

Deyirlər, Qarabağ müharibəsində iştirak edən ermənilərin indi də bir gözü göydədir və hər dəqiqə Azərbaycanın pilotsuz uçuş aparatlarının başlarına od ələyəcəyindən qorxurlar.

Hərbi paradda bir çox yeni PUA-lar, raketlər, hava hücumundan müdafiə sistemləri nümayiş etdirildi.

Silahların bir qismindən Vətən müharibəsində istifadə edilmişdir.

Əgər ermənilər ağıllarını başlarına yığmasalar, qisasçılıq niyyətlərindən əl çəkməsələr, dadına baxa biləcəklər!

❖❖❖

Zəfər paradının təşkili, canlı qüvvənin qoşun növünə uyğun geyimi, şəxsi təchizatı, yüksək səviyyədə sıra keçidi, texniki təminatın müasirliyi və növ müxtəlifliyi qürur və heyrət doğurur, təkcə hərbçilərin deyil, tamaşaçıların da əhvali-ruhiyyəsini, aşıb-daşan sevinc və şadlıq hisslərini isə söz belə təsvir etməkdə acizdir!

* Bu tarixi Qələbənin tarixi paradını gözlə görmək, kənardan müşahidə etmək özü bir ayrı zövq, tam yeni fərəh hissləri doğuran nadir tamaşa idi.
* Bu parad Azərbaycanın bir dövlət olaraq iqtisadi gücünün, siyasi nüfuzunun və diplomatik uğurlarının nümayişi idi.
* Bu parad həm də Azərbaycan ilə Türkiyənin, dünya çaplı iki görkəmli dövlət və siyasi xadimin - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluğunun, qardaşlığının və əməkdaşlığının nümayişi idi!
* Bu parad Azərbaycan Ordusunun - igid Azərbaycan əsgər və zabitlərinin peşəkarlığının, onların malik olduqları silahların nümayişi idi!
* Bu parad dünyaya yeni taktika və strategiya, müharibə nümunəsi göstərən Azərbaycanın malik olduğu yeni silahların, PUA-ların nümayişi idi!
* Bu parad Ermənistanın məğlubiyyətinin, döyüş meydanlarında qoyub qaçdıqları silah-sursatın, müxtəlif növlü zirehli texnikanın nümayişi idi!
* Bu parad Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının tarixi Qələbəsinin möhtəşəmliyini, Zəfərinin əzəmətini göstərən ümumxalq şənliyinin təntənəli nümayişi idi!

**Qələbə bizimdir!**
**Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!**

*"Azərbaycan" qəzeti,*
*15 dekabr 2020-ci il*

## 44 gündə dəyişdirilən reallıqlar

*"Bu gün mən deyirəm: hər kəs mövcud olan reallıqlarla barışmalıdır".*
**İlham ƏLİYEV**

**Reallıq hazırda mövcud olanlardır!**
**Reallıq indiki zamanda dəyişə bilmədiyimiz, qəbul etmək zorunda qaldığımız gerçəklikdir!**
**Reallıq başqalarının da gördüyü, bildiyi və təbii yanaşdığı faktlardır!**
**Reallıq heç də həmişə qanunamüvafiq olmur!**
**Reallıq heç də həmişə hüququn, ədalətin mövqeyini əks etdirmir!**
**Reallıq əbədi də olmur!**
**Onu müxtəlif üsullarla - danışıqlar və razılaşmalar yolu, yaxud qanunun tətbiqi, ən nəhayət, gücün əli ilə dəyişmək mümkündür!**

❖❖❖

27 il idi ki, acı reallıqla üz-üzə qalmışdıq!

Ərazilərimizin 20 faizi işğal edilmiş, 20 min Vətən övladı şəhid olmuş, 1 milyondan çox qaçqın və məcburi köçkün ordusu yaranmışdı.

Bunu bütün dünya görürdü, bilirdi və təsdiq edirdi.

Həm də nəinki bilirdi, işğalçı Ermənistanın öz qoşunlarını işğal etdikləri ərazilərdən çıxarılması üçün dünyanın ən mötəbər qurumu - BMT-nin Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmiş, ATƏT-in Minsk qrupu yaradılaraq münaqişənin sülh yolu ilə həlli üçün 3 həmsədr dövlətə mandat verilmişdi.

ATƏT-in Minsk qrupunun üzvləri - ABŞ, Fransa və Rusiyanın təmsilçiləri otuz ilə yaxın idi ki, vaxtaşırı Yerevana və Bakıya gedib-gəlir, hərdən müxtəlif dövlətlərin ərazilərində münaqişə tərəfləri olan dövlətlərin başçılarının və ya xarici işlər nazirlərinin görüşlərini təşkil edir, sonda da bəyan edirdilər ki, münaqişə tərəfləri hansı qərarı qəbul etsələr, onu dəstəkləyəcəklər!

Münaqişə tərəflərindən biri olan Ermənistan ATƏT-in uzun illər boyu "əziyyətlə" hazırladığı "baza prinsiplərini" qəbul etmək istəmir, Azərbaycan isə bir qarış torpağını heç kəsə güzəştə getməyəcəyini söyləyirdi.

Tərəflərdən biri "millətlərin öz müqəddəratını təyin etməsi hüququnu" əlində bayraq edir, digəri isə ərazi bütövlüyünün əsas olduğunu söyləyirdi.

ATƏT fəaliyyəti dövründə Azərbaycanın ərazi bütövlüyünü qəbul etsə də, bir kərə belə Ermənistanın işğalçı dövlət olduğunu dilinə gətirmədi!

ATƏT fəaliyyəti dövründə daim "tarazlaşdırma yolunu" əsas tutdu, işğalçı ilə işğala məruz qalana heç bir fərq qoymadı!

ATƏT bir dəfə də Ermənistana sanksiya tətbiq etmək barədə düşünmədi, bu məsələni müzakirəyə çıxarmadı, hətta gündəmə belə gətirmədi!

ATƏT də, BMT də, həmsədr dövlətlər də Ermənistanın bütün şıltaqlıqlarına dözdülər, onun danışıqlardan müxtəlif bəhanələrlə yayınmasına, sülhə gəlmək istəməməsinə "səbirlə", "təmkinlə" yanaşdılar.

Diasporu tərəfindən maliyyələşdirilən və müdafiə olunan, Rusiyadan pulsuz silah-sursat alan, işğal etdiyi ərazilərdə uzun illər boyu müdafiə səngərləri və istehkamları quran Ermənistan isə torpaqları qaytarmaq barədə düşünmürdü də!

Hətta axırda o qədər qudurdu ki, baş nazir Paşinyan "Qarabağ Ermənistandır - nöqtə" açıqlamasını verdi!

Bundan sonra da ATƏT özünə "sadiq" qaldı, münaqişənin "hərbi yolla həlli variantının" mümkünsüzlüyü üzərində israrla dayandı, "sülh danışıqlarının" davam etdirilməsinin vacibliyini göstərdi.

Artıq "mövcud reallıqla hesablaşmaq" barədə Azərbaycana ismarıclar eşitdirilməyə başlanmışdı...

❖❖❖

Ermənistanın havadarları və müdafiəçiləri bircə məsələni diqqətdən yayındırmışdılar:

Azərbaycana İlham Əliyev rəhbərlik edir!

O, heç zaman işğalla barışmayacağını, bir qarış torpağı belə düşmənə güzəştə getməyəcəyini, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına icazə verməyəcəyini dəfələrlə bəyan etmişdi.

Həm də, deyəsən, bilmirdilər ki, Azərbaycan Prezidenti İlham Əliyev sözünün sahibidir, dediyini edəndir!

Üstəlik, görünür, İlham Əliyevin dəmir iradəsindən, Azərbaycan xalqının əzmindən və öz rəhbəri ətrafındakı sarsılmaz birliyindən, habelə Azərbaycan Ordusunun qüdrətindən xəbərsiz imişlər!

Bütün bunlardan nəinki xəbərdar oldular, hətta şahidinə, dəyişikliklərin seyrçisinə çevrildilər!

Həm də bütün bunlar elə-belə, sakitliklə baş vermədi!

Ən əsası Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə BMT-yə və ATƏT-ə yox, bütün dünyaya əyani şəkildə sübut etdi ki, əslində, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi yolla, sonrakı mərhələdə siyasi vasitələrlə, bütövlükdə isə hərbi-siyasi yolla həll olunmalıdır!

❖❖❖

27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən hərbi əməliyyatlar dövründə cənab İlham Əliyev Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya ictimai fikrində yaranmış bütün stereotipləri və rəyləri alt-üst, təsəvvürləri isə darmadağın etdi!

27 illik erməni işğalına birdəfəlik son qoydu!

Qüdrətli Azərbaycan Ordusunun məğrur sərkərdəsi olmaqla mövcud reallıqları tamamilə dəyişdi!

Həm də bu 44 gün ərzində yeni reallıqlar, hamının hesablaşmaq məcburiyyətində olduğu reallıqları yaratdı!

Müzəffər Ali Baş Komandan İlham Əliyev ən əvvəl Ermənistan haqqında yaradılmış miflərin üzərindən çalın-çarpaz xətt çəkdi, onun boşluğunu və mənasızlığını əməldə sübut etdi:

BU MİFLƏR HANSILAR İDİ:

* Ermənistan qalib tərəfdir, onun güclü, məğlubedilməz ordusu var, Azərbaycan onunla hesablaşmalıdır;
* Ermənistan işğal etdiyi ərazilərdə keçilməz "Ohanyan xətti", alınmaz istehkamlar və bunkerlər, güclü atəş nöqtələri yaradıb;
* Azərbaycan yenidən müharibəyə başlasa, yeni ərazilər itirəcəkdir;
* Dağlıq Qarabağ Muxtar Vilayəti artıq on illərdir müstəqil dövlət kimi yaşayır, "qarabağ xalqı" buna alışıb, daha Azərbaycanın tərkibində qala bilməz;
* Azərbaycan ərazi güzəştlərinə hazır olmalıdır, xüsusən Şuşa, Laçın və Kəlbəcərin qaytarılması barədə düşünməməlidir;
* Azərbaycan "hərbi ritorikadan" əl çəkməli, yalnız "sülh danışıqları" barədə düşünməlidir;
* Ermənistan xalqı qədim və mədəni xalqdır, onu incitmək, xətrinə dəymək olmaz!

44 günlük hərbi əməliyyatlar zamanı ortaya yeni strategiya və taktika qoyan, XXI əsrin yeni müharibə nümunəsini göstərən, ən yeni silahlarını nümayiş etdirən İlham Əliyev ordusu hər şeyin tam dəyişdiyini əyani şəkildə döyüş meydanında hamıya göstərdi:

* Ermənistan Azərbaycan qarşısında diz çökən, ordusu məhv edilən, Azərbaycanla hesablaşmağa məcbur olan dövlətdir;
* Heç bir səngər, müdafiə istehkamları, bunkerlər və atəş nöqtələri Azərbaycan Ordusu qarşısında tab gətirə bilməz, daha ermənilərin tərifli "alınmaz" müdafiə xətləri yoxdur!
* Ermənistanın təxribatlarına cavab verən Azərbaycan nəinki yeni ərazilər itirmədi, əksinə, işğal altındakı bütün əraziləri azad edərək ermənilərə əsrlərboyu unutmayacaqları dərs verdi!
* İlham Əliyev dediyinin üstündə duraraq qalib sərkərdə kimi bəyan etdi ki, nəinki Dağlıq Qarabağ Muxtar Vilayətinin müstəqilliyindən danışmaq, ümumiyyətlə, status məsələsini yada salmaq, hansısa statusdan danışmaq mənasızdır!
* Şuşanı dünya hərb tarixinə düşəcək əməliyyatla çox qısa zamanda alan, Kəlbəcər və Laçını bir güllə atılmadan geri qaytaran Azərbaycan nəinki heç kəsə heç nəyi güzəştə getmədi, həm də Naxçıvana quru yol açılmasına nail oldu!
* Hərbi əməliyyatların gedişini izləyənlər, Azərbaycan Ordusunun yeni silahlarla erməni ordusuna toy tutduğunu mavi ekranlar vasitəsilə görənlər Azərbaycanın heç kəsi hədələmədiyinə, öz ordusu ilə müharibə başlayacağı təqdirdə nəyə nail olacaqları barədə həqiqətləri söylədiyinə əmin oldular!
* İşğaldan azad edilmiş rayonlardakı dağıntıları, Laçın və Kəlbəcərdən çıxarkən ermənilərin evləri yandırmalarını, meşələri qırmalarını, ev heyvanlarını güllələmələrini görənlər anladılar ki, erməni xalqı qədim deyil, mədəni deyil, məzlum və zavallı deyil, vəhşidir, barbardır, quldur və qaniçəndir, faşist Nijdeyə heykəl qoymağa layiq xalqdır!

❖❖❖

Bəs İlham Əliyevin yaratdığı və bütün dünyanın şahidi olduğu yeniliklər, yeni reallıqlar hansılardır:

* Müharibəni Ermənistan başladı, dərsini aldı, hərbi əməliyyatların dayandırılması üçün dünyada yalvarmadığı, dabanını yalamadığı dövlət və qurum başçısı qoymadı, Azərbaycan qarşısında diz çökdü, Paşinyan "7 şərti"ni zibil qutusuna ataraq İlham Əliyevin bütün şərtləri və tələbləri ilə razılaşdı!
* Qalib dövlət, qalib ordu, qalib xalq Azərbaycandır, Ermənistanın keçmiş prezidentləri, indiki baş naziri alçaldılan, rəzil duruma salınan, xalqını di-

lənçi, acınacaqlı günə salan, özgə torpaqlarına görə genofondunu məhv edən faşist xislətlilərdir!

* Azərbaycan Ordusunun dünyaya nümunə olan hərbi əməliyyatları dünya ölkələri tərəfindən maraqla öyrənilir, həm də yüksək peşəkarlığa, əhvali-ruhiyyəyə, döyüş qabiliyyətinə malikdir, Ermənistan qisasçılıq fikrindən vaz keçməlidir, Türkiyə və Azərbaycanla dil tapıb əməkdaşlıq qurmağa çalışmalıdır, əks halda bu dövlətin və onun əhalisinin gələcəyi yoxdur!
* Ermənistan uzun illər boyu Azərbaycan ərazisində törətdiyi dağıntılara, vəhşiliyə, qarətçiliyə, talançılığa görə cavab verməli, təzminat ödəməlidir!
* Azərbaycan ərazisində yaşamaq istəyən erməni əhalisi Azərbaycan qanunlarını qəbul etməli, özlərini ölkədə yaşayan digər millətlər kimi aparmalı, terror və separatizm meyillərindən uzaq durmalıdır!
* Azərbaycan daim güclü və məğlubedilməz orduya malik olacaq, dağılmış əraziləri qısa müddətdə bərpa edəcək, əhalinin geri qayıtmasına lazımi şərait yaradacaq, demokratik prinsiplərin inkişafına daim sadiq qalacaq, xalqın rifahını durmadan yüksəldəcək, müstəqil dövlətin tərəqqisini təmin edəcəkdir!

❖❖❖

Otuz il ərzində sürətlə inkişaf edərək qüdrətli dövlətə çevrilən, Ermənistanı məğlubiyyətə uğratmaqla miskin günə salan, qüvvələr nisbətini bütün parametrlər üzrə öz xeyrinə dəyişən Azərbaycanın özü də tamamən dəyişmişdir.

Bu dəyişikliyin təşəbbüsçüsü, icraçısı və baş memarı cənab İlham Əliyevdir!

O, Azərbaycanı gücləndirmiş, siyasi nüfuzunu və hörmətini artırmış, müasir və demokratik dövlətə çevirmişdir.

O, Azərbaycanı transmilli layihələr müəllifinə, dünyanı və Avropanı enerji resursları ilə təmin edən ölkəyə çevirmişdir.

O, Azərbaycanı nəqliyyat və logistika mərkəzinə, qonşularına və dostluq etdiyi dövlətlərə daim fayda gətirən, öz maraqlarını uğurla təmin edən dövlətə çevirmişdir.

O, Azərbaycanı işğalla barışmayan, düşməni məğlub və rüsvay edərək öz ərazilərindən qovan qüdrətli dövlətə çevirmişdir.

O, həm də xalqımızı qalib, məğrur, qürurlu xalq etmişdir!

Bu gün isə qalib sərkərdə, zəfər çalmış dövlət başçısı kimi üzünü bütün dünyaya tutaraq özünün yaratdığı yeni reallıqlarla hamını barışmağa və hesablaşmağa dəvət edir:

"Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm də iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır".

❖❖❖

"Biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı".

Zəfərin mübarək, Azərbaycan!

Yeni reallıqların mübarək, Azərbaycan!

Ərazi bütövlüyün mübarək, Azərbaycan!

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

***"Azərbaycan" qəzeti,***
***18 dekabr 2020-ci il***

# İlham Əliyev dedi və etdi

*Yaxud qalib Ermənistanın acınacaqlı məğlubiyyəti*

*"Nəyi, necə, nə vaxt etmək lazımdır,*
*onu mən bilirəm".*
***İlham ƏLİYEV***

*" Sözümüz imzamız qədər mötəbərdir".*
***İlham ƏLİYEV***

*** Biz bir qarış torpağımızı belə düşmənə güzəştə getməyəcəyik!**
*** Biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına yol verməyəcəyik.**
*** Biz işğal olunmuş torpaqlarımıza qayıdacağıq!**
*** Biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik!**
**Bu sözləri cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi 17 il ərzində müxtəlif məqamlarda dəfələrlə, dönə-dönə demişdir!**
**Budur, dedi və etdi!**
**Erməni hərbi birləşmələri Azərbaycan torpaqlarından qovuldu!**
**Azərbaycanın hər bir yaşayış məntəqəsində üçrəngli bayrağımız dalğalandı!**

❖❖❖

Dövlətsiz ermənilərə Azərbaycan torpaqları hesabına dövlət yaradılması xalqımızın faciəsinə çevrildi.

XX əsrdən start verilən bu proses günümüzədək davam edir.

Qədim Azərbaycan şəhəri İrəvan Ermənistana paytaxt kimi verildi.

1948-1953-cü illərdə soydaşlarımız dədə-baba torpaqlarından deportasiya edilərək onlara məxsus yaşayış məntəqələrində xaricdən gətirilən ermənilər yerləşdirildi.

Ötən əsrin 90-cı illərində SSRİ-nin süqutu dövründə yaranan fürsətdən bəhrələnən ermənilər havadarlarının köməyi ilə yeni torpaqların işğalına başladılar.

Həmin vaxtlar Dağlıq Qarabağı və ətrafdakı yeddi rayonu ermənilərin işğal etmələrinin bir neçə səbəbi də vardı:

Əvvəla, Ulu Öndər Heydər Əliyev Siyasi Büro üzvlüyündən kənarlaşdığından daha onlara Moskvada kimsə mane ola bilmirdi.

İkincisi, həmin dövrdə Azərbaycana mərkəzi rəhbərliyə mütilik göstərənlər, maymaqlar, qorxaqlar, qətiyyətsizlər, habelə səriştəsizlər və vəzifə hərisləri başçılıq edirdilər.

Üstəlik, nə vaxtında ordu yaradıldı, nə torpaqların müdafiəsi təşkil olundu, nə də beynəlxalq qurum və təşkilatlarla iş aparıldı.

İşğal faktı başa çatdıqdan sonra isə BMT-nin 4 məlum qətnaməsinin icrası bu məqsədlə yaradılan ATƏT-in Minsk qrupuna həvalə edildi.

27 il ərzində bir santimetr belə torpağın qaytarılmasını təmin etməyən Minsk qrupunun mövqeyi isə bundan ibarət idi ki, münaqişənin hərbi yolla həlli variantı yoxdur və yalnız sülh danışıqları vasitəsilə torpaqlar azad oluna bilər.

Hələ bu harasıdır, ATƏT-in Minsk qrupu:

* Bir dəfə də Ermənistana "işğalçı" demədi;
* İşğalçı ilə işğala məruz qalanı fərqləndirmədi, daim tarazlaşdırmağa çalışdı;
* Ermənistana "işğal etdiyin ərazilərdən çıx" (BMT-nin 4 qətnaməsinə uyğun olaraq) söyləmədi;
* Heç bir sanksiya tətbiq etmədi;
* Bütün fəaliyyəti ilə danışıqları uzatmağa, yaranan "reallıqla" Azərbaycan tərəfini barışdırmağa çalışdı;
* Düşmənin sılahlanmasına, işğal ərazilərində möhkəmlənməsinə, buraya xaricdən yeni ermənilərin gətirilərək kütləvi surətdə məskunlaşdırılmasına göz yumdu;
* Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin bütün xəbərdarlıqlarına soyuq yanaşdı.

Bunlardan ruhlanan ermənilər isə nəinki özlərini işğal etdikləri ərazilərin sahibi kimi aparırdılar, hətta bizi "yeni torpaqların işğalı üçün yeni müharibə" ilə hədələməyə başlamışdılar.

❖❖❖

İlham Əliyev və zaman göstərdi ki, Azərbaycan Ali Baş Komandanının sözləri, sadəcə, hədə-qorxu yox, ciddi xəbərdarlıqlar imiş!

17 il mənasız sülh danışıqlarına, ermənilərin ərköyünləşdirilməsinə və qudurdulmasına dözən, sona qədər torpaqları sülh yolu ilə, ATƏT-in hazırladığı baza prinsiplərinə əsasən, həllinə çalışan Azərbaycan rəhbəri, nəhayət, Ermənistanın növbəti hərbi təxribatına əks-hücumla cavab verdi!

Beləliklə, 27 sentyabr 2020-ci ildə Azərbaycan xalqının Vətən müharibəsi başlamış oldu!

Bu müharibə tarixə XXI əsrin yeni müharibə nümunəsi kimi düşdü!

Bu müharibə Ermənistanın darmadağın edilməsi, diz çökdürülməsi ilə nəticələndi!

Bu müharibə Azərbaycan torpaqlarının işğaldan azad olunmasına, ərazi bütövlüyünün bərpasına səbəb oldu!

Bu müharibə İlham Əliyevin adını "İtirilmiş əraziləri geri qaytaran dövlət başçısı" kimi tarixin qızıl səhifələrinə yazdı!

İlham Əliyev dedi və etdi: düşməni müqəddəs torpaqlarımızdan həmişəlik qovdu!

Üstəlik, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin əvəzini çıxaraq, bütün şəhidlərimizin, viran qoyulmuş yaşayış məskənlərimizin də qisasını aldı!

❖❖❖

İlham Əliyevin möhtəşəm qələbəsinin başlıca səbəbləri hansılardır?

Bu suala birlikdə cavab tapmağa çalışaq!

Əvvəlcə qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev bu qələbəyə uzun yol gəlmiş, bir neçə mühüm sahədə - qüdrətli dövlət, güclü ordu quruculuğu ilə yanaşı, beynəlxalq təşkilat və qurumlarla, diplomatiya sferasında, habelə informasiya cəbhəsində də yorulmadan çalışmışdır.

Diqqət yetirdikdə görürük ki, İlham Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk günlərdən daim düşünülmüş, uzaqgörən siyasət yürütmüş, məqsədə çatmaq yolunda həmişə hesablanmış, ölçülü-biçili addımlar atmışdır.

Həm ölkə, həm də beynəlxalq miqyasda İlham Əliyevin gördüyü işlər eyni zamanda bir neçə məqsədə xidmət etmişdir.

Məsələn, Azərbaycanın karbohidrogen ehtiyatlarının ixracının şaxələndirilməsi, qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarılması təkcə ölkəyə külli miqdarda valyuta vəsaiti gətirmirdi. Eyni zamanda özünün təhlükəsizliyinə də qarant yaradır, qarşılıqlı maraqların təmini hesabına yeni dostlar qazandırırdı.

Başqa sözlə, güclənən Azərbaycan güclü dövlətlərlə bərabərhüquqlu əməkdaşlıq yaradırdı.

Başqa bir misal, idmanın inkişafı Azərbaycan gəncinin sağlamlığına, pis vərdişlərdən uzaqlaşmasına kömək göstərir.

Eyni zamanda idman müstəqil Azərbaycanın dünyaya yeni təqdimatında, müsbət imicinin formalaşdırılmasında uğurlu vasitə rolunu oynayır.

Azərbaycan gənci müxtəlif arenalarda keçirilən idman yarışlarında qalıb gələrək dövlət bayrağını qaldırır, himnini səsləndirir.

Ölkəmizdə keçirilən idman yarışlarına gələnlər paytaxt Bakı və xalqımızla yaxından tanış olur, şəxsi təəssürat qazanır.

Yarım milyardlıq televiziya seyrçisi olan "Formula-1" yarışlarının izləyiciləri indiyədək yaxşı tanımadıqları Azərbaycan, Bakı haqda yeni məlumatlar əldə edirlər.

Beləliklə, idman yalnız idman olaraq qalmır, xalqları, dövlətləri, insanları bir-birilərinə tanıdır, yaxınlaşdırır.

Turizm də onun kimi.

İnsanlar gəzməyi, görməyi, yeni ölkələrlə tanış olmağı çox sevirlər.

Razı qaldıqları yerlərə yenə, dönə-dönə gəlirlər.

Bu, həm də yaxşı gəlir mənbəyi sayılır və bir çox dövlətlərin büdcəsinə turizm hesabına hər il xeyli vəsait daxil olur.

Azərbaycana gələnlərin sayı da ilbəil artır.

Turizm axını yalnız Xəzərin qumlu sahilləri, gözəl təbiət mənzərələri və mətbəximizlə bağlı deyil.

Xalqımızın mehribanlığı, gülərüzlüyü, tolerantlığı da mühüm rol oynayır.

Müsəlman ölkəsinə gələn turistlər burada bütün dinlərə və millətlərə hörmətlə yanaşıldığının və demokratik dövlət qurulduğunun şahidinə çevrilirlər.

Ötən əsrin 90-cı illərində ermənilərin dünyaya təqdim etməyə çalışdıqları "zavallı milləti incidənlərin" "vəhşilərin", "qaniçənlərin" Azərbaycanda mövcud olmadığını öz gözləri ilə görürlər.

❖❖❖

Hər bir rəhbər xalqının içindən çıxır.

Yaxud hər bir xalq öz rəhbərinə bənzəyir.

Hamıya bəlli həqiqətlərdir!

Xüsusən dünya birliyinə yeni qoşulan ölkələrin tanınmasında rəhbər faktoru mühüm əhəmiyyətə malikdir.

Bu sarıdan Azərbaycan xalqının bəxti gətirib.

Hər cür müqayisə qüsurludur - demişlər.

Odur ki, heç bir müqayisə aparmayacağıq!

İlham Əliyevin iti ağlı, dərin zəkası, aristokrat davranışı, parlaq və sinədəftər nitqi, xarici dilləri mükəmməl bilməsi və sərbəst danışması, jurnalistlərlə səmimi ünsiyyəti və digər mənəvi keyfiyyətləri onu artıq dünya çaplı siyasi liderlər səviyyəsinə yüksəltmişdir.

Xalqını təmsil edərək ucalan rəhbərimiz xalqını da məharətlə ucaldır!

Uğurlu rəhbərin nüfuzu, öz növbəsində, xalqın nüfuzuna çevrilir.

Eyni rakursdan yanaşırıq.

İlham Əliyev BMT-nin Təhlükəsizlik Şurasına rəhbərlik etdi.

Bu hüququ özünün yaratdığı yeni Azərbaycanla birlikdə qazanmışdı.

Əvvəla, Təhlükəsizlik Şurasının iclaslarına sədrlik etdiyi müddətdə mövcud imkandan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ problemini bir daha,

həm də obyektiv və beynəlxalq hüquqa uyğun şəkildə dünya dövlətlərinin diqqətinə çatdırdı.

İkincisi, sədrliyi dövründə dünyanı düşündürən, narahat edən məsələ və problemlərin müzakirəsinə nail olaraq ölkəmizə çoxlu dostlar qazandırdı.

Yaxud İslam Əməkdaşlıq Təşkilatına rəhbərlik etdiyi dövrdə İslam dövlətlərinin yaxınlaşmasına, əməkdaşlıqlarının güclənməsinə şəxsi töhfələrini verdi.

Eyni zamanda həm İslam dininin, həm də Azərbaycanın sülhsevər, tolerant olduqlarını bir daha dünyaya nümayiş etdirdi.

Daha bir misal, Azərbaycanı humanitar forumların keçirildiyi mərkəzə çevirən İlham Əliyev təkcə ölkəmizdə dünyanı qayğılandıran problemlərin müzakirəsinə, onların həllinə dəyərli təkliflər verilməsinə nail olmur, həm də həmin forumda iştirak edən dünyanın görkəmli siyasətçilərini və dövlət xadimlərini, məşhur simalarını Azərbaycanla dostlaşdırırdı.

Ən nəhayət, yaxınlarda BMT-nin Təhlükəsizlik Şurasıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Minsk qrupu üzvlərinin təklifi ilə yeni qətnamə qəbul etmək istəyirdilər.

Ölkəmizin maraqlarına xidmət etməyən qətnamə!

Lakin bu məkrli sənəd qəbul olunmadı!

Çünki Qoşulmama Hərəkatına rəhbərliyi dövründə İlham Əliyev bu quruma üzv dövlətlərin maraqlarını təmin edən bir sıra addımlar atmış, onların çoxuna Azərbaycan dövləti öz yardımını göstərmişdir.

Dost ölkələr isə bu məqamda Azərbaycanın maraqlarının qorunmasına öz dəstəklərini verdilər.

❖❖❖

Hərbi əməliyyatların başlandığı ilk günlərdən bütün dünya gördü ki, Azərbaycan Ordusu, həqiqətən, dünyanın ən güclü orduları sırasında yer tutmağa layiqdir.

O, təkcə ən müasir silahlarla silahlanmayıb, həm də yeni taktika ilə vuruşur.

Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunu yaradanda vahid məqsəd güdmüşdür:

Erməni işğalçılarını ölkə ərazisindən qovub çıxarmaq və minimum itki ilə maksimum nəticə əldə etmək!

Bu vəzifəni yerinə yetirən İlham Əliyev Azərbaycanın yeni müharibə tarixini yazdı!

Öz gücü, siyasəti, qurucusu olduğu ordusu ilə ölkəmizin ərazi bütövlüyünü təmin edərək, tarixə qüdrətli dövlət başçısı, mahir sərkərdə, qətiyyətli rəhbər kimi düşdü!

Ən əsası dediyini etdi!

Sözünün imzası qədər mötəbər olduğunu bir daha sübuta yetirdi!

***"Azərbaycan" qəzeti,***
***24 dekabr 2020-ci il***

# İlham Əliyev yeni tarix yazır

*"Biz gücümüzü səfərbər edərək bax bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də, tarixi günlərdir. Bəlkə də, çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq."*

***İlham ƏLİYEV***

**Adətən, tarixi salnaməçilər, tarixçilər yazırlar!**
**Təskirələrdə, salnamələrdə, müxtəlif tarixi əsərlərdə!**
**Dövlət başçıları da tarix yazırlar!**
**Amma yeni tarix yazmaq onların heç də hamısına nəsib olmur!**
**Çünki onlar tarixi iş otaqlarında yazmırlar, döyüş meydanlarında, real həyatda, əməlləri ilə, möhtəşəm qələbələri ilə yaradırlar!**

Tarixçilərin və salnaməçilərin yazıb gələcək nəsillərə çatdırdıqları tarix isə, əslində, qalib dövlət başçıları və sərkərdələrin gördükləri işlər, yaratdıqları yeniliklər, həyata keçirdikləri dəyişikliklərlə bağlı olur!

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun tarix yaradan rəhbəri, itirilmiş əraziləri geri qaytarmağı bacaran, ölkənin ərazi bütövlüyünü bərpa edən sərkərdə övladı var!

Bəli, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Azərbaycanın yeni tarixini, şərəf tarixini yazıb-yaradır!

❖❖❖

Tariximizin son beş əsrində İlham Əliyev Azərbaycanın ilk dövlət başçısıdır ki, işğal olunmuş əraziləri geri qaytardı!

Bunu bacardı, bunu etdi: güclü və arxalı düşməni diz çökdürərək məğlubiyyətini etiraf etdirdi!

Düşmən məhvdən qurtarmaq üçün kapitulyasiya sənədini imzaladı!

Beləliklə, iki əsr ərzində davam edən Qarabağ münaqişəsinə son qoyuldu!

Qarabağ əbədilik Azərbaycanın oldu!

Azərbaycanın ərazi bütövlüyü bərpa edildi!

İlham Əliyev Azərbaycan və dünya tarixinə qalib sərkərdə, itirilmiş əraziləri geri qaytaran dövlət rəhbəri kimi düşdü!

❖❖❖

Torpaqlar qılıncın gücü ilə fəth olunur!

Ərazilər müharibə yolu ilə alınır və verilir!

Vaxt var idi dövlətlər dünyanın bu başından o başına qədər əraziləri müharibə yolu ilə ələ keçirirdilər!

Güclünün qabağına çıxan, ona bir söz deyən olmurdu!

Çünki belədə onlar da fateh sərkərdənin qılıncının gücünü öz üzərilərində hiss edə bilərdilər.

Müasir dünya isə bambaşqadır!

İndi işləməsə də, "beynəlxalq hüquq" adlı bir anlayış var.

Güclülər zəiflərin qulağını çəkmək istəyəndə ondan istifadə edirlər.

İndi beynəlxalq güclər var!

Beynəlxalq təşkilatlar, qurumlar mövcuddur.

Onların əlində dövlətləri ram etməyə, zəiflətməyə, sivil dünyadan təcrid etməyə xidmət edən "sanksiya" adlı bir alət də var!

İndi dünyada "ictimai rəy" adlanan bir anlayış da var!

Onu isə dünyada tanınan müxtəlif KİV-lər formalaşdırırlar.

İndi "sosial şəbəkə" adlı bir "meydan" da var!

Bu meydanda kim nə istəyir yazır, çəkib göstərir, həm də həqiqət ilə yalanı ayırmaq həmişə mümkün olmur!

Bütün bunları nəzərə almadan müharibə aparmaq, qalib gəlmək mümkün deyil!

Bütün bunlarsız yeni tarix yaratmaq da mümkünsüzdür!

❖❖❖

İlham Əliyev Azərbaycana rəhbərliyə başlayanda artıq Ermənistan işğal etdiyi əraziləri "özününküləşdirməyə" başlamışdı:

* gecə-gündüz dayanmadan müdafiə qurğuları, atəş nöqtələri, istehkamlar qurur, bunkerlər tikirdi;
* özünün aldığı və ona bağışlanan silahları işğal ərazilərinə daşıyaraq torpaqları xoşluqla qaytarmayacağını nümayiş etdirirdi;
* bütün dünyaya car çəkərək ermənilərin "öz müqəddəratını təyin etmək" hüququndan dəm vurur, "Dağlıq Qarabağ Respublikası"nı müstəqil respublika kimi təqdim edirdi;
* ATƏT-in Minsk qrupu sülh danışıqlarının ağası idi və bu danışıqlar da acı bağırsaq kimi uzanırdı;

* erməni torpağı "danışıqlar yolu ilə" qaytarana oxşamırdı...

Heydər Əliyev siyasi kursunun davamçısı olduğuna görə Azərbaycanın yeni rəhbərinin çiyninə çoxsaylı vəzifə yükü qoyulmuş, həm də çox böyük məsuliyyət düşmüşdü.

Görüləsi iş çox, imkanlar məhdud, dəstək verib kömək edənlərimiz isə yox dərəcəsində idi!

Ən əvvəl Ulu Öndərin başladığı işi davam etdirmək, uğurla sona çatdırmaq, xalqın ona bəslədiyi etimad və inamı doğrultmaq vacib idi!

Üstəlik, Ulu Öndər Heydər Əliyev ona Şuşanı işğaldan qurtarmaq barədə şəxsi vəsiyyətini də etmişdi...

Tarixi dəyişmək, yeni tarix yazmaq qaçılmaz idi...

Amma bunun üçün mümkün olmayanları mümkünə çevirmək, necə deyərlər, möcüzə yaratmaq tələb olunurdu!

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu möcüzəni yarada, müstəqil Azərbaycanın yeni tarixinin ilk səhifələrini yaza bildi!

❖❖❖

"Sülh danışıqları"nı davam etdirməklə bərabər, müharibəyə hazırlıq da görülməliydi!

Bu yolda isə problemlər, maneə və əngəllər çox idi:

* Beynəlxalq hüquq işləmirdi, onun əvəzində ikili standartlar hökm sürürdü.
* Beynəlxalq qurum və təşkilatlar, bir sıra aparıcı dövlətlər açıq-aşkar ermənilərin ədalətsiz mövqelərini müdafiə edirdilər.
* Transmilli layihələrin reallaşdırılmasında ermənipərəst qüvvələr maneələr yaradır, "ekoloji", maliyyə problemləri törətməyə çalışırdılar.
* Hər dəfə Azərbaycan ordunu yeni silahlarla təchiz edəndə havadarları Ermənistana qiyməti milyard dollardan çox olan silah-sursat hədiyyə edir, tarazlaşdırma yaratmağa çalışırdılar.

Lakin İlham Əliyev nə məqsədindən döndü, nə geri çəkildi, nə də yoruldu!

Ən əvvəl, mövcud vəziyyəti dərindən təhlil etdi, dünyanın, Cənubi Qafqazın və Azərbaycanın inkişaf istiqamətlərini, baş verə biləcək siyasi, iqtisadi, qlobal dəyişiklikləri düzgün müəyyənləşdirdi, uzun bir dövr üçün atılacaq zəruri addımları dəqiqliyi ilə hesabladı, erməni məkrini zərərsizləşdirməyin, ölkəyə çoxsaylı dostlar qazandırmağın yollarını tapdı, daxili və xarici imkanları səfərbər etdi, əlverişli zamanın yetişməsini, bütün hazırlıqların məqamında başa çatmasını təmin etdi!

Görülən işlərin bir qismi aşkar, bəziləri isə məxfi qaydada aparılırdı.

Cənab İlham Əliyev "hücum diplomatiyası"na start verərək, beynəlxalq qurum və təşkilatlarda, ayrı-ayrı ölkələrdə ermənilərin şər-böhtan kampaniyasına qarşı mübarizəni gücləndirdi. Bu sahədə işin effektliyini artırmaq üçün Azərbaycan və Türkiyə diasporunun əlbir, əlaqəli fəaliyyəti təmin olundu.

Qonşularla, habelə dünyada xüsusi çəkisi olan dövlətlərlə qarşılıqlı maraqlara və hörmət prinsipinə əsaslanan əlaqələr yaradıldı, dost, dəstəkçi ölkələrin sayı artırıldı.

Bu məsələdə Prezident İlham Əliyevin şəxsi nüfuzunun və diplomatik məharətinin xüsusi əhəmiyyəti oldu. Belə ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və cənab İlham Əliyevin Təhlükəsizlik Şurasının iclaslarına müəyyən dövrdə sədrlik etməsi, habelə İslam Əməkdaşlıq Təşkilatına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına, Qoşulmama Hərəkatına sədrliyi dövründə dünyanın və bəşəriyyətin taleyüklü problemləri və onların uğurlu həlli ilə bağlı ciddi təşəbbüslər irəli sürərək təkliflər verməsi, əksər dövlətlərin maraqlarına uyğun problemlərin müzakirəyə çıxarılması və onların çözümü istiqamətində səmərəli addımlar atılması sayəsində Azərbaycana dost münasibəti bəsləyən, onun haqq işini müdafiə edən dövlətlərin sayı əhəmiyyətli dərəcədə çoxaldı.

İlham Əliyev uzaqgörənliyi Azərbaycan Ordusunun gücləndirilməsində, ən müasir texnologiyalara əsaslanan silahlarla təchiz edilməsində həlledici amilə çevrildi.

Ermənistan və onun dəstəkçiləri sülh danışıqları ilə, sadəcə, baş qatırdılar. Onlar "münaqişənin sülh yolu ilə həllindən başqa variant yoxdur" desələr də, əslində, Azərbaycanla yeni müharibəyə ciddi hazırlıqlar görürdülər. Çünki bilirdilər ki, nə Azərbaycan Prezidenti cənab İlham Əliyev, nə də Azərbaycan xalqı heç zaman işğalla barışmayacaq və nəyin bahasına olursa-olsun, torpaqları azad etməyə çalışacaqlar! Odur ki, işğal ərazilərinin təbii relyefindən istifadə edərək betonlaşdırılmış müdafiə qurğuları, keçilməz səngərlər, bunkerlər, minalanmış sahələr yaradır, havadarlarının köməyi ilə möhkəm istehkam qurğuları tikirdilər.

Elə zənn edirdilər ki, Azərbaycan müharibəyə başlayacağı təqdirdə ona ciddi tələfat yaşadacaq, tikdikləri qurğularda gizlənərək hücum edən hissələri geri oturdacaq, bir daha özlərinin "məğlubedilməz ordu", "məğlubedilməz millət" imiclərini möhkəmləndirərək ərazilərimizi həmişəlik əllərində saxlayacaqlar.

Hətta bu xülya ilə "yeni Ermənistanın" təzə "xəritəsini" çap etdirərək geniş yayır, məktəblərdə yeni nəslə tədris edirdilər.

Bütün bunlardan cənab İlham Əliyevin xəbəri vardı!

Ali Baş Komandanımız bu xülyaları yaxşı bilir, daim nəzərə alırdı!

Ancaq düşməndən fərqli olaraq zəruri hazırlıq işlərini son dərəcə məxfiliklə aparırdı.

İlham Əliyevi aldatmaq istəyən Paşinyan son nəticədə özü aldanaraq axmaq vəziyyətinə düşdü!

Həm də bunu hərbi əməliyyatlar başlayandan bir neçə gün keçdikdən sonra anladı...

Belədə isə gec idi!

Çox gec!

❖❖❖

Ali Baş Komandan İlham Əliyev müharibəyə təkcə hərb cəbhəsində deyil, diplomatiya və informasiya sahəsində də ciddi hazırlaşmışdı.

Hər şey gözlənildiyi kimi oldu:

* Ermənistan "qoymayın zavallı və qədim xalqı qırırlar, kilsələri dağıdıb bizi öz torpaqlarımızdan çıxarırlar" - deyə şivən qoparmağa başladı!
* Bir sıra dövlətlərin başçıları, beynəlxalq qurum və təşkilatların rəhbərləri, tanınmış siyasilər hərbi əməliyyatların dayandırılması, sülh danışıqlarına başlanılması yönündə Azərbaycana xahişlər etməyə başlayaraq, təsir və təzyiq göstərməyə can atdılar!
* Erməni diasporu tərəfindən ələ alınmış beynəlxalq televiziya kanalları və informasiya agentlikləri Azərbaycana qarşı şər-böhtan kampaniyasına start verdilər!

Burada bir incə məqam da vardı!

Ermənistan və onun havadarları elə zənn edirdilər ki, hərbi əməliyyatlara başlayan Azərbaycan düşmən mövqelərinə elə ilk hücumlarında səngər, istehkam, mağara və tələlərə rast gələrək çıxılmaz vəziyyətə düşəcək, ciddi texnika və canlı qüvvə itkisinə məruz qalaraq geri oturdulacaq, müharibəni dayandırmaq üçün "vasitəçi" dövlətlərə, ATƏT-ə yalvar-yaxara başlayacaq.

Sən öz saydığını say…

Həqiqətən də, belə bir vəziyyət yarandı!

Amma əks cəbhədə!

Miskin və rəzil günə düşən Ermənistan oldu!

Diz çöküb yalvaran, ona-buna saysız telefon zəngləri ilə minnətçi düşən Ermənistanın baş naziri Paşinyan idi!

Ali Baş Komandan İlham Əliyev isə heç bir xahişə, minnətə, təsir və təzyiq cəhdinə baxmırdı!

Beynəlxalq qurum və təşkilatların rəhbərlərinə "Otuz ildə harada idiniz, niyə münaqişəni sülh yolu ilə həll etmirdiniz?" sualını verərək boğazlarını qurudurdu!

İlham Əliyevə hər cür təsir və təzyiq cəhdi irəlicədən uğursuzluğa məhkum idi.

Paşinyanın yeddi şərtini ayaq altına atan Ali Baş Komandan İlham Əliyev yalnız bircə şərt irəli sürürdü:

- Düşmən kapitulyasiya sənədinə imza atsın, torpaqlarımızdan dərhal rədd olub getmələri barədə konkret tarixlə qrafik göstərsin!

Hər şey Prezident İlham Əliyevin dediyi kimi oldu!

❖❖❖

Müharibə dövrü fəaliyyətində cənab İlham Əliyev informasiya savaşında da qalib gələrək ermənilərə xidmət edən telekanallarda və informasiya agentliklərində ermənilərin özlərinin xəbis, faşist simalarını ifşa etdi, onların şər-böhtanlarını konkret faktlarla puça çıxardı, qərəzli mövqe sərgiləyən jurnalistləri qaçılmaz dəlil və faktlarla yerlərində oturtdu, obyektiv və ədalətli olmağa səslədi!

İlham Əliyev bu müharibənin dinlərarası savaş kimi təqdim edilməsinin də qarşısını aldı, Azərbaycan xalqının tolerant olduğunu, multikulturalizm ənənələrinə sadiqliyini sübut etdi, ölkəmizdə yaşayan bütün xalqların və millətlərin azərbaycançılıq ideyası ətrafında sıx birləşdiyini göstərdi.

İlham Əliyev "xristianların məbədləri dağıdılır" erməni yalanının hiylədən başqa bir şey olmadığını söyləyərək bunun əksini, işğal zonasındakı Azərbaycana məxsus 67 məsciddən 63-nün dağıdıldığını ortaya qoydu!

İlham Əliyev həmçinin sübut etdi ki, "münaqişənin həlli yalnız sülh danışıqları ilə mümkündür" deyənlər, əslində, riyakarlıq edir, işğal faktını əbədiləşdirməyə, torpaqların Ermənistana qalmasına çalışırmışlar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin əsl yolu elə müharibəymiş!

Azərbaycan xalqının Vətən müharibəsi ədalətə, beynəlxalq hüququn öz yerini tutmasına, düşmənin özgə torpaqlarından qovulmasına şərait yaradan ən sürətli və təsirli vasitəymiş!

❖❖❖

Azərbaycan xalqının qalibiyyət savaşına rəhbərlik edən cənab İlham Əliyev yeni bir tarix yaratdı.

Onun bu tarixi Qələbəsini şanlı-şöhrətli edən bir neçə mühüm məqam da var:

* İlham Əliyev yalnız Azərbaycan torpaqlarını ələ keçirərək onu otuz il işğalda saxlayan Ermənistana yox, həm də dünyanın bir sıra aparıcı dövlətlərinin dövlət başçılarının qərar qəbul etmələrinə təsir göstərən, parlamentlərində "erməni məsələsinə" dair müzakirələr açdıran, qanundankə-

nar layihələr qəbul etdirən, beynəlxalq qurumları və KİV-ləri ələ alaraq öz maraqlarına işləməyə sövq edən dünya ermənilİyinə qalib gəldi!
* İlham Əliyev ermənilərin patoloji xəstəliyinə çevrilən "erməni soyqırımı" və "böyük Ermənistan dövləti" xülyasının daşıyıcılarına qalib gəldi!
* İlham Əliyev həm də "məğlubedilməz xalq" və "məğlubedilməz ordu" anlayışını məhv edərək onun gülünclüyünü göstərdi!

Əslində, İlham Əliyev özünə qədərki tarixi dəyişərək yeni tarixin təzə səhifəsini yazmağa başladı.

**YENİ TARİXİN BAŞLANĞICI OLARAQ:**
* Dünya hərb tarixində yenilik kimi qəbul edilən və hərbi əməliyyatların aparılmasında mühüm dəyişikliklərə səbəb olacaq yeni növ müharibə nümunəsini ortaya qoydu!
* Cənubi Qafqazda qüvvələr nisbətinin əsaslı şəkildə dəyişdiyini göstərdi!
* Müstəqil Azərbaycanın yeni tarixinin yeni xəritəsini cızdı, Naxçıvanla Azərbaycanı quru yolla birləşdirən çox mühüm strateji əhəmiyyətli dəhlizin açılmasını təmin etdi!
* Cənubi Qafqazda əməkdaşlığın yeni formatlarının yaranmasına və uğurlu fəaliyyətinə zəruri təməl yaratdı!
* Ermənistanın faşist, fitnəkar, vəhşi, dağıdıcı və murdar xislətini aşkar və ifşa edərək "məzlum millət" maskasını cırıb atdı!
* Ermənistanın Qarabağ siyasətini birdəfəlik məhv edərək tarixin "məğlublar arxivinə" göndərdi!
* Ermənistanın işğalçı, qocaya, qadına, uşağa aman verməyən, mülki obyektləri dağıdan və dinc əhalini hədəfə alan mənfur ordusunu darmadağın etdi!
* Cənubi Qafqazda sülhə və əməkdaşlığa yol açan yeni mühit və düzən formalaşdırdı!
* Ən nəhayət, İlham Əliyev COVID-19 pandemiyası səbəbindən bütün dünya üçün qorxulu, tənəzzül ili sayılan 2020-ci ili müstəqil Azərbaycanın yeni tarixinin başlanğıcı sayılan "Zəfər ili"nə çevirdi.

Eşq olsun yeni tariximizin müəllifi və yaradıcısı Müzəffər Ali Baş Komandan İlham Əliyevə!

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

*"Azərbaycan" qəzeti,*
*31 dekabr 2020-ci il*

# Müharibənin Azərbaycan modeli

*"Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik".*
**İlham ƏLİYEV**

*"Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".*
**İlham ƏLİYEV**

**Sovetlər İttifaqının tərkibində olduğumuz yetmiş il ərzində biz istədiyimiz kimi inkişaf etməmişik!**
**Bizi "inkişaf" etdiriblər.**
**Qazandığımızdan qat-qat azını xərcləmişik.**
**Çünki SSRİ dövründə qazanılanın hamısı "ümumittifaq fondu" deyilən bir yerə yığılar, sonra oradan bölünərdi!**
**Kimə nə düşərdi düşərdi...**
**Qırmızı imperiyanın qoyduğu qayda beləydi!**
**Kimsənin onu pozmağa cürəti və gücü çatmazdı!**
**Müstəqil xarici siyasət yürüdə bilməzdik.**
**Bundan ötrü SSRİ Xarici İşlər Nazirliyi vardı.**
**Milli maraqlardan söhbət gedə bilməzdi.**

"Sovet xalqı" adlandırılan bir toplumun maraqları vardı, o da SSRİ-nin maraqları demək idi.

Dövlət də vahid idi, "millət" də və onların mərkəzində Rusiyanın maraqları dayanırdı.

Hamı da ona "böyük qardaş" deyərək "istəkləri" ilə hesablaşardı.

Sovetlər dövründə Azərbaycanın öz ordusunun olmasını kimsə ağlına belə gətirə bilməzdi.

"Qızıl Ordu" adlandırılan vahid sovet ordusu vardı. Xidmət yaşı çatmış bütün gənclər həmin orduya çağırılar, SSRİ ərazisində, hətta "beynəlmiləlçi borcunu yerinə yetirmək üçün" Əfqanıstanda belə qulluq edə bilərdi.

O illərdə müsəlman respublikalarından olan gəncləri, adətən, sovet ordusu tərkibində olan "inşaat batalyonları"na salardılar. Hərbi vərdişlərə, bilgilərə yi-





**Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı**

Azadlıq meydanı, 10 dekabr 2020-ci il





**Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı**
Azadlıq meydanı, 10 dekabr 2020-ci il





**Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı**

Azadlıq meydanı, 10 dekabr 2020-ci il





**Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı**

Azadlıq meydanı, 10 dekabr 2020-ci il





**Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı**

Azadlıq meydanı, 10 dekabr 2020-ci il





**Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı**

Azadlıq meydanı, 10 dekabr 2020-ci il





**Bakının azad olunmasının 100 illiyi ilə bağlı keçirilən təntənəli paraddan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısında.**

Azadlıq meydanı, 15 sentyabr 2018-ci il





**Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad**

Azadlıq meydanı, 15 sentyabr 2018-ci il

yələnməkdən kənarda saxlayar, xüsusən məxfilik daşıyan raket texnikası ilə bağlı hissələrə yaxın qoymazdılar.

Yeri gəlmişkən, yalnız Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra bu "ənənəyə" son qoydu, azərbaycanlı gənclərin hərbi təhsil alması yolunda maneələri aradan qaldıraraq C.Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbi yaratdı, sonra Azərbaycandakı və SSRİ-nin digər yerlərindəki ali hərbi məktəblərdə azərbaycanlı gənclərin təhsilinə şərait yaradan güzəştli şərtlərə nail oldu.

Birinci Qarabağ müharibəsi dövründə Heydər Əliyev sayəsində təhsil alaraq Vətənə xidmətə qayıdan hərbçilərin həm müharibədə, həm də sonrakı ordu quruculuğunda fəal iştirakı və zəhməti oldu.

Azərbaycan müstəqil dövlət olduqdan sonra hər şey dəyişdi!

Amma bu dəyişikliklərə xeyli zaman sərf olundu.

Əvvəla, həqiqi müstəqilliyə (deklorativ yox) nail olmaq lazım idi.

İkincisi, müstəqil daxili və xarici siyasət yürütmək üçün özün-özünü yaşada, dolandıra bilməliydin.

Başqa sözlə, qazancın dövləti və xalqını saxlamağa, inkişaf etdirməyə çatmalıdır.

Ən nəhayət, bütün bu işlər yüksək səriştə və bacarıqla yerinə yetirilməli idi.

❖❖❖

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi yaşamasının, müstəqil daxili və xarici siyasət yürütməsinin əsasını qoydu.

"Əsrin müqaviləsi" neft kontraktı imzalanaraq Azərbaycanın iqtisadi yüksəlişinin təməli qoyuldu.

Yeni Konstitusiya və onun əsasında müstəqil dövləti idarə etmək üçün zəruri qanunvericilik bazası yaradıldı.

Özəlləşdirmə proqramları həyata keçirildi, aqrar islahatları aparıldı.

Azərbaycanın dünya birliyinə inteqrasiyası başladı.

❖❖❖

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi güclənməsini, milli maraqlara söykənən müstəqil siyasət yürütməsini təmin edərək, onu Cənubi Qafqazın ən güclü dövlətinə və dünyada söz sahibinə çevirdi.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi inkişaf və quruculuq prosesində Azərbaycanın özünəməxsus, hamının qəbul etdiyi və öyrəndiyi inkişaf modelləri də formalaşdı.

Onlardan biri ölkənin iqtisadi inkişaf modelidir.

İnkişafın Azərbaycan modeli Xəzərin karbohidrogen ehtiyatlarının şaxələndirilmiş marşrutla dünya bazarına nəqlini, neftdən götürülən vəsaitin iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv funksiyası daşımasını, sonrakı mərhələdə ölkənin neftdən asılılığının azaldılması və qeyri-neft sektorunun inkişafını nəzərdə tuturdu.

İlham Əliyevin müəllifi olduğu inkişafın Azərbaycan modeli ölkəmizin iqtisadi və siyasi cəhətdən güclənməsinə, dünya birliyinə sıx inteqrasiyasına, Cənubi Qafqazın liderinə çevrilməsinə imkan yaratdı.

Bu modelin uğurları hesabına Azərbaycan dövlətinin əldə etdiyi vəsait ordu quruculuğunu, onun ən müasir silahlarla silahlandırılmasını da təmin etdi.

❖❖❖

İdmanın inkişafının Azərbaycan modeli də İlham Əliyevin formalaşdırdığı mühüm yenilikdir.

Bu model qısa müddətdə ölkəmizdə idmanın sürətli inkişafına, çoxsaylı olimpiya idman kompleksinin, yeni arena, idman qurğuları və idman saraylarının inşaasına şərait yaratdı. Azərbaycan idmançıları dünya, Avropa və beynəlxalq idman yarışlarında iştirak edərək dövlət bayrağımızı yüksəldib himnimizi səsləndirdilər, müxtəlif əyarlı medal və mükafatlar qazandılar.

Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını Bakıda yüksək səviyyədə keçirən Azərbaycan artıq beynəlxalq idman oyunlarının gözəl təşkilatçısı imicini də qazanmışdır.

İdmanın inkişafının Azərbaycan modeli ölkəmizdə sağlam, güclü, vətənpərvər gənclərin yeni nəslinin yetişməsinə mühüm töhfə verdi. Həmin gənclər Azərbaycan Ordusunda da həvəslə xidmət edir, qarşıya qoyulan vəzifələri cəsarət və igidliklə yerinə yetirirlər.

❖❖❖

Multikulturalizmin Azərbaycan modeli də müstəqillik dövrünün nailiyyətlərindəndir.

Ölkəmiz çoxkonfessiyalıdır, burada müxtəlif dinlərə sitayiş edən insanlar mehribançılıq şəraitində yaşayırlar.

Yeni məscid, kilsə, sinaqoqlar tikilir, insanlar sərbəst şəkildə dini məbədlərdə ibadətlə məşğul ola bilirlər.

Milli mədəniyyətlərin inkişafına daim münbit şərait yaradılır.

Hazırda dünyada multikulturalizmin Azərbaycan modeli maraqla öyrənilir, dünyanın bir çox ölkələrindəki universitetlərdə bu model tədris proqramına salınmışdır.

Azərbaycanda yaşayan xalqların və millətlərin mehribanlığı və birliyi müharibə dövründə düşmənə sarsıdıcı zərbələr vurulmasında və qələbənin qazanılmasında əsas amillərdən biri oldu.

❖❖❖

Müharibənin Azərbaycanın modeli də Prezident İlham Əliyevin gərgin və səmərəli, uzunmüddətli fəaliyyətinin nəticəsidir.

Bu model özünü, ilk növbədə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllinə hazırlıq mərhələsində göstərdi.

Dünyanın yeni düzəninin formalaşdığı, bir sıra dövlətlərin imperiya iddialarından hələ də əl çəkmədiyi, ikili standartların mövcudluğu dövründə müharibəyə başlamaq və onu qələbə ilə başa çatdırmaq elə də asan iş deyildi!

Müharibənin hibrid mərhələsinə keçdiyi, təkcə döyüş meydanında deyil, informasiya "cəbhəsində" və sosial şəbəkədə də döyüşmək zərurəti artıq real gerçəklikdir. Bu gerçəkliyi nəzərə almamaq və qabaqlayıcı tədbirlər görməmək isə mümkünsüzdür!

ATƏT-in Minsk qrupu 27 il sülhyaratma missiyası ilə "məşğul" oldu. Amma necə! Cənab İlham Əliyev Minsk qrupu yaradılan gündən indiyədək onun nə etdiyini (əslində, heç nə etmədiyini) dəqiq ifadə edib:

"1992-ci ildə Minsk qrupu yaradıldı. Minsk qrupunun fəaliyyəti göz qabağındadır. Minsk qrupuna həmsədrlik edən ölkələr müəyyən müddətdən sonra faktiki olaraq bütün səlahiyyətləri öz əllərində cəmləşdirdilər, faktiki olaraq bu məsələni inhisara götürdülər, faktiki olaraq Minsk qrupu bir qrup kimi iflic vəziyyətə düşdü və üç ölkə bu məsələ ilə məşğul olmağa başlamışdır. Amma bunun nəticəsi oldumu? Olmadı. Bizim üçün olmadı, Ermənistan üçün oldu. Ermənistan elə bu nəticəni istəyirdi ki, daim danışıqlar getsin, daim bizim başımızı aldatsınlar, dondurulsun bu məsələ, əbədi qalsın əsarət altında bizim torpağımız, əbədi qalsın işğal altında bizim torpağımız. Bəs nədir Minsk qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bilibmi? Yox! Təzyiq etmək istəyibmi? Yox! Dəfələrlə mən onların qarşısında məsələ qaldırmışdım: əgər məsələnin həllini görmək istəyirsinizsə, sanksiyalar tətbiq edin Ermənistana. Sizin əlinizdədir. Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərisiniz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə - nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə. Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün?

Hər kəs başa düşür. Çünki bu dondurulmuş vəziyyət təbii ki, bu ölkələr arasında bizdən başqa hər kəsi qane edirdi, ilk növbədə, Ermənistanı qane edirdi.

Ermənistan bu torpaqlarda qanunsuz məskunlaşma aparır. Bir söz deyən var? Yoxdur! Bu, cinayətdir, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir. Bir söz deyən var onlara ki, sən niyə qanunsuz məskunlaşma aparırsan? Özü də bunu nümayiş etdirirsən. Ərəb ölkələrindən erməniləri gətirirsən, yerləşdirirsən, o cümlədən Şuşada. Bir söz deyən yoxdur. Bu, nə deməkdir? O deməkdir ki, davam elə, gətir, nə qədər istəyirsən gətir, bu torpaqları erməniləşdir, Azərbaycan mədəni irsini sil. Bu idi mesaj. Yoxsa bu üç ölkə məgər imkanlara sahib deyil ki, təcavüzkara öz yerini göstərsin? İstəmirdilər. Bu reallıq onları qane edirdi.

Ona görə Minsk qrupunun fəaliyyətinə başqa qiymət vermək olmaz. Elə bil bizi bu vəziyyətlə barışmağa sürükləyirdilər ki, yeni reallıqlar yaranıbdır, siz də reallıqlarla hesablaşmalısınız. Biz yeni bir reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır".

ATƏT-in, habelə dünyadakı ermənipərəst qüvvələrin işğalçıya güclü dəstək verdikləri və "münaqişənin sülh yolundan başqa həlli variantı yoxdur" - deyə yorulmadan təkrar edildiyi bir vaxtda hərbi əməliyyatlara əsaslandırılmış şəkildə başlamaq da Azərbaycanın müharibə modelinin tərkib hissəsidir.

İndi dünya əvvəlki dünya deyil!

Daha dünyada gedən proseslərə bir-birilə ziddiyyətdə olan iki superdövlət - ABŞ və SSRİ təsir etmir.

Dünyanın qloballaşma prosesi də iflasa uğramaqdadır.

Yeni güclər, yeni konfiqurasiya, yeni düzən yaranmaqdadır.

Həm də yeni reallıqlar və gerçəkliklər fonunda!

İndi dünyanın hər hansı bir nöqtəsində baş verən və təbii ki, maraq doğuran hər hansı bir hadisə dərhal dünyanın bütün nöqtələrinə yayılır.

Həm də səsli informasiya kimi yox, görüntülü informasiya kimi.

İndi dünyada informasiya yuxarıdan ötürülərək aşağıda formalaşmır. Əksinə, aşağılardan yayılaraq milyonların dəstəyi ilə ictimai rəy kimi təşəkkül tapmaqla yuxarıları onu nəzərə almağa sövq edir.

Daha nəyisə gizlincə həll etmək mümkün deyil!

Odur ki, hər şeyi irəlicədən ölçüb-biçmək, ictimai rəyi nəzərə almaq vacibdir!

Bu, həm də o deməkdir ki, ictimai rəyə təsir göstərməyi, onun öz xeyrinə formalaşmasına yardımçı olmağı bacarmalısan!

44 günlük müharibəyə başlamazdan öncə Ali Baş Komandan İlham Əliyev bütün bunları dəqiqliklə hesablayıb nəzərə almışdı. Həm də əvvəlcədən görün-

məyən, hərbi əməliyyatların gedişində meydana çıxa biləcək məqamları da gözaltı edərək, onlardan da istifadəni, yaxud zərərsizləşdirmənin yollarını müəyyənləşdirmişdi.

Diqqət etdikdə müharibənin Azərbaycan modelinin üç əsas hissədən ibarət olduğu meydana çıxır:

* müharibəyə hazırlıq;
* hərbi əməliyyatların aparılması;
* müharibədən sonrakı dövrdə görüləcək işlər.

Ali Baş Komandan İlham Əliyevin daimi açıq və şəffaf olan fəaliyyətində də üç mühüm məqam aydın nəzərə çarpır:

* diplomatiya sahəsində fəaliyyət;
* müharibənin gedişinə rəhbərlik;
* beynəlxalq KİV-də iş.

Bunlara qədər isə Azərbaycana rəhbərlik etdiyi 17 il ərzində Prezident İlham Əliyev bir çox zəruri məsələləri yoluna qoya bilmişdi. Həm də mənasız danışıqların aparıldığı, Azərbaycana problemin hərbi yolla həllinin yasaq görüldüyü bir dövrdə: Həmin illəri İlham Əliyev belə xarakterizə edir. "Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın!"

Deməli, danlışıqlarla bərabər, mümkün hərbi varianta da hazırlıq dayanmadan davam edirdi.

❖❖❖

Müharibə, ilk növbədə, güclü iqtisadiyyata söykənməlidir!

Çünki onun hər günü milyonlarla dollar vəsait deməkdir.

Əgər bir dövlətin hələ irəlicədən nə qədər çəkəcəyini, uzanacağını bilmədiyi müharibəyə kifayət qədər hazırlığı yoxdursa, qələbə barədə düşünməməlidir.

Prezident İlham Əliyev bu zəruri məqamı irəlicədən aydın görürdü:

"Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cə-

hətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqillik və bu bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik?"

Müharibəni ordu aparır.

Ordunun ordu olması, düşmənə qalib gəlməsi üçün çox şərtlər var.

İlkin şərtlərdən biri isə silahlanmadır.

Xüsusən də indiki dövrdə, XXI əsrdə!

Çünki əsgər də, zabit də silahla vuruşur, düşmən ölkədən silah gücünə qovulur!

İlham Əliyev bu vacib şərtə xüsusi diqqət yetirmişdir: " Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı".

Özlüyündə silahlar adi dəmir parçasından başqa bir şey deyil!

O, əsgərin əlində qorxunc qüvvəyə çevrilir.

Həm də təkcə əsgərin yox, döyüşə rəhbərlik edən zabit və generalların rolu da misilsizdir.

Yüksək texnologiyalara əsaslanan silahlar təkcə fiziki güc yox, bəlkə ondan da çox ağıl, bilik, bacarıq və peşəkarlıq tələb edir.

Bütün bunlar isə təhsillə, təlimlərlə qazanılır.

Əsgər və zabitlər peşəkarlıqlarını artırmaq üçün daim çalışmalı, öyrənməli, sistemli təlimlər vasitəsilə təkmilləşməlidirlər.

Yenə də Ali Baş Komandana müraciət edirik:

"Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir".

❖❖❖

Azərbaycanın müharibə modelində ordunun ruh yüksəkliyi, əsgər və zabitlərin vətənpərvərlik duyğusu xüsusi yer tutur!

Məhz bu idi İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan Ordusunu yenilməz edən!

Vətən sevgisi və düşmənə nifrətdən yoğrulan bu mənəvi güc hərbi əməliyyatların uğurlu gedişində mühüm rol oynadı.

Məhz bu mənəvi qüvvət və torpaq eşqi sayəsində Azərbaycan əsgəri Şuşa kimi möhkəm bir qalanı az qala yalın əllə, heç bir zirehli texnikanın gücündən istifadə etmədən, raket zərbəsi endirmədən, şəhəri dağıtmadan geri aldı!

❖❖❖

Beynəlxalq miqyasda iş aparmaq və diplomatiya meydanında çarpışmaq da mühüm amillərdəndir.

Bu meydanın da baş qəhrəmanı cənab İlham Əliyevdir!

Onun dünya dövlətlərinin başçıları ilə keçirdiyi hər bir görüş, iştirak və çıxış etdiyi hər bir beynəlxalq tədbir, habelə BMT Təhlükəsizlik Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı kimi böyük və nüfuzlu təşkilatlara sədrliyi dövrdə etdiyi çıxışlar, qaldırdığı məsələlər, irəli sürdüyü təşəbbüslər hər birimizin gözü qarşısında baş verib və hamımızın yadındadır.

Bəli, Azərbaycanın gücü və imkanları İlham Əliyevin səmərəli fəaliyyətinə, İlham Əliyevin parlaq zəkası, uzaqgörənliyi, xarici dillərdə cəlbedici çıxışları, müdrikliyi və uzaqgörənliyi isə dövlətimizin uğurlarına xidmət edirdi və bu gün də xidmət etməkdədir.

İlham Əliyev diplomatik məharətindən istifadə edərək Azərbaycan həqiqətlərini dünyaya qəbul etdirdi:

"Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prin-

sipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi".

Biz İkinci Qarabağ müharibəsinin gedişində düşmənimiz və onun dəstəkçiləri tərəfindən bir sıra "iradlarla" rastlaşdıq. Döyüş meydanında məğlub olaraq rəzil günə düşən erməni dünya dövlətlərini bizə silah satmaqda qınamağa çalışırdı. Türkiyə, Pakistan kimi qardaş ölkələrin daim yanımızda olması, bizə hər zaman dəstək verməsi, şübhəsiz, gücümüzü artırdı. İsraildən, Rusiyadan aldığımız silahlar da daim karımıza gəlirdi. Əlbəttə, biz həmişə bu silahları pulumuzla almışıq, ermənilər kimi bizə havayı verməyiblər. Elə həmin ölkələrin dövlət rəsmiləri də bu məqamı əsas götürərək ermənilərin ağızlarından vururdular. Lakin İlham Əliyevin illər boyu yaratdığı bu dostluq telləri gücümüzə mənəvi güc də qatırdı: "Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi".

❖❖❖

Azərbaycanın müharibə modelinin tərkibində xalqımızın milli birliyi xüsusi rol oynayır.

Ölkəmizin gücü həm də onun tolerantlığında, müxtəlif millətlərə və dinlərə məxsus xalqların bir bayraq altında birləşməsindədir. Hələ Birinci Qarabağ müharibəsi dövründə bütün dünya buna şahid olmuşdur. Bu gün respublikanın bütün guşələrində olan Şəhidlər xiyabanlarında Vətən uğrunda canlarını fəda edən Azərbaycan oğulları yanaşı uyuyurlar, Milli Qəhrəmanlarımız sırasında xeyli sayda başqa millətlərin nümayəndələri də var və biz daim bununla qürur duymuşuq.

İkinci Qarabağ müharibəsində biz iqtidar-xalq birliyinin dəmir yumruğa dönərək düşmənin başını necə əzdiyinin şahidi olduq. Ali Baş Komandan İlham Əliyev də daim bu birliyimizi yüksək qiymətləndirib:

"Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi."

❖❖❖

Azərbaycan kifayət qədər səbir etdi!

Azərbaycan kifayət qədər dözdü!

Beynəlxalq hüququn daha işləmədiyini görərək gücün hüququnu tətbiq etdi.

Öz müharibə modelini yaradaraq öz müharibəsini apardı.

Həm də ortaya yeni müharibə nümunəsi qoydu!

Ali Baş Komandanımızın rəhbərliyi ilə qalib gəldik!

Torpaqlarımızın böyük qismini - 6 şəhəri və 300-dək yaşayış məntəqəsini azad etdik.

Hərbi əməliyyatların dayandırılması üçün qarşımızda diz çökən düşmən bütün şərtlərimizi qəbul etmək məcburiyyətində qalaraq qoşunlarını işğal ərazilərindən çıxardı.

Böyük alicənablıq nümayiş etdirən Prezident İlham Əliyev sonrakı mərhələnin siyasi yolla həllinə razılıq verdi.

❖❖❖

Azərbaycanın müharibə modelinin bir xüsusiyyəti də hərbi əməliyyatların müəyyən mərhələdən sonra öz yerini siyasi həllə verməsidir.

Prezident İlham Əliyevin xalqa müraciətindən daha bir məqam: "İndiki mərhələdə bizim mövqeyimiz bundan ibarətdir və biz hazırıq ki, bu məsələ hərbi - siyasi yolla həll olunsun. Amma həll olunsun. Atəşkəs deyiblər, eybi yoxdur, qoy olsun... Biz mütləq bu torpaqlara (Kəlbəcər, Ağdam və Laçın nəzərdə tutulur - B.S.) hərbi-siyasi yollarla qayıdacağıq. Hərbi mərhələ bu gün başa çata bilər. Biz məsələni siyasi yollarla həll edəcəyik".

Sonrası belə də oldu!

❖❖❖

İnformasiya müharibəsini də uğurla aparmaq, bu sahədə də düşmənə qalib gəlmək Azərbaycanın müharibə modelinin ən vacib cəhətlərindəndir.

Biz İkinci Qarabağ müharibəsi dövründə bunun canlı şahidi olduq!

Təəssüf ki, Birinci Qarabağ müharibəsi dövründə bu sahədə də düşmənə uduzmuşduq!

İndi isə həm əvəzini çıxdıq, həm də təkcə düşməni məğlub etməklə kifayətlənməyərək onun faşist xislətini açaraq bütün dünyaya göstərdik.

İlham Əliyev informasiya sahəsini, sözün həqiqi mənasında, ikinci çarpışma meydanına çevirmişdi!

Özü də bunu təkcə biz yox, bütün dünya görürdü və izləyirdi.

Hərbi əməliyyatlar dövründə otuzadək tanınmış televiziya kanalı və informasiya agentliyi Azərbaycan Prezidentindən müsahibə alaraq bütün dünyaya yayımladı.

Bu müsahibələri götürənlərin böyük bir qismi ölkəmizə heç də xoş məramla gəlməmişdilər və müsahibəni də xoş niyyətlə götürmürdülər.

Verdikləri suallardan, təkid etdikləri məsələlərdən aydın görünürdü ki, aralarında dünya ermənilliyinin tapşırıqlarını icra edənlər də var.

Beləlləri hətta jurnalistlərin etik davranış qaydalarına əməl etmir, yersiz dirənişlər göstərir, hətta bəzən kiminlə söhbət etdiklərini unudaraq özlərini prokuror kimi aparırdılar.

Prezident İlham Əliyev jurnalistlərlə hörmətlə, səbir və təmkinlə davranır, verilən bütün sualları faktlarla cavablandıraraq məsələləri ətraflı izah edirdi.

Dövlət başçısının verdiyi cavablarda bir neçə istiqamət diqqət çəkirdi:

* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə maarifləndirmə;
* ertmənilərin Azərbaycan torpaqlarına XIX əsrdən köçürülmələrini sübut edən tarixi fakt və sənədlərin açıqlanması;
* ATƏT-in Minsk qrupunun 27 il ərzində heç bir nəticə əldə etməməsi;
* BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin indiyədək yerinə yetirilməməsi;
* Ermənistanın baş naziri N.Paşinyan tərəfindən sülh danışıqlarının pozulması və mənasız edilməsi;
* Son dövrlərdə Ermənistanın Azərbaycana qarşı təxribatları və müharibənin düşmən tərəfindən başlanılması;
* atəşkəs razılaşmasının 3 dəfə Ermənistan tərəfindən pozulması;

* Ermənistan ordusunun Azərbaycandakı mülki əhalini və obyektləri (Gəncə, Bərdə,Tərtər, Goranboy və Mingəçevir şəhərlərində) ballistik raketlərlə atəşə tutması, insanların arasında tələfat və xəsarətlərə, habelə böyük dağıntılara səbəb olması;
* Ermənistanın Azərbaycan tərəfinin şərtlərini qəbul edəcəyi təqdirdə hərbi əməliyyatların dayandırılmasına hazır olması və s...

Cənab İlham Əliyevin müsahibələrində dünya erməniliyini müdafiə edənlərin, beynəlxalq hüququn tapdalanmasının, Ermənistanın muzdlulardan istifadəsinin, ermənilər tərəfindən Cenevrə konvensiyalarının tələblərinin pozulmasının ifşasına da geniş yer ayrılırdı.

İlham Əliyev tərəfindən ermənilər informasiya müharibəsində də tam məğlub oldular, iç üzləri açılaraq bütün dünyaya tanıdıldılar.

❖❖❖

Müharibənin Azərbaycan modelinin daha bir vacib xüsusiyyəti isə müəyyən mərhələdə hərbi əməliyyatların dayandırılması və münaqişənin siyasi müstəviyə keçirilərək danışıqlar yolu ilə həllidir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın bu alicənab addımı - düşməni sonadək məhvetmə mərhələsində onun torpaqlardan çıxarılması ilə kifayətlənərək hərbi əməliyyatları dayandırması dünya tərəfindən bəyənildi.

Bu humanist addım işğal olunmuş ərazilərdən çıxarılan ermənilərin yaşadıqları evləri və meşələri yandıraraq getmələri fonunda xalqımızın daha alicənab və humanist olduğunu qabarıq göstərir.

❖❖❖

Bütövlükdə, ölkəmiz tərəfindən aparılan 44 günlük Vətən müharibəsi hərbi sahədə yenilik kimi qəbul edilərək etiraf olundu. Əvvəlcə Prezident İlham Əliyevin verdiyi qiymətlə tanış olaq:

"Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər."

ABŞ-ın Quru Qoşunları Dairəsinin ordu generalı Ceyms Makkonvil Azərbaycanın apardığı bu müharibənin yeni nümunə olduğunu, bütövlükdə, müharibələrin gedişində ciddi dönüş yaradacağını bildirdi. Onun fikrincə, ABŞ da bu məqamı nəzərə almalı, artıq orduda ağır və ləng manevr edən tankların zamanının keçdiyini, pilotsuz uçuş aparatlarına geniş yer verilməsinin vacibliyini qəbul etməlidir.

Qardaş Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın söylədikləri də qürurdoğurucudur: "Həqiqətən də, tarixi dəyəri olan, Azərbaycan və türk tarixinə qızıl hərflərlə yazılacaq uğur əldə etmisiniz. 44 günlük əməliyyat bitdi, amma bu haqda hələ azı 44 il danışılacağına əmin olun. Bu əməliyyat bir oyanışdır, biz Azərbaycan Ordusunun gücünü gördük".

Yeni nəsil müharibə üsulunu özündə təcəssüm etdirən müharibənin Azərbaycan modeli praktik şəkildə nə deməkdir?

Ermənilərin torpaqlarımızdan qısa müddətdə qovulması ilə nəticələnən Vətən müharibəsinin gedişi əsasında bu suala cavab verməyə çalışaq.

Bu, ilk növbədə, düşmən ordusunu iflic vəziyyətinə salan sürətli taktika deməkdir!

Burada əsas rolu kəşfiyyat dronları, kosmosdan nəzarət oynayırdı.

İkinci mərhələdə zərbə PUA-ları ön sıraya çıxırdı.

Beləliklə, ilkin həmlələrdə:

* Düşmənin atəş mövqelərinə çıxarılmış top, “Qrad”, raket və digər qurğuları məhv edilirdi;
* Düşmən istehkamları və otuz il ərzində yaradılmış müdafiə qurğuları dağıdılırdı;
* Düşmənin silah-sursat anbarları aşkara çıxarılaraq partladılırdı;
* Radiolokasiya qurğuları sıradan çıxarılır və düşmən qoşunlarının idarəetməsi pozularaq pərən-pərən salınırdı;
* Ön səngərdəki bölmələrlə arxanın əlaqəsi kəsilir, düşmən bütün növ təchizatdan - silah-sursatdan, canlı qüvvə və ərzaq təminatından məhrum olunurdu;
* Düşmən səngərlərinə gedən yollar gecə-gündüz nəzarətdə saxlanılır, kömək üçün gələn zirehli texnika, canlı qüvvə və sursat daşıyan yük avtomobilləri elə anındaca məhv edilirdi;
* Rəqibin müdafiəsini təşkil və döyüşü idarə edən komandir heyəti müəyyənləşdirilərək sıradan çıxarılırdı!

İndiyədək görünməmiş və maraqlı məqamlardan biri isə bu idi ki, Azərbaycan vətəndaşları öz evlərində oturmaqla gündəlik hərbi əməliyyatların gedişin-

dən əyani şəkildə xəbər tutur, məhv edilən düşmən texnikasını, canlı qüvvəsini və dağıdılan istehkamlarını gözləri ilə görürdülər!

Bu, artıq kino deyildi, real döyüşlərdi.

Daha bir maraqlı məqam.

Erməni ideoloqu Zori Balayan "Ocaq" kitabında türk “yatağan”ı (əyri döyüş qılıncı) barədə dəfələrlə, dönə-dönə söhbət açır.

“Yatağan”a nifrətini bildirsə də, hələ də canında qalan qorxunu gizlətməyə çalışır.

Bəli, satqın və xəyanətkar erməniləri cəzalandıran “yatağan”ı bu xəstə millət heç vaxt unutmamalıdır!

Əslində, Vətən müharibəsində hərbi əməliyyatların gedişində uğurlarımızı təmin edən, düşməni vahiməyə salan “yatağan” sanki yenidən göründü!

Neçə əsrdən sonra geri qayıtmışdı!

Bu dəfə "Bayraqdar" formasında!

Xəyanətkar və qudurmuş erməni millətini yenidən cəzalandırmaq üçün!

Beləliklə, Azərbaycan Ordusunun müasir silahları həm erməniləri cəzalandırdı, həm də canlarındakı qorxu hissini daha da artırdı!

İndi hər dəfə Azərbaycan tərəfinə xaincəsinə baxanda bir gözləri göydə qalacaq!

"Bayraqdar"ın başlarına od yağdıracağından qorxduqlarına görə!

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmən ordusunu darmadağın edərək Ermənistanı hərbi kapitulyasiya sənədini imzalamağa vadar etdi.

Müqəddəs torpaqlarımızı murdar ləpirlilərdən təmizlədi. Eyni zamanda hərbi əməliyyatların gedişində ciddi yeniliklər yaradaraq öz müharibə modelini də ortaya qoydu!

Dünya hərb tarixinə qızıl hərflərlə həkk olunan bu modelin müəllifi cənab İlham Əliyevdir!

İlham Əliyev dövlət quruculuğu, siyasət və diplomatiya sahəsi ilə bərabər, hərbi sahədə də böyük istedad və bacarıq sahibi olduğunu sübut etdi!

İndi dünya hərbdə də Azərbaycandan, Müzəffər Ali Baş Komandan İlham Əliyevdən öyrənmək niyyətindədir.

**Bu da Azərbaycanın növbəti qələbəsidir!**

**Qələbən mübarək, Azərbaycan!**

**Qarabağ Azərbaycandır!**

***“Azərbaycan” qəzeti,***
***10 yanvar 2021-ci il***

# Allahın evi - Ağdam məscidi

*Onu quranlar və dağıdanlar*

**Biz bütün dini məbədləri, o cümlədən məscidləri Allahın evi sayırıq!**
**Allahın özünün yaşamadığı, amma hər gün yüzlərlə dəfə çağırıldığı, dua edildiyi, kömək istənildiyi ev!**
**Məscidlər həmişə təmiz saxlanılıb, gülab qoxuyub, insanlar ora paklanıb gedib, məsciddə kobud danışığa, mübahisə və münaqişəyə yol verilməyib, insanlar sülhə, mehribanlığa səslənib.**
**Allahın evinin sahibi xatirinə...**

❖❖❖

Evlər kimi məscidlər də müxtəlif olur: böyük, kiçik, qoşa minarəli, dörd minarəli.

Amma həcmindən asılı olmayaraq, hamısında bir əzəmət, qeyri-adilik duyulur.

Səbəbini aydınlaşdırmaqda çətinlik çəkirəm...

Bəlkə arxitekturasından, içərisinin quruluşundan, bəlkə də dinin müqəddəsliyindən, hələ vaqif olmadığımız sirlərin dərkedilməzliyindən irəli gəlir.

Nə sirdir insanı Allah evində dəyişən, daha mehriban, səbirli, dözümlü və ürəyiyumşaq edən?!

Hər halda Allah evinə girəndə təkcə davranış və rəftarımızda yox, düşüncəmizdə də bir dəyişiklik baş verir, özümüzü yığışdırır və cəmləyirik, danışığımıza fikir veririk.

❖❖❖

Mənim üçün ən böyük məscid Ağdam məscidi olub!

Bəlkə onadək başqa məscid görmədiyimə görə belə idi!

Hətta onunla ilk tanışlıqda minarələrinə, daxildən tavanına baxanda hündürlüyündən ehtiyatlanırdım, özümü həmin yüksəklikdən aşağı baxan vəziyyətdə təsəvvür edirdim...

Məscidin akustikası isə möcüzə idi. Mikrofonsuz, səsgücləndiricisiz minbərdə deyilənləri ən uzaq küncdə oturanlar belə eşidə bilirdilər.

❖❖❖

Ağdam məscidi şəhərin mərkəzində yerləşir...

Böyük həyəti vardı. Sovet dövründə dəmir cağlarla əhatəyə almışdılar, sonradan həmin hasar söküldü.

Qarşısından qoşa, ikitərəfli mərkəzi yol keçirdi. Yolun o üzündə "Lenin bağı" yerləşirdi. Məscidin həyətində əsasən tut ağacları, "Lenin bağı"nda isə çoxlu meyvəsiz ağaclar vardı. Sıx kölgəliyi olardı.

Məhərrəmlikdə, xüsusən aşura günlərində Ağdamın kəndlərindən, hətta ətraf rayonlardan o qədər insan gələrdi ki, nəinki məscidin içərisində, hətta həyətində də böyük sıxlıq yaranar, necə deyərlər, iynə atsan yerə düşməzdi!

Onda "Lenin bağı" da adamla dolar, burada dayananlar içəri girmək üçün həyətdə seyrəklik yaranmasını gözləyərdilər.

Məhərrəmlik başlayanda rayon partiya və komsomol komitələrinin də işi çoxalardı. İnsanların məscidə getməsinin qarşısını almaq üçün xüsusi tədbirlər keçirilər, maneələr yaradılardı.

Amma faydası olmazdı!

Çünki hamı ürəyində Allaha inanar, belə tapşırıqları candərdi icra edərdi. Sov. İKP üzvlərinə qarşı isə barışmaz mövqe vardı! Hətta məscidə getməyə görə onları partiyadan xaric edə bilərdilər.

Bəli, Sov.İKP zahirən Allaha inanmayanların, ateistlərin partiyası idi.

❖❖❖

Məscidlə ilk yaxın tanışlığım 4-5 yaşım olanda baş tutmuşdu. Ağdam məscidi köhnə məhəlləmizdən bir kilometr, təzə köçdüyümüz binadan isə təqribən 4-5 yüz metr məsafədə idi.

Bəyim nənəm namaz qılan idi. İmkan tapan kimi məscidə gedərdi. Məscid həm də insanların görüşməsi, dərdləşməsi, ünsiyyət qurması yeri sayılırdı.

Burada qocaların və qarıların öz dostları, rəfiqələri vardı. Onlar bir yerə komalaşar, daim məscidin bəlli yerlərindən birində oturardılar. Hal-əhval tutar, dərdləşər, indiki terminlə desək, "informasiya mübadiləsi" aparardılar.

Birgə namaz qılınması (o vaxt "cümə namazı" "termini" işlədilməzdi), axundun moizəsinin dinlənilməsi xüsusi, mənim üçün isə sirli ayin idi.

"Qasım otağı" adlanan qara örtüklü bir yer də vardı. Üstünə şəkillər qoyulmuşdu, adi vaxtlarda oraya nəzir də qoyulardı. Məscidin içərisinə başdan-başa xalça döşənirdi. "Qasım otağı", məscidin daxili əzəməti məni sıxardı. Elə sanardım ki, içəri mələklərlə doludur və hamımıza göz qoyurlar.

Əlli, altmışıncı illərdə Ağdam məscidinin axundu Mirheydər ağa idi. Nurlu siması, dəyərli səsi vardı. (Qızı Məleykə müəllimə dördüncü sinifdə mənə dərs dedi). O, minbərdə danışanda hamı diqqətlə qulaq kəsilər, kimsə cınqırını belə çıxarmazdı. Moizəsini həmişə ağlaya-ağlaya başa vurardı. Məsciddəkilər də ona qoşulub sidqi-ürəkdən ağlayardılar. Söhbəti dərindən başa düşməsəm də,

nənəmə qoşularaq mən də ağlayardım. Hətta olurdu ki, elə kövrəlirdim ki, sonra məni çətinliklə kiridirdilər.

Ürəyim sıxılırdı. Evə qayıdan kimi anama xəbər verərdim. Anam nənəmə məni məscidə aparmağı qadağan eləmişdi. Amma bağça və məktəb olmayanda nənəmin başqa çarəsi qalmırdı. Mənə bərk-bərk tapşırardı ki, anana demə! Söz verərdim! Amma hülqumsuz uşağın verdiyi söz necə olar?

Beşinci, altıncı sinifdə oxuyanda özümüzü böyük sayardıq. Marağa və həvəsə görə bir-birimizə qoşularaq xəlvətcə məscidə gedərdik. Bir sinifdə oxuduğumuz qızlar bizi məsciddə görəndə xəbərçilik etməzdilər. Çünki etsəydilər, özlərinin də məscidə getdiklərini açmış olardılar.

Məscidə həvəsimizi artıran bir amil də orada nəzir kimi paylanan şərbət idi. O vaxtlar mağazalarda konfet, peçenye çətin tapılardı. Şirin şey yemək isə uşaqların ən çox arzuladığı iş idi. Çaydanı şərbətlə doldurar, əllərində balaca dəmir parç məsciddə gəzər, qarşılarına çıxana təklif edərdilər. Şərbətə ədviyyat da qatıldığından dadından doymaq olmazdı. Hamı bir parçdan içərdi. Nənəmlə gedəndə şərbət içmək üçün özümüzlə ayrıca stəkan da aparardıq.

Məhərrəmlik, aşura günləri Ağdam məscidi, sözün həqiqi mənasında, şəhərin mərkəzinə çevrilərdi. Adam, maşın əlindən tərpənmək olmazdı. Dəstə bağlayıb "şaxsey-vaxsey" deyən, mərsiyə, növhə oxuyan, zəncir vuranlar, kəsəsi, ayrı aləm olardı. Əvvəlcə gedib böyüklərin dəstəsinə qoşular, sinə vurardıq. Basabas düşəndə ayaq altda qalmayaq deyə kənara çəkilməli olardıq.

Sonralar sözləri əzbərlədiyimizdən özümüz ayrıca dəstə bağlamağa başladıq. Dəstəbaşı ucadan haray çəkər, biz də xorla onun səsinə səs verərdik. Qurşaqdan yuxarı soyunaraq əvvəlcə təkəlli, sonra qoşa əllə sinəmizə vurardıq. Çalışardıq ki, bərk vuraq ki, sinəmiz möhkəm qızarsın. Belə hesab edirdik ki, nə qədər bərk sinə vursaq və sinəmiz nə qədər çox qızarsa, o qədər də savabı çox olacaqdır.

Sözlər dialoqsayağı belə deyilərdi:

- Həsən vay!
- Hüseyn vay!
- Öldü Əli Əkbəri!
- Sındı belim, ya Hüseyn!
- Oxladılar Əsgəri!
- Sındı belim, ya Hüseyn!
- Ağamın atı gəldi!
- Qanlı xalatı gəldi!

- Necə qan ağlamasın daş bu gün!
- Kəsilib Kərbəlada 72 baş bu gün!

Və səsimiz batana qədər qışqırardıq!

Səhərisi gün məktəbdə batmış səsimiz bizi ələ verərdi. Amma müəllimlərimiz yalnız danlayar, cəza verməz, məsələni böyütməzdilər!

Axı onlar da gizlincə Allaha inanar, imkan tapanda məscidə gedərdilər!

❖❖❖

Anam Sov.İKP-nin üzvü idi. Amma hər il məhərrəmlikdə "şami-qəriban" gecəsi hökmən məscidə gedərdi. Qara paltar geyinər, qara kəlağayı bağlayar, tanınmasın deyə üz-gözünü örtüb gizlədərdi. Qonşu arvadlarla sözləşər, hava qaralandan sonra məscidə üz tutardılar. Bizi də özləri ilə aparardılar ki, diqqəti çəkməsinlər.

"Şami-qəriban" gecəsi Ağdam məscidi, əslində, ağdamlıların olardı. Çünki başqa rayonlardan və uzaq kəndlərdən gələnlər gecəyə qalmazdılar. Adətən, qadınlar gec gəldiklərindən məscidin içərisinə keçə bilməzdilər, həm də tez qayıtmağı nəzərdə tuturdular. Çox qalsaydılar, raykomun göndərdiyi adamlarla rastlaşa bilərdilər. Odur ki, bayır tərəfdən məscidin pəncərəsinin qabağına yığışardılar. Kişilər onları görən kimi kənara çəkilərək yerlərini güzəştə gedərdilər.

"Şami-qəribanda" məscidin işıqları 3 dəfə söndürülüb yandırılardı. Bu, şəbihin ən yüksək nöqtəsi sayılardı. Qan çıxanacan zəncir vuran, xəncərlə başını yaran kim, sinə vuran, ucadan qışqıraraq ağlayan kim...

İşıqlar söndürüləndə bir vaynəvseyi-şivən qopardı ki, gəl görəsən. Uğultudan, gurultudan az qala qulaq batardı. Sirli bir vahimə hamımızı bürüyərdi.

Hamı üzünü göylərə, Allaha sarı tutar, mətləbin diləyər, kömək istəyər, dua edərdi...

Məscidi Allahın evi saydığımızdan buranı müqəddəs hesab edər, Allaha daha yaxın olduğumuzu sanardıq. Hesab edərdik ki, məsciddə Allahımız bizi, istəklərimizi, dualarımızı daha tez eşidir.

❖❖❖

Sovet dövründə "Quran"ın nəşri qadağan idi, buna görə də insanları cinayət məsuliyyətinə (gizli çapa görə) cəlb edirdilər.

"Quran"ı evdə saxlamaq da qorxulu sayılırdı. Adətən, müqəddəs kitabımız məscidlərdə olardı. Başqa bir adətimiz də vardı: çətin səfərə gedəni, (evdən gəlinlik paltarında çıxanı da) “Quran”ın altından keçirər, beləliklə, ona ilahi xeyir-dua verilmiş olduğunu sanardıq!

Ali məktəbə qəbul imtahanına gələndə də məscidə gedər, “Qurani-Kərim”in altından keçərdik. Bu, imtahan vaxtı bizə inam və sakitlik gətirərdi. Həm də mətləbimizə yetirərdi...

❖❖❖

Ağdam məscidi ilə ən həssas, kövrək xatirələrim Birinci Qarabağ müharibəsi dövrünə təsadüf etdi.

Bu, həm də sonuncu görüş olacaqdı!

Amma Ağdamın işğal ediləcəyini, 27 il düşmən əsarətində qalacağını biz ağdamlılar ağlımıza belə gətirməzdik!

Amma ağlımıza sığışdıra bilmədiyimiz başımıza gəldi!

Özü də başımızın böyük bəlasına çevrildi!

❖❖❖

Qarabağ uğrunda müharibə başlayanda öz istəyimlə "Həyat", sonra "Azərbaycan" qəzetlərinin bölgə müxbiri oldum. Müdafiə Nazirliyində akkreditasiyadan keçmiş, hərbi forma da alıb geyinmişdim. İçimizdə bir qəzəb, maraq, eyni zamanda qeyri-müəyyənlik vardı.

Hadisələr hara gedir, bunun axırı hara çıxacaq, bu anormallıq, özbaşınalıq haçanadək davam edəcək?

Sovet hökuməti var idi, hələ yıxılmamışdı!

Amma onun prinsipləri - "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi", "insan insana dost, yoldaş və qardaşdır" və digərləri işləmirdi.

Qorbaçovun "perestroyka"sı nə idi, sonu nə ilə bitəcəkdi?

Moskva nə oyun oynayır, nəyə nail olmaq istəyir?

Erməni niyə bu qədər ürəklənib, "miatsum" deyir, onu niyə susduran, yerində oturdan yoxdur!

Ölkə rəhbərliyi nə düşünür, axı azərbaycanlılar ev-eşiklərindən qovulur, döyülüb-təhqir olunur, erməni Dağlıq Qarabağı (Dağlıq Qarabağ Muxtar Vilayətini) Ermənistana birləşdirmək istəyir!

Kimdən kömək alasan, üzünü hara tutasan, başına haranın daşını salasan?!

Suallar çox, cavab verən və kömək göstərən isə yox!

Sonrası necə oldu, artıq bunu hamı bilir!

Odur ki, mətləbdən yayınmayaq!

❖❖❖

Müharibənin ilk günlərindən Ağdam "Qarabağın mərkəzi" funksiyasını yerinə yetirməyə başladı.

Respublikanın və ittifaqın ozamankı məsul işçiləri əvvəlcə Ağdama gəlir, vəziyyəti öyrənir, sonra Xankəndinə yollanırdılar.

Əksərən gecələr Ağdama qayıdaraq buradakı "Qonaq evi"ndə qalırdılar.

Respublikanın hər tərəfindən göndərilən ərzaq yardımları Ağdama çatdırılır, buradan müşayiətlə erməni kəndlərinin əhatəsində yaşayan azərbaycanlılara aparılırdı...

Xocalıya, Şuşaya getmək istəyənlər əvvəlcə Ağdama toplaşır, burada mühafizə ayrılaraq yola salınırdılar və s.

O dövrdə mərkəz funksiyası daşıyan Ağdamın da iki mərkəzi vardı: biri rayon icra hakimiyyətinin (o zaman, “rayon soveti” adlanırdı) qarşısında yerləşən mərkəzi meydan, digəri Ağdam məscidi!

Ağdamın mərkəzi meydanı (o vaxtlar buraya həm də "qaçqınlar meydanı" deyirdilər) daha çox "görüş yeri", "siyasi məkan" funksiyasını daşıyırdı. Ağdama gələnlər, rayon rəhbərliyi ilə görüşmək, yaxud kimdənsə nəyisə eşitmək və öyrənmək üçün bu meydana baş çəkər, kəndlərindən qovulanlar kömək axtarmaq üçün bura üz tutar, bütün günü meydan dolub-boşalardı.

Meydanda istənilən qədər qeyri-rəsmi informasiya olsa da, rəsmi nəsə öyrənmək, dəqiqləşdirmək müşkül sayılırdı. Çünki nəinki rayon rəhbərliyi, hətta ozamankı respublika rəhbərliyi belə hər şeydən xəbərsiz olmaqla hadisələrin önündə yox, arxasında gedirdilər.

Nəticəsi də acınacaqlı oldu...

❖❖❖

Ağdam məscidi isə taleyin üz döndərdiyi insanların pənah gətirdiyi ünvan sayılırdı.

İNSANLAR BURAYA:

* evindən qaçqın düşərkən itirdiyi qohum-əqrabası, dost-tanışı ilə tapışmaq üçün üz tuturdu;
* naməlum şəhidi tanımaq üçün həyəcanla, ürək döyüntüsü ilə məscidə yaxınlaşırdı;
* isinmək, bir tikə çörək yeyə bilmək ümidi ilə gəlirdi;
* itmiş ümidini diriltmək üçün gəlirdi;
* həm də ümidi itdiyi üçün gəlirdi;
* hər yerdən əli üzüldüyündən Allahın ətəyindən yapışmaq üçün gəlirdi;
* Tanrıdan kömək almaq üçün gəlirdi;
* yerdəkilərdən əli üzüldüyündən göylərə sığınmaq üçün gəlirdi!

* müəyyən bir daldalanacaq tapmaq, isti paltar əldə etmək üçün gəlirdi;

Bəzən ümidi doğrular, itirdiyini tapar, ayrı düşdüklərinə qovuşar, bir stəkan isti çay, bir loğma çörək tapardı.

Bəzən isə yeri dolmayacaq itki ilə qarşılaşardı.

Ağdam məscidi həm də şəhidlərin yuat yeri idi.

Ölkənin hər yerindən ürəyinin hökmü ilə torpaqların müdafiəsi üçün Qarabağa gələn, burada şəhidlik zirvəsinə ucalanlar Ağdam məscidində yuyulub kəfənlənəndən sonra öz elinə-obasına yola salınardı...

Dinimizə, adət-ənənəmizə uyğun...

Ağdamlılar bu torpaq uğrunda şəhid olanları daim özününkü sayır, itkilərdən doğan dərdi-kədəri öz ağrısı hesab edirdi.

Elə vaxt olurdu ki, tabut düzəltməyə taxta, kəfən tikməyə bez belə tapılmırdı...

Amma insanlar özlərini oda-közə vuraraq tapır, şəhidləri haqq dünyasına hörmət-izzətlə yola salırdılar.

Ağdam məscidi belə məscid idi!

Amma onun da qismətində murdar əllərə düşmək varmış.

Erməni vandalları bu müqəddəs məkanı söküb dağıtsalar da, xaraba qoysalar da, izini itirə bilmədilər.

Yenə öz sahiblərinə qaytarmağa məcbur oldular!

Daha doğrusu, İlham Əliyev Ağdam məscidini də əsl yiyələrinə qaytardı!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşmən işğalından azad etdiyi Ağdama səfəri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə bərabər Ağdam məscidini ziyarət etməsi, əslində, həm də müqəddəs dini-tarixi abidələrimizin yeni dövrünün başlanması demək idi.

Cənab İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i məscidə bağışladı, dinimizə hörmət və ehtiramını bir daha izhar etdi.

Məscidin qarşısında dövlət bayrağını qaldırdı, erməni faşizminin murdar xislətini ifşa edən çıxış etdi, Ermənistanın köhnə və yeni rəhbərlərinə həqarət dolu ismarıclarını göndərdi.

Ağdam məscidinin ilk sahibi Ulu Tanrıdır!

O, məsciddə donuz saxlayanları donuzdan da betər günə qoydu!

Məscidi dağıdanları Azərbaycanın Baş Sərkərdəsinin əli ilə darmadağın etdi, diz üstə qoydu!

Allahın evini təhqir edənləri zəlil günə saldı!

❖❖❖

Ağdam məscidinin bir sahibi də Allahın sevdiyi, seçdiyi bəndəsi İlham Əliyevdir!

O, bütün Allah evlərini təmir edir, abadlaşdırır, insanların rahat və sərbəst ibadətinə şərait yaradır!

Budur, İlham Əliyevin tapşırığı əsasında Ağdam məscidi yenidən həyata qaytarıldı: bərpa və təmir edildi, paklaşdırıldı, Tanrı evinə layiq vəziyyətə gətirildi!

Məscidi əsirlikdən qurtaran, onu əvvəlkindən də gözəl hala gətirən İlham Əliyev bu cəfakeş, insanların ümid və inam məkanı olan Allah evinin qapılarını yenidən əsl sahiblərinin üzünə açdı!

Nə qədər alicənab, qürurdoğurucu, Allahın da, bəndənin də xoşuna gələn gözəl bir əməl!

Allah həmişə əməlisaleh insanlara kömək edir, onlara arxa durur və xoşbəxt ömür bəxş edir!

Tanrının sevdiyi və seçdiyi İlham Əliyev kimi insanlara!..

***"Azərbaycan" qəzeti,***
***yanvar 2021-ci il***

# MÜNDƏRİCAT

**Ön söz:** Şanlı Vətən savaşının mükəmməl salnaməsi . . . . . . . . . . . . . . . . 3

*I Fəsil*
*APREL XƏBƏRDARLIĞI*

Qələbən mübarək, Vətən! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11
İlham Əliyev zirvələri qaytardı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
Qüdrətli ordunun məğrur sərkərdəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27
Sərkərdə mətinliyi və qətiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Azərbaycan əsgəri erməni generallarını işdən necə qovdu! . . . . . . . . . . . 40
Heydər Əliyevin düşməndən geri aldığı kəndə
İlham Əliyev qayıdışı təmin etdi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Torpağı Vətənə çevirən şəhidlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56
Öndə Ali Baş Komandan idi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
Aprel döyüşləri Azərbaycan dövlətinin,
xalqının və ordusunun şanlı tarixi qələbəsidir . . . . . . . . . . . . . . . . . . . 63

*II Fəsil*
*SƏRKƏRDƏNİN GÜCÜ -*
*AZƏRBAYCANIN QÜDRƏTİ*

Güclü ordu, qüdrətli sərkərdə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
Aprel şapalağı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 89
İkinci şapalaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 92
Bu, bizim ordudur - Azərbaycan Ordusu . . . . . . . . . . . . . . . . . . . . . . . 106
Sarsıdıcı zərbə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 111
İlham Əliyevin xəbərdarlıqları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 115
Kiçik qisas alındı, növbə böyük qisasındır! . . . . . . . . . . . . . . . . . . . . 119
İlham Əliyev qətiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 127
İlham Əliyev iradəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 138
"Mən Azərbaycan adından çıxış edirəm!" . . . . . . . . . . . . . . . . . . . . . . 143
Sən demə, analar iki dəfə kövrəlirmiş . . . . . . . . . . . . . . . . . . . . . . . . 156

## *III Fəsil*
## *VƏTƏN MÜHARİBƏSİ*


İlham Əliyev "İrəli" əmri verdi! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 165
Üç cəbhənin sərkərdəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 169
İlham Əliyevin tarix və jurnalistika dərsləri . . . . . . . . . . . . . . . . . . . . . . . . 175
Nooldu, Paşinyan?! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 191
Ulu Öndərin daha bir müqəddəs vəsiyyəti yerinə yetirildi . . . . . . . . . . . . 194
Həsrətin sonu varmış . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 197
Sənə minnətdarıq, Ali Baş Komandanımız! . . . . . . . . . . . . . . . . . . . . . . . . 203
İlham Əliyev hünəri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 206
Dəmir yumruq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 219
Kimdir günahkar?! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 222


## *IV Fəsil*
## *ZƏFƏRİN TƏNTƏNƏSİ*


İlham Əliyev dərsləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 241
Xilaskar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 245
Sənə qurban olum . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 249
Tarixə qızıl hərflərlə yazılan tarixi Qələbə . . . . . . . . . . . . . . . . . . . . . . . . 255
44 gündə dəyişdirilən reallıqlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 270
İlham Əliyev dedi və etdi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 276
İlham Əliyev yeni tarix yazır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 281
Müharibənin Azərbaycan modeli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 288
Allahın evi - Ağdam məscidi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 310

**Texniki redaktor:** Cəfər Kərimov

**Korrektor:** Seyid Əliəsgər Behbudlu

Çapa imzalanmışdır: 14.01.2021
Kağız formatı: Ofset, 60x84 8/1
Şərti çap vərəqi: 40
Sifariş: № 847

HƏDƏF NƏŞRLƏRİ

mətbəəsində çap olunub.
Telefon: (+994 70) 523 01 34
hedefnesrleri.az